**İLHAM ƏLİYEV**

# İNKİŞAF – MƏQSƏDİMİZDİR

# İLHAM ƏLİYEV

# ON BEŞİNCİ KİTAB

## DEKABR 2005 - MART 2006

AZƏRNƏŞR
BAKI - 2014

# İLHAM ƏLİYEV

## ÇIXIŞLAR * NİTQLƏR

## BƏYANATLAR * MÜSAHİBƏLƏR

## MƏKTUBLAR * MƏRUZƏLƏR

## MÜRACİƏTLƏR * FƏRMANLAR

AZƏRNƏŞR
BAKI – 2014

**BBK 32**
**Ə 56**

Buraxılışına məsul
akademik

**RAMİZ MEHDİYEV**

**ƏLİYEV İLHAM**
**Ə 56** **İnkişaf – məqsədimizdir.** B., Azərnəşr, 2014, 384 səh.

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin oxuculara təqdim olunan çoxcildliyinin bu növbəti cildində Azərbaycanın uğurla aparılan xarici siyasətinə, iqtisadi potensialın möhkəmlənməsinə, ordu quruculuğuna, regionların sosial inkişaf proqramının həyata keçirilməsinə, cəmiyyətimizin demokratikləşdirilməsi istiqamətində önəmli nailiyyətlərə, eyni zamanda ictimai-siyasi həyatın digər sahələrinə dair nitqləri, çıxışları, tövsiyələri öz əksini tapmışdır.

Kitabda prezident İlham Əliyevin Fransaya işgüzar səfəri zamanı prezident Jak Şirak ilə, ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə Ermənistan prezidenti R.Köçəryanla görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələrin materialları, Bakıya gəlmiş bir sıra xarici dövlət və hökumət, beynəlxalq təşkilatların nümayəndələri ilə görüşləri, KİV-lərə verdiyi bəyanat və müsahibələri toplanmışdır.

Bu cilddə, həmçinin Azərbaycanda «Rusiya İli»nin təntənəli açılışı mərasimində iştirak etmək üçün prezident Vladimir Putinin Bakıya səfəri, İlham Əliyevlə bir sıra görüşlərindən, ölkələr arasında ikitərəfli əlaqələrin, səmərəli beynəlxalq əməkdaşlığın daha da möhkəmlənməsindən və genişlənməsindən bəhs edən materiallar dərc olunmuş, eyni zamanda, prezident İlham Əliyevin Yaponiyaya rəsmi səfəri zamanı dövlət xadimləri, şirkət rəhbərləri, nüfuzlu dairələrin nümayəndələri ilə keçirdiyi görüşlərə, danışıqlara dair materiallar, Yaponiya televiziyasına verdiyi geniş məzmunlu müsahibə öz əksini tapmışdır.

**İSBN 978-9952-8100-7-3**

$$Я \frac{0801000000}{М - 651(07) - 2014}$$ **ББК - 32**

© Azərnəşr, 2014

# DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2005-ci il*

Hörmətli xanımlar və cənablar!

Mən sizi Yeni il münasibətilə ürəkdən təbrik edirəm.

2005-ci il arxada qaldı. Ölkəmiz üçün bu il uğurlu olubdur. 2005-ci ildə qarşımızda duran bütün vəzifələr, bütün planlar həyatda öz əksini tapıbdır. Azərbaycan daha da inkişaf etdi. Azərbaycanda iqtisadi islahatlar, siyasi islahatlar uğurla davam etdirildi. Beynəlxalq əlaqələrimiz gücləndi, Azərbaycan dünyadakı mövqelərini daha da möhkəmləndirə bilmişdir. İkitərəfli və çoxtərəfli müstəvidə bütün ölkələrlə, dost ölkələrlə çox səmərəli əlaqələr qura bilmişdir. Bu əlaqələr bizə imkan verir ki, Azərbaycan dünyadaki mövqelərini daha da möhkəmləndirə bilsin və Dünya Birliyində öz yerini daha da gücləndirə bilsin.

Bizim üçün ən ağrılı, ən çətin problem Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi və bunun həlli yollarıdır. Bu istiqamətdə də müsbətə doğru addımlar atılmışdır. 2005-ci ildə Birləşmiş Millətlər Təşkilatı bu məsələni öz gündəliyinə salmışdır. Eyni zamanda, Avropa Şurası 2005-ci ilin əvvəlində bu məsələyə dair çox dəyərli qətnamə qəbul etmişdir və bu qətnaməyə əsasən, Ermənistan işğalçı dövlət kimi tanındı. ATƏT öz faktaraşdırıcı missiyasını işğal olunmuş ərazilərə göndərmişdir və missiya orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Eyni zamanda, Avropa İttifaqı və digər beynəlxalq təşkilatlar bu məsələ ilə bağlı öz işlərini daha da fəallaşdırmışlar. Bütün bunlar

deməyə əsas verir ki, ədalətli sülh razılaşmasına biz yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında yaxınlaşa bilərik.

Bildiyiniz kimi, indi danışıqlar Praqa prosesi çərçivəsində aparılır və Praqa prosesi mərhələli həll deməkdir. Azərbaycanın mövqeyi bütün zamanlarda ondan ibarət olmuşdur ki, bu məsələ yalnız və yalnız mərhələli həll çərçivəsində öz həllini tapa bilər və Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Bu bizim prinsipial mövqeyimizdir və danışıqlar yalnız və yalnız bu amillər üzərində qurulubdur. Bizim işimiz haqq işidir. Azərbaycan bu münaqişəyə dair öz mövqeyindən dönməyəcəkdir. Biz bu məsələnin beynəlxalq hüquq normalarına əsasən həll edilməsinin tərəfdarıyıq və ümid edirəm ki, buna nail olacağıq.

Eyni zamanda, Azərbaycan öz ordu potensialını da gücləndirməlidir. Bildiyiniz kimi, bu mənim siyasətimin prioritet istiqamətlərindən biri olmuşdur və bu gün də belədir. Bizim ordumuzun maddi-texniki bazası möhkəmlənir. 2005-ci ildə ordunun xərcləri 2004-cü ilə nisbətən 70 faiz artmışdır. 2006-cı ildə isə 2005-ci ilə nisbətən 100 faiz artacaqdır. Bizim hərbi xərclərimiz 2006-cı ildə 600 milyon dollar səviyyəsinə çatacaqdır və bu da son hədd deyildir. Bizim iqtisadi potensialımız gücləndikcə, əlbəttə ki, orduya ayrılan xərclər daha da böyük olacaqdır. Biz müharibə şəraitində yaşayırıq. Bizim torpaqlarımız işğal altındadır və belə olan halda, orduya diqqət və qayğı hər bir vətəndaşın prioritet məsələsi olmalıdır. Ölkənin Prezidenti və Silahlı Qüvvələrin Ali Baş Komandanı kimi, mən bu vəzifəni öz üzərimə götürmüşəm və gələcəkdə ordumuzun hazırlığı, maddi-texniki bazasının möhkəmlənməsi sahəsində öz səylərimi əsirgəməyəcəyəm.

Biz hamımız yaxşı bilirik ki, hər bir ölkənin hərtərəfli inkişafı üçün, milli maraqlarının maksimum dərəcədə qorunması üçün onun iqtisadi potensialı mühüm rol oynayır. 2005-ci ildə biz bu sahəyə də böyük diqqət göstərmişik. 2003-cü ildən başlanmış Azərbaycanın yeni iqtisadi strategiyası həyata keçirilir. Bu strategiya bizə qısa müddət ərzində Azərbaycanda

iqtisadi sahədə çox böyük nailiyyətlər əldə edilməsinə imkan veribdir.

2005-ci ildə Azərbaycanın iqtisadiyyatı 26 faiz artmışdır. Yəni ümumi daxili məhsulun artımı 26 faiz təşkil etmişdir. Bu, dünyada analoqu olmayan bir göstəricidir və Azərbaycan bu göstəriciyə görə dünyada birinci ölkədir. Müqayisə üçün deyə bilərəm ki, inkişaf etmiş ölkələrdə ümumi daxili məhsul təxminən 2–3 faiz artır, MDB ölkələrində bu, orta hesabla 7 faiz, Azərbaycanda isə 26 faizdir. Sənaye istehsalı 33 faiz artıbdır. Əhalinin pul gəlirləri təxminən 30 faiz artıbdır. Azərbaycanda orta aylıq əməkhaqqı artıq 140 dollara gəlib çatıbdır. Son iki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açılmışdır ki, bu da bir daha onu göstərir ki, bizim bütün planlarımız, bəyan etdiyimiz proqramlar reallığa söykənir və uğurla icra edilir.

Azərbaycanda bizi narahat edən problemlərdən biri də yoxsulluqdur. Əgər 2004-cü ilin əvvəlində yoxsulluq şəraitində yaşayanların sayı 49 faiz idisə, 2005-ci ilin əvvəlində bu, 40 faizə düşmüşdür və 2006-cı ilin əvvəlində 29 faiz təşkil edəcəkdir. Əlbəttə, 29 faiz də çoxdur. Mən istəyirəm ki, Azərbaycanda yoxsulluq şəraitində yaşayan bir nəfər də olmasın. Amma bu gözəl dinamika onu göstərir ki, biz düz yoldayıq. Azərbaycanın iqtisadiyyatı inkişaf edir, möhkəmlənir və gələcəkdə daha da böyük sürətlə inkişaf edəcəkdir.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin adını daşıyan və onun təşəbbüsü ilə inşa edilən Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə işə düşəcəkdir. Bakı–Tbilisi–Ərzurum qaz kəməri işə düşəcəkdir. Bu, ölkəmizə böyük miqdarda əlavə maddi vəsaitin daxil olmasına gətirib çıxaracaqdır. Belə olan halda, Azərbaycanda bütün sosial məsələlər daha da sürətlə öz həllini tapacaqdır.

Bilirsiniz ki, sosial problemlərin həlli bizim üçün başlıca vəzifədir və büdcəmiz də sosialyönümlüdür. Onu da qeyd etməliyəm ki, 2006-cı ildə büdcə xərcləri 2005-ci ilə nisbətən 70 faiz artacaqdır və bütövlükdə, büdcəmiz 4 milyard dollar

təşkil edəcəkdir. Ona görə sosial məsələlərə ayrılan xərclər təbii ki, artmalıdır. 2005-ci ildə Azərbaycanda 130 ümumtəhsil məktəbi tikilmişdir. Bu da keçmişdə heç vaxt görünməmiş bir göstəricidir. İndi bölgələrdə və Bakıda yeni məktəblər tikilir, yeni müalicə-diaqnostika mərkəzləri tikilir, yeni yollar salınır, elektrik stansiyaları tikilir, su kəmərləri, qaz xətləri çəkilir. Bütün bunlar inkişafın əlamətidir, inkişafın təzahürüdür. Bütün bunların nəticəsində, görülən işlərin nəticəsində Azərbaycan xalqı yaxşı yaşayacaq, Azərbaycan daha da möhkəmlənəcək və Azərbaycanın hər bir vətəndaşı müsbət dəyişiklikləri öz gündəlik həyatında görməlidir və görəcəkdir. Bizim əsas məqsədimiz bundan ibarətdir. Mənim göstərdiyim rəqəmlər, makroiqtisadi vəziyyəti əks etdirən rəqəmlər, əlbəttə, hər bir vətəndaşın həyatında öz əksini tapmalıdır, hər bir vətəndaş bunu hiss etməlidir. Mənim məqsədim bundan ibarətdir.

Mən hesab edirəm ki, 2006-cı ildə biz bu siyasəti davam etdirməliyik. Azərbaycanda bu siyasətə alternativ siyasət yoxdur və şübhə etmirəm ki, qısa müddət ərzində Azərbaycan zəngin dövlətə çevriləcəkdir.

2005-ci ildə Azərbaycanda ictimai-siyasi sahədə də müsbət meyllər daha da güclənmişdir. Azərbaycanda sabitlik qorunub saxlanılmışdır, ictimai-siyasi asayiş qorunub saxlanılmışdır. 2005-ci ildə Azərbaycanın gələcəyi üçün mühüm rol oynayan parlament seçkiləri keçirilmişdir. Parlament seçkiləri bir daha göstərdi ki, Azərbaycan xalqı öz seçiminə sadiqdir. Müxtəlif qüvvələr, müxtəlif dairələr bu seçkilərdən, bu hadisədən istifadə edib öz məqsədlərini təmin etmək üçün səylər göstərmişlər. Ancaq Azərbaycan iqtidarı xalqın dəstəyinə arxalanaraq, Azərbaycanın milli maraqlarını maksimum dərəcədə qorudu və möhkəmləndirdi. Parlament seçkilərinin nəticələri tam şəkildə Azərbaycan xalqının iradəsini əks etdirir və bir daha bizim siyasətimizə nə qədər böyük dəstək verilməsindən xəbər verir.

Mən ümid edirəm ki, Azərbaycanda 2006-cı ildə və ondan sonrakı illərdə də ictimai-siyasi vəziyyət müsbət olacaqdır, xalqla iqtidar arasında olan birlik, vəhdət daha da möhkəm-

lənəcəkdir. Hər bir ölkənin inkişafı üçün bu çox mühüm bir məsələdir. Harada iqtidarla xalq arasında birlik, vəhdət var, o ölkələrdə inkişaf da var. Harada ki, bu yoxdur, o ölkələr çətin vəziyyətə düşürlər. Bölgədə yerləşən ölkələrin yaxın tarixi onu göstərir ki, harada uçurum var, orada inkişafdan söhbət gedə bilməz, sabitlikdən söhbət gedə bilməz. Azərbaycanda xalqla iqtidar arasında inam var, məhəbbət var, birlik var, vəhdət var.

Mən 2003-cü ildə xalqın dəstəyi ilə prezident vəzifəsinə seçilmişəm. O vaxt bəyan etmişdim ki, mən öz həyatımı doğma xalqıma həsr edəcəyəm. O vaxtdan bu günə qədər öz əməyimlə, öz işimlə çalışmışam və çalışacağam ki, doğma xalqıma ləyaqətlə xidmət edim, Azərbaycanı möhkəmləndirək, Azərbaycanı gücləndirək, Azərbaycanın dövlət müstəqilliyini əbədi, dönməz edək. Azərbaycanın milli maraqlarını daha da möhkəmləndirək. Bütün bu istiqamətlərdə uğurlar var.

Mən qürur hissi ilə deyə bilərəm ki, bu gün Azərbaycan sözün əsl mənasında müstəqil siyasət aparır. Bu siyasət Azərbaycan xalqının milli maraqlarına cavab verir. Bu siyasət Azərbaycanı regionda lider dövlətə çevirir. Bu siyasət gənc, müstəqil ölkə kimi, Azərbaycanı dünyada tanıdır. Ümid edirəm ki, görülən bütün işlər və görüləcək işlər bizim gücümüzü daha da artıracaqdır. Azərbaycan öz dövlət müstəqilliyini möhkəmləndirəcək, Azərbaycan regionda daha da möhkəm yerini tutacaq və Azərbaycan xalqı, Azərbaycan vətəndaşları daha da yaxşı, rahat yaşayacaqlar, sülh, əmin-amanlıq, firavanlıq şəraitində yaşayacaqlar. Mənim məqsədim budur. Mənim başqa amalım yoxdur. Mən xalq üçün işləyirəm, xalq üçün çalışıram, xalqa xidmət edirəm. Dəfələrlə demişəm ki, prezident başda olmaqla, bütün məmurlar xalqın xidmətçiləridir. Bizim vəzifəmiz ondan ibarətdir ki, xalqa xidmət edək, xalqla birlikdə olaq, xalqın qayğıları ilə yaşayaq. Mən buna çalışmışam, bundan sonra da çalışacağam, heç kim və heç nə məni bu yoldan döndərə bilməz.

Əziz dostlar!

Əziz bacılar və qardaşlar!

Bu gün eyni zamanda, Dünya Azərbaycanlılarının Həmrəyliyi günüdür. Mən bu münasibətlə də sizi ürəkdən təbrik edirəm. Dünyada yaşayan bütün azərbaycanlılara xoşbəxtlik, səadət arzulayıram, onları birliyə, həmrəyliyə dəvət edirəm.

Əziz dostlar!

Sizi Yeni il münasibətilə bir daha ürəkdən təbrik edirəm. Sizə cansağlığı, uğurlar, xoşbəxtlik arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ KEÇİRİLMİŞ TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA NİTQ

*Prezident sarayı*

*2 yanvar 2006-cı il*

2005-ci il arxada qaldı. İlin yekunları çox uğurlu olmuşdur. Bu barədə mən öz fikirlərimi çıxışımda söylədim. Bütünlükdə, 2005-ci il Azərbaycanın dinamik inkişafında çox mühüm rol oynayan bir il olmuşdur. Həm ictimai-siyasi proseslər müsbət istiqamətdə inkişaf etmişdir, iqtisadiyyatımız çox sürətlə artmışdır, həm də Azərbaycanın dünyadakı, bölgədəki mövqeləri möhkəmlənmişdir və bütövlükdə, ölkəmiz çox uğurla inkişaf etmişdir.

2006-cı ilin ilk günlərində biz Təhlükəsizlik Şurasının iclasını keçiririk. Bu çox vacibdir. Çünki bildiyiniz kimi, Təhlükəsizlik Şurasının iclasları mütəmadi qaydada keçirilir, bu iclaslarda ölkəmizin qlobal məsələləri, strateji əhəmiyyət daşıyan məsələlər müzakirə olunur, inkişaf strategiyamızın əsas məqamları, istiqamətləri müəyyən edilir. Hesab edirəm ki, bugünkü iclas da bu baxımdan çox vacibdir.

Mən şübhə etmirəm ki, Azərbaycanda möhkəmlənmiş müsbət meyllər 2006-cı ildə daha da sürətlə inkişaf edəcəkdir. Azərbaycan bölgədə gedən proseslərdə daha da fəal iştirak edəcək, öz iqtisadi potensialını möhkəmləndirəcəkdir. Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə tikilən Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istismara veriləcəkdir. İlin sonunda Bakı–Tbilisi–Ərzurum qaz kəməri

istismara veriləcəkdir. Bunlar, əlbəttə ki, dünya əhəmiyyətli məsələlərdir və həm Azərbaycanın iqtisadi potensialının möhkəmlənməsinə öz töhfəsini verəcək, həm də bölgədə sülhün, təhlükəsizliyin, əməkdaşlığın möhkəmlənməsinə xidmət edəcəkdir.

2006-cı ildə sosial-iqtisadi məsələlərin həlli daha da sürətlə getməlidir. Buna nail olmaq üçün bütün imkanlar var. Qəbul olunmuş sosial-iqtisadi proqramlar, regionların inkişafı proqramları uğurla icra edilir. Həm iqtisadi sahədə, həm də sosial sahədə böyük işlər görülməlidir. Sosial məsələlərin həlli bilavasitə iqtisadi potensialdan asılıdır. Əlbəttə ki, bizim potensialımız gücləndikcə, bu məsələlər daha da sürətlə öz həllini tapacaqdır. Azərbaycanda məktəb, xəstəxana tikintisi geniş vüsət alıbdır. İnsanların həyat səviyyəsinin yaxşılaşdırılması ən başlıca vəzifədir. Yoxsulluğun azaldılması, işsizliyin aradan qaldırılması – bütün bunlar bizim əsas məsələlərimizdir və gündəlik həyatda bu məsələlərlə məşğul oluruq.

2006-cı il Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də müəyyən ümidlər verir. Bildiyiniz kimi, bu məsələ ilə məşğul olan Minsk qrupu və onun həmsədrləri son zamanlar öz fəaliyyətini daha da gücləndirmişlər və müəyyən təkliflər irəli sürülür. Biz bütün təklifləri nəzərdən keçiririk, müzakirə edirik. Eyni zamanda, bu məsələ ilə bağlı bizim mövqeyimiz dəyişməz olaraq qalır. Bu məsələ yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapa bilər. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir.

Praqa prosesinin möhkəmlənməsi müsbət haldır, məsələ ilə məşğul olan tərəflər, qurumlar artıq bunu əsas istiqamət kimi təqdim edirlər. Praqa prosesi müsbət prosesdir, mərhələli həll işində mühüm bir addımdır.

Bütün bu məsələlər bizim qarşımızda dayanır. Azərbaycanda iqtisadi, sosial, siyasi proseslər müsbət istiqamətdə gedir. Bu baxımdan 2005-ci ildə keçirilmiş parlament seçkiləri Azərbaycanda demokratiyanın inkişafına çox güclü təkan verdi.

Demokratik proseslər seçkilər ərəfəsində çox sürətlə getmişdir və seçkilərdən sonra da bu cür davam edir. Azərbaycan bu baxımdan sürətlə inkişaf edən ölkədir. Demokratiyanın inkişafı 2006-cı ildə də bizim əsas vəzifələrimizdən biri olacaqdır. Azərbaycanda hökm sürən sabitlik, vətəndaş həmrəyliyi bizə imkan verir ki, ölkəmiz hərtərəfli – həm iqtisadi sahədə, həm də siyasi məsələlər baxımından inkişaf etsin. Əlbəttə ki, demokratik inkişaf da çox böyük əhəmiyyət kəsb edir.

Çalışmalıyıq ki, 2006-cı ildə Azərbaycanın müstəqilliyini daha da gücləndirək, enerji təhlükəsizliyini daha da möhkəmləndirək. Bildiyiniz kimi, indi regionda enerji daşıyıcıları ilə bağlı olan problemlər artıq özünü çox qabarıq şəkildə büruzə verir. Azərbaycanda bu problemlər yoxdur, biz öz tədbirlərimizi vaxtı-vaxtında gördük. Əlbəttə ki, biz öz daxili resurslarımıza arxalanırıq. Ona görə də Azərbaycanda neft, qaz hasilatı artır. Gələn il Azərbaycanda həm neft, həm də qaz hasilatı xeyli dərəcədə artacaq və əlbəttə ki, bu, ölkəyə əlavə valyuta resursları gətirəcəkdir. Eyni zamanda, öz tələbatımızı daha da böyük həcmdə ödəyəcəyik. Amma buna baxmayaraq, hələlik idxal qazına ehtiyac var. Ona görə də qərar verildi ki, bu məsələ də öz həllini tapsın. Biz buna vaxtında nail olduq və ümid edirəm ki, qış aylarında Azərbaycanda enerji problemi olmayacaqdır.

Bildiyiniz kimi, eyni zamanda, biz enerji infrastrukturumuzu da möhkəmləndiririk. Böyük elektrik stansiyaları tikilir, kiçikhəcmli elektrik stansiyaları tikilir. Qaz xətləri yeniləşdirilir, sayğaclar quraşdırılır. Yəni bu, demək olar ki, əhalini narahat edən əsas sosial problemlərdən biridir və biz bunu həll etməliyik.

Bir sözlə, 2006-cı ildə biz gərək çox fəal, çox səmərəli işləyək. Hərə öz yerində vəzifə borcunu yerinə yetirməlidir və biz Azərbaycan xalqı qarşısında mütəmadi qaydada hesabat verməliyik.

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ, ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA**

Əlahəzrət!

Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay Əmirliyinin hökmdarı Şeyx Məktum bin Rəşid əl-Məktumun vəfatı xəbəri bizi son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, Birləşmiş Ərəb Əmirliklərinin dost xalqına şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*4 yanvar 2006-cı il*

**BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN MÜDAFİƏ NAZİRİ, DUBAY ƏMİRLİYİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA**

Əlahəzrət!

Qardaşınız – Birləşmiş Ərəb Əmirliklərinin vitse-prezidenti, Baş naziri, Dubay Əmirliyinin hökmdarı Şeyx Məktum bin Rəşid əl-Məktumun vəfatı xəbərini kədər hissi ilə qarşıladıq.

Bu ağır anlarda Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*4 yanvar 2006-cı il*

## MİLAD BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi – Azərbaycanın bütün xristianlarını müqəddəs Milad bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən xoş arzularımı yetirirəm.

Azərbaycanda tarixən ayrı-ayrı dinlər qarşılıqlı hörmət və əmin-amanlıq şəraitində mövcud olmuş və bu gün də dinc yanaşı fəaliyyət göstərməkdədir. Qeyd etmək xoşdur ki, islam dini özündən əvvəlki dinlərə və səmavi kitablara, o cümlədən xristianlığa yüksək ehtiramla yanaşaraq zaman-zaman insanlar arasında başqa etiqad və inanclara qarşı yüksək dözümlülük, səbirli münasibət duyğuları aşılamışdır. Müsəlmanların müqəddəs kitabı Qurani-Kərimdə İsa Peyğəmbər və onun mövludundan məhəbbətlə bəhs edilir ki, bu da dinlərimiz arasında ənənəvi xoş münasibətlərin sarsılmaz təməllər üzərində bərqərar olduğunu göstərir.

Bu gün dünyada tolerantlıq örnəyi kimi tanınan Azərbaycanda heç vaxt milli-dini ayrı-seçkilik hallarına yol verilməmiş, burada yaşayan bütün xalqlar öz dil və mədəniyyətini, dini etiqadını, milli adət-ənənələrini qoruyub saxlayaraq daha da inkişaf etdirmişlər.

Dilindən, dinindən, etnik mənsubiyyətindən asılı olmayaraq, bütün vətəndaşlarımız kimi, pravoslav xristianlar da respublikamızda yaradılmış demokratik-hüquqi şəraitdən, insan hüquq və azadlıqlarından hərtərəfli yararlanmaqla Azərbaycanda gedən tarixi yeniləşmə və müstəqil dövlət quruculuğu prosesində yaxından iştirak edir, vətəndaşlıq borcunu layiqincə yerinə yetirirlər.

Əziz bacı və qardaşlar!

Hər il böyük təntənə ilə qeyd etdiyiniz İsa Peyğəmbərin Mövludu günü yenilik, əmin-amanlıq, mərhəmət və şəfqət bayramıdır. Bu əziz gündə bir daha sizə möhkəm cansağlığı, ailələrinizə səadət və əmin-amanlıq arzulayıram.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*5 yanvar 2006-cı il*

## QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

Hörmətli həmvətənlər!

Sizi və dünyanın müxtəlif guşələrində yaşayan bütün soydaşlarımızı müsəlmanların həmrəylik və qardaşlıq günü olan müqəddəs Qurban bayramı münasibətilə ürəkdən təbrik edir, hər birinizə ən səmimi arzu və diləklərimi yetirirəm.

Azərbaycan xalqı uzun illər yad ideologiya və rejimlərin qadağaları şəraitində yaşamalı olsa da, heç vaxt tarixi köklərindən ayrı düşməmiş, milli adət-ənənələrini, dini etiqadını, inanc və mərasimlərini günümüzəcən qoruyub saxlamışdır. Bu gün demokratik-hüquqi prinsiplərin, din və vicdan azadlığının bərqərar edildiyi müstəqil Azərbaycan Respublikasında hər il dövlət səviyyəsində qeyd olunan Qurban bayramı da belə əbədiyaşar adətlərimizdəndir.

Yüz illərdir ki, xalqımız Uca Tanrının islamı bir din kimi tamamlayıb insanlar üçün hidayət yolu seçdiyi mübarək günü böyük təntənə ilə bayram edir, özünün İlahi kəlama, bəşəri ideallara, milli-mənəvi dəyərlərə bağlılığını və sadiqliyini ürək açıqlığı ilə nümayiş etdirir.

İnsanlar arasında şəfqət və mərhəmət duyğularının, humanizm və qardaşlığın rəmzi olan Qurban bayramı, eyni zamanda, müsəlmanların xeyirxah amallar uğrunda hər cür fədakarlığa hazır olmaq şərəfinin təcəssümüdür.

Bu müqəddəs bayram günlərində respublikamızın daha da tərəqqisi, xalqımızın rifahı və əmin-amanlığı üçün etdiyiniz dua və niyyətlərə qoşularaq, Azərbaycanın müstəqilliyi və ərazi bütövlüyü uğrunda canlarından keçmiş şəhidlərimizin əziz xatirəsini bir daha böyük ehtiramla yad edir, onlara Allahdan rəhmət diləyirəm. Əmin olduğumu bildirirəm ki, builki mübarək Qurban bayramı da ölkəmizdə milli-mənəvi həmrəyliyin, xeyirxah əməllərin təntənəsinə çevriləcəkdir.

Əziz bacı və qardaşlarım!

Bu əziz gündə sizə Ulu Tanrıdan möhkəm cansağlığı, ailələrinizə xoşbəxtlik, evlərinizə xeyir-bərəkət arzulayıram.

Qurban bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*9 yanvar 2006-cı il*

**BƏHREYNİN KRALI ƏLAHƏZRƏT**
**ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ**

Əlahəzrət!

Oğlunuz şeyx Feysalın avtomobil qəzası nəticəsində faciəli şəkildə həlak olması xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizi bölüşür, Sizə, ailənizin bütün üzvlərinə səbir diləyir, dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*14 yanvar 2006-cı il*

## KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX SAAD ƏL-ABDULLA ƏS-SALİM ƏS-SABAHA

Əlahəzrət!

Görkəmli dövlət xadimi, Küveyt Dövlətinin Əmiri şeyx Sabir əl-Əhməd əs-Cabir əs-Sabahın vəfatı xəbərini dərin kədər hissi ilə qarşıladıq.

Bütün həyatı boyu doğma xalqına sədaqətlə xidmət etmiş şeyx Sabir əl-Əhməd əl-Sabir əs-Sabahın müsəlman dövlətləri və xalqları arasında dostluq və əməkdaşlıq münasibətlərinin inkişafında və möhkəmləndirilməsində böyük rolu olmuşdur.

Bu ağır anlarda dərdinizə şərik çıxır. Sizə, mərhumun ailə üzvlərinə, dost Küveyt xalqına şəxsən öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*15 yanvar 2006-cı il*

## ABŞ AVROPA KOMANDANLIĞININ KOMANDAN MÜAVİNİ GENERAL ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*19 yanvar 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 19-da Prezident sarayında ABŞ Avropa Komandanlığının Komandan müavini general Çarlz Uoldun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan dövlətimizin başçısı nümayəndə heyətinin Azərbaycanda bir sıra səmərəli görüşlər keçirdiyi barədə məlumatı olduğunu qeyd etdi. O bu səfərin ölkələrimiz arasında hərbi sahədə əməkdaşlığa öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*General Çarlz Uold Azərbaycanda hərbi sahədə əldə edilmiş nailiyyətlərin, habelə Azərbaycan Respublikası Ərazilərinin Minalardan Təmizlənməsi üzrə Milli Agentliyin fəaliyyətinin nümayəndə heyətində böyük təəssürat yaratdığını bildirdi və Agentlik tərəfindən həyata keçirilən işlərin digər ölkələr üçün yaxşı nümunə olduğunu vurğuladı.*

*General Çarlz Uold Azərbaycanda keçirilmiş parlament seçkiləri ilə əlaqədar prezident İlham Əliyevə təbriklərini çatdırdı.*

**PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB ANİBAL KAVAKU SİLVAYA**

Hörmətli cənab Prezident!

Portuqaliya Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Biz Azərbaycan ilə Portuqaliya arasındakı dostluq və əməkdaşlığın inkişafına böyük əhəmiyyət veririk. Ümidvaram ki, ikitərəfli münasibətlərimiz, əlaqələrimiz xalqlarımızın mənafelərinə uyğun olaraq daim genişlənəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Portuqaliya xalqlarının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 yanvar 2006-cı il*

## MACARISTAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ DÖVLƏT KATİBİ ANDRAŞ BARŞONİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 yanvar 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 23-də Prezident sarayında Macarıstan Xarici İşlər Nazirliyinin siyasi məsələlər üzrə Dövlət katibi Andraş Barşoninin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan prezident İlham Əliyev Azərbaycanın Macarıstanla ikitərəfli əlaqələrin inkişafına böyük əhəmiyyət verdiyini və ölkəmizin Budapeştdə səfirliyinin açılmasının bunun yaxşı nümunəsi olduğunu qeyd etdi. O, siyasi, iqtisadi, mədəni və digər sahələrdə əlaqələrimizin bundan sonra da inkişaf etdirilməsinin zəruriliyini vurğulayaraq, bu səfərin ikitərəfli münasibətlərimizin inkişaf etdirilməsi işinə öz töhfəsini verəcəyinə əminliyini bildirdi. Prezident İlham Əliyev cənab Barşoni ilə Avropa Şurasındakı birgə fəaliyyətini məmnunluqla xatırlayaraq, Azərbaycanın Avropaya inteqrasiya siyasətinin böyük önəm daşıdığını vurğuladı.*

*Andraş Barşoni ölkəsinin Azərbaycan ilə ikitərəfli əlaqələrini genişləndirmək arzusunu ifadə edərək, səfərinin bu istiqamətdə atılan mühüm addım olduğunu qeyd etdi. Qonaq Azərbaycanın Macarıstanda səfirliyinin açılmasının iki ölkə arasında əlaqələrin inkişaf etdirilməsi üçün yaxşı imkanlar yaratdığını bildirdi. O, Budapeştdə Azərbaycanın biznes adamlarının iştirakı ilə seminarın keçirildiyini xatırlatdı və belə bir tədbirin bu ilin sonuna qədər Bakıda da keçiriləcəyini diqqətə çatdırdı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZDƏ HAVALARIN KƏSKİN ŞƏKİLDƏ PİSLƏŞMƏSİ İLƏ ƏLAQƏDAR YARANAN PROBLEMLƏRİN HƏLLİNƏ AİD KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*Prezident sarayı*

*24 yanvar 2006-cı il*

Bugünkü müşavirə Azərbaycanda, o cümlədən Bakıda hava şəraitinin kəskin şəkildə pisləşməsi ilə bağlıdır. Bildiyiniz kimi, son günlər ərzində bizim regionda və bütövlükdə Avropada havanın qeyri-sabit keçməsi nəticəsində müəyyən çətinliklər meydana çıxıbdır. Avropa ölkələrində problemlər yaranıbdır. Elektrik enerjisi ilə, qazla təminat aşağı düşübdür. Televiziya kanallarından görürük ki, Rusiyanın özündə də müxtəlif bölgələrdə artıq çox ciddi proseslər gedir, əhaliyə və müəssisələrə elektrik enerjisi və qaz kifayət qədər verilmir, məhdudiyyətlər qoyulur.

Yəni bu problem artıq ümumi xarakter daşıyır və əlbəttə ki, Azərbaycanda da biz gərək bu problemin aradan qaldırılması üçün lazımi tədbirlər görək. Ölkəmizdə son illər ərzində görülən işlər nəticəsində yay, yaz və payız mövsümlərində nə Bakıda, nə respublikanın başqa rayonlarında elektrik enerjisi ilə bağlı, demək olar ki, heç bir problem yoxdur. Qış aylarında isə müəyyən problemlər yaranır və bu, təbii xarakter daşıyır. Biz dəfələrlə bu barədə danışmışıq. İlk növbədə, Azərbaycanda yeni elektrik güclərinin kifayət qədər işə salınmaması nəticəsində qış aylarında müəyyən problemlər yaranır. Bu ildən başlayaraq, ölkəmizin bütün bölgələrində modul tipli elektrik

stansiyalarının quraşdırılması nəticəsində əminəm ki, Azərbaycanda elektrik enerjisi ilə təchizatda qış aylarında da problemlər olmayacaq və olmamalıdır. Birinci modul tipli elektrik stansiyasının tikintisi artıq başa çatır və yaxın günlərdə Astara rayonunda onun açılışı qeyd olunacaqdır. Ancaq bu, hələlik problemin tam aradan qaldırılmasına imkan yaratmır. Onunla yanaşı, digər tədbirlər də görülür. Bakıda «Şimal» elektrik stansiyasının ikinci hissəsi tikiləcək, Sumqayıt elektrik stansiyasının tikilməsi artıq başlanmışdır və 500 meqavat gücündə olan bu stansiya yəqin ki, iki ilə istismara veriləcəkdir.

Eyni zamanda, Azərbaycanda qazla təminat müəyyən səviyyədə yaxşılaşıbdır. Amma bizim tələbatımızı tam şəkildə ödəmir. Baxmayaraq ki, ildən-ilə verilən qazın həcmi artır, hələlik biz əhalinin tələbatını tam şəkildə ödəyə bilmirik. Baxmayaraq ki, Azərbaycana ildə təxminən 5 milyard kubmetr qaz idxal olunur, özü də indi baha qiymətlə alınır. Bu məqsədlərə bu il təxminən yarım milyard dollar vəsait dövlət tərəfindən ödəniləcəkdir. Hamımız da bilirik ki, qazın pulunu əhali faktiki olaraq vermir. Təxminən 20–25 faiz yığılır, baxmayaraq ki, əhaliyə qaz çox aşağı qiymətlə verilir. Bütün bu maliyyə yükü Azərbaycan büdcəsinin üzərinə düşür. Nəzərə alsaq ki, elektrik enerjisinin qiyməti də Azərbaycanda çox aşağıdır və elektrik stansiyalarında ildə təxminən 2 milyon ton mazut yandırılır, onda əhaliyə dövlətin dotasiyası ildə minimum 1 milyard dollar təşkil edir. Heç bir ölkədə, xüsusilə bazar iqtisadiyyatı prinsipləri əsasında yaşayan ölkədə belə bir mənzərə müşahidə olunmur. Bu bir də onu göstərir ki, Azərbaycan dövləti və hökuməti öz sosial siyasətinə sadiqdir.

Biz sosialyönümlü siyasət aparırıq, əhalini ucuz enerji daşıyıcıları ilə təmin edirik. Havanın kəskin şəkildə pisləşməsi, əlbəttə ki, enerji sektoruna mənfi təsir göstərir. Ona görə mən hesab etdim ki, biz bu gün təcili şəkildə yığışaq, məsələni müzakirə edək. Həm Bakı şəhərində olan vəziyyəti araşdıraq, həm də rayonlarda olan vəziyyəti araşdıraq, elektrik enerjisi, qaz və istiliklə təminat məsələlərinə baxaq.

Bildiyiniz kimi, bu yaxınlarda baş vermiş partlayış nəticəsində Gürcüstana da qaz verilməsi dayandırıldı. Faktiki olaraq, Gürcüstan qazsız qaldı və bizə müraciət olundu. Biz qardaş Gürcüstan xalqına öz köməyimizi göstərmişik, mənim prezident Saakaşvili ilə telefon danışıqlarım olubdur, nə lazımdırsa, onu edirik. Baxmayaraq ki, Azərbaycanda da müəyyən çətinliklər var, eyni zamanda, çətin anlarda biz gərək bir-birimizə kömək edək. Gürcüstan bizim tərəfdaşımızdır, bizim üçün dost, qardaş ölkədir və mən göstəriş verdim ki, orada bu böhranın nəticələrini azaltmaq üçün müəyyən tədbirlər görülsün. Artıq Azərbaycandan həm təbii qazın verilməsi, eyni zamanda, elektrik enerjisinin verilməsi təmin olunubdur.

Ancaq şübhəsiz ki, biz öz problemlərimizi də həll etməliyik və bunu etmək üçün gərək bu gün vəziyyət araşdırılsın, təhlil edilsin. Əgər lazımsa, əlavə tədbirlər görülməlidir ki, biz bu vəziyyətdən çıxaq. Mən deyə bilmərəm ki, vəziyyət çox ağırdır və yaxud da çətindir. Ancaq lap xırda problem olsa da, biz gərək onun həllinə nail olaq. Buna görə bu gün bu məsələləri biz müzakirə etməliyik. İlk növbədə, mən soruşmaq istəyirəm ki, Bakıda vəziyyət necədir? Həm elektrik enerjisi, qaz təchizatında, həm də yol hərəkəti ilə bağlı hansı problem var və necə həll olunur?

**Hacıbala Abutalıbov** (*Bakı Şəhər İcra Hakimiyyətinin başçısı*): Möhtərəm Prezident, hidrometeoroloji mərkəzdən alınan məlumat bizə çatan kimi, Bakı şəhərinin bütün rayon icra hakimiyyəti başçıları səfərbər olunub, gecə-gündüz iş rejiminə keçiblər. Qış qarajımız tamamilə hazır vəziyyətdədir, qumla, bütün maşınlarla təmin olunubdur. İndi, bu saat Bakı şəhərinin küçələrində 17 qarkürüyən, 13 ədəd qumsəpən, 2 ədəd qarvuran və 3 ədəd qaryükləyən maşın işləyir.

**İlham Əliyev:** Kifayətdir?

**Hacıbala Abutalıbov:** Mənə elə gəlir ki, hələlik, bu günə qədər tam kifayət edir. Müəyyən problemlər var.

**İlham Əliyev:** Texnika kifayət qədər varmı?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Bizdə indi texnika problemi yoxdur.

**İ l h a m  Ə l i y e v:** Bəs mənə deyirlər ki, yollarda böyük problemlər var, tıxaclar yaranır.

**H a c ı b a l a  A b u t a l ı b o v:** Yollarda üç yerdə tıxac əmələ gəlmişdir: «Ramstore»nin yanından «Cavanşir» körpüsünə qədər, Qubanov küçəsində, bir də 9-cu mikrorayondan Tbilisi prospektində «20 Yanvar» meydanına qədər. Orada su borusu partlamışdı, elə bu saatlarda təmir edildi. O problemləri biz saat on birin yarısına kimi tam aradan götürdük. Hansı problemlər əmələ gəlirsə, onu respublika və Şəhər Dövlət Yol Polisi ilə əməkdaşlıq əsasında aradan götürməyə çalışırıq. Şəhərdə, ümumiyyətlə, qaz problemi yoxdur. Müəyyən qəsəbələrdə qaz problemi olur, onu da «Azəriqaz»la tez, operativ həll edirik.

**İ l h a m  Ə l i y e v:** İşıq necə?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Hələlik, bu saata qədər şəhərdə heç bir problem yoxdur.

İstilik təchizatı ilə əlaqədar deyim ki, 1808 binaya istilik verilməsi tapşırılmışdır. İstilik sistemində qaz, su problemimiz yoxdur. Yəni o binaların hamısı istilik alır. 116 məktəbə və 99 uşaq bağçasına da mərkəzləşdirilmiş qaydada istilik verilir.

**İ l h a m  Ə l i y e v:** Xəstəxanalar necə?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Hələlik, bu saata qədər xəstəxanalarda hər hansı bir problemin olması ilə əlaqədar bizə müraciət edilməyibdir. Biz əlimizdən gələni edəcəyik. Bütün gecəni işləyəcəyik, qumsəpən maşınlarımız 24 saat ərzində işləyəcək, çünki gecə 8–10 dərəcə şaxta gözlənilir.

**İ l h a m  Ə l i y e v:** Bakıda?

**H a c ı b a l a  A b u t a l ı b o v:** Bakıda. Ona görə də biz bütün rayon icra hakimiyyətlərinə göstəriş verdik ki, hər biri ən azı 10 maşın qumla, iki traktorla tam hazır vəziyyətdə olsunlar.

**İ l h a m  Ə l i y e v:** Yaxşı, əyləşin. Zeynal, rayonlarda vəziyyət necədir?

**Z e y n a l  N a ğ d ə l i y e v** (*Prezidentin İcra Aparatının Regional İdarəetmə və Yerli Özünüidarəetmə Orqanları ilə iş*

*şöbəsinin müdiri*): Cənab Prezident, bütün rayonlarla əlaqə saxlanılmışdır. Dağ rayonlarında qar düşüb, normal həyat yaşanır. Qeyri-adi heç nə baş verməmişdir. Xızı, Şamaxı, Ağsu tərəfdə bu günlər qar çox yağıb, bu da yolda problemlər yaradıbdır. Amma həyat ritmində elə bir dəyişiklik baş verməmişdir. Yalnız işığın verilməsində müəyyən məhdudiyyətlər yaranmışdır. Rayonlara işıq 20–24 saat verilirdi. Amma rayonlardan aldığımız məlumata görə, son iki gündə müəyyən məhdudiyyətlər vardır. Bu, Bərdədə, Masallıda, Astarada, Beyləqanda mövcuddur. Amma biz rayonların rəhbərləri ilə birbaşa danışdıq. Camaatla izahat işi aparılır ki, respublikada bu qıtlığın yaranması müvəqqəti haldır, elektrik enerjisi təchizatı məsələsi həllini tapacaqdır. Camaatımız vəziyyəti başa düşür, narahatlıq doğuran elə bir problem yoxdur.

Cənab Prezident, biz eyni zamanda işıq və qaz pullarının yığılmasını nəzarətə götürmüşük. Bununla bağlı şəhər və rayon icra hakimiyyətləri başçılarının məsuliyyətini artırırıq ki, onlar bununla bilavasitə məşğul olsunlar. Başqa elə bir problem yaranmayıbdır.

**İ l h a m Ə l i y e v:** Mən yenə də demək istəyirəm ki, bu, təkcə Azərbaycanda deyil, demək olar, bütün Avropa ölkələrində müşahidə olunan bir mənzərədir. Biz gərək bu məsələyə çox diqqətlə, həssaslıqla yanaşaq. İlk növbədə, əhali təmin olunmalıdır. Əgər bizdə kifayət qədər elektrik enerjisi yoxdursa – bu faktdır – qış aylarında çatışmazlıq, haradasa, 400 meqavat səviyyəsindədir, biz gərək bunu, enerjini elə bölüşdürək ki, ilk növbədə əhaliyə çatsın, uşaq bağçalarına, məktəblərə, xəstəxanalara verilsin. Ola bilsin ki, bəzi müəssisələrə məhdudiyyət qoyulsun. Ancaq ünvanlı məhdudiyyət qoyulmalıdır. İlk növbədə, əhali təmin olunmalıdır, ondan sonra bizim ən vacib, strateji müəssisələrimiz. Ancaq bəzi müəssisələr var ki, eybi yoxdur, onlar bir az dözə də bilərlər. Yəni ticarət, kommersiya obyektləri var. Bəzi hallarda onlara artıqlaması ilə verilir, orada gecə-gündüz işıq yanır. Amma uşaq bağçasında,

evdə, xəstəxanada işıq yoxdur. Buna çox ciddi nəzarət etməliyik. Həm «Azərenerji», həm də rayon və şəhər icra hakimiyyətlərinin başçıları nəzarət etməlidirlər ki, ünvanlı, dəqiq bölüşdürülsün.

Qazla necə, problem var?

**Ə l i x a n   M ə l i k o v** *(«Azəriqaz» Səhmdar Cəmiyyətinin sədri*): Cənab Prezident, ümumilikdə qaz təchizatı ilə bağlı qlobal problem yoxdur. Respublikamıza gündə 15 milyon kubmetr idxal qazı qəbul olunur. Dövlət Neft Şirkətindən «Azəri» yatağı da daxil olmaqla, təxminən 13,2 milyon kubmetr qaz alınır. Son günlər soyuqların düşməsi ilə əlaqədar yeraltı qaz anbarlarından maksimum – sutkada 9,8–9,9 milyon kubmetr qaz götürürük. Bakı şəhərinə təxminən sutkada 11 milyon kubmetr, digər rayonlara 9 milyon kubmetr qaz verilir. O cümlədən Gəncə şəhərinə 1 milyon 150–200 min kubmetrədək qaz verilir. Ümumilikdə götürəndə, Bakının mərkəzində qlobal problem yoxdur. Bəzi ətraf qəsəbələrdə problem var. İndi bu problemi aradan götürmək mümkün deyil, yəni həcm buna imkan vermir.

Sizin tapşırığınızla yanvarın 22-də saat 21.00-dan Gürcüstana qazın verilməsinə başlanmışdır. Biz müəyyən işləri görmüşdük və bu da imkan verdi ki, bir sutka ərzində hazırlığımızı gördük və dediyim tarixdən qazı verdik. Bu gün Gürcüstana gündəlik 2,5 milyon kubmetr qaz verilir. Bu bizim daxili təchizata təsir göstərmir. Yəni biz yeraltı qaz anbarlarından götürülən qazın həcmini təxminən 2 milyon kubmetr artırdıq və bunun hesabına Gürcüstana qazın verilməsi təmin olundu. Biz istər Bakı şəhərində, istərsə də digər şəhərlərdə, rayon mərkəzlərində rəhbər işçilərdən növbətçilik təşkil etmişik. Hər bir məlumat operativ qəbul olunur, hansısa bir problem çıxarsa, dərhal həll edilir.

**İ l h a m   Ə l i y e v:** Əfsuslar olsun ki, uzun illərdir Bakı kəndlərində qaz problemi mövcuddur. Bildiyiniz kimi, indi Bakının ətraf qəsəbələrinin yeni geniş inkişaf proqramı hazırlanır. Əlbəttə, orada kəndlərin qazla təmin olunması

nəzərdə tutulur. Yaxınlarda bu proqram təsdiq olunacaq və praktiki işlər aparılacaqdır. Ancaq çalışmalıyıq ki, indi mövcud olan imkanlardan maksimum dərəcədə istifadə edib şəhəri və rayonları qazla təmin edək.

Azərbaycanda qazın hasilatı ildən-ilə artacaqdır. «Şahdəniz» yatağından bu ilin sonunda hasil ediləcək qaz bizim sistemə veriləcəkdir. Eyni zamanda «Azəri» və «Çıraq» yataqlarından çıxan səmt qazı da bizə əlavə imkanlar yaradacaqdır. Ona görə gələcəkdə, haradasa 1-2 ilə Azərbaycanda qazın həcmi ilə bağlı problem olmayacaqdır. Əsas məqsəd xətlərin yeniləşməsinə yönəldilməlidir. Bakıda, şəhərətrafı qəsəbələrdə və rayonlarda bu işlər paralel getməlidir. Əlbəttə, sayğaclaşma da aparılmalıdır. Bilirəm ki, bu da aparılır, sayğaclar quraşdırılır və bu ilin sonuna qədər o proqram gərək başa çatsın, hər yerdə sayğaclar qoyulmalıdır.

Biz keçən il «Azəristiliktəchizat» Səhmdar Cəmiyyətini yaratdıq. O məqsədlə ki, təkcə Bakının yox, Azərbaycanın bütün istilik təsərrüfatı yeniləşsin. Məqsəd qoyulmuşdu ki, qısa müddət ərzində, 2005-ci ilin sonuna qədər evlərə müəyyən həcmdə istilik verilsin və 2006-cı ilin, yəni bu ilin sonuna qədər bu problem maksimum səviyyədə həll olunmalıdır. Əlavə vəsait nəzərdə tutulub, verilib, gələcəkdə də veriləcəkdir. İndi siz məruzə edin, indi nə qədər yeni ev istiliklə təmin olunub və bütövlükdə istiliklə bağlı vəziyyət necədir?

**Yaşar Həsənov** *(«Azəristiliktəchizat» Səhmdar Cəmiyyətinin sədri*): Cənab Prezident, Sizin verdiyiniz tapşırıqların icrası ilə əlaqədar lazım olan və gücümüz daxilində olan işləri görmüşük. Sizin tapşırığınızla bizə keçən il vəsait ayrılıb və bu vəsait istilik təsərrüfatı sisteminin yenidən qurulmasına sərf olunubdur. 988 bina istiliklə təmin edilmişdi.

**İlham Əliyev:** Yeni bina?

**Yaşar Həsənov:** Yox. 2004-cü ildə 988 bina. Bu günə kimi isə 1482 bina istiliklə təmin olunur.

**İlham Əliyev:** Bakı şəhərində?!

**Yaşar Həsənov:** Bəli.

**İ l h a m Ə l i y e v:** Yəni siz çoxmərtəbəli binaları deyirsiniz? Bakıda bütövlükdə neçə bina var?

**Y a ş a r H ə s ə n o v:** Bizim layihə ilə bağlı 2900 binadır. Amma bütün Bakı şəhəri üzrə mərkəzləşdirilmiş istilik sistemlərinə qoşulmalı binalar təxminən 3600–3700-dür. Çünki dəqiq uçot aparmaq olmur, kooperativlərin, müəssisələrin binaları var. Biz layihə hazırlayırıq.

**İ l h a m Ə l i y e v:** 1400 binaya artıq istilik verilibdir?

**Y a ş a r H ə s ə n o v:** Bu gün 1482 binaya istilik verilir. Düzdür, bəzi xırda problemlər olur. Xətlərdə problemlər var, onların yeniləşdirilməsi ilə də məşğul olmuşuq. Yeni qazanxanalara qaz xətti çəkilibdir. Məsələn, Hövsan qəsəbəsində tikdiyimiz qazanxanadan 97 blok istilik almalı idi. 15 binada 7200 nəfər yaşayır. Bu gün hörmətli Baş nazir də soruşmuşdu. Bir blok qazanxana istifadəyə veriləndə biz aşağı paylayıcı sistemi dövlət vəsaiti hesabına əsaslı təmir etmişdik. Bu gün bütün bloklar 80 faiz istiliklə təmin olunur. Bu işdə vətəndaşlar da iştirak edirlər. Biz sadəcə, onlara texniki kömək göstəririk. İndi Dövlət Tikinti və Arxitektura Komitəsinin 5 layihə institutu bizim sifarişimizlə konkret layihələndirmə işləri ilə məşğuldur. 9-cu və digər mikrorayonlarda verdiyiniz tapşırıq əsasında istilik məntəqələrinin yenidən qurularaq qazanxanaya çevrilməsi və digər qazanxanaların tikintisi aparılır. Dünən bizə bu işləri aparmaq üçün 200 min yeni Azərbaycan manatı ayrılıbdır. Əlimizdən gələni edirik ki, Sizin qarşımızda qoyduğunuz tapşırıq tamamilə yerinə yetirilsin. Onu da deyim ki, bu işdə hamı bizə kömək edir.

**İ l h a m Ə l i y e v:** 2006-cı ildə əksər işlər görülməlidir. Belə olan halda işığa da tələbat azalacaqdır. Çünki insanlar daha istilikdən istifadə edəcəklər.

«Azərenerji», məruzə edin, vəziyyət necədir?

**M a r l e n Ə s g ə r o v** *(«Azərenerji» Səhmdar Cəmiyyətinin vitse-prezidenti)*: Möhtərəm Prezident, son günlər havanın kəskin dəyişməsi nəticəsində elektrik enerjisinə olan tələbat keçənilkinə nisbətən 450 meqavat artmışdır.

**İ l h a m   Ə l i y e v:** 450 meqavat artmışdır?

**M a r l e n   Ə s g ə r o v:** Bəli, ancaq keçən ilə nisbətən 450 meqavat artmışdır. Biz öz stansiyalarımızdan və Rusiyadan 250 meqavat aldığımız enerji hesabına təxminən 4 min meqavat güc toplaya bilirik. Bu 4 min meqavatdan 2100-nü təkcə «Barmek» götürür. Bakı, Sumqayıt və şimal zonaları üçün. Biz «Barmek»in zonasında heç bir məhdudiyyət vermirik. Nə qədər enerji götürülürsə, əhali o qədər də enerji alır. Yəni aldığımız enerjinin təxminən 50 faizindən çoxunu təkcə «Barmek» götürür.

Keçmiş «Bayva» isə hələlik bizə verilməyibdir. Onun ərazisində isə enerjinin tələbatı, əlbəttə, məhdudiyyəti nəzərə almaqla, keçənilki səviyyədən bir az aşağıdır. Ona görə ki, 400 meqavata qədər gücümüz çatmır. Azərbaycan Dövlət Rayon Elektrik Stansiyasında 5-ci aqreqatın yenidən qurulması işi ötən ilin dekabrında başa çatmalı idi və biz oradan 300 meqavatdan artıq enerji götürməli idik. Həmin aqreqatın trubininin tənzimlənmə sisteminin paneli «Siemens» şirkətindən alınmışdır. Burada işləri «Silovıye maşını» görür. Təəssüf ki, panel Almaniyadan Azərbaycana gətirilərkən zədələnmişdir. Ona görə də aqreqatın işə qoşulması bir müddət gecikibdir. «Siemens» indi yeni panel göndərməlidir. Təxminən fevralın 1-dək onu almalıyıq. Bundan sonra bloku 10 gün ərzində tənzimləyib işə qoşacağıq. Fevralın 10-dək həmin blok işə düşsə, 300–320 meqavat artımımız olacaq və əlbəttə, bu bizə kömək edəcəkdir.

Ümumiyyətlə, Astara modul stansiyasının və Azərbaycan DRES-də də blokların işə qoşulmasından sonra məhdudiyyətlər bu səviyyədə olmaz. Stansiyalarda qalan bütün avadanlıq işləyir və bunun sayəsində 4 min meqavata qədər güc yığa bilirik.

**İ l h a m   Ə l i y e v:** «Şimal» DRES-də vəziyyət necədir?

**M a r l e n   Ə s g ə r o v:** Normal işləyir. Ancaq qaz sisteminin tənzimlənməsi zamanı problem yaranır. Belə ki, bu günlər qaz oraya çatana qədər temperaturu təqribən 2 dərəcəyə yaxın olur. Oradakı filtrlərdə buzlaşma gedir və inanın ki, bütün

sutka ərzində işçilər ayaq üstə duraraq onu tənzimləməklə məşğul olurlar. Qazın təzyiqinin tənzimlənməsi zamanı buzlaşma xeyli güclənir. Xahiş etdik ki, təzyiqi bir az aşağı salsınlar. Bu da imkan xaricindədir, çünki bu obyekt də, Bakı şəhəri də eyni qaz borusundan qidalanır. Bizdə təzyiqi salanda, paytaxta verilən qazın təzyiqi də azalacaq və problem yaranacaqdır. Ona görə də böyük çətinliklə bunu istismar edirik. Amma yenə də normal işləyir.

**İ l h a m Ə l i y e v:** Yəni haradasa, fevralın ortalarında Mingəçevir elektrik stansiyasında əlavə 320 meqavat, Astaradan isə təxminən 90 meqavat götürüləcəkdir.

**M a r l e n Ə s g ə r o v:** Bəli.

**A r t u r R a s i z a d ə** (*Baş nazir*): Cənab Prezident, mazutumuz var.

**İ l h a m Ə l i y e v:** Bəli, mazutumuz kifayət qədər var. Yenə deyirəm, bizim resurslarımız var, mazut da, qaz da var. Bizdə elektrik enerjisini hasil edən güc çatışmır. Amma bu il bu məsələ öz həllini tapmalıdır. Çünki təxminən 300 meqavat Mingəçevir elektrik stansiyası əlavə verəcək və bütövlükdə bütün modul stansiyalar da haradasa, 450 meqavat verəcəkdir. Yəni 750 meqavat əlavə enerji alacağıq. Amma bizim tələbatımız da artır. İldən-ilə həm əhalinin sayının artması, eyni zamanda, yeni müəssisələrin yaranması – son 2 il ərzində təqribən 350 min yeni iş yeri açılıbdır – bütün bunlar elektrik enerjisi, qaz tələb edir. Sənaye potensialımız gücləndikcə, tələbat da artacaqdır. Ona görə biz buna hazır olmalıyıq.

Mən bu yaxınlarda sənaye və energetika nazirinə göstəriş verdim ki, biz Azərbaycanın geniş sənaye proqramını hazırlayaq. Çünki ölkəmizi hərtərəfli inkişaf etdirmək üçün, qeyri-neft sektorunu hərtərəfli inkişaf etdirmək üçün mütləq yeni sənaye istiqamətləri yaradılmalıdır. Belə olan halda, elektrik enerjisinə və qaza tələbat daha da artacaqdır. Ona görə biz indidən fikirləşməliyik.

Sumqayıtda elektrik stansiyasının tikintisi başlanıbdır. 2 ildən sonra 500 meqavat güc oradan gələcəkdir. «Şimal-2»

təxminən 400 meqavat verəcəkdir. Eyni zamanda, danışmışdıq ki, Əli Bayramlı elektrik stansiyası barədə də fikirləşək – ya gərək dövlət özü vəsait ayırsın, bunu tiksin, yaxud da xarici investorları dəvət edək. Hər halda, bunu da yubatmaq olmaz. Bizim üstünlüyümüz ondadır ki, enerji baxımından heç kimdən asılı deyilik. Düzdür, müəyyən həcmdə Rusiyadan enerji alınır. İrandan alınır və İrana verilir. Yəni bu, paralel sistemdə bizim xətlərimizin işləməsi, bütövlükdə sistemi normal vəziyyətdə saxlayır. Ancaq qlobal şəkildə biz heç kimdən asılı deyilik. Qazımız da, elektrik enerjimiz də var. Artıq 300 min ton mazut ehtiyatımız var. Yeraltı qaz anbarına təxminən 1 milyard kubmetrə qədər qaz doldurulubdur. İndi biz oradan götürürük. Amma bu o demək deyil ki, biz bununla kifayətlənməliyik. Azərbaycanda bütövlükdə işıqla bağlı heç bir problem olmamalıdır. Hər bir yerdə, hər bir evdə, hər bir kənddə istənilən anda işıq olmalıdır. Bu, təbii bir tələbatdır. Bunu təmin etmək üçün biz gərək ciddi işləyək.

Aeroportda vəziyyət necədir?

**Sabir İlyasov** (*«Azərbaycan Hava Yolları» Dövlət Konserni Baş direktorunun birinci müavini)*: Cənab Prezident, beynəlxalq hava limanları işləyir. Bakı hava limanında təmizlik işləri aparırıq. 6 xüsusi maşın işləyir. Yəni bizdə problem yoxdur. Bu gün səhərdən Naxçıvana 5 reys həyata keçirilibdir.

**İlham Əliyev:** Naxçıvanda da hava şəraiti çətindir.

**Sabir İlyasov:** Bəli, hava şəraiti çətindir. Ancaq səhərdən indiyədək 4 reys Bakıdan, 1 reys də Gəncədən həyata keçirilibdir. Daha 3 reys də olacaqdır. Bakıda hava limanında çətinlik yoxdur. İşıq, istilik sistemləri işləyir, avadanlığı yoxlamışıq. Heç bir problem yoxdur.

**İlham Əliyev:** Bakı aeroportunda sistem elə qurulub ki, istənilən havada enmək, qalxmaq mümkündür. Yəni sistem buna imkan verir. Amma Gəncə və Naxçıvanda necədir?

**Sabir İlyasov:** Onlarda da normal vəziyyətdə iş gedir. Problem yoxdur.

**İ l h a m  Ə l i y e v:** Natiq Əliyev, Gürcüstanla danışıqları yekunlaşdırmısınız?

**N a t i q  Ə l i y e v** (*Sənaye və Energetika naziri*): Bəli, cənab Prezident! Məlum hadisələr baş vermişdir. Partlayışdan sonra biz Sizin tapşırığınızla dərhal Gürcüstana həm elektrik enerjisi, həm də qaz verilməsini təmin etdik. Düzdür, bunlar cüzi miqdarda idi. Ancaq görülən tədbirlər nəticəsində, bu gün burada deyildiyi kimi, 2,5 milyon kubmetr qaz nəql edə bilirik. Bunun sayəsində həm Tbilisinin əhalisi, həm də ki, Qardabani kompressor stansiyası qazla təmin olunur. Ümumiyyətlə, deyə bilərəm ki, biz nəzərdə tutmuşuq ki, onların sistemi bərpa olunana qədər Gürcüstana kömək edək.

Mən deyərdim ki, son illərdə yanacaq-energetika kompleksində həm Sizin tərəfinizdən, həm dövlət, hökumət tərəfindən görülən işlər göstərir ki, ümumiyyətlə, enerji kompleksi uğurla fəaliyyət göstərir və enerji təhlükəsizliyimiz təmin olunubdur. Keçən il bizim neftçilərimiz 217 min ton artıq neft hasil etmişlər. Bu bizə böyük ehtiyat yaratmışdır ki, bütün neft məhsulları növlərini istehsal edək, həm də vaxtında mazut ehtiyatımızı yaradaq. Siz burada bu rəqəmləri geniş göstərdiniz. Qaz anbarları dolubdur, bundan bu gün biz səmərəli istifadə edirik. Mən hesab edirəm ki, bu qışı biz lazımi səviyyədə keçirə biləcəyik.

Düzdür, problemlər var. Neftçilərimiz üçün hava şəraiti, gördüyünüz kimi, çox sərtdir, bəzi quyular dayanmaq üzrədir, «Çıraq-1»də ABƏŞ-in istismar etdiyi beş quyu dayanıbdır. Yəni borularda buzlaşma gedir. Ümumiyyətlə, soyuq havalarda nəql sistemi çox pis işləyir. Yəni bunlar texniki problemlərdir. Ancaq buna baxmayaraq, yenə deyirəm, ilin əvvəlindən neftçilərimiz əlavə xeyli neft hasil ediblər. Qaz hasilatında bir az gerilik var. Yəni Dövlət Neft Şirkəti tərəfindən 11 milyon kubmetr az təhvil verilmişdir. Bu da hava ilə əlaqədardır. Hesab edirəm ki, ayın axırına kimi qaydaya düşəcəkdır. Sizin göstərişiniz əsasında tədbirlər görülür və ən əsası odur ki, biz itkilərə yol verməyək. Mən hesab edirəm ki, bizim ən böyük

nöqsanımız, zəif yerimiz itkilərdir və bununla mübarizə aparmaq lazımdır. Yanacaq-enerji balansı tərtib olunubdur. Hesab edirəm ki, bu sahədə ciddi nizam-intizam lazımdır ki, yanacaq-enerji balansı icra olunsun. Buna nəzarət edəcəyik və mən Sizə vaxtaşırı bu barədə məlumat verəcəyəm.

**İ l h a m Ə l i y e v:** Rövnəq Abdullayev, məruzə elə, neft yataqlarında vəziyyət necədir? İndi dənizdə neftçilərimiz işləyirlər, onsuz da onların iş şəraiti ağırdır. Bu havada orada vəziyyət necədir, nə kimi tədbir görürsünüz?

**R ö v n ə q A b d u l l a y e v** (*Dövlət Neft Şirkətinin prezidenti*): Möhtərəm Prezident, hazırda elə bir problemli hadisələr baş verməyibdir. Əsas problemlər «Çıraq»da baş vermişdir, 5 quyu dayanmışdır. «28 May» yatağında bir boru xəttində problemlər var idi, onu da biz dünən tez bir zamanda aradan qaldırdıq. 1 milyon 50 min kubmetrə yaxın qaz nəql edən boru xətti idi. Hazırda biz yeni variantlarla işləyirik və o itki aradan götürülübdür.

Bu il qaz təhvilində geriləmə əsas onunla bağlıdır ki, ABƏŞ 15 yanvardan təmir işləri aparır, ona görə də «Azəri»dən gələn qazı bir az azaldıblar. Yanvarın 30-da bu məsələlər hamısı aradan götürüləcək və gündəlik 2,5 milyon kubmetr qaz təhvil alacağıq və geriləmə aradan qaldırılacaqdır. Dəniz yataqlarında elə bir problem yoxdur.

**İ l h a m Ə l i y e v:** Bütün bu məsələlərə operativ qaydada yanaşmaq, tezliklə həll etmək lazımdır. Yenə də deyirəm, havanın belə kəskin şəkildə pisləşməsi bizim üçün əlavə problemlər yaradır. Biz də gərək onları operativ qaydada, peşəkarlıqla həll edək, insanların normal həyatını maksimum dərəcədə təmin edək. Bütün müvafiq qurumlar gərək səmərəli işləsinlər, məsuliyyətli işləsinlər. Bu şəraitdə biz gərək insanların normal yaşamasını maksimum dərəcədə təmin edək. Əlbəttə ki, 2006-cı ildə görüləcək işlər, xüsusilə enerji sektorunda görüləcək işlər bizdə bu sahədə yeni bir şərait yaradacaqdır. Yəni qaz hasilatının artması, yeni elektrik stansiyalarının tikilməsi Azərbaycanda artıq bu problemi arxada

qoyacaq və bütövlükdə bu problem olmayacaqdır. Ancaq müəyyən səbəblərə görə, uzun illərdir ki, qış aylarında biz əziyyət çəkirik. Əminəm ki, 2006-cı ildə bu sahədə ciddi dönüş yaranacaq, bütün müəssisələr və əhali fasiləsiz, cədvəlsiz enerji daşıyıcıları ilə təmin olunacaqdır.

**SERBİYA VƏ ÇERNOQORİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏHAB SVETOZOR MAROVİÇƏ**

Hörmətli cənab Prezident!

Podqoritsa şəhəri yaxınlığında sərnişin qatarının qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər bizi son dərəcə kədərləndirdi.

Bu ağır faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə, bütün Serbiya və Çernoqoriya xalqına öz adımdan və Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*Bakı, 24 yanvar 2006-cı il*

## «NEFTÇİ» FUTBOL KLUBUNUN RƏHBƏRLƏRİ VƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*24 yanvar 2006-cı il*

Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Prezident sarayında Moskvada keçirilmiş «Birlik Kuboku» uğrunda turnirin qalibi «Neftçi» futbol klubunun rəhbərlərini və üzvlərini qəbul etmişdir.

**İ l h a m Ə l i y e v:** Əziz dostlar, mən sizi ürəkdən salamlayıram. Yanvarın 22-də Moskva şəhərində Azərbaycanın «Neftçi» komandası öz gözəl mübarizə əzmini göstərərək, «Birlik Kuboku»nun sahibi oldu. Bu çox böyük nailiyyətdir, böyük qələbədir və Vətənimizin futbolçularının belə mötəbər yarışlarda yeni uğurudur. Onlar ən yüksək kürsüyə qalxdılar və builki kubok artıq Azərbaycandadır, Bakıdadır. Mən sizin hamınızı bu böyük qələbə münasibətilə ürəkdən təbrik edirəm. Futbolçuları, onların məşqçilərini, federasiyanı, «Neftçi» klubunu – bütün idman ictimaiyyətini bu münasibətlə təbrik edirəm. Bu bir daha onu göstərir ki, Azərbaycanda idman çox yüksək səviyyədədir və onun müxtəlif növləri sürətlə inkişaf edir.

Azərbaycanın ictimaiyyəti, idman azarkeşləri bütün bu qələbələrə sevinirlər. Son zamanlar Azərbaycan futbolunda da böyük dəyişikliklərin baş verməsi çox önəmli hadisədir. Son 10 il ərzində Azərbaycanda, demək olar ki, idmanın bütün növləri çox sürətlə inkişaf etməyə başlamış və bizim idmançılarımız bütün beynəlxalq yarışlarda yüksək nəticələr göstərmişlər.

Keçən ilin sonunda mən idman ictimaiyyəti ilə görüşərkən bu barədə öz fikirlərimi dedim. Müxtəlif yarışlarda – dünya və

Avropa çempionatlarında, eləcə də Azərbaycanda keçirilmiş dünya çempionatlarında yüzlərlə medal qazanmışlar. Bu onu göstərir ki, Azərbaycan sözün əsl mənasında idman ölkəsidir.

Ancaq bilirsiniz ki, uzun illərdir futbolda böhran yaşanırdı. Futbolda vəziyyət o qədər də ürəkaçan deyildi. Hamımız bilirik ki, futbol dünyanın ən populyar idman növüdür. Biz çox istəyirik ki, futbolda da dönüş yaransın və bizim azarkeşlərimiz sevinsinlər, qələbə onları sevindirsin. Mən deyə bilərəm ki, son illər ərzində bu sahədə də müsbət nəticələr var. Azərbaycan Futbol Federasiyası möhkəmlənir və indi uğurlu fəaliyyət göstərir. Eyni zamanda, klublar çox yaxşı təşkil olunubdur. Bilirəm ki, müxtəlif klublarda çox gözəl proseslər gedir. Təlim-məşq toplanışlarının səviyyəsi qalxıb, futbolçularımızın şəraiti yaxşılaşıb və ölkə çempionatının səviyyəsi qalxıbdır. Bütün bunlar imkan verir ki, futbolda yaxşı nəticələr göstərilsin. «Neftçi»nin qələbəsi buna parlaq nümunədir.

Əlbəttə, bu, görülən işlərin nəticəsidir. Hər bir nəticəni əldə etmək, yüksək zirvəyə qalxmaq üçün, əlbəttə, çox böyük hazırlıq işləri aparılmalıdır. Yanvarın 22-də final yarışında futbolçularımız həm çox böyük peşəkarlıq, həm böyük vətənpərvərlik, həm də istedad göstərərək bu kuboku qazandılar. Ondan əvvəlki mərhələdə, yarımfinal görüşündə çox vacib idi ki, rəqiblərimiz Ermənistan komandası olsun. Ancaq onlar bu oyundan qaçdılar, turniri tərk etdilər və deyə bilərəm ki, bizim futbolçularımızdan qorxaraq, biabırcasına vətənə döndülər. Bu hərəkətin çox böyük əks-sədası olmuşdur. Mən bu hadisəni beynəlxalq mətbuat orqanlarında da izləmişəm. Bu, bütün idmansevərlərdə hiddət hissi doğurdu. Çünki bir var meydançada uduzmaq, bir də var ki, qorxub qaçmaq.

Mənim xatirimdədir, bir il bundan əvvəl biz sizinlə görüşmüşdük. O vaxt da «Neftçi» qələbəyə çox yaxın idi. Final yarışında məğlub olmuşdu. Ancaq ondan əvvəlki mərhələdə Ermənistanın həmin o komandasına çox inamlı zərbə endirmişdi, qələbə qazanmışdı və bizim hamımızın böyük bayramı idi. Bu gün ikiqat bayramdır. Çünki bir tərəfdən, biz öz

üstünlüyümüzü rəqiblərimizə yenidən göstərdik, digər tərəfdən, bununla bərabər, kuboku da əldə etdik. Bu, böyük nəticədir. Bu həm böyük idman nailiyyətidir, eyni zamanda sirr deyil ki, ölkəmiz üçün də böyük nailiyyətdir, bizim qələbəmizdir. Mən ümid edirəm ki, biz bütün sahələrdə bu qələbələri davam etdirəcəyik.

Bu gün Azərbaycan bütün sahələrdə öz üstünlüyünü nümayiş etdirir. İstər siyasi proseslərdə, iqtisadi inkişafda, ordu quruculuğunda, istərsə də cavanlarımızın vətənpərvərlik ruhunda tərbiyə olunmasında, idmanda – bütün sahələrdə.

İdman hər bir cəmiyyətin çox önəmli bir amilidir, sahəsidir. Ölkənin imicini formalaşdıran vasitədir. Gənc nəslin fiziki hazırlığına böyük dəstəkdir. İnsanlarımızın, gənclərimizin vətənpərvərlik ruhunda tərbiyə olunmasında böyük rol oynayır. Eyni zamanda, insanları həm fiziki, həm də mənəvi cəhətdən gücləndirir. Məhz ona görə dünyada idman tədbirlərinə böyük maraq var.

Olimpiya oyunları, dünya çempionatları – burada həm idmançılar, həm də ölkələr bir-birilə, sözün yaxşı mənasında, rəqabət aparırlar. Azərbaycan da bu istiqamətdə qabaqcıl yerlərdədir. Həm olimpiya oyunlarında, həm də digər yarışlarda, müxtəlif turnirlərdə idmançılarımız Azərbaycanın idman şöhrətini həmişə uca tuturlar. Sizin qələbəniz bir də onu göstərir ki, ölkəmiz nəyə qadirdir. Hər bir qələbə, hər bir nailiyyət bizi sevindirir və Azərbaycanın gücünü bütün dünyaya nümayiş etdirir. Mən buna görə sizi bir daha ürəkdən təbrik edirəm. Arzu edirəm ki, ölkəmizi bundan sonra da müxtəlif yarışlarda ləyaqətlə təmsil edəsiniz və Azərbaycanın bayrağını həmişə uca tutasınız.

**Rövnəq Abdullayev** (*«Neftçi» klubunun prezidenti*): Möhtərəm Prezident, qazanılan bu qələbə, komandanın bu uğuru ilk növbədə, Sizin uğurunuzdur. Sizin apardığınız daxili, xarici siyasətin, idmana qayğınızın nəticəsidir. Mən Sizin sözlərinizi komandaya çatdırdım. Sizin onlara uğurlar diləmənizi futbolçulara çatdırdım və gördünüz ki, onlar ne- cə

oyun göstərdilər. İcazə verin, ilk növbədə, bu çempionatın medalını Sizə təqdim edək. Çünki bu Sizin qələbənizdir.

**A ğ a s ə l i m  M i r c a v a d o v** *(«Neftçi» komandasının Baş məşqçisi)*: Bu qələbə bütün Azərbaycana, hamımıza lazım idi, bizim futbolumuza lazım idi. Cənab Prezident, bu qələbə Sizin əməyinizin sayəsində mümkün olmuşdur. Siz bu yaxınlarda futbolun inkişafı ilə bağlı onillik proqramı imzalamısınız. Bu bizi, mütəxəssisləri həddindən artıq çox sevindirir. Biz də əlimizdən gələni edəcəyik ki, Azərbaycan futbolu Sizin sayənizdə inkişaf etsin, yüksəlsin, Avropada öz sözünü desin. Sizə öz minnətdarlığımızı bildiririk. «Neftçi»nin yaxşı qələbələri hələ qabaqdadır.

**İ l h a m  Ə l i y e v:** Hərtərəfli müfəssəl proqram qəbul edilibdir. Ümid edirəm ki, bu proqramın icrası uğurlu olacaq və futbol çox sürətlə inkişaf edəcəkdir. Bizim beynəlxalq qurumlarla da əlaqələrimiz çox yüksək səviyyədədir. Mən xatırlayıram, FİFA-nın prezidenti Azərbaycana gəlmişdi, onunla görüşmüşdüm. Beynəlxalq əlaqələrin möhkəmlənməsi də çox vacibdir. Eyni zamanda, biz uşaq futboluna, yeniyetmə futboluna çox böyük diqqət göstərməliyik ki, Azərbaycanda peşəkar futbolçular yetişdirək. Bu olmasa, futbolun inkişafı çətinləşəcəkdir.

Mən bilirəm ki, «Neftçi»nin tərkibində xaricdən gələn oyunçular da var. Bu da çox önəmli bir məsələdir. Onların təcrübəsi, peşəkarlığı bizim futbolumuza müsbət təsir göstərir. Ancaq eyni zamanda, biz gərək yerli kadrları da hazırlayaq və bu baxımdan uşaq futboluna böyük diqqət göstərilməlidir.

İndi biz baxırıq, müşahidə edirik, izləyirik. Futbol bütün dünyada inkişaf edir. Elə ölkələr var ki, futbol keçmişdə onlarda o qədər də məşhur deyildi. Dünyada futbol ölkələri var, onlarda futbol ənənəvi olaraq həmişə güclü olubdur. Amma son illər ərzində baxırsan, elə ölkələr var ki, əvvəllər futbol orada heç o qədər də tanınmırdı, indi isə yaxşı futbolçular yetişir. Nəyə görə, nəyin hesabına? Məhz ilk növbədə, uşaq və yeniyetmə futbolunun inkişafı hesabına, işin düzgün qurulmasının

hesabına. Biz Azərbaycanda da buna böyük diqqət göstərməliyik. Məsələn, bugünkü uşaq, yeniyetmə 5–6–7 ildən sonra gözəl idmançıya çevriləcəkdir.

Mən xatırlayıram, məsələn, biz 7-8 il bundan əvvəl başqa idman növlərində yeniyetmələrin turnirlərinin keçirilməsində böyük işlər görmüşük. Beynəlxalq tədbirlər keçirmişik. O tədbirlərdə, turnirlərdə qələbə qazanmış uşaqlar indi istər güləşdə, istər boksda, istərsə də başqa idman növlərində bizim əsas yığma komandalarımızda iştirak edirlər. Yəni bu, futbolda da çox sürətlə getməlidir. Düzdür, bunu etmək üçün böyük vəsait lazımdır. Futbol elə bir idman növüdür ki, burada böyük dövlət dəstəyi lazımdır. Proqramın qəbul olunması da məhz bu məqsədi güdür. Dövlət öz dəstəyini göstərəcək, nazirlik, federasiya, klublar və futbol mütəxəssisləri də səmərəli işləməlidirlər. Məhz belə bir həmrəylik şəraitində biz daha böyük uğurlara nail ola bilərik.

Mən ümid edirəm ki, gələcəkdə bizim yığma komandamız daha yaxşı nəticələr göstərəcək və Azərbaycanın futbol şöhrəti daha da yüksəklərə qalxacaqdır. Mən buna şübhə etmirəm və bu işdə sizin hamınıza uğurlar arzulayıram.

**R a m i z  M i r z ə y e v** (*Azərbaycan Futbol Federasiyaları Assosiasiyasının prezidenti*): Vaxtilə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə çoxsaylı idman komplekslərinin və qurğularının yaradılması bu gün idmanımızın inkişafına güclü təkan verir. Son illər ölkəmizdə futbolun populyarlaşması üçün görülən genişmiqyaslı işlər beynəlxalq futbol təşkilatlarının da diqqətini cəlb edib. Cənab Prezident, futbolun inkişafı ilə bağlı Sizin tərəfinizdən qəbul edilmiş onillik Dövlət Proqramını futbolsevərlər və ictimaiyyət çox böyük rəğbətlə qarşılamışlar. UEFA-nın və FİFA-nın rəhbərliyi, nümayəndələri Azərbaycanda olduqları dövrdə – keçən ilin axırlarında UEFA-nın Baş katibi Azərbaycanda idi – bu sahədə gedən işləri bəyənərək, UEFA-nın İcraiyyə Komitəsinin iclasında Balkan ölkələrinə Azərbaycanda dövlətin bu sahəyə göstərdiyi diqqəti nümunə kimi göstərmiş və təqdirəlayiq hesab etmişdir.

Bu il yanvarın 14–15-də Moskvada FİFA-nın prezidenti Blatter ilə təkbətək görüşdə də ona bu barədə məlumatlar verildi. Yəni artıq Azərbaycanda beynəlxalq standartlara cavab verən stadionların tikintisi, mini futbol meydançalarının tikintisi, UEFA-nın het-trik proqramı üzrə Azərbaycana ayrılmış 1 milyon dollar vəsaitə tikilən süni örtüklü meydançalar haqqında, eyni zamanda, AFFA-nın ofis binasının tikintisi barədə və digər sahələrdə dövlətin göstərdiyi qayğı haqqında məlumat verilmişdir. O bunu çox bəyənmiş və Azərbaycana səfərini yada salaraq, bir daha məmnun və razı qaldığını bildirmiş və onun salamlarını şəxsən Sizə çatdırmağı xahiş etmişdir.

*Sonra Azərbaycan prezidentinə «Neftçi» klubu adından xatirə hədiyyələri – komandanın geyim forması, top, eləcə də «Birlik Kuboku» təqdim olundu.*

*Prezident İlham Əliyev görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN RUSİYA HÖKUMƏTİ SƏDRİNİN MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ SERGEY İVANOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*25 yanvar 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 24-də Prezident sarayında Rusiya Federasiyası hökuməti sədrinin müavini, Müdafiə naziri Sergey İvanovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan prezident İlham Əliyev Azərbaycan ilə Rusiya arasında siyasi, iqtisadi, o cümlədən hərbi və hərbi-texniki sahələrdə əlaqələrin inkişafından məmnun olduğunu bildirdi. Ölkələrimiz arasındakı münasibətlərin mehriban qonşuluq və dostluq prinsiplərinə əsaslandığını vurğulayan prezident İlham Əliyev ötən il Rusiyada «Azərbaycan ili»nin uğurla keçirildiyini qeyd etdi və bu il Azərbaycanda da «Rusiya ili»nin müvəffəqiyyətlə keçiriləcəyinə əminliyini ifadə etdi. Prezident İlham Əliyev ümidvar olduğunu bildirdi ki, ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən hərbi qurumlar arasında mövcud olan ikitərəfli münasibətlər bundan sonra da inkişaf etdiriləcəkdir.*

*Sergey İvanov Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarını prezident İlham Əliyevə çatdıraraq dedi ki, artıq Rusiya rəhbərinin Azərbaycana növbəti səfərinə hazırlıq işləri getməkdədir. 2000-ci ildə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının sədri kimi, Bakıya səfər etdiyini nəzərə çatdıran qonaq həmin səfər zamanı xalqımızın ümummilli lideri*

*Heydər Əliyev ilə görüşünü məmnunluqla xatırladı. Sergey İvanov ölkələrimiz arasında müxtəlif sahələrdə, o cümlədən hərbi və hərbi-texniki sahələrdə əlaqələrin bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.*

*Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Rusiyanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## BAKININ QIŞ MƏNZƏRƏSİ İLƏ YAXINDAN TANIŞ OLMASI, PAYTAXTIN MÜXTƏLİF YERLƏRİNDƏ SAKİNLƏRLƏ GÖRÜŞMƏSİ, ONLARIN QAYĞILARI İLƏ MARAQLANMASI

*25 yanvar 2006-cı il*

*Azərbaycan Respublitkasının Prezidenti İlham Əliyev yanvarın 25-də ölkəmizin paytaxtının qış mənzərəsi ilə yaxından tanış olmaq, şəhərin müxtəlif yerlərində sakinlərlə görüşmək və onların qayğıları ilə maraqlanmaq üçün növbəti dəfə şəhər gəzintisinə çıxmışdır.*

*Prezident İlham Əliyev əvvəlcə metropolitenin «Bakı Soveti» stansiyasına gəldi. Sərnişinlər dövlətimizin başçısı ilə açıq, səmimi söhbət etdilər. Azərbaycan prezidenti belə hava şəraitində onların vəziyyəti ilə maraqlandı. Şəhər sakinləri belə havalarda əhalinin çətinliklə üzləşməməsi üçün görülən operativ tədbirlərə görə dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər.*

*Prezident İlham Əliyev «28 May» stansiyasında metronun xidməti fəaliyyəti ilə, havaların soyuması zamanı ictimai nəqliyyatın bu vasitəsindən istifadə edən sərnişinlərin sayı ilə maraqlandı. Dövlətimizin başçısına məlumat verildi ki, son dövrdə metropoliten sisteminin müasir tələblərə cavab verməsi baxımından bir çox dəyişikliklər edilmişdir. Sərnişinlərin təhlükəsizliyinin təmin edilməsinə diqqət artırılmışdır. Əvvəlki günlərlə müqayisədə, son 2-3 gün ərzində metrodan istifadə edən sərnişinlərin sayı xeyli çoxdur.*

*Metronun «28 May» stansiyası qarşısında prezident İlham Əliyev sakinlərlə görüşüb söhbət etdi.*

**S a k i n l ə r:** Möhtərəm cənab Prezident, bütün Azərbaycan gəncliyi Sizinlədir. Biz Sizinlə fəxr edir, siyasətinizi dəstəkləyirik.

**İ l h a m Ə l i y e v:** Çox sağ olun. Mən də sizi dəstəkləyirəm və gəldim ki, görüm bu soyuq havada vəziyyət necədir. Bir neçə gündür qar yağır, havalar soyuyubdur. Mən bütün göstərişləri vermişəm ki, şəhər xidmətləri daha da gərgin rejimdə işləsinlər. Çünki metro əsas nəqliyyat vasitəsidir. Metroda da vəziyyət pis deyil, yaxşıdır.

**S a k i n l ə r:** Biz Sizi dəstəkləyirik. Bütün Azərbaycan xalqı Sizdən çox razıdır. Sizə Allahdan uzun ömür, cansağlığı arzulayırıq. Əsas odur ki, xalq Sizi sevir. Başqa söhbətlər, nə bilim, müxalifət belə deyir–bunlar boş söhbətlərdir. Xalq Sizi sevir və Sizi də dəstəkləyir. Biz fəxr edirik ki, İlham Əliyev kimi prezidentimiz var. Ulu öndər Heydər Əliyevin gözəl davamçısı, onun ideyalarını yerinə yetirən oğlu bizə daim gərəkdir.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən də çalışıram ki, Azərbaycan daha da möhkəmlənsin, daha da güclənsin. Həm iqtisadiyyat, həm də siyasi proseslər. Əlbəttə ki, Qarabağ məsələsi də öz həllini tapmalıdır. Mənim bu barədə dəfələrlə çıxışlarım olubdur. Biz heç bir güzəştə gedən deyilik. Bu bizim torpağımızdır, tarixi Azərbaycan torpağıdır və biz onu istənilən yolla, istənilən vasitə ilə işğaldan azad etməliyik. Ona görə də güclənməliyik. Daha da güclü ordu yaranmalıdır. Gənclərimiz vətənpərvərlik ruhunda tərbiyə olunmalıdırlar və iqtisadiyyat inkişaf etməlidir.

**S a k i n l ə r:** Sağ olun, biz buna inanırıq. Hamımız canımızı qurban verməyə hazırıq. Allah Sizi bizim üstümüzdən əskik etməsin.

**İ l h a m Ə l i y e v:** Sağ olun, salamat qalın.

*Dövlətimizin başçısı paytaxtımızın təmizliyinin, səliqə-sahmanının qayğısına qalan sadə əmək adamları ilə də görüş-*

*dü, onları düşündürən məsələlərlə bağlı müvafiq tapşırıqlar verdi.*

**S a k i n** *(Lənkəran rayonundan gəlmiş 70 yaşlı kişi):* Cənab Prezident, mən Lənkərandan gəlmişəm. Allah Sizdən razı olsun. Kim işləməyi bacarırsa, qazanacaq və dolanacaq. Mən 70 yaşlı qoca kişiyəm. Öz təsərrüfatımda çalışıram, mal-qara saxlayıram. İşlərim yaxşıdır, istehsal etdiyim məhsulu satıram və dolanıram.

**R a m i z   Q u l i y e v** (*Xalq artisti, professor*): Cənab Prezident, srağagün İrandan qayıtmışam. Çox gözəl bir müsabiqənin laureatı oldum. Azərbaycan musiqisinin layiq olduğu «Qızıl çəng» mükafatını İrandan ölkəmizə gətirdik. Sizin Azərbaycan mədəniyyətinə, musiqisinə göstərdiyiniz diqqəti, qayğını çox bəyənirlər. Ümumiyyətlə, 14 ölkəni təmsil edən musiqiçilərin, mədəniyyət işçilərinin Sizə xüsusi məhəbbətləri vardır. Məndən xahiş etdilər ki, Sizə onların salam-duasını çatdırım.

Mən bu yoldan keçib Bakı Musiqi Akademiyasına işə gedirdim. Sizi gördüm və ürəyim açıldı, gəlib salam verməyi özümə borc bildim. Çox sağ olun, şəxsən mənim ailəmi çox sevindirdiniz. Bu yaxınlarda bizə mənzil verdiniz. Biz xalqımıza, dövlətimizə, millətimizə yüksək dərəcədə layiq olan prezidentimizə xidmət və qulluq edəcək, ona sadiq olacağıq. İnanın ki, Sizi görəndə ürəyim açılır. Heç bir ölkədə mədəniyyətə, incəsənətə Sizin kimi qayğı göstərən yoxdur. Sağ olun, var olun, minnətdarıq.

***

*Prezident İlham Əliyev yolüstü bir neçə ticarət mərkəzinə də baş çəkdi, xidmətin təşkili ilə tanış oldu və dedi ki, belə gözəl, müasir müəssisələri görəndə sevinirəm. Hər şey yüksək səviyyədə olmalıdır. Hər bir açılan müəssisə, dükan, yaxud da başqa obyekt yüksək səviyyədə olmalıdır.*

*Azərbaycan–İtaliya–Türkiyə birgə mağazasında satılan məişət mallarının keyfiyyəti ilə maraqlanan dövlətimizin başçısı*

*bildirdi ki, yaxşı olar, bu malları burada istehsal edəsiniz. İndi Azərbaycanda biznes yaxşı inkişaf edir. Yeni müəssisələr, dükanlar açılır.*

*Yolboyu dövlətimizin başçısına yaxınlaşan paytaxt sakinləri ona xoş sözlərlə müraciət edir, minnətdarlıqlarını bildirirdilər.*

**S a k i n l ə r:** Cənab Prezident, Allah Sizə dəyməsin. Siz ki, sadə Azərbaycan vətəndaşlarına bu qədər qayğı, diqqət, səmimiyyət göstərirsiniz, Allah Sizdən razı olsun. Atalar düz deyib ki, ot kökü üstə bitər. Cənab Prezident, inanırıq ki, Siz Azərbaycanın çiçəklənməsi üçün əlinizdən gələni edirsiniz və edəcəksiniz. Biz hamımız buna əminik və bu yolda Sizi dəstəkləyirik.

**İ l h a m Ə l i y e v:** Xoş sözlərə görə hamınıza təşəkkür edirəm.

**ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSEYƏ**

Hörmətli cənab Prezident!

Milli bayramınız – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Şri-Lanka arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 yanvar 2006-cı il*

**YENİ ZELANDİYANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM HELEN KLARKA**

Hörmətli xanım Baş nazir!

Yeni Zelandiyanın milli bayramı – Vaytanqa günü münasibətilə Sizə və xalqınıza təbriklərimi yetirirəm.

Ümidvaram ki, ölkələrimiz arasında yaranmış münasibətlər, əməkdaşlığımız xalqlarımızın rifahı naminə daim genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost xalqınıza sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *25 yanvar 2006-cı il*

# AVSTRİYANIN DÖVLƏTİN QORUNMASI VƏ TERRORİZMƏ QARŞI MÜBARİZƏ ÜZRƏ FEDERAL AGENTLİYİNİN DİREKTORU GERT-RENE POLLİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 yanvar 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Prezident sarayında Avstriyanın Dövlətin Qorunması və Terrorizmə Qarşı Mübarizə üzrə Federal Agentliyinin direktoru Gert-Rene Pollini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan prezident İlham Əliyev Azərbaycan ilə Avstriya arasındakı münasibətlərin yüksək səviyyədə olduğunu qeyd etdi. Avstriyanın hazırda Avropa İttifaqında sədrlik etdiyini vurğulayan prezident İlham Əliyev Azərbaycanın bu qurum ilə yaxından əməkdaşlıq etdiyini, ölkəmizin «Yeni qonşuluq siyasəti»nin fəal iştirakçısı olduğunu bildirdi. Prezident İlham Əliyev hazırda terror təhlükəsinin qlobal xarakter daşıdığını diqqətə çatdıraraq, Azərbaycanın terrorizmlə mübarizədə çox fəal iştirak etdiyini, regionda və dünyada sülhün, təhlükəsizliyin təmin edilməsi işinə öz töhfəsini verdiyini vurğuladı. Prezident İlham Əliyev ölkələrimiz arasındakı əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə əminliyini bildirdi.*

*Gert-Rene Polli terrorizmlə mübarizədə Azərbaycanın önəmli rol oynadığını vurğulayaraq, bu sahədə ölkəmizlə əməkdaşlığın Avstriya üçün böyük əhəmiyyətə malik olduğunu diqqətə çatdırdı. O, Azərbaycanın geosiyasi baxımdan çox mühüm mövqedə yerləşdiyini qeyd edərək, ölkəmizin Avropa İttifaqına inteqrasiyası üçün yaxşı imkanlar olduğunu bildirdi.*

## ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, BELÇİKA KRALLIĞININ XARİCİ İŞLƏR NAZİRİ KAREL DE QUXTUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*25 yanvar 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 25-də Prezident sarayında ATƏT-in fəaliyyətdə olan sədri, Belçika Krallığının Xarici İşlər naziri Karel de Quxtun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycan–ATƏT əməkdaşlığı, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlı aparılan danışıqlar, münaqişənin nizama salınmasının perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər də müzakirə edilmişdir.*

## AVROPA KOMİSSİYASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ XÜSUSİ ELÇİSİ ALAN UADDAMS İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*26 yanvar 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Prezident sarayında Avropa Komissiyasının ölkəmizdə yeni təyin olunmuş xüsusi elçisi Alan Uaddamsı qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycanla Avropa Komissiyası arasında əməkdaşlığın hazırkı vəziyyəti, perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər müzakirə edilmişdir.*

*Cənab Uaddams Avropa Komissiyasının sədri Xose Manuel Barrosonun salamlarını dövlətimizin başçısına çatdırmış və onun məktubunu təqdim etmişdir.*

*Məktubda Avropa Komissiyasının Azərbaycanla əlaqələrə böyük əhəmiyyət verdiyi qeyd olunmuş, Avropa Komissiyası ilə Azərbaycan arasında sıx əməkdaşlığın bundan sonra da inkişaf etdirilməsi əzmi ifadə olunmuşdur.*

*Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamlarını Avropa Komissiyasının sədrinə çatdırmağı xahiş etdi.*

## AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ NÜMAYƏNDƏSİ HEYKİ TALVİTİYEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*26 yanvar 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev yanvarın 26-da Prezident sarayında Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi Heyki Talvitiyeni qəbul etmişdir.*

*Heyki Talvitiye Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi kimi Azərbaycana sonuncu dəfə səfər etdiyini bildirdi. O, Azərbaycana əvvəllər həyata keçirdiyi səfərləri zamanı xalqımızın ümummilli lideri Heydər Əliyev ilə keçirdiyi görüşləri məmnunluqla xatırladı. Qonaq fəaliyyətə başladığı vaxtdan keçən dövr ərzində Azərbaycanda həqiqi bir inkişafın şahidi olduğunu və Azərbaycana olan diqqətin durmadan artdığını bildirdi. Heyki Talvitiye Azərbaycanla Avropa İttifaqı arasındakı əlaqələrin daim genişləndiyini qeyd edərək, qarşılıqlı səfərlərin əhəmiyyətini vurğuladı. O, prezident İlham Əliyevin Avropa ölkələrinə, o cümlədən Brüsselə səfərlərinin uğurla keçdiyini bildirərək, bu səfərlərin ölkəmizin Avropaya inteqrasiyası işində mühüm rol oynadığını diqqətə çatdırdı.*

*Prezident İlham Əliyev Avropa İttifaqının Cənubi Qafqaz üzrə nümayəndəsi qismində həyata keçirdiyi fəaliyyətə, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əməkdaşlığın inkişafına verdiyi töhfəsinə görə Heyki Talvitiyeyə təşəkkürünü bildirdi. Prezident İlham Əliyev Heyki Talvitiyenin ölkəmizə səfərləri zamanı onunla daim səmərəli danışıqların aparıldığını qeyd etdi. O, Azərbaycan ilə Avropa İttifaqı arasındakı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ BAKI ŞƏHƏRİNDƏ YOL HƏRƏKƏTİ VƏ NƏQLİYYAT SİSTEMİNİN VƏZİYYƏTİNƏ, İNKİŞAF PERSPEKTİVLƏRİNƏ HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*27 yanvar 2006-cı il*

**İ l h a m Ə l i y e v:** Son illər ərzində Bakıda yol hərəkəti ilə bağlı müəyyən problemlər yaranmağa başladı. Bunun da təbii səbəbləri var. Çünki ölkəmizdə iqtisadiyyat çox sürətlə inkişaf edir. Demək olar ki, bütün sahələrdə çox güclü irəliləyiş var. 2005-ci ildə əhalinin pul gəlirləri təxminən 27 faiz artmışdır. Ümumi daxili məhsul da təxminən bu səviyyədədir. Yəni bütün bu amillər təbii olaraq, şəhər infrastrukturuna əlavə bir yük gətirir.

Hər bir inkişafın əlamətləri var. Onlardan biri, məsələn, binaların tikintisidir. İndi Bakıda bu proses çox sürətlə gedir. Bu onu göstərir ki, insanların həyat səviyyəsi yaxşılaşır, maddi rifahı yüksəlir və bu bizi çox sevindirir. Belə də olmalıdır. Bizim qəbul etdiyimiz bütün proqramlar imkan yaradır ki, Azərbaycan xalqı, onun vətəndaşları daha da yaxşı yaşasın. Bundan sonrakı illərdə bizim bütün nəhəng, irimiqyaslı layihələrimiz həyata keçdikcə, bu inkişaf daha da sürətlə gedəcəkdir.

İnkişafın digər əlaməti ondan ibarətdir ki, ölkədə avtomobillərin sayı artır. Biz bunu Bakıda görürük, hiss edirik. Xüsusilə son iki il ərzində avtomobillərin sayı kəskin şəkildə artmışdır və təbii olaraq, şəhərdə tıxaclar baş verir və şəhərin yol infrastrukturuna əlavə yük düşür. Məndə olan məlumata

görə, əgər biz avtomobillərin artım dinamikasına nəzər salsaq görərik ki, 2001-ci ildə 9 min, 2002-ci ildə 13 min, 2003-cü ildə 21 min, 2004-cü ildə 30 min və 2005-ci ildə 44 min avtomaşın gətirilibdir.

Bütünlükdə Azərbaycanda avtonəqliyyat vasitələrinin ümumi sayı 610 min ədəddir. Bakıda isə 350 mindən çoxdur. Əgər şəhərdə tranzit şəkildə hərəkət edən maşınları da nəzərə alsaq, bu da təxminən 60–70 min ədəd əlavə maşın deməkdir. Bir sözlə, bu, şəhər infrastrukturuna çox böyük bir təzyiqdir.

Onu da qeyd etmək istəyirəm ki, Bakının avtomobil parkının sayı 350 min olduğu təqdirdə, son iki il ərzində 100 min avtomobil gətirilibdir. Yəni bu onu göstərir ki, son iki il ərzində Azərbaycanda çox geniş, irimiqyaslı işlərin görülməsi nəticəsində ciddi irəliləyiş baş vermişdir. Yenə də deyirəm, avtomobillərin sayının artması ümumi inkişaf dinamikasını göstərir və bunun mühüm əlamətidir.

Bir müddət bundan əvvəl mən şəhərin müxtəlif yerlərində, əsas gərginlik olan yerlərdə vəziyyətlə şəxsən tanış oldum. Nəqliyyat Nazirliyinə və Bakı Şəhər İcra Hakimiyyətinə müvafiq göstərişlər verdim ki, qısa müddət ərzində geniş proqram hazırlansın, müzakirə olunsun, təsdiqlənsin və biz işə başlayaq.

Mən hesab edirəm ki, biz bu işləri iki istiqamətdə aparmalıyıq. Birincisi ondan ibarət olmalıdır ki, yeni nəqliyyat infrastrukturunun yaradılması məsələsi öz həllini tapmalıdır. Yəni yeni yolların salınması, yolötürücülərinin tikilməsi, nəqliyyat qovşaqlarının tikilməsi, yolların genişləndirilməsi, körpülərin tikilməsi. Bu çox geniş proqramdır. Bakı şəhərində 10-dan çox dairə var və onların hamısında bu işlər görülməlidir. İkinci istiqamət də mövcud yolların genişləndirilməsi, təmiri, harada lazımdırsa, yeni yolların salınması, yolların birləşməsi və sair işlərdən ibarət olmalıdır.

Əgər biz bunu etməsək, gələcəkdə Bakının çox ciddi problemləri olacaqdır. Biz böyük şəhərlərin təcrübəsini, böyük meqapolislərin problemlərini bilirik. Məsələn, Tokio, Nyu-York,

Moskva, İstanbul, London şəhərlərində bu çox ciddi problemə çevrilibdir. Bəzilərində şəhərin mərkəzinə maşınların buraxılışı pulludur. Bəzi şəhərlərdə müəyyən maşınlar mərkəzə bir gün buraxılır, o biri maşınlar o biri gün buraxılır.

Bakının, Azərbaycanın gələcək inkişafı da bizim üçün aydın və bəllidir. Daha da sürətli inkişaf gedəcək, insanlarımız daha da yaxşı yaşayacaqlar. Ailədə bir, iki maşın olacaqdır. Şəhərin əhalisi də artır və əlbəttə ki, bu infrastruktura biz gərək çox ciddi dəstək verək. Mən ümid edirəm ki, qəbul edəcəyimiz proqramlar qısa müddət ərzində bu problemin aradan qaldırılmasına xidmət edəcək və beləliklə, şəhərin yol infrastrukturu tamamilə yeniləşəcəkdir.

**Z i y a M ə m m ə d o v:** Möhtərəm cənab Prezident, zati-alilərinizin rəhbərliyi altında Azərbaycan Respublikasının son illər ərzində əldə etdiyi böyük uğurlar və ölkə iqtisadiyyatının sürətli inkişafını təmin edən əsaslı tədbirlər sayəsində ümumi daxili məhsulun həcminin ilbəil yüksələn artım meyli, dövlət büdcəsinin möhkəmlənməsi, iqtisadiyyata sərmayə qoyuluşunun artması ölkəmizdə iqtisadi və sosialyönümlü proqramların daha geniş miqyasda həyata keçirilməsi üçün əlverişli imkanlar yaratmışdır.

Ümummilli liderimiz Heydər Əliyevin xəttinin uğurlu davamı olan bu siyasətiniz dövlətimizin daha da qüdrətlənməsinə, onun beynəlxalq nüfuzunun və demokratik imicinin yüksəlməsinə xidmət göstərir, əhalinin sosial problemlərinin həllini və maddi rifah halının yaxşılaşmasını təmin edir.

Sizin şəxsi təşəbbüsünüz və qayğınız sayəsində həyata keçirilən dövlət proqramları nəqliyyat sektorunu da geniş əhatə edərək, ölkənin bütün nəqliyyat qurumlarının fəaliyyətində əhəmiyyətli irəliləyişlərə səbəb olmuşdur. Bu dövrdə nəqliyyat-yol kompleksində, xüsusilə də avtomobil nəqliyyatı sahəsində bir çox yeni özəl şirkətlər yaradılaraq, mövcud dövlət nəqliyyat qurumları ilə yanaşı, yük və sərnişin daşımalarına başlamışlar. Ölkə üzrə daşımaların həcminin yüksəlməsinə təsir edən bu amil, eyni zamanda, yollarda hərəkətin intensivliyinin artmasına

səbəb olmuşdur. Bundan başqa, son vaxtlar il ərzində respublikaya orta hesabla 40 mindən artıq avtomobil gətirilir. Hazırda respublikada 600 mindən artıq avtonəqliyyat vasitəsi qeydiyyatdadır ki, bunun da böyük əksəriyyəti Bakı şəhərində cəmləşir. Ona görə də, cənab Prezident, Nəqliyyat Nazirliyi, Daxili İşlər Nazirliyi, Bakı Şəhər İcra Hakimiyyəti ilə və digər əlaqədar qurumlarla birlikdə şəhərdə yol infrastrukturunun təkmilləşdirilməsinə dair Sizin şəxsi göstərişlərinizin icrasına başlanmışdır. Bu, bütövlükdə Bakının sosial-iqtisadi inkişafı ilə bağlı zati-alilərinizin nəzarəti altında görülən irimiqyaslı tədbirlərin tərkib hissələrindən biridir.

Möhtərəm cənab Prezident, Bakı şəhərində nəqliyyatın hərəkətinin daha sıx olduğu yerlərdə vəziyyətlə şəxsən tanış olduqdan sonra avtomobil tıxacları nəticəsində yaranmış çətinliklərin həllinə və vətəndaşların bununla bağlı üzləşdiyi narahatlıqların aradan qaldırılmasına yönəlmiş təxirəsalınmaz tədbirlərin görülməsi məqsədi ilə yaxın iki il ərzində şəhərin müxtəlif nəqliyyat qovşaqlarında yolötürücülərin və piyada keçidlərin layihələşdirilməsi və tikilməsi barədə Nəqliyyat Nazirliyinə verdiyiniz tapşırıqların icra vəziyyəti haqqında məlumatları icazənizlə ali diqqətinizə təqdim edim.

Əzizbəyov dairəsi – bu yol qovşağının yenidən qurulması üçün bir neçə varianta baxılmış və Sizə təqdim edilən ikimərtəbəli hərəkət sxemi əsasında tərtib olunmuş variant əsas kimi qəbul edilərək, layihələşdirilməsinə başlanmışdır. Burada layihə və tikinti işlərinin paralel aparılması nəzərdə tutulur. Layihələşdirmə 2006-cı ilin yanvar-noyabr aylarını əhatə edəcəkdir. Mühəndis kommunikasiyalarının köçürülməsi aprelin sonunadək başa çatdırılacaqdır. Tikinti işlərinin 2006-cı ilin aprel ayında başlanması və 2007-ci ilin dekabr ayında tamamlanması nəzərdə tutulur.

Qovşaqda aşağıdakı işlərin görülməsi nəzərdə tutulur: ümumi uzunluğu 1500 metr olan estakada tipli yolötürücüləri, o cümlədən 820 metr uzunluğunda 1 ədəd dördzolaqlı, ümumi uzunluğu 520 metr olan 4 ədəd ikizolaqlı və ümumi uzunluğu

160 metr olan 2 ədəd birzolaqlı estakada tipli yolötürücüləri, ümumi uzunluğu 120 metr olan ikizolaqlı 2 ədəd körpü, 570 metr uzunluğunda istinad divarı, ümumi uzunluğu 280 metr olan 4 ədəd yerüstü piyada körpü keçidi, dördmərtəbəli avtovağzal və ticarət mərkəzi, 4 ədəd avtopavilyon.

Ziya Bünyadov və Atatürk prospektlərinin kəsişməsi. Layihə və tikinti işlərinin paralel aparılması nəzərdə tutulmuş bu qovşaqda hazırda geodeziya-axtarış işləri aparılır. Burada layihə işlərinin 2006-cı il fevral–avqust, tikinti işlərinin isə 2006-cı il may – 2007-ci il ərzində aparılması və tamamlanması nəzərdə tutulur. Görüləcək tikinti işləri: uzunluğu 110 metr olan altızolaqlı bir ədəd yolötürücü, 1200 metr uzunluğunda istinad divarları, ümumi uzunluğu 170 metr olan 2 ədəd yolüstü piyada keçid, 4 ədəd avtopavilyon.

Ziya Bünyadov və Azadlıq prospektlərinin kəsişməsi. Layihə və tikinti işlərinin paralel aparılması nəzərdə tutulmuş bu qovşaqda hazırda geodeziya-axtarış işləri gedir. Layihələşdirmə işləri 2006-cı ilin fevral–avqust aylarında görüləcəkdir. Tikintinin 2006-cı ilin may ayında başlanması və 2007-ci ilin sentyabr ayında tamamlanması planlaşdırılır. Görüləcək işlər: uzunluğu 190 metr olan altızolaqlı 1 ədəd yolötürücü, ümumi uzunluğu 450 metr olan ikizolaqlı 2 ədəd yolötürücü, 2660 metr uzunluğunda istinad divarları, ümumi uzunluğu 300 metr olan 4 ədəd yerüstü piyada körpü keçid, 4 ədəd avtopavilyon.

3-cü mikrorayon dairəsi: qovşağın layihəsi 2006-cı ilin may-dekabr ayları ərzində hazırlanacaqdır. Burada tikinti işlərinə 2006-cı ilin noyabr ayında başlamaq və 2007-ci ilin sonunda tamamlamaq nəzərdə tutulur. Qovşaqda görüləcək tikinti işləri: uzunluğu 200 metr olan dördzolaqlı 1 ədəd yolötürücü, ümumi uzunluğu 440 metr olan 2 ədəd ikizolaqlı yolötürü, 2240 metr uzunluğunda istinad divarları, ümumi uzunluğu 220 metr olan 5 ədəd yerüstü piyada körpü keçid, 5 ədəd avtopavilyon.

20 Yanvar dairəsi: cənab Prezident, bu yol qovşağının yenidən qurulması üçün müxtəlif variantlara baxılmış və Sizə təqdim olunan variant üzrə layihələşdirmə işləri 2006-cı ilin

aprel–dekabr aylarında aparılacaqdır. Tikintiyə cari ilin avqust ayından başlanması və işlərin 2007-ci ilin sonunda başa çatdırılması nəzərdə tutulur. Obyektdə görüləcək işlər: uzunluğu 180 metr olan altızolaqlı 1 ədəd yolötürücü, uzunluğu 150 metr olan dördzolaqlı 1 ədəd tunel, 1180 metr uzunluğunda istinad divarları, 190 metr uzunluğunda 4 ədəd piyada körpü keçid, 4 ədəd avtopavilyon.

Tbilisi prospekti ilə Salamzadə küçəsinin kəsişməsi: obyektin layihəsi 2006-cı ilin iyun–dekabr ayları ərzində hazırlanacaqdır. Tikinti işlərinə 2006-cı ilin avqust ayında başlamaq və 2007-ci ilin sonunda başa çatdırmaq planlaşdırılır. Hazırda burada geodeziya-axtarış işləri davam etdirilir. Qovşaqda görüləcək işlər: uzunluğu 370 metr olan altızolaqlı 1 ədəd yolötürücü, 720 metr uzunluğunda istinad divarları, ümumi uzunluğu 196 metr olan 4 ədəd yerüstü piyada körpü keçid, 4 ədəd avtopavilyon.

Cənab Prezident, bu qovşaqlarda görüləcək işlərin qiymətləri və tikinti müddətləri layihələr başa çatdıqdan sonra bir daha dəqiqləşdiriləcəkdir.

Göstərilən işlərin müəyyən edilmiş müddətdə həyata keçirilməsinin vacibliyini nəzərə alaraq, layihələr üzrə maliyyə məsələlərinin ilkin hissəsi həll edilmiş, tikinti işlərini yerinə yetirəcək podratçı şirkətlər qismən müəyyənləşdirilmişdir. Tikinti işlərinin icrası zamanı hərəkət prosesində müəyyən problemlərin yaranacağı labüddür və bu zaman Daxili İşlər Nazirliyi, Nəqliyyat Nazirliyi və Bakı Şəhər İcra Hakimiyyəti tərəfindən hərəkətin tənzimlənməsi ilə bağlı razılaşdırılmış tədbirlər həyata keçirilməlidir. Eyni zamanda, göstərilən qovşaqlarda mövcud kommunikasiyaların tezliklə köçürülməsi tikinti işlərinin vaxtında başa çatdırılmasına zəmin yaradacaqdır.

Hesab edirik ki, problemlər bununla bitmir. Cənab Prezident, Sizin tapşırıqlarınıza müvafiq olaraq, göstərilən problemlərin kompleks həlli məqsədi ilə yaxın gələcəkdə şəhərin digər yollarında və daha 12 yol qovşağında, o cümlədən Heydər

Əliyev prospekti ilə Ağa Nemətulla küçəsinin kəsişməsində, Azneft, Suraxanı və «Xalqlar dostluğu» dairələrində, «Excelsior» hotelinin qarşısındakı dairədə, Mətbuat prospekti ilə Haqverdiyev küçəsinin kəsişməsində, «Sevil» kinoteatrının qarşısında, Babək prospektində avtomobil bazarının qarşısında və digər qovşaqlarda anoloji işlərin görülməsi nəzərdə tutulmalıdır. Nəqliyyat vasitələrinin çoxluğu və hərəkətin sıxlığı səbəbindən göstərilən işlərin mərhələlərlə həyata keçirilməsi məqsədəuyğundur. Hərəkətin intensivliyinin gələcəkdə daha da artacağını nəzərə alsaq, şəhərdə yeraltı və yerüstü avtomobil dayanacaqlarının inşasına və küçələrin genişləndirilməsinə böyük ehtiyac duyulur.

Yol hərəkətinin tənzimlənməsi ilə bağlı görüləcək tədbirlər sırasına ilkin sxematik variantda hazırlanmış, yol birləşmələri və kəsişmələri müxtəlif səviyyədə olan 14 kilometrlik Əzizbəyov dairəsi–Heydər Əliyev adına beynəlxalq hava limanı avtomobil yolu da daxildir. Bu yol üzərində, Əzizbəyov dairəsi də daxil olmaqla, 6 ədəd yol qovşağı, o cümlədən Sabunçu, Bakıxanov dairələri, Əmircan qəsəbəsi qarşısındakı yol qovşağı, Yeni Suraxanı dairəsi, hava limanına döngədə yol qovşağı və dəmir yolu üzərindən keçən 1 ədəd avtomobil körpüsü mövcuddur. Yolun tərtib olunan görünüşü və ilkin hesablamalar nazirliyin mütəxəssisləri və Texnologiya KörpüTikinti Layihə-İstehsalat Müəssisəsi tərəfindən işlənilmişdir. Eyni zamanda Almaniyanın arxitektura və planlaşdırma şirkəti tərəfindən də alternativ layihə işlənilmişdir. Lakin təqdim edilən hazırkı layihə iqtisadi və texniki cəhətdən daha səmərəli variant kimi qiymətləndirilmişdir.

Möhtərəm cənab Prezident, bildirmək istərdim ki, Sizin tapşırığınıza uyğun olaraq, yeni variantda layihələşdiriləcək, başlanğıcını Lökbatan dairəsindən götürməklə, Xırdalan, Binəqədi, Mehdiabad, Məmmədli, Zabrat, Maştağa, Ramana qəsəbələrinin yanından keçərək, Zığ–Hövsan şosesi ilə birləşən və nəqliyyatın 8 cərgəli hərəkəti üçün nəzərdə tutulmuş 54 kilometrlik «Bakı dairəvi–2» avtomobil yolunun gələcəkdə tikintisi ilə bağlı araşdırmalar

aparılmış və yolun keçəcəyi ərazilər öyrənilmişdir. Hesab edirik ki, bu yolun imkan daxilində tikintisi Bakı şəhərində tıxacların aradan qaldırılmasına, yük və sərnişin daşımalarının asanlaşdırılmasına xidmət edəcəkdir.

Bakı şəhərində inşa edilən müasir tələblərə cavab verən yeni beynəlxalq avtovağzal kompleksi istifadəyə verildikdən sonra sərnişin daşıyan nəqliyyat vasitələrinin şimal və cənub istiqamətlərində şəhərə girişi məhdudlaşdırılacaqdır. Eyni zamanda, «Bakı dairəvi-1» avtomobil yolu istismara verildikdən sonra sərnişin avtobuslarının və yük avtomobillərinin şəhərin mərkəzinə daxil olmadan hərəkətinin həyata keçirilməsi təmin ediləcəkdir.

Cənab Prezident, xüsusi olaraq qeyd etmək istərdim ki, «Bəzi fəaliyyət növlərinə xüsusi razılıq (lisenziya) verilməsi qaydalarının təkmilləşdirilməsi haqqında» Azərbaycan Respublikası Prezidentinin 2002-ci il 2 sentyabr tarixli 782 nömrəli Fərmanına əlavələr və dəyişiklik edilməsi barədə" Sizin 2005-ci il 28 dekabr tarixli Fərmanınıza uyğun olaraq, avtomobil nəqliyyatı ilə beynəlxalq, şəhərlərarası, şəhərdaxili sərnişin və yük daşımalarına lisenziyaların təqdim edilməsi bu fəaliyyət növü ilə məşğul olan daşıyıcıların işinin təşkilində nizam-intizam yaradacaq, nasaz avtonəqliyyat vasitələrindən istifadənin qarşısını alacaq, eyni zamanda, vətəndaşlarımıza xidmətin səviyyəsini xeyli yaxşılaşdıracaq, həmçinin hərəkətin təhlükəsizliyinin təmin edilməsində və vergidən yayınma hallarının aradan qaldırılmasında əhəmiyyətli rol oynayacaqdır.

Möhtərəm cənab Prezident, icazə verin əmin edim ki, Sizin tapşırıq və tövsiyələrinizlə həyata keçirilən bu işlərin icra edilməsi üçün əlaqədar qurumlarla birlikdə bütün lazımi tədbirlər görüləcəkdir.

Diqqətinizə görə sağ olun!

**İ l h a m Ə l i y e v:** Sağ olun. Çox böyük bir proqramdır. Siz bunları qısa müddət ərzində hazırlayıb, təqdim edirsiniz. Bu çox nəhəng bir layihədir. Demək olar ki, Bakının yol hərəkətinin əksər problemlərini həll edəcək bir layihədir və lazımdır ki, qısa

müddət ərzində biz bunun icrasına nail olaq. Mən elə başa düşdüm ki, bunun tikintisi, haradasa iki il çəkər. Yəqin ki, yüksək səviyyədə tikiləcəkdir. Həm yol örtüyü, həm də bütün kommunikasiyalar, infrastruktur, körpülər və sair gərək ən yüksək dünya standartlarına cavab versin.

**Hacıbala Abutalıbov:** Möhtərəm Prezident! Bakı şəhərində sahil xəttinin uzunluğu 30 kilometrdir. Eni istiqamətində qərbdə 16, mərkəzdə 9, şərqdə isə 12 kilometr olmaqla, 22,1 min hektar torpaq sahəsini əhatə edir. Bakı şəhərinin baş planı ulu öndərimiz, ümummilli liderimiz Heydər Əliyev tərəfindən işlənilmiş və 1986-cı ildə təsdiq edilmişdir. Bakı şəhərinin baş planı şəhərin əsas strateji inkişaf və tərəqqi yollarını müəyyən edən elmi-praktiki layihədir. Paytaxtın baş planına əsasən Bakının magistral yollarının ümumi uzunluğu 2 min 50 kilometrə yaxındır. Baş planda əsas magistral yollar 6 radial yollardan və 4 dairəvi yollardan ibarətdir. Xəritədə dairəvi yollar qırmızı xətlərlə göstərilmişdir.

Respublikada baş vermiş hadisələr, Qarabağ müharibəsi, qaçqın və məcburi köçkünlərin Bakı şəhərinə gəlməsi baş plana uyğun olan bu 6 radial yolun və 4 dairəvi yolun tamamilə başa çatmasına maneçilik törətmişdir. Bu gün, demək olar ki, Bakı şəhərində bir dənə də dairəvi və radial yolun çəkilməsi başa çatmamışdır. Elə ona görə də Yaponiya mütəxəssisləri Bakıya dəvət edilmiş və onlar şəhərin baş planına uyğun olaraq magistral yolların, ümumiyyətlə, nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə əlaqədar elmi-praktiki layihəni Nazirlər Kabinetinə, Bakı Şəhər İcra Hakimiyyətinə təqdim etmişlər.

Bu layihəyə uyğun olaraq, magistral yollar 6 radial yoldan və 4 dairəvi yoldan ibarətdir. Burada radial yollar qırmızı, dairəvi yollar isə göy xətlərlə göstərilmişdir. Fikir versək, dairəvi yolların tamamilə başa çatması üçün əlavə yolların tikilib qurtarması mütləq vacibdir.

Möhtərəm Prezident, Sizin rəhbərliyinizlə məqsədyönlü sosial-iqtisadi siyasətin müvəffəqiyyətlə həyata keçirilməsi nəticəsində əhalinin alıcılıq qabiliyyəti sürətlə artmışdır.

Axırıncı iki il ərzində əhali tərəfindən alınan avtomobillərin sayının artması da bunu təsdiq edir. Son iki ildə Bakı şəhərində əhali tərəfindən alınan maşınların sayı 100 mini ötmüşdür. Elə bu da Bakı şəhərində nəqliyyatda problemin əmələ gəlməsinə səbəb olmuşdur.

Əgər rayonlardan Bakı şəhərinə gəlib-gedən və şəhərdən tranzitlə keçən avtomobillərin sayını (50–70 min ədəd), paytaxtda 299 min avtomobilin qeydiyyatda olduğunu, habelə 59 mindən yuxarı avtomobilin müvəqqəti qeydiyyatını nəzərə alsaq, hazırda Bakı şəhərində gündə 400 mindən çox avtomobil hərəkət edir.

**İ l h a m Ə l i y e v:** Deməli, ümumi sayın təxminən 70 faizi.

**H a c ı b a l a A b u t a l ı b o v:** 400 mindən yuxarıdır.

**İ l h a m Ə l i y e v:** Bu daha da artacaqdır.

**H a c ı b a l a A b u t a l ı b o v:** Gələn il isə yalnız Bakı şəhərində 70 minə qədər avtomobil alınacağı ehtimal olunur. Ona görə də Sizdən çox xahiş edirik...

**İ l h a m Ə l i y e v:** Siz o rəqəmi haradan götürürsünüz?

**H a c ı b a l a A b u t a l ı b o v:** Dövlət Yol Polisinin verdiyi məlumatdır. Yalnız paytaxtda 44 min avtomobil qeydiyyata alınıbdır.

**İ l h a m Ə l i y e v:** Keçən il, 2005-ci ildə.

**H a c ı b a l a A b u t a l ı b o v:** Bəli. Bu il isə 60–70 min avtomobilin alınacağı ehtimal olunur. Ona görə də birinci növbədə, Sizin göstərişiniz əsasında Ziya müəllimin təklif etdiyi körpülərdən başqa, əlavə keçidlərin də salınması vacibdir. Çünki magistral yollarda hərəkət edən nəqliyyat vasitələrinin heç biri digərinə maneçilik törətməməlidir və dövlət yolunda sürət saatda 100 kilometrdən aşağı olmamalıdır. Ona görə də təklif edirik ki, ilk növbədə, yeraltı-yerüstü avtomobil keçidləri, körpüləri ilə yanaşı, Passaj bazarının yerində, metronun «Nizami» stansiyasının yanında, Nərimanov prospektində, Heydər Əliyev prospektindən Keşlə qəsəbəsinə dönən hissədə yerüstü avtomobil qarajları tikilsin. Digər tərəfdən, Azneft

meydanında, Qız qalasının qarşısında, Xalçaçılıq muzeyinin (keçmiş Lenin muzeyi) yanında yeraltı avtomobil yollarının salınması mütləq vacibdir.

Bundan başqa, Heydər Əliyev prospekti–hava limanı magistralında nəqliyyatın maneəsiz hərəkət etməsi üçün əlavə keçidlər, «Ramstore» mağazasının, Səttarxan adına zavodun, «Ulduz» metro stansiyasının, «Şəfa» stadionunun, şərab zavodunun və Bakı tikiş və ayaqqabı fabriklərinin yanında yeraltı və yerüstü avtomobil keçidlərinin salınması məqsədəuyğundur.

Bununla belə, xüsusi vurğulamaq istərdim ki, əlavə yolların və magistral yolların çəkilməsində yolun uzunluğunun qiymətləndirilməsi Yaponiya mütəxəssislərinin tərtib etdiyi layihələrdə öz əksini tapmışdır. Lakin onların tərtib etdiyi və 20 il üçün hesablanmış layihədə Bakı şəhərinə ildə əlavə 8–9 min fərdi maşının gətirilməsi nəzərdə tutulur.

Ancaq təkcə ötən il avtomobillərin sayının 44 mini keçməsi göstərir ki, hətta Yaponiya mütəxəssisləri də Azərbaycanda çox böyük sürətlə gedən iqtisadi inkişafı nəzərə ala bilməmişlər. Ona görə də bu layihə ən geci 2010-cu ilədək tamamilə hazır olmalıdır. Yalnız bu halda Bakı şəhərində nəqliyyat sistemini tamamilə təkmilləşdirmək, müəyyən qaydaya salmaq mümkündür.

Bakı Şəhər İcra Hakimiyyəti ətraf mühitin ekoloji mühafizəsi nöqteyi-nəzərindən şəhərin mərkəzində fərdi minik avtomobillərinin hərəkətinə məhdudiyyətlərin qoyulmasını təklif edir. Dünya təcrübəsinə əsaslanaraq, müəyyən saatlarda fərdi minik avtomobillərinin şəhərin mərkəzinə gəlməsi də məhdudlaşdırılmalıdır. Bunun əvəzində çoxyerlik avtobusların hərəkətinə üstünlük verilməlidir.

Möhtərəm Prezident, 30 ildən çoxdur ki, Bakı şəhərinin əsaslı topoqrafik xəritəsi hazırlanmayıbdır. Ona görə Sizdən çox xahiş edirəm ki, həm şəhərsalma, həm də nəqliyyat sisteminin təkmilləşdirilməsi üçün lazım olan rəqəmli topoqrafik xəritəni –

heç olmasa, 1:500 miqyaslı – hazırlamaq üçün Dövlət Torpaq və Xəritəçəkmə Komitəsinə göstəriş verəsiniz.

Beləliklə, bir daha demək istərdim ki, layihələşdirmə və görüləcək işlər paralel aparılarsa, biz iki il ərzində Bakı şəhərində nəqliyyatın tam tənzimlənməsinə nail ola bilərik. Ona görə də Sizdən xahiş edirəm ki, paytaxtın nəqliyyat sisteminin təkmilləşdirilməsi ilə əlaqədar imzalayacağınız Sərəncamın tez bir zamanda həyata keçirilməsi üçün göstəriş verəsiniz.

Diqqətinizə görə minnətdarlığımı bildirirəm.

**İ l h a m Ə l i y e v:** Sağ olun. Mən qeyd etdim ki, bu iki istiqamətdə işlər paralel şəkildə öz həllini tapmalıdır. Ancaq o təqdirdə biz Bakının yol hərəkətində olan problemləri həll edə bilərik. Şübhəsiz ki, gələcəyi də düşünməliyik. Çünki bizim hamımız üçün aydındır ki, gələcəkdə maşınların sayı daha da artacaqdır. Ona görə gələcəkdə iki, üçsəviyyəli yolların tikilməsi lazım olacaqdır. Amma bu mərhələdə, gələn iki il ərzində əgər bütün bu proqramlar həyata keçsə, bu sahədə çox ciddi dönüş yaranacaqdır.

**R a m i l U s u b o v:** Möhtərəm cənab Prezident, Sizin yanınızda olan bugünkü müzakirə onu göstərir ki, həqiqətən də Bakı şəhərində və ümumiyyətlə, respublikamızda avtonəqliyyatın sürətlə artması problemlər yaradır və bu problemlərin həllinə Sizin böyük diqqətiniz və qayğınız hamı tərəfindən hiss olunur. Cənab Prezident, çox haqlı qeyd etdiniz ki, son illərdə aparılan siyasət nəticəsində ölkəmizdə iqtisadi inkişaf böyük sürət, vüsət alıb və insanların, vətəndaşlarımızın alıcılıq qabiliyyəti yüksəlibdir. Həqiqətən də, elə bu son 5 ili götürəndə, hər il orta hesabla 25–30 min avtonəqliyyatın xaricdən alınaraq Azərbaycana gətirilməsi iqtisadiyyatımızın inkişafından, insanlarımızın maddi rifah halının yaxşılaşmasından xəbər verir. Cənab Prezident, bu problemlərin həlli yolları Nəqliyyat naziri və Bakı Şəhər İcra Hakimiyyətinin başçısı tərəfindən qeyd olundu. Əlbəttə, bu məsələlərin həlli, eyni zamanda, daxili işlər orqanlarının bu işlərə cavabdeh olan əməkdaşlarının da

fəaliyyətinin yaxşılaşdırılmasına, onların məsuliyyətinin artırılmasına gətirib çıxaracaqdır.

Hörmətli cənab Prezident, burada qeyd olundu, məsələn, Azərbaycanda 610 mindən çox avtomobil var, onun da demək olar ki, 60–70 faizi Bakı şəhərində cəmləşibdir. Bakı şəhərində bu problemlərin yaranmasının da səbəbi avtonəqliyyatın artması, əhalinin çoxalmasıdır. Əlbəttə, bu tələb edir ki, yeni icra strukturları yaradılsın.

Bizim apardığımız araşdırmalar onu göstərir ki, əgər yaxın gələcəkdə, yəni 2–3 ildə, planda nəzərdə tutulduğu kimi, yolötürücülərinin tikilməsi, əlavə avtodayanacaqların yaradılması, dairəvi yolun çəkilməsi, əlbəttə ki, tıxacların azalmasına gətirib çıxaracaqdır. Real hesablamalar da onu göstərir ki, əgər bütün bu tədbirlər görülərsə, doğrudan da yaxın 5–10 ildə Bakı şəhərində bu problemlər xeyli azalacaq.

Cənab Prezident, bir məsələni diqqətinizə çatdırmaq istəyirəm ki, məsələn, 1988-ci illə indiki vəziyyəti müzakirə etsək görərik ki, 1988-ci ildə Bakıda sərnişin daşınmasında cəmi 800–900 avtobusdan istifadə olunurdu. Bu gün avtobusların sayı 19–20 dəfə artıbdır. Doğrudur, bu ötən illər ərzində Bakının əhalisi də 1-2 dəfə artıbdır. Lakin avtobusların bu qədər çoxalması müəyyən problemlər də yaradıbdır. Cənab Prezident, Sizin 2005-ci ilin 28 dekabr tarixli Fərmanınız lisenziya baxımından çox vaxtında imzalanmış sənəddir. Yəni burada vəziyyətə nəzarət olunacaq və bu da perspektivdə bu sahədə bir qayda yaradacaqdır. Sənədin bizə aid hissəsinin icrası artıq nəzarətə götürülüb və yerinə yetirilir.

Cənab Prezident, mən vaxtınızı çox almaq istəmirəm, planda icrası nəzərdə tutulan işlərin sürətlə getməsi, yəni burada qeyd olunduğu kimi, 2-3 ilə başa çatması, əlbəttə, öz müsbət nəticəsini verəcəkdir.

Lakin eyni zamanda, hesab edirəm ki, bizim müəyyən daxili imkanlarımız var və yaxın 2-3 ili gözləmədən bunlardan istifadə etməklə, Bakı şəhərində tıxacların azalması üçün operativ tədbirlər görmək olar. Cənab Prezident, şəxsən Daxili İşlər

naziri kimi, mən öz fəaliyyətimizə tənqidi yanaşmaq məqsədi ilə demək istəyirəm ki, tıxaclar yaranarkən daxili işlər orqanlarında bu sahəyə cavabdeh olan polis əməkdaşları heç də həmişə vaxtında oraya gəlmirlər, lazımi tədbirlər görülmür. Bu sahəyə baxan ayrı-ayrı əməkdaşların məsuliyyət hissinin nisbətən az olması, əlbəttə, ümumi işə mənfi təsir göstərir. Daxili İşlər Nazirliyinin rəhbərliyi bu sahədə olan nöqsanların qısa müddətdə aradan qaldırılması, Bakı şəhərində tıxacların yaranmaması, avtonəqliyyatın normal hərəkətinin yaxşılaşması üçün heç bir maddi xərc tələb etmədən əlavə tədbirlər görür və görəcəkdir.

Hörmətli cənab Prezident, polis əməkdaşları tərəfindən ildə təqribən 480 min yol hərəkəti qaydalarının pozulması halları müəyyən edilir və bu vətəndaşlar müxtəlif cəzalara məruz qalırlar. Lakin, cənab Prezident, mən belə hesab edirəm ki, biz bu sahədə də qanunlarımıza yenidən baxmalıyıq. Çünki cəzalar o qədər yüngüldür ki, necə deyərlər, sadəcə, bizim gözlədiyimiz səmərəni vermir. Ona görə də qanun pozuntusuna yol vermiş sürücülərin cəzalarının artırılması çox mühüm məsələlərdən biri kimi gündəliyə çıxmışdır.

Bundan əlavə, cənab Prezident, dayanacaqların birinci növbədə tikilməsi – xüsusən də Bakı şəhərinin mərkəzində – önə çəkilməlidir. Məsələn, şəhərin mərkəzi hissəsində gündə təqribən 7-8 min maşın yolun kənarında dayanır. Bu isə onsuz da dar olan küçələrimizdə hərəkət imkanını təqribən 30–40 faiz azaldır. Əgər biz dayanacaq məsələsini təcili surətdə həll etsək, yolları hətta iki-üç-dörd ildən sonra genişləndirsək belə, indinin özündə problemi müəyyən qədər həll etmiş olarıq.

Bir sözlə, cənab Prezident, bir daha qeyd etmək istəyirəm ki, məsuliyyətimizi başa düşürük və Sizi əmin edirəm ki, daxili işlər orqanlarının şəxsi heyəti, bu sahəyə cavabdeh olan yol-patrul xidməti, yol polisi əlindən gələni edəcək ki, Bakı şəhərində sərnişinlərin, vətəndaşlarımızın normal nəqliyyatla hərəkəti təmin edilsin.

Diqqətinizə görə sağ olun.

## YEKUN NİTQİ

Şübhəsiz ki, bu məsələyə biz kompleks şəkildə yanaşmalıyıq, yeni yolların tikilməsi ilə iş bitmir. Ancaq kompleks şəkildə biz istədiyimizə nail ola bilərik. Yol hərəkətinin tənzimlənməsi, əlbəttə, dayanacaqların tikilməsi çox mühüm rol oynayır. Bununla yanaşı, məsələn, şəhərdə işıqforların, necə deyərlər, sistemli şəkildə fəaliyyət göstərməsi də çox vacibdir. Yeni bir sistem quraşdırılmalıdır. Bu barədə biz sizinlə söhbət eləmişik və o da bizim işimizi xeyli yüngülləşdirəcəkdir.

Bu layihə təxminən 2 il vaxt aparacaqdır. Mən ümid edirəm ki, 2 il ərzində məruzə olunmuş bütün məsələlər öz həllini tapmalıdır. Çünki artıq bunun üzərində iş gedib, müəyyən texniki-iqtisadi məsələlər öz həllini tapıbdır.

Onu da qeyd etmək istəyirəm ki, maliyyə problemi də olmayacaqdır. Bu layihənin həyata keçməsi üçün bizə nə xaricdən kredit, nə də haradasa əlavə pul axtarmaq lazımdır. Bizim imkanlarımız artır. Yenə də deyirəm, ölkədə aparılan iqtisadi islahatlar nəticəsində Azərbaycanın maddi vəziyyəti çox yaxşılaşıbdır. Ona görə, maliyyə problemi olmayacaqdır. Sadəcə olaraq, iş çox keyfiyyətli və düşünülmüş şəkildə aparılmalıdır və bütün bu nəzərdə tutulmuş məsələlər qısa müddət ərzində öz həllini tapmalıdır.

Mən bu müşavirəni məhz ona görə keçirdim ki, bütün məsələlərə kompleks şəkildə baxılsın, araşdırılsın. Hesab edirəm ki, indi proqram üzərində iş aparılmalıdır, bu proqram çox konkret olmalıdır. Orada bütün məsələlər maddə-maddə öz həllini tapmalıdır: nə vaxt, harada, kimin tərəfindən hansı işlər görüləcəkdir. Şübhəsiz ki, müvafiq Sərəncam da imzalanacaqdır. O da hazırlanmalıdır. Eyni zamanda proqram da mətbuatda dərc olunacaq, bütün insanlar bilsinlər ki, biz hansı işləri görəcəyik. O cümlədən yeni yolların salınması. Hacıbala Abutalıbov bu barədə dedi. Şəhər yollarının, eyni zamanda kənd yollarının da tikilməsi nəzərdə tutulubdur. Kənd yollarının tikilməsi digər proqramda öz həllini tapacaqdır.

Bildiyiniz kimi, indi Bakı şəhərinin ətraf qəsəbələrinin inkişaf proqramı hazırlanır və yolların təmiri, tikintisi orada nəzərdə tutulubdur. Dairəvi yol haqqında burada dedilər. Bu da çox vacibdir. Bütün böyük şəhərlərdə dairəvi yollar var, Bakıda isə bu yoxdur. Əlbəttə, biz gərək bu barədə də fikirləşək, layihə hazırlayaq.

Yəni ki, bunlar çox irimiqyaslı layihələrdir. Biz bunları bu gün başlayırıq, iki il ərzində bütün bu, yəni məruzə edilən işlər öz həllini tapmalıdır. Amma o demək deyil ki, bununla iş bitmiş olur. Bundan sonrakı mərhələlərdə də işlər aparılacaq və beləliklə, şəhərimizin yol infrastrukturu tamamilə yeniləşəcək, dünyanın ən yüksək standartlarına cavab verəcəkdir. Digər tərəfdən, vətəndaşlarımız da rahat hərəkət edəcəklər, tıxaclarda saatlarla qalmayacaqlar. Bütövlükdə, bu işlər şəhərimizin inkişafı üçün böyük bir dəstək olacaqdır.

Bu proqram 2 il vaxt aparacaqdır. Amma bu iki il ərzində maşınların sayı artacaqdır. Əgər 2005-ci ildə 44 min maşın gətirilibsə, şübhə etmirəm ki, 2006-cı ildə daha da artacaqdır. Çünki alıcılıq qabiliyyəti artır, imkanlar artır, əhalinin pul gəlirləri artır, maaşlar artır və sair. Ona görə fikirləşmək lazımdır və siz də müəyyən edin, hansı təxirəsalınmaz tədbirlər görülməlidir ki, bu iki il ərzində biz vəziyyəti normal şəkildə saxlayaq. Proqram qısa müddət ərzində tərtib olunmalıdır. Proqramın əsas hissəsi, demək olar ki, hazırdır. Amma bugünkü müzakirələr yeni məsələlər ortaya çıxartdı. Biz gərək proqramda bunları da əks etdirək.

**KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA**

Əlahəzrət!

Küveyt Dövlətinin Əmiri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi ürəkdən təbrik edirəm.

Biz Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətlərinə böyük əhəmiyyət veririk. Əminəm ki, ikitərəfli əlaqələrimizin bütün sahələrdə inkişafı üçün bundan sonra da ardıcıl şəkildə səylər göstərəcəyik.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik, dost Küveyt xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 yanvar 2006-cı il*

**FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
XANIM TARYA HALONENƏ**

Hörmətli xanım Prezident!

Finlandiya Respublikasının Prezidenti vəzifəsinə yenidən seçilməyiniz münasibətilə Sizi səmimi-qəlbdən təbrik edirəm.

Bu gün Azərbaycan–Finlandiya münasibətləri yüksələn xətt üzrə inkişaf edir. Ötən il ölkəmizə səfəriniz, imzalanan dövlətlərarası sənədlər əlaqələrimizin daha da genişlənməsinə xüsusi təkan vermişdir.

Ümidvaram ki, Azərbaycan ilə Finlandiya arasındakı münasibətlər bundan sonra da dostluq və əməkdaşlıq məcrasında davam edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Finlandiya xalqının rifahı naminə fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 yanvar 2006-cı il*

**KANADANIN BAŞ NAZİRİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB STİVEN HARPERƏ**

Hörmətli cənab Baş nazir!

Kanadanın Baş naziri vəzifəsinə seçilməyiniz münasibətilə Sizi təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Kanada arasında yaranmış dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Kanada xalqının rifahı naminə qarşıdakı fəaliyyətinizdə uğurlar diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 yanvar 2006-cı il*

**POLŞA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB LEX KAÇİNSKİYƏ**

Hörmətli cənab Prezident!

Katovitse şəhərindəki sərgi mərkəzinin dam örtüyünün uçması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Baş vermiş faciə ilə əlaqədar Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına öz adımdan və bütün Azərbaycan xalqı adından dərin hüznlə başsağlığı verir, yaralananların və xəsarət alanların tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *30 yanvar 2006-cı il*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ 2005-ci İLİN SOSİAL-İQTİSADİ YEKUNLARINA HƏSR OLUNMUŞ İCLASDA* NİTQ

*Prezident sarayı*

*31 yanvar 2006-cı il*

Nazirlər Kabinetinin bugünkü iclasında biz 2005-ci ilin yekunlarını müzakirə edəcəyik. Görülən işlər təhlil olunmalıdır və 2006-cı ildə görüləcək işlər haqqında fikir mübadiləsi aparılacaqdır. 2005-ci il Azərbaycan üçün çox uğurlu il olmuşdur. 2005-ci ildə biz öz fəaliyyətimizi müxtəlif istiqamətlərdə uğurla davam etdirmişik. Azərbaycanın xarici siyasəti uğurla davam etdirilib, ölkəmizdə iqtisadi islahatlar uğurla aparılır. Sosial məsələlərin həlli işində böyük nailiyyətlər əldə edilibdir. Ordu quruculuğu, cəmiyyətimizin demokratikləşməsi istiqamətində çox önəmli addımlar atılıb və nailiyyətlər əldə edilibdir.

Xarici siyasətimiz daxili siyasətin nəticəsidir və onun davamıdır. Azərbaycan regional əməkdaşlıqda çox fəal iştirak edibdir. Demək olar ki, bölgədə və dünyada öz mövqelərini xeyli gücləndiribdir. Biz beynəlxalq təşkilatlarla öz işimizi çox səmərəli qururuq, beynəlxalq təşkilatlarda iştirak edirik və öz mövqeyimizi ifadə edirik. Qonşularımızla əməkdaşlığımız, əlaqələrimiz 2005-ci ildə daha da möhkəmlənibdir. Mənim qonşu dövlətlərə rəsmi səfərlərim, o ölkələrin dövlət və hökumət başçıları ilə apardığım danışıqlar Azərbaycan üçün

* Иъласда Малиййя назири Явяз Ялякбяров, Игтисади Инкишаф назири Щейдяр Бабайев, Верэиляр назири Фазил Мяммядов, Сящиййя назири Огтай Ширялийев, Еколоэийа вя Тябии Сярвятляр назири Щцсейнгулу Баьыров вя Дювлят Сосиал Мцдафия Фондунун сядри Сялим Мцслцмов сыхыш етмишляр.

çox faydalı olmuşdur. Əlbəttə, 2006-cı ildə bu istiqamətdə işlərimiz davam etdiriləcəkdir.

Azərbaycanın beynəlxalq təşkilatlarda fəaliyyəti də çox müsbətdir. Biz bir sıra beynəlxalq təşkilatların üzvüyük və bu təşkilatlarda öz siyasətimizi ifadə edirik. 2005-ci ildə mən İslam Konfransı Təşkilatının, MDB-nin, GUAM təşkilatının, Avropa Şurasının zirvə görüşlərində iştirak etmişdim və orada apardığım danışıqlar, görülən işlər Azərbaycanı bu təşkilatlarla daha da yaxınlaşdırmışdır.

Avroatlantik strukturlara inteqrasiya siyasətimiz davam edir və bu istiqamətdə 2005-ci ildə həm Azərbaycan tərəfindən, həm də Avropa İttifaqı və başqa təşkilatlar tərəfindən çox önəmli addımlar atılmışdır. Bir sözlə, xarici siyasətimiz bizə imkan veribdir ki, Azərbaycan bölgədə və dünyada öz mövqelərini daha da möhkəmləndirsin, regional müstəvidə çox güclü ölkəyə çevrilsin. Xarici siyasətin əsas istiqaməti Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli ilə bağlıdır. Bu bizim üçün ən önəmli, prioritet məsələdir və 2005-ci ildə bu istiqamətdə müsbət hadisələr baş vermişdir. İlk növbədə, Birləşmiş Millətlər Təşkilatı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsini öz gündəliyinə salmışdır və bu özlüyündə çox müsbət bir haldır. ATƏT işğal edilmiş torpaqlara faktaraşdırıcı missiyasını göndərmişdir və missiya işğal olunmuş torpaqlarda ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdir. Avropa Şurası 2005-ci ilin əvvəlində bu məsələyə dair çox dəyərli qətnamə qəbul etmişdir və bildiyiniz kimi, o qətnamədə ilk dəfə olaraq, Ermənistan işğalçı dövlət kimi tanınır.

2005-ci ildə Praqa prosesi daha da möhkəmləndi. Bildiyiniz kimi, Praqa prosesi mərhələli həll deməkdir. Azərbaycanın mövqeyi bütün zamanlarda məhz bundan ibarət olmuşdur və Praqa prosesinin möhkəmlənməsi danışıqlar prosesində bizim mövqelərimizi daha da gücləndirdi. Yəni bütün bunlar müsbət addımlardır. Deyə bilərəm ki, diplomatik səylərimizin gözəl nəticələridir. Amma bütün bunlara baxmayaraq, məsələ öz

həllini tapmır. Bütün bu diplomatik uğurlar, əlbəttə ki, bizi sevindirir və mövqeyimizi gücləndirir. Ancaq bir halda ki, torpaqlarımız hələ də işğal altındadır, bütün bu nəticələrin böyük əhəmiyyəti yoxdur. Əhəmiyyət o zaman olacaq ki, Azərbaycan torpaqları işğalçı qüvvələrdən azad olunacaq, bizim soydaşlarımız öz doğma torpaqlarına qayıdacaqlar. Bizim soydaşlarımız işğal olunmuş torpaqlara – Dağlıq Qarabağın ətrafında yerləşən torpaqlara və Dağlıq Qarabağa qayıtmalıdırlar.

Bildiyiniz kimi, danışıqlar davam edir və Azərbaycanın mövqeyində heç bir dəyişiklik yoxdur və olmayacaqdır. Mən bunu dəfələrlə bəyan etmişəm, bu gün də deyirəm: Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyil və heç vaxt olmayacaqdır. Məsələ yalnız və yalnız beynəlxalq hüquq normaları əsasında öz həllini tapmalıdır və Azərbaycan bu mövqedən bir addım da geriyə çəkilməyəcəkdir. Yəni Azərbaycanın ərazi bütövlüyü məsələsində heç bir güzəşt olmayacaqdır. Heç bir qərar qəbul edilməyəcək ki, nə bu gün, nə sabah, nə də yüz ildən sonra imkan yaransın ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın. Bir daha deyirəm, bu məsələ danışıqlar mövzusu deyildir.

Bütün bu diplomatik səylərlə yanaşı, təbii ki, ordu quruculuğunda işlər daha da sürətlə getməlidir. 2005-ci il bu baxımdan da çox uğurlu olmuşdur. Görülən tədbirlər nəticəsində hərbi büdcəmiz təxminən 70 faiz artmışdır. 2006-cı ildə isə hərbi xərclərə nəzərdə tutulan məbləğ 100 faiz artacaq və bu proses davam edəcəkdir. Deyə bilərəm ki, son iki il ərzində Azərbaycanın müdafiə potensialı iki dəfə, bəlkə iki dəfədən də çox artmışdır və biz bu siyasətimizi davam etdirəcəyik. Biz müharibə şəraitində yaşayırıq, torpaqlarımız işğal altındadır və bu siyasətimiz təbiidir. Bu bizim suveren haqqımızdır.

Şübhəsiz ki, bütün planlarımızın həyata keçirilməsi üçün başlıca şərt iqtisadi potensialdır. Ona görə 2005-ci ildə iqtisadi islahatların uğurla davam etdirilməsi prosesi möhkəmlənmişdir. Azərbaycan 2005-ci ildə iqtisadi artım baxımından dünyada

lider ölkəyə çevrilmişdir. Ümumi daxili məhsul təxminən 27 faiz artmışdır və bu, dünyada görünməmiş bir nəticədir. Bununla yanaşı, sənaye potensialı 33 faizdən çox artmışdır. O da çox böyük rəqəmdir və heç bir ölkədə bu rəqəmə rast gəlinmir. Əhalinin pul gəlirləri 27 faiz, əməkhaqqı 22 faiz artmışdır. İnflyasiya 9,8 faiz olmuşdur. Yəni əhalinin pul gəlirləri ilə müqayisə etsək görərik ki, real gəlirlər 17 faiz artmışdır. Azərbaycanda orta aylıq əməkhaqqı keçən ilin sonunda təxminən 140 dollar təşkil etmişdir. Bu da böyük artımdır. Nəzərə alsaq ki, minimum əmək- haqqının qaldırılması prosesi 2006-cı ildə də davam edəcək, 2006-cı ilin sonunda, əlbəttə, Azərbaycanda orta aylıq əməkhaqqı daha da artacaqdır.

Əlbəttə ki, bütün bunlar onu göstərir ki, bizim iqtisadi siyasətimiz çox uğurludur, məqsədyönlüdür, düşünülmüş konsepsiya şəklində aparılır və belə olan təqdirdə nəticələr də var. Gətirdiyim bu rəqəmlər gördüyümüz işlərin ən gözəl nümunəsidir. Bütün bunlar onu göstərir ki, Azərbaycan iqtisadi baxımdan çox sürətlə inkişaf edir. Ümumi daxili məhsulun adambaşına düşən həcmi Azərbaycanda artıq 1500 Amerika dolları təşkil edir. Nəzərə alsaq ki, 2006-cı ildə iqtisadiyyat təxminən eyni sürətlə inkişaf edəcək, yəqin ki, ilin sonunda adambaşına düşən ümumi daxili məhsulun həcmi 2 min dollara yaxın olmalıdır.

Bildiyiniz kimi, regional inkişaf proqramı uğurla davam etdirilir. İşsizliyin, yoxsulluğun azaldılması bizim üçün prioritet məsələlər olmuşdur. İki il bundan əvvəl regionların inkişaf proqramı qəbul olunmuşdur və bu iki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açılmışdır. Bu bir daha onu göstərir ki, bizim qəbul etdiyimiz proqramlar reallığı əks etdirir. İşlər düzgün qurulanda bütün, hətta ən çətin məqsədlər də həyatda öz əksini tapır.

Azərbaycanda yoxsulluq şəraitində yaşayanların sayı kifayət qədər çoxdur. Amma bu istiqamətdə də dinamika çox müsbətdir. 2004-cü ildə yoxsulların sayı 49 faiz, 2005-ci ilin

əvvəlində 40 faiz idi. 2006-cı ilin əvvəlində isə 29 faizdir. 29 faiz də çoxdur. Yəni, əhalinin üçdə bir hissəsi hələ ki, çətin şəraitdə yaşayır. Amma yoxsulluğun azaldılması, bu dinamika onu göstərir ki, biz düz yoldayıq. Mən heç şübhə etmirəm ki, görülən tədbirlər nəticəsində 2006-cı ilin sonuna qədər Azərbaycanda yoxsulların sayı daha da azalacaqdır.

İndi Azərbaycanın çox güclü iqtisadi potensialı yaranır. Eyni zamanda, bizim valyuta ehtiyatlarımız da artır. Milli Bankın və Dövlət Neft Fondunun hesabında, haradasa 2,3 milyard dollar vəsait var. Bu bizim strateji resursumuzdur. Bir tərəfdən, gələcək nəsillər üçün saxlanılmalıdır, eyni zamanda, Azərbaycanın ən önəmli məsələlərinin həlli üçün də istifadə olunmalıdır. Bildiyiniz kimi, Neft Fondunda qaçqınların və məcburi köçkünlərin sosial vəziyyətinin yaxşılaşması üçün vəsait nəzərdə tutulubdur. İndi geniş tikinti işləri gedir. Mən bəyan etmişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bu istiqamətdə də çox böyük işlər görülübdür. Çadır şəhərcikləri ləğv olunur, onların əvəzinə yeni gözəl binalar tikilir və qaçqınlara, köçkünlərə hədiyyə edilir.

Ölkəmizdə ictimai-siyasi vəziyyət çox müsbətdir. 2005-ci ildə bu istiqamətdə böyük işlər görülmüşdür. 2005-ci ildə Azərbaycanın siyasi həyatında mühüm rol oynayan parlament seçkiləri keçirilmişdir. Parlament seçkiləri Azərbaycan xalqının iradəsini tam əks etdirmişdir. Azərbaycan xalqı bizim siyasətimizi dəstəkləmişdir və təbii ki, seçkiləri müşahidə edən rəy sorğuları təşkilatlarının nəticələri rəsmi nəticələrlə, demək olar ki, 90–95 faiz üst-üstə düşmüşdür. Yəni bu ən gözəl göstəricidir, ən gözəl nümunədir. Bu onu göstərir ki, rəsmi nəticələr exit-pollun nəticələri ilə üst-üstə düşür və beləliklə, Azərbaycan xalqının iradəsi seçkilərdə tam şəkildə öz əksini tapmışdır.

Seçkilərdən istifadə edib vəziyyəti gərginləşdirmək istəyən qüvvələr də var idi. Ancaq Azərbaycanda xalqla iqtidar arasında olan birlik və vəhdət onların planlarının üstündən böyük bir xətt çəkdi. Azərbaycanın uğurlu inkişafı, ölkəmizin

möhkəmlənməsi, hərtərəfli tərəqqisi bizim ən başlıca vəzifəmizdir. Azərbaycanın iqtisadi potensialının möhkəmlənməsi, sosial məsələlərin həlli, əlbəttə, bizim mövqelərimizi daha da möhkəmləndirir. Mən bu gün rəqəmləri deyərkən bir daha onu vurğulamaq istəyirəm ki, heç bir ölkədə belə inkişaf, dinamika yoxdur. Heç bir ölkədə ümumi daxili məhsul bir il ərzində 26 faiz, sənaye istehsalı 33 faiz təşkil etmir. Onu göstərir ki, bu, real işlərin, gərgin fəaliyyətin nəticəsidir. Bu, Azərbaycanın hərtərəfli inkişafı üçün, bizim müstəqil siyasət aparmaq imkanlarımızı artırmaq üçün ən önəmli məsələdir.

Təsəvvür edin, əgər Azərbaycanda iqtisadi inkişaf olmasaydı, əksinə, əgər tənəzzül olsaydı, nə baş verərdi? Biz hamımız o illəri, 1990-cı illərin əvvəllərində baş vermiş hadisələri yaxşı xatırlayırıq – Azərbaycan faktiki olaraq parçalanma ərəfəsində idi. Azərbaycan başqa ölkələrin diktəsi ilə hərəkət edirdi. Ümumiyyətlə, müstəqil siyasət aparmaq haqqında söhbət getmirdi. Azərbaycan müxtəlif təşkilatlara, ölkələrə müraciət edirdi ki, bizə yardımlar edilsin. Biz bu gün heç kimə müraciət etmirik. Bu gün bizə müraciət edirlər ki, biz yardımımızı göstərək və biz də bu yardımı göstəririk. İqtisadi potensialın möhkəmlənməsi bizim müstəqilliyimizi də möhkəmləndirir.

Bu gün Azərbaycan, sözün əsl mənasında, müstəqil siyasət aparır, heç kimdən asılı deyil, gələcəkdə də heç kimdən asılı olmayacaqdır və əlbəttə ki, bu bizə böyük imkanlar açır, öz sözümüzü açıq şəkildə deyirik. Azərbaycan həm ikitərəfli formatda, həm də beynəlxalq təşkilatlar çərçivəsində öz mövqeyini qətiyyətlə, inamla deyir. Biz gərək bunu yüksək qiymətləndirək və bu gözəl imkanları əldə edib Azərbaycan xalqının milli maraqlarını daha da yüksək səviyyədə qoruyaq.

Bütün bu işlərin təməli 1990-cı illərin ortalarında qoyulmuşdur. Xalqımızın ümummilli lideri Heydər Əliyevin fəaliyyəti nəticəsində, səyləri nəticəsində, siyasəti nəticəsində bu gün Azərbaycan bölgədə və dünyada çox möhkəm yerini tutmuş bir ölkədir. Məhz o siyasət, məhz xalqımızın öndəri Heydər Əliyevin fəaliyyəti bizə bu imkanları yaratdı. Faktiki olaraq,

Heydər Əliyev Azərbaycan dövlətini qurdu, güclü dövlət qurdu. O dövləti ki, bu gün öz sözünü istənilən səviyyədə, istənilən formatda deyir və müdafiə edir. Biz bu gözəl nailiyyətləri daha da artırmalıyıq, öz işimizlə, öz fəaliyyətimizlə doğma xalqımıza ləyaqətlə xidmət etməliyik və bütün istiqamətlərdə Azərbaycanın potensialını möhkəmləndirməliyik. İqtisadi, siyasi islahatlar davam etməlidir, ölkəmizdə vətəndaş cəmiyyətinin formalaşması işində səylər davam etdirilməlidir. Ordu quruculuğu, sosial məsələlərin həlli və başqa sahələr də həmçinin.

Beləliklə, bir daha demək istəyirəm ki, 2005-ci il uğurlu il olmuşdur. Bizim planlarımız həyatda öz əksini tapdı və gərək biz çalışaq ki, 2006-cı ildə də qarşımıza qoyduğumuz bütün məsələlər öz həllini tapsın.

## YEKUN NİTQİ

Biz bu gün 2005-ci ilin yekunları haqqında kifayət qədər danışdıq. İndi əsas məsələ 2006-cı ildə nəzərdə tutulmuş bütün planları həyata keçirməkdir. 2006-cı ildə bizim fəaliyyətimiz bir neçə istiqamətdə davam etdiriləcəkdir. Xarici siyasət istiqamətində bizim siyasətimiz açıqdır, aydındır. Biz qonşularımızla ikitərəfli əlaqələrimizi daha da gücləndirməliyik. Biz bu regionda yaşayırıq. Əlbəttə, regional vəziyyət və regionda gedən proseslər bizi biganə qoya bilməz. Eyni zamanda, regional əməkdaşlığın inkişafı üçün Azərbaycan öz töhfəsini vermişdir. Bir sıra mühüm iqtisadi və siyasi layihələrin təşəbbüskarı olmuşdur. Bizim regiondakı mövqelərimiz daha da möhkəmləndirilir.

Nəzərə alsaq ki, bölgədə və geniş mənada regionda enerji təhlükəsizliyi məsələsi kəskinləşmişdir, əlbəttə, Azərbaycanın gələcəkdə önəmi artacaqdır. Bütün nəqliyyat və enerji dəhlizləri, yəni Asiyanı Avropa ilə birləşdirən dəhlizlər Azərbaycanın ərazisindən keçir. Şübhəsiz ki, ölkəmizin coğrafi vəziyyətindən, təbii ehtiyatlarından çox məharətlə istifadə edib öz çəkimizi

artırmalıyıq və biz buna nail olacağıq. Bir sözlə, qonşularımızla bizim münasibətlərimiz daha da möhkəmlənməlidir. Bu istiqamətdə çox müsbət nəticələr vardır və gələcəkdə də xarici siyasətimizin bu istiqaməti önəmli yer almalıdır.

Mən beynəlxalq təşkilatlardakı iştirakımız barədə iclasın əvvəlində öz fikirlərimi bildirdim. Bu fəaliyyət də bizim üçün çox lazımdır. Azərbaycan müxtəlif beynəlxalq təşkilatlarda iştirak edir, bu təşkilatlara könüllü daxil olubdur, heç kim bizi məcbur etməyibdir. Heç də bir təşkilatda üzv olmaq o demək deyil ki, kimsə səni zorla oraya salmaq istəyir, yaxud da səni oradan çıxartmaq istəyir. Azərbaycan üzv olduğu bütün beynəlxalq təşkilatlarda öz yerini möhkəmləndirir. İslam Konfransı Təşkilatında, MDB-də, GUAM-da, Avropa Şurasında, digər təşkilatlarda Azərbaycan çox fəal iştirak edir. Bu təşkilatlarda üzv olmaq bizim üçün lazımdır, bizim maraqlarımıza cavab verir, eyni zamanda əminəm ki, Azərbaycan da bu təşkilatlar üçün çox önəmli ölkədir. Bayaq qeyd etdiyim həmin amillərə görə, bizim önəmimiz daha da artacaqdır. Bildiyiniz kimi, Azərbaycanda bəzi siyasi qüvvələr ölkəmizin Avropa Şurası ilə olan münasibətlərinə kölgə salmaq üçün müxtəlif şayiələr, uydurmalar, iftiralar səsləndirirdilər. Onların heç birinin əsası olmamışdır. Bu barədə mənim çıxışlarım da olub, fikirlərim də olubdur. Ancaq buna baxmayaraq, Avropa Şurasının bəzi üzvləri Azərbaycana qarşı ədalətsiz mövqedədirlər. Bu, bu gün yaranan məsələ deyil, bizim Avropa Şurasına üzv olduğumuzdan əvvəl də var idi, mən onu da xatırlayıram. Bu, siyasi mübarizədir. Elə insanlar, elə siyasətçilər var ki, onlar Azərbaycanı qəbul edə bilmirlər, Azərbaycanı Avropa ailəsinin bir üzvü kimi qəbul etmək istəmirlər. Bunun səbəbləri var, biz də bunları bilirik. Bu barədə mən çox dərinə getmək istəmirəm. Amma bu faktdır.

O da faktdır ki, bizim əleyhimizə çox güclü erməni lobbisi fəaliyyət göstərir. Erməni lobbisinin dayaqları müxtəlif təşkilatlarda var. Avropa Şurasında erməni siyasətçilərinin, lobbisi üzvlərinin təsiri altında olan kifayət qədər deputat var.

Ya siyasi təsir altında, ya iqtisadi təsir altında, yaxud da başqa hansısa bir maraqlar burada istisna olunmur. Bu mümkündür, biz bunu bilməliyik. Ona görə yenə deyirəm, bu, siyasi mübarizədir və Azərbaycan öz iradəsini açıq şəkildə ifadə etmişdir. Bizim Avropa Şurası ilə əməkdaşlığımız bizə lazımdır və Avropa Şurasına lazımdır. Mən xatırlayıram, yeni seçilmiş parlamentin ilk iclasındakı çıxışımda bunu qeyd etmişdim. Avropa Şurası ilə Azərbaycan arasında əməkdaşlıq haqqında demişdim. Demişdim ki, Avropa Şurası yalnız Azərbaycan üzrə məruzəçilərdən ibarət deyil və mən haqlı çıxdım. Məruzəçilərin bütün səylərinə baxmayaraq, Avropa Şurası Azərbaycanla olan əməkdaşlığı çox üstün tutdu, heç bir təxribata uymadı. Bu səylər, bu hərəkətlər hətta Avropa Şurasının deputatları arasında da böyük hiddət doğurmuşdu. Azərbaycanı təcrid etmək cəhdləri, Azərbaycana sanksiya tətbiq etmək cəhdləri, Azərbaycanın əleyhinə ədalətsiz rəy formalaşdırmaq cəhdləri – onların heç birinin təsiri olmadı. Həyat bir daha onu göstərdi ki, Azərbaycan düzgün istiqamətdə inkişaf edir, bizim siyasətimiz Azərbaycan xalqının maraqlarını tam şəkildə əks etdirir. Belə olan halda demək olar ki, öz siyasi nüfuzunu ortaya qoymuş Azərbaycana sanksiya tətbiq etmək istəyən Avropa Şurasının üzvləri, əlbəttə, qərar qəbul etməlidirlər. Bu siyasi fiaskodan sonra özünə hörmət edən siyasətçi, adətən, ya istefa verir, yaxud da öz üzərinə düşən məsuliyyətdən imtina edir. Yəni hər hansı bir siyasi mədəniyyəti əks etdirən – əgər bu mədəniyyət varsa – addımlar gözlənilir və bu, təbii olar. Amma buna baxmayaraq, bu olsa da, olmasa da, Azərbaycan öz işini düzgün istiqamətdə qurubdur.

Bir daha deyirəm, Avropa Şurası ilə, bütün başqa təşkilatlarla bizim səmərəli, qarşılıqlı hörmətə əsaslanmış münasibətlərimiz mövcuddur və münasibətlər məhz bu istiqamətdə davam edə bilər. Kimsə fikirləşirsə ki, Azərbaycanı haradasa təhqir etmək olar, yaxud da Azərbaycanı alçaltmaq olar, Azərbaycanı təcrid etmək olar, onu cəzalandırmaq olar – o

insanlar yanılırlar. Bu mümkün deyil və heç vaxt da mümkün olmayacaqdır. Bizim kifayət qədər imkanlarımız var, çəkimiz var, gücümüz var ki, öz siyasətimizi davam etdirək. Bizim siyasət bundan ibarətdir. Biz üzv olduğumuz bütün təşkilatlarla çox səmərəli əməkdaşlıq edirik.

Bizim inteqrasiya siyasətimiz də uğurludur. Avropa İttifaqı ilə yeni qonşuluq siyasəti çərçivəsində tədbirlər planı hazırlanır. Bu proses də çox uğurludur və müsbətdir. Bilirsiniz ki, Avroatlantik strukturlara bütövlükdə bizim münasibətimiz çox müsbətdir. İnteqrasiya siyasəti davam etdirilir, əməkdaşlıq güclənir. Burada da biz gərək həmişə reallığa əsaslanaq. Bizim inteqrasiya siyasətimiz gərək bu reallıqları özündə ehtiva etsin.

Biz bütün addımları vaxtlı-vaxtında atmalıyıq. Gecikməməliyik, amma çox da tələsməməliyik. Yəni bu reallıq təkcə Azərbaycanın reallıqları deyil, misal üçün, Azərbaycanın inkişaf tempinin hansı səviyyədə olmasından asılı deyildir. Eyni zamanda, inteqrasiya obyekti olan təşkilatların da buna hazır olmasından asılıdır. Yəni münasibətlər qarşılıqlı hörmət əsasında qurulmalıdır. Əgər biz çox tələssək, çox israr etsək və reallığı tam dərk etməsək, bunun ancaq mənfi nəticələri ola bilər. Ona görə bu istiqamətdə davam etməlidir.

Əlbəttə, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində 2006-cı ildə bizim səylərimiz davam edəcək, mən bu barədə öz fikirlərimi bildirdim. Bir daha demək istəyirəm ki, bəzi siyasi qüvvələrin təxribat xarakterli çıxışları Azərbaycan xalqını çaşdırmamalıdır. Azərbaycan müxalifəti, əfsuslar olsun ki, istər daxili siyasətdə, istər Avropa Şurası ilə bizim münasibətlərdə, istərsə də Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsinin həllində yalanın ruporuna çevrilibdir.

Söz düşmüşkən, onu da demək istəyirəm ki, bizim müxalifət Avropa Şurasına Azərbaycan haqqında donoslar yazmışdır. Azərbaycan müxalifətinin üzvləri Avropa Şurasına gedərək, orada sanksiyaların tətbiq olunmasını gözləyirdilər. Məndə olan məlumata görə, müxalifətin nümayəndələri öz vaxtını daha çox

Avropa Şurasının bufetində və restoranında keçirmişlər və deyirdilər ki, biz burada, bufetdə güclü iş aparırıq. Azərbaycandan 200-dən artıq donos yazmışlar. Burada məqsəd nədir? Məqsəd, misal üçün, Azərbaycanı orada səsdən məhrum edib, burada hansısa məqsədə nail olmaq. Düzdür, onlar intellekt baxımından o qədər də inkişaf etmiş insanlar deyil, amma o dərəcədə də abdal deyillər ki, yəni tutaq ki, Azərbaycana sanksiya tətbiq olundu və burada nəsə dəyişdi. Heç nə dəyişmədi. Yəni onda məqsəd nədir? Məqsəd Azərbaycanı səsdən məhrum etməkdir. O ərəfədə ki, orada Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ məsələsi müzakirə olunacaq və bu müzakirədə  Azərbaycan nümayəndə heyətinin səsi olmasın ki, o, səs versin. Yəni bu kimin marağına xidmət edir, Azərbaycanı kim o səsdən məhrum etmək istəyir? Azərbaycan müxalifəti, ermənilər, Ermənistanın nümayəndələri, bir də erməni lobbisinin təsiri altında olan, onun pulu ilə yaşayan satqın siyasətçilər. Yəni bu, milli xəyanətin göstəricisidir.

Azərbaycan xalqı, əlbəttə, bütün bunları çox yaxşı bilir. Amma bir daha qeyd etmək istəyirəm ki, donos yazmaq – özü də öz ölkəsindən–ən biabırçı bir haldır. Bilirsiniz, onların fəaliyyəti elə əvvəllər də bizə bəlli idi. Ermənistanın xüsusi xidmət orqanları ilə onların nümayəndələrinin sövdələşməsi, konyak içməsi, yaxud da pul alması – bütün bunlar onların siyasətinin əsasını təşkil edir. İndi mənə deyirlər, bu məsələdə də, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələsində də müxalifət çox fəal təbliğat aparır ki, o qərar qəbul edilib, bu qərar qəbul edilibdir. Birincisi, heç bir qərar qəbul edilməyibdir. İkincisi, onlarda bu məlumat haradandır? Yəni bu yalanlar nəyə xidmət edir? Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır. Bu gün də mən bunu bir daha dedim. Heç vaxt – nə bu gün, nə sabah, nə 10 ildən sonra, nə 15 ildən sonra, nə 100 ildən sonra Dağlıq Qarabağ Azərbaycandan ayrılmayacaqdır. Hər halda, mən prezident olan dövrdə bunu özündə əks etdirən sazişə heç vaxt imza qoymaram. Dağlıq

Qarabağ Azərbaycan torpağıdır. Azərbaycanlılar Dağlıq Qarabağa qayıtmalıdırlar və bu barədə də danışıqlar aparılır. İşğal edilmiş torpaqlar işğalçılardan azad olunmalıdır. Bu mövzu ətrafında söhbət aparılır və söhbət də aparılacaqdır. Biz deyə bilmərik ki, irəliləyişə nail olduq. Çünki danışıqlarda iki tərəf iştirak edir. Biz hələ ki, danışıqlar prosesinə sadiqik. Bu prosesdə iştirak edirik, danışıqlar prosesi tükənməyibdir. Eyni zamanda, ordumuzu da gücləndiririk, iqtisadiyyatımızı da gücləndiririk. Gördük ki, danışıqlar prosesi tükəndi, onda oturarıq, fikirləşərik, qərar qəbul edərik və artıq öz fəaliyyətimizi başqa istiqamətdə daha da gücləndirərik. Hər halda, bu məsələdə Azərbaycanın Xarici İşlər Nazirliyi iştirak edir. Mən prezident kimi iştirak edirəm. Hesab edirəm ki, indiki mərhələdə danışıqların davam etdirilməsi lazımdır.

2006-cı ildə ordu quruculuğu istiqamətində də böyük işlər görüləcəkdir. Mən bu gün qeyd etdim, son iki il ərzində biz müdafiə potensialımızı iki dəfədən çox gücləndirdik. Bildiyiniz kimi, 2006-cı ildə hərbi büdcəmiz 600 milyon dollar olacaqdır. Bu bizə imkan verəcək ki, hərbi potensialımızı daha da artıraq. Bizim hərbi büdcəmiz Ermənistanın bütün büdcəsinə bərabər olmalıdır. Mən bunu artıq bir neçə dəfə demişəm. Bir də deyirəm ki, mən bunu unutmamışam və bu olacaqdır. Nə vaxt olacaq, o bizdən asılıdır. Bizə nə vaxt lazım olacaq, o vaxt da olacaqdır. Amma o gün uzaqda deyildir.

İqtisadi islahatlar davam etdirilməlidir. Buna heç bir şübhə ola bilməz. Bu islahatlar bizə lazımdır. Həm struktur islahatları lazımdır, həm də Azərbaycanda bazar iqtisadiyyatının möhkəmlənməsi üçün, inkişafı üçün nə lazımdırsa, onu edəcəyik. Büdcə artımı təmin olunmalıdır. Mən artıq 2007-ci ilin büdcəsindən danışmaq istəyirəm. O barədə fikirləşməliyik. Kəskin şəkildə artım olmalıdır. 2006-cı ildə qeyri-neft sektorunun inkişafı üçün, sahibkarlığın inkişafı üçün çox önəmli addımlar atılmalıdır. Sahibkarlara daha böyük həcmdə kreditlər veriləcəkdir. Əgər keçən il 200 milyard manat səviyyəsində verilibdirsə, deməli, 2006-cı ildə 400 milyard

nəzərdə tutulmuşdur. Yeni pulla, haradasa, 100 milyon dollara yaxın bir məbləğdir ki, sahibkarlara güzəştli şərtlərlə kreditlər verilir. Bunlar da öz növbəsində, iş yerlərinin açılması üçün və qeyri-neft sektorunun inkişafı üçün, xüsusilə kənd təsərrüfatının, emal sənayesinin inkişafı üçün lazımdır.

2006-cı ildə geniş sənaye inkişafı proqramı hazırlanmalıdır. O da qeyri-neft sektorunun inkişafı çərçivəsində olmalıdır. Biz indidən gələcək sənaye inkişafımızı müəyyən etməliyik: hansı sahələr inkişaf etməlidir, hansı sahələrə biz xaricdən investorları cəlb etməliyik, hansı sahələri özümüz işlətməliyik, sərmayələri haraya qoymalıyıq. Bizim maliyyə imkanlarımız artır, büdcəmiz artır. Bakı–Tbilisi–Ceyhan neft kəməri işə düşəndən sonra Azərbaycan xəzinəsinə milyardlarla dollar daxil olacaq və biz gərək bundan səmərəli istifadə edək. Güclü sənaye potensialının yaradılması məqsədi qoyulur. 2006-cı ildə bunun istiqamətləri müəyyən edilməli və ilkin addımlar da atılmalıdır.

Bildiyiniz kimi, dövlət investisiya şirkətinin formalaşması üçün Dövlət Neft Fondunda 100 milyon dollar nəzərdə tutulub və bu 100 milyon dollar da öz növbəsində, yeni sənaye istehsalının inkişafına və yaradılmasına xidmət etməlidir. Bu 100 milyon dolları qoyub xarici banklardan 400 milyon dollar da cəlb etmək olar. Beləliklə, 500 milyon dollar məbləğində vəsait məhz sənaye potensialının yaradılmasına yönəldilməlidir.

Regional inkişaf proqramı davam edir. 340 min iş yerinin açılması artıq böyük nailiyyətdir və bu, uğurla davam etdirilir. Eyni zamanda, bilirsiniz ki, Bakının şəhərətrafı qəsəbələrinin inkişaf proqramı da hazırlanır. Orada da böyük məbləğlər nəzərdə tutulubdur. Yaxın zamanlarda biz bu proqramı da həyata keçirməyə başlayacağıq. Yoxsulluğun azaldılması və aradan qaldırılması işində nəticələr var. Yoxsulluğun səviyyəsi aşağı düşür. 2006-cı ildə pensiya islahatının nəticəsində, ünvanlı sosial yardımın tətbiqindən sonra, minimum əməkhaqqının qaldırılmasından sonra, müəyyən kateqoriyalı işçilərin əmək haqlarının qaldırılmasından sonra Azərbaycanda

yoxsulluqda yaşayan insanların sayı daha da aşağı düşməlidir və düşəcəkdir.

İnfrarstruktur layihələr 2006-cı ildə həyata keçməlidir. Yeni yollar salınmalıdır. Bakını bütün sərhədlərlə birləşdirən yollarda işlər başlanmalıdır. Bakı–Rusiya yolu, Bakı–Gürcüstan yolu və Bakı–İran sərhədi – bütün bu istiqamətlərdə işlər daha da sürətlə getməlidir. Eyni zamanda, bildiyiniz kimi, Bakının yol infrastrukturu haqqında biz qərarlar verdik, geniş müşavirə keçirildi, vəsait ayrıldı. Artıq sabahdan, birisi gündən başlamaq lazımdır. Yeni körpülər, yolötürücüləri, iki-üç səviyyəli körpülər, yollar – yəni Bakının güclü yol infrastrukturu yaradılmalıdır.

Digər infrastruktur layihələr də həyata keçiriləcəkdir. İçməli su kəmərinin tikintisi başlanmalıdır, qaz kəmərləri şəbəkəsi yeniləşməlidir, istilik sisteminin bərpası daha da sürətlə getməlidir, elektrik stansiyalarının tikintisi getməlidir. Yəni bütün bu planlar var. Sadəcə deyirəm ki, bütün aidiyyəti orqanlar bu işlərə böyük diqqət yetirsinlər.

Bizim xərclər artır. Beləliklə, bir tərəfdən, inflyasiya da arta bilər. Ona görə, bütün aidiyyəti qurumlar buna nəzarət etməlidirlər. Biz keçən il inflyasiya qalxanda bunun qarşısını ala bildik, təxirəsalınmaz tədbirlər görüldü. İnanmıram ki, bu il qalxsın, amma xərclər həddindən artıq çoxdur. Büdcə xərclərinin 70 faiz artması istər-istəməz inflyasiyaya təsir edir. Eyni zamanda, dünyada neftin qiymətinin bahalaşması bütün idxal olunan malların qiymətinə təsir göstərir. Bunlar təbii amillərdir. Biz gərək hazır olaq ki, inflyasiyanı birrəqəmli səviyyədə saxlayaq.

Eyni zamanda, büdcə xərclərində şəffaflıq daha da yüksək səviyyədə olmalıdır. Xərclərə nəzarət güclənməlidir. O cümlədən ictimai nəzarət. Ona görə ki, bizim xərclərimiz artır, nəzarət də artmalıdır və güclənməlidir. Əlbəttə, Azərbaycanda siyasi proseslərin möhkəmlənməsi, demokratiyanın inkişafı, ictimai nəzarətin güclənməsi ölkəmizin gələcəyinə lazımdır. Bizim normal fəaliyyətimizə lazımdır.

Korrupsiyaya və rüşvətxorluğa qarşı mübarizə daha da ciddi aparılmalıdır. Bu istiqamətdə müəyyən ilkin addımlar atılıbdır. Amma onlar bizi qane etmir. Rüşvətxor məmurlar ifşa olunmalıdırlar. Bəzi hallarda rüşvətxor məmurlar öz cəzasını alanda müxalifət, yaxud bəzi qeyri-hökumət təşkilatları onların müdafiəsinə qalxırlar. Necə ola bilər ki, rüşvətxorluqla məşğul olan, oğurluqla məşğul olan korrupsioner məmurları biz həbs edəndə, guya ki, Azərbaycanda ədalətin, demokratiyanın carçısı olan müxalifət onların köməyinə gəlir? Yəni bu bir daha onu göstərir ki, bu əlaqələr çox dərin köklərə malikdir. Həmin o keçmiş Səhiyyə naziri, keçmiş İqtisadi İnkişaf naziri iqtidarda oturub, öz vəzifəsindən sui-istifadə edib, oğurluqla, korrupsiya ilə, rüşvətlə yığılan pulları müxalifətin nümayəndələrinə ötürürdülər. Ona görə indi, bu imkanlar müxalifətin əlindən alınandan sonra bunların müdafiəsinə qalxırlar. Amma burada da biz öz mübarizəmizi daha da gücləndirməliyik.

Enerji təhlükəsizliyinin möhkəmlənməsində işlər daha da mütəşəkkil qaydada aparılmalıdır. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi başa çatdırılacaqdır. Bakı–Tbilisi–Ərzurum qaz kəmərinin tikintisi də başa çatmalıdır. Artıq Azərbaycan enerji daşıyıcılarının tranzit ölkəsinə çevrilibdir. Biz tranzit ölkəyik. Artıq İran qazı Azərbaycan ərazisi ilə Gürcüstana ötürüləcəkdir. Gələcəkdə biz bundan səmərəli istifadə etməliyik. Bəzi ölkələrdə ki, enerji böhranı yaşandı, Azərbaycanda biz bunu hiss etmədik. Çünki bizdə enerji təhlükəsizliyi siyasəti çox yüksək səviyyədədir. 2006-cı ildə modul tipli elektrik stansiyaları tikiləcək və Azərbaycana əlavə 400 meqavat gücündə elektrik enerjisini təmin edəcəkdir.

Bununla yanaşı, Mingəçevir istilik elektrik stansiyasında yeni blokların işə salınması, Sumqayıt və «Şimal-2» elektrik stansiyalarının tikintisi və eyni zamanda, Əli Bayramlı elektrik stansiyasının tikintisi haqqında biz gərək 2006-cı ildə qərar qəbul edək. Biz bunu ya dövlət hesabına edəcəyik, ya xarici investor cəlb edəcəyik, yaxud da kredit alacağıq. Yəni biz gərək

üçündən birini müəyyən edək və bu işlər də 2006-cı ildə başlanmalıdır.

Kənd təsərrüfatının inkişafı üçün lazımi tədbirlər görülür. Ölkə əhalisinin yarısı, demək olar ki, kənd təsərrüfatı ilə məşğul olur. «Aqrolizinq» Səhmdar Cəmiyyətinin xətti ilə gətirilən texnika artıq paylanır. Eyni zamanda, İqtisadi İnkişaf Nazirliyinin xətti ilə kənd təsərrüfatının inkişafına dəstək olan kreditlər, qeyd etdiyim kimi, 100 milyon dollardır. Onun təxminən böyük əksəriyyəti kənd təsərrüfatına yönəldiləcəkdir. O da nəzərdə tutulubdur. Gübrə məsələsini də biz həll etdik. Gübrələr də alınır və paylanılır.

Ətraf mühitin qorunması işində geniş ekoloji proqram qəbul edilməlidir. Bu barədə bu gün danışdıq. Çünki bizim imkanlarımız artır, iqtisadi potensial artır, amma insanların sağlamlığı bilavasitə ekoloji vəziyyətlə bağlıdır. Ona görə bu məsələyə diqqət göstərilməlidir.

Sosial və humanitar sahələrə də biz diqqət göstərəcəyik. Eyni zamanda, səhiyyə xidmətinin səviyyəsi qalxmalıdır. 2006-cı ildə səhiyyə sistemində yeni xəstəxanalar, yeni poliklinikalar tikiləcəkdir.

Təhsil sahəsində məktəblərin tikintisi nəzərdə tutulubdur. Məndə olan məlumata görə, 2005-ci ildə 328 məktəb və əlavə korpus tikilibdir. Bu, görünməmiş bir nəticədir. 2006-cı ildə də biz bu işləri davam etdirəcəyik. Kompüterləşmə proqramı davam edəcəkdir. Məktəblərdə kompüterlər quraşdırılacaq və təhsilin keyfiyyəti də qalxmalıdır.

Tarixi-mədəni irsimizin qorunması üçün lazımi tədbirlər görüləcəkdir. Mədəniyyət infrastrukturuna əlavə vəsait ayrılacaqdır. Bizim teatrlarımız, muzeylərimiz ən yüksək səviyyədə əsaslı təmir olunmalıdır. 2005-ci ildə biz bu işə başladıq. Azərbaycan Tarixi Muzeyi və Nizami adına Ədəbiyyat Muzeyində təmir işləri gedir.

İdman infrastrukturunun inkişafı üçün lazımlı qərarlar verilibdir. 2006-cı ildə Azərbaycanın müxtəlif rayonlarında yeni idman komplekslərinin, üzgüçülük hovuzlarının tikintisi

nəzərdə tutulubdur. Turizmin inkişafına da böyük diqqət göstərilməlidir. Turizm infrastrukturunun möhkəmlənməsində 2006-cı ildə çox böyük işlər görüləcəkdir.

Əlbəttə ki, 2006-cı ildə maaşlar, təqaüdlər artmalıdır. Biz bu barədə danışdıq. Həm minimum əməkhaqqı, pensiyalar, həm də orta aylıq əməkhaqqı qalxmalıdır. Bizim insanlarımız daha da yaxşı yaşamalıdırlar. Aztəminatlı ailələrə ünvanlı sosial yardım göstərilməlidir. Bir də demək istəyirəm ki, minimim əməkhaqqı və pensiya Azərbaycanda insanların minimum tələbatını ödəməlidir. Azərbaycanda ictimai-siyasi vəziyyət sabitdir. Əminəm ki, 2006-cı ildə də sabit olaraq qalacaqdır. Azərbaycanda bütün görülən işlər bir məqsədi güdür – Azərbaycan xalqı daha da yaxşı yaşasın. Azərbaycan möhkəmlənsin, öz mövqelərini gücləndirsin, Azərbaycanda güclü dövlət quruculuğu prosesi daha da sürətlə getsin. İctimai-siyasi vəziyyətin sabit olması bizim bütün gələcək inkişafımızı müəyyən edəcəkdir. Sabitlik olmayan ölkələrdə heç vaxt inkişaf olmur. Sabitlik inkişafın başlıca şərtidir. Azərbaycanda sabitlik 1993-cü ildə bərqərar olundu. O ildən bu günə qədər sabitlik qorunur və qorunacaqdır. Bu sabitliyi pozmaq istəyənlər olub və bəlkə gələcəkdə də olacaqdır. Amma onların aqibəti elə eyni olacaqdır. Biz ictimai-siyasi asayişi qoruyacağıq. Azərbaycanda sabitliyi möhkəmləndirəcəyik və Azərbaycanın inamlı inkişafını təmin edəcəyik.

2006-cı ildə görüləcək işlər çoxdur. Mən bu gün sizə ancaq işlərin əsas istiqamətlərini bildirdim və bütün aidiyyəti orqanlardan tələb edirəm ki, 2006-cı ildə öz vəzifə borcunu ləyaqətlə icra etsinlər. Xalqa və dövlətə ləyaqətlə xidmət etsinlər.

Sağ olun.

## ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

Hörmətli cənab Federal Prezident!

Almaniya Federativ Respublikasının sabiq Federal prezidenti Yohannes Raunun vəfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu ağır itki ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, mərhumun ailə üzvlərinə, bütün Almaniya xalqına dərin hüznlə başsağlığı verirəm.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *1 fevral 2006-cı il*

## ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında ATƏT-in Minsk qrupunun həmsədrlərini qəbul etmişdir.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti, perspektivləri və qarşılıqlı maraq doğuran bir sıra digər məsələlər ətrafında fikir mübadiləsi aparılmışdır.*

## UKRAYNANIN MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ ŞURASININ KATİBİ ANATOLİ KİNAXIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*1 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 1-də Prezident sarayında Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının katibi Anatoli Kinaxın rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan prezident İlham Əliyev Azərbaycan ilə Ukrayna arasındakı münasibətlərin durmadan inkişaf etdiyini vurğulayaraq, ölkələrimizin ikitərəfli səviyyədə və beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlığının həyata keçirildiyini qeyd etdi. Prezident İlham Əliyev ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da genişlənəcəyinə və bu səfərin əlaqələrimizin inkişafına öz töhfəsini verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Anatoli Kinax əlaqələrimizin uğurla inkişaf etdiyini və 2005-ci ildə ölkələrimiz arasındakı ticarət dövriyyəsinin artdığını qeyd etdi. O, Ukrayna ilə Azərbaycan arasında bərabərhüquqluluq və qarşılıqlı hörmət prinsiplərinə əsaslanan münasibətlərin yeni inkişaf mərhələsinə qədəm qoyduğunu bildirdi. Qonaq iki ölkə arasındakı əlaqələrin bundan sonra da inkişaf edəcəyinə əminliyini ifadə etdi.*

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

Sizi – Ümumdünya Gömrük Təşkilatı Avropa Regionu Gömrük Xidməti rəhbərləri konfransının iştirakçılarını salamlayır, konfransınızın işinə uğurlar diləyirəm. Ümidvaram ki, Azərbaycanın paytaxtı Bakı şəhərində keçirilən bu konfrans ölkələrimiz arasında iqtisadi inteqrasiya proseslərinin və səmərəli əməkdaşlığın daha da dərinləşdirilməsinə öz müsbət təsirini göstərəcəkdir.

Azərbaycan xalqının ümummilli lideri Heydər Əliyevin gələcəyə yönəlmiş uğurlu daxili və xarici siyasətinin nəticəsi olaraq, bu gün müstəqillik yollarında inamlı və qətiyyətli addımlar atan ölkəmiz öz iqtisadiyyatını uğurla inkişaf etdirir. 2005-ci ilin yekunları buna əyani sübutdur.

Azərbaycanın gömrük orqanları ölkəmizin iqtisadi təhlükəsizliyinin keşiyində dayanmaqla üzərinə düşən vəzifələrin yerinə yetirilməsində, müxtəlif ölkələrlə əlaqələrin genişləndirilməsində yaxından iştirak edir. Avropa regionu gömrük xidməti rəhbərləri konfransının Azərbaycanda keçirilməsi həmin əlaqələrin inkişaf səviyyəsinin yüksəlməsinin bariz nümunəsidir. Eyni zamanda, bu tədbir Azərbaycan gömrük xidmətinin Ümumdünya Gömrük Təşkilatı çərçivəsində həyata keçirdiyi səmərəli əməkdaşlığın nəticəsidir. Əminəm ki, Avropa regionu ölkələri gömrük xidməti rəhbərlərinin respublikamızda bir araya gəlməsi ölkəmizin xarici iqtisadi əlaqələrinin daha da güclənməsinə, hərtərəfli fəaliyyət strategiyasının qurulmasına öz töhfəsini verəcəkdir.

Qloballaşan dünyada yeni texnologiyaların sürətli inkişafı gömrük işinin təşkilinə böyük təsir göstərməkdədir. Məhz bu

baxımdan konfransınız dünyada təhlükəsiz ticarətin təmin olunması, qarşılıqlı əməkdaşlığın qurulması, fikir və təcrübə mübadiləsinin aparılması, eləcə də gömrük işinin təkmilləşdirilməsi üçün yeni imkanların öyrənilməsinə xidmət edir.

Hörmətli konfrans iştirakçıları!

Sizi səmimi-qəlbdən təbrik edir, hər birinizə cansağlığı, gələcək fəaliyyətinizdə müvəffəqiyyətlər arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı şəhəri, *1 fevral 2006-cı il*

## ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Ümumdünya Gömrük Təşkilatı Avropa regionu gömrük xidməti rəhbərlərinin Bakıda keçirilən beynəlxalq konfransının iştirakçılarını qəbul etmişdir.*

*Prezident İlham Əliyev Avropa regionu gömrük xidməti rəhbərlərinin konfransının Bakıda keçirilməsini əlamətdar hadisə kimi səciyyələndirdi, bunu Azərbaycanın beynəlxalq aləmdə qazandığı nüfuzla və ölkəmizin gömrük orqanlarının kifayət qədər təcrübə toplaması ilə əlaqələndirdi.*

*Prezident İlham Əliyev qonaqlara Azərbaycanın sosial-iqtisadi inkişaf dinamikası barədə məlumat verərək dedi ki, təkcə ötən il ümumi daxili məhsulun həcmi 26 faizdən çox, sənaye məhsulu istehsalı isə 33 faizdən çox artmışdır. Bazar iqtisadiyyatının qanunlarına uyğun olaraq, sahibkarlığın inkişafına dövlət qayğısının səmərəli nəticələrindən söhbət açan Azərbaycan prezidenti ötən il ümumi daxili məhsulda özəl bölmənin payının 75 faiz olduğunu bildirdi. Bu iqtisadi nailiyyətlərin 2006-cı ildə də davam etdiriləcəyini vurğulayan prezident İlham Əliyev dedi ki, iqtisadiyyatın belə sürətli inkişafı gömrük orqanlarının işinin daha da gücləndirilməsini həyati zərurətə çeviribdir. Bu mənada gömrük orqanları öz işlərini daha yüksək səviyyədə qurmalıdır. Bundan əlavə, ölkəmiz keçid dövrünü yaşayır və sosial problemlərin heç də hamısı öz həllini tapmayıbdır. Bu isə gömrük orqanlarının öz işinə daha məsuliyyətli və yaradıcılıqla yanaş-*

*masını tələb edir. Prezident İlham Əliyev ölkəmizdə uğurla həyata keçirilən neft və qaz layihələri reallaşdıqca, xüsusilə Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri istismara verildikdən sonra gömrük orqanlarının üzərinə düşən vəzifələrdən də danışdı.*

*Prezident İlham Əliyev Azərbaycanın gömrük orqanlarının tarixini də xatırladaraq bildirdi ki, müstəqillik əldə etdikdən sonra Azərbaycanda gömrük sistemi öz işinə sıfırdan başlayıbdır. Müstəqillik dövründə dövlət üçün yeni olan bu qurum qısa vaxtda kifayət qədər təcrübə toplayıb və Ümumdünya Gömrük Təşkilatı ailəsində özünəməxsus yer tutubdur. Prezident İlham Əliyev bu irəliləyişdə Ümumdünya Gömrük Təşkilatının müntəzəm olaraq verdiyi məsləhət və tövsiyələrə, habelə gömrük orqanlarına xidmət edən infrastrukturların qurulmasına göstərdiyi yardımlara görə Ümumdünya Gömrük Təşkilatına və onun Baş katibi Mişel Daneyə təşəkkürünü bildirdi.*

*Prezident İlham Əliyev konfransın işinə uğurlar arzuladı.*

*Ümumdünya Gömrük Təşkilatının Baş katibi Mişel Dane vaxt tapıb konfrans iştirakçılarını qəbul etdiyinə və xoş sözlərə görə Azərbaycan prezidentinə minnətdarlıq etdi. 40 ölkədən nümayəndənin, o cümlədən 25 ölkənin gömrük xidməti rəhbərinin iştirak etdiyi Bakı konfransının çox böyük əhəmiyyəti olduğunu vurğulayan cənab Mişel Dane dedi ki, konfrans iki mövzu ətrafında davam etdirilir. Birincisi, kommersiya mübadilələrinin təhlükəsizlik şəraitində aparılması, ikincisi isə, gömrük orqanlarının mövcud imkanlarını genişləndirməklə onların əlaqələrini daha da fəallaşdırmaqdan ibarətdir. Avropa Komissiyasının və İnterpolun nümayəndələrinin konfransda iştirakı bu tədbirə verilən əhəmiyyətin daha bir nümunəsidir.*

*Ümumdünya Gömrük Təşkilatının Baş katibi Azərbaycanda gömrük orqanlarının yaranması və formalaşmasında dünya şöhrətli siyasi xadim Heydər Əliyevin əvəzsiz xidmətlərini xüsusi vurğuladı, sonrakı illərdə Azərbaycanın gömrük orqanlarının işinin daha da təkmilləşməsinə prezident İlham Əliyevin göstərdiyi diqqət və qayğını yüksək dəyərləndirdi. Cənab Mişel Dane indiki*

*konfransın Azərbaycanda keçirilməsini dəstəklədiyinə və tədbirin yüksək səviyyədə təşkilinə görə prezident İlham Əliyevə iştirakçılar adından minnətdarlığını çatdırdı, Azərbaycan prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

*Macarıstanın gömrük xidmətinin rəhbəri Yanoş Nac Avropa ölkələrindən olan həmkarları ilə təcrübə mübadiləsi aparmaq, qabaqcıl təcrübəni öyrənmək baxımından Bakıda keçirilən tədbirin əhəmiyyətli cəhətlərindən danışdı. Rusiya Federal Gömrük Xidmətinin rəhbəri Aleksandr Jerixov Azərbaycan prezidentinə məlumat verdi ki, iki həftə əvvəl Sankt-Peterburqda MDB ölkələri gömrük xidməti rəhbərlərinin görüşü olmuşdur. Həmin görüşdə Ümumdünya Gömrük Təşkilatının ötən il keçirilmiş sessiyasında bazar iqtisadiyyatı şəraitində gömrük işinin təhlükəsizliyi və səmərəli təşkili ilə bağlı qəbul olunmuş qərar müzakirə edilmişdir. Bakı konfransında həmin müzakirələr ümumiləşdiriləcəkdir. Aleksandr Jerixov Azərbaycanla Rusiya arasında əməkdaşlığın bütün sahələrdə genişləndiyini xatırlatdı, prezidentlər İlham Əliyevin və Vladimir Putinin ölkələrimizin əlaqələrinin möhkəmlənməsinə verdiyi töhfələrdən danışdı. Eyni zamanda, gömrük orqanlarının bu əlaqələrin inkişafına yardım etməyə borclu olduğunu vurğuladı.*

*Prezident İlham Əliyev ölkəmizdə gömrük işinin təkmilləşdirilməsində və Dövlət Gömrük Komitəsinin beynəlxalq əlaqələrinin inkişaf etdirilməsində Ümumdünya Gömrük Təşkilatının rolunu nəzərə alaraq təşkilatın Baş katibi Mişel Danenin «Şöhrət» ordeni ilə təltif edilməsi barədə Sərəncam imzaladığını bildirdi və Azərbaycanın yüksək mükafatını ona təqdim etdi.*

*Azərbaycan Dövlət Gömrük Komitəsinin sədri Kəmaləddin Heydərov prezident İlham Əliyevə «Gömrükdə beynəlxalq əməkdaşlığa görə» döş nişanını təqdim etdi.*

*Prezident İlham Əliyev görüş iştirakçıları ilə xatirə şəkli çəkdirdi.*

## GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ, TİCARƏT VƏ SƏNAYE PALATASININ PREZİDENTİ CEMAL İNAİŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*2 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 2-də Prezident sarayında Gürcüstan Parlamenti sədrinin müavini, Ticarət və Sənaye Palatasının prezidenti Cemal İnaişvilinin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Qonaqları səmimiyyətlə salamlayan prezident İlham Əliyev Azərbaycan–Gürcüstan münasibətlərinin bütün sahələrdə, o cümlədən parlamentlər səviyyəsində uğurla inkişaf etdiyini vurğuladı. Prezident İlham Əliyev hökumətlər səviyyəsində də əməkdaşlığın genişləndiyini, birgə iqtisadi komissiyanın bir çox məsələləri müvəffəqiyyətlə həll etdiyini qeyd etdi. O, ölkələrimiz arasındakı münasibətlərin bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Cemal İnaişvili Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarını və Gürcüstandakı enerji böhranı zamanı Azərbaycan rəhbərliyinin onun ölkəsinə göstərdiyi dəstəklə bağlı minnətdarlığını şəxsən prezident İlham Əliyevə çatdırdı. Qonaq bütün sahələrdə, o cümlədən parlamentlərimiz arasında əlaqələrin uğurla inkişaf etdiyini qeyd etdi.*

*Prezident İlham Əliyev Gürcüstan prezidenti Mixeil Saakaşvilinin salamlarına görə minnətdarlığını bildirdi və onun da salamlarını Gürcüstanın dövlət başçısına çatdırmağı xahiş etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ASTARA VƏ LƏNKƏRAN RAYONLARINA SƏFƏRİ

*3 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 3-də Astara və Lənkəran rayonlarında olmuşdur*

*Prezident İlham Əliyev əvvəlcə Astarada respublikada ilk modul tipli elektrik stansiyasının təntənəli açılış mərasimində iştirak etmişdir. Mərasimə toplaşanlar prezidenti böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar.*

*Rayonun Ərçivan kəndində tikilmiş stansiyanın təməli 2005-ci il sentyabrın 8-də prezident İlham Əliyevin iştirakı ilə qoyulmuşdur. Tikintinin baş podratçısı Finlandiyanın «Wartsila» və İsveçrənin «ABB» şirkətləridir. Stansiyada hər birinin gücü 8,7 meqavat olan 10 generator quraşdırılmışdır. Stansiyanın ərazisində inşa edilmiş gücləndirici yardımçı stansiyada hər biri 25 meqavatlıq 5 ədəd transformator qoyulmuşdur. 2 kilometr uzunluğunda 110 kilovoltluq elektrikötürmə xətləri, 1,2 kilometrlik qaz xətti çəkilmiş, vertolyot meydançası inşa edilmişdir. Elektrik stansiyasının 51 hektarlıq ərazisində ikimərtəbəli inzibati və idarəetmə binaları inşa edilmiş, əraziyə axan suların qarşısını almaq məqsədi ilə 900 metr uzunluğunda 2 kanal çəkilmiş, 2 keçid körpüsü, 1 hektar ərazidə isə su hovuzu inşa edilmişdir. 20 hektar ərazidə bağ salınmış və 5 minə yaxın ağac və kol əkilmişdir. Stansiyanın tikintisində 500 nəfərə yaxın inşaatçı və quraşdırıcı çalışmışdır ki, onlardan da 300 nəfəri yerli inşaatçılardır.*

*Astara elektrik stansiyası cənub bölgəsinin elektrik enerjisi ilə təminatında əhəmiyyətli rol oynayacaq, qış mövsümündə enerji qıtlığını aradan qaldıracaqdır. Burada 110 nəfər daimi işlə təmin olunacaqdır.*

*Prezident İlham Əliyev stansiyada quraşdırılmış müasir avadanlıqla yaxından tanış oldu.*

*Sonra prezident İlham Əliyev Astara elektrik stansiyasının işə salınmasını bildirən düyməni basdı və stansiya ümumi şəbəkəyə qoşuldu.*

*Prezident İlham Əliyev stansiyanı inşa edən yerli və xarici mütəxəssislərlə söhbət etdi, müasir tələblərə cavab verən bu obyektin qısa müddətdə başa çatdırılmasına görə minnətdarlığını bildirdi.*

*İsveçrənin «ABB» şirkətinin vitse-prezidenti Bruno Berggren tikinti müddətində onlara yaradılan şəraitə və köməyə, diqqət və qayğıya görə prezident İlham Əliyevə dərin təşəkkürünü bildirdi. Burada çalışan yerli mütəxəssislərin fəaliyyətini yüksək qiymətləndirdi. Xüsusi vurğuladı ki, dünyada məşhur olan «ABB» şirkəti tərəfindən indiyədək heç bir ölkədə bu cür stansiya quraşdırılmamışdır. Qısa müddət ərzində stansiyanın quraşdırılması xarici şirkətlərlə yerli mütəxəssislərin birgə fəaliyyətinin nəticəsidir və alqışa layiqdir. Biz bu işimizlə fəxr edirik.*

*Sonra stansiyanın açılışını bildirən təntənəli mərasim keçirildi. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

## ASTARADA MODUL TİPLİ ELEKTRİK STANSİYASININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*3 fevral 2006-cı il*

**İ l h a m  Ə l i y e v:** Əziz astaralılar!

Əziz dostlar, bacılar və qardaşlar!

Hörmətli qonaqlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram, yeni istifadəyə verilmiş elektrik stansiyasının açılışı münasibətilə sizi təbrik edirəm.

Beş ay bundan əvvəl biz elə bu ərazidə stansiyanın təməl daşını qoyduq. O vaxt burada heç bir tikinti yox idi. Sadəcə, boş sahə idi və təməli qoyulanda, bəlkə də, təsəvvür etmirdik ki, qısa müddət ərzində bu gözəl obyekt, gözəl stansiya istifadəyə veriləcəkdir. Ancaq məqsəd qoymuşduq, vəzifə qoymuşduq ki, qısa müddət ərzində stansiya tikilsin, istismara verilsin və beləliklə, Astaranın və bütövlükdə cənub bölgəsinin enerji problemləri aradan qaldırılsın. Bu gün biz buna nail olduq. Bu çox böyük hadisədir, təkcə Astara üçün yox, bütün cənub bölgəsi üçün böyük töhfədir. Bu fürsətdən istifadə edib, stansiyanın tikintisində iştirak etmiş yerli və xarici şirkətlərə, onların rəhbərlərinə və fəhlələrinə minnətdarlığımı bildirmək istəyirəm. Bu da çox gözəl beynəlxalq əməkdaşlıq nümunəsidir. Stansiyanın tikintisində xarici şirkətlər – «Wartsila» şirkəti, «ABB» şirkəti, habelə Azərbaycanın «Azenko» şirkəti iştirak etmişdir. Onlar çox səmərəli işləmişlər və bu işin nəticəsində bu gün stansiyanın açılışını qeyd edirik.

Azərbaycanda bütövlükdə, istər siyasi müstəvidə, istər iqtisadi sahədə beynəlxalq əməkdaşlıq çox sürətlə inkişaf edir. Bu bir daha onu göstərir ki, Azərbaycan Dünya Birliyinə çox uğurla inteqrasiya edir. Azərbaycanda çox nəhəng, irimiqyaslı, enerji təhlükəsizliyi baxımından ölkəmiz üçün və bölgə üçün

önəmli layihələr həyata keçirilir. Azərbaycanın bu layihələrdə iştirakı bizim ölkəmizin çəkisini artırır.

Bildiyiniz kimi, indi bölgədə enerji təhlükəsizliyi məsələsi kəskinləşibdir və qış aylarında bəzi ölkələrdə enerji böhranı yaşandı. Azərbaycanda biz bunun qarşısını ala bildik. Baxmayaraq ki, enerji potensialımız bizi hələ tam şəkildə qane etmir, yaxud da bütün tələbatlarımızı ödəmir, ancaq qış aylarında enerjinin verilməsi bütövlükdə müsbət olmuşdur.

Yeni stansiyaların tikintisi məhz bu məqsədi güdür ki, Azərbaycanda bütövlükdə – nə yayda, nə yazda, nə də qışda enerji problemi olmasın. İstənilən vaxtda, istənilən yerdə 24 saat ərzində işıq olmalıdır, həm müəssisələrə, eyni zamanda, vətəndaşlara da verilməlidir.

Azərbaycanda indi bir neçə elektrik stansiyası tikilir. Etibar Pirverdiyev bunu qeyd etdi – Bakıda, Naxçıvanda, Şəkidə və Xaçmazda buna bənzər stansiyalar tikilir. Amma biz o qərarı verəndə dedik ki, ilk növbədə Astarada stansiya tikilsin. Çünki cənub bölgəsində enerji problemləri bizi çox narahat edirdi və bu gün də narahat edir. Bir də ki, cənub bölgəsinin inkişafı üçün bu stansiyanın əhəmiyyəti çox böyük olacaqdır. Nəzərə alsaq ki, Azərbaycanda regionların inkişafı proqramı uğurla icra olunur, yeni iş yerləri açılır, müəssisələr açılır, bütün bunlar yeni enerji mənbəyi tələb edir. Beləliklə, bu stansiyanın tikilməsi bütün bölgəyə çox müsbət təsir göstərəcəkdir. Burada yeni müəssisələrin işə salınması prosesi daha sürətlə aparılacaqdır və bütövlükdə regionun infrastrukturu daha da möhkəm olacaqdır.

Bildiyiniz kimi, cənub bölgəsinə mənim böyük diqqətim var. Mən son iki il ərzində artıq bir neçə dəfə burada olmuşam. Burada bölgə üçün, Azərbaycan üçün çox mühüm layihələr həyata keçirilir. Bu yaxınlarda Astarada qaz-kompressor stansiyası istismara verilmişdir. Lənkəranda beynəlxalq hava limanının tikintisi başlanmışdır, dəniz limanının tikintisi aparılır. Artıq bu gün elektrik stansiyasının istismara verilməsini qeyd edirik. Yəni qısa müddət ərzində görülən bütün bu

işlər bölgənin inkişafına xidmət edir və gələcəkdə biz bunun daha da gözəl bəhrəsini görəcəyik.

Regionların inkişafına gəldikdə isə, şübhəsiz ki, enerji daşıyıcıları regional inkişaf proqramının əsasını təşkil edir. Məhz bu məqsədlə artıq bir neçə yerdə elektrik stansiyalarının tikintisi başlanmışdır. Sumqayıtda böyük, 500 meqavat gücündə elektrik stansiyası tikilir.

Regional inkişaf proqramımız uğurla icra edilir. Son iki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açılmışdır, bu proses davam edir. Əminəm ki, yaxın zamanlarda Azərbaycanda işsizlik problemi əsaslı şəkildə aradan qaldırılacaqdır. Yoxsulluqla mübarizə güclənibdir, yoxsulluq şəraitində yaşayanların sayı 2005-ci ildə kəskin şəkildə aşağı düşübdür. 2006-cı ildə görüləcək işlər – əmək haqlarının qaldırılması, təqaüdlərin qaldırılması, əlbəttə ki, yoxsulluğun səviyyəsini daha da aşağı salacaqdır. Bizim məqsədimiz budur. Bütün görülən işlər bu amala xidmət edir. Azərbaycanın iqtisadi potensialı güclənməlidir, insanlar daha da yaxşı yaşamalıdır, insanlara daha gözəl xidmət göstərilməlidir. Biz bütün istiqamətlərdə – istər enerji sahəsində, istər yol infrastrukturu sahəsində, istər səhiyyə sahəsində işlərimizi yüksək səviyyədə qururuq.

Bildiyiniz kimi, sentyabr ayında mən bölgədə olarkən burada zona müşavirəsi keçirildi. Bölgənin əsas problemləri bir daha təhlil edildi və ondan sonra mən müvafiq Sərəncam imzaladım. Sərəncam da icra olunur, xüsusilə yolların tikintisinə vəsait ayrılmışdır və bu gün artıq yollar tikilir. Mən göstəriş vermişdim ki, rayon mərkəzlərində yollar və ilk növbədə, kənd yolları tikilməlidir. Uzun illərdir ki, kənd yollarına investisiya qoyulmurdu və onlar bərbad vəziyyətə düşmüşdü. Biz kənd yollarının bərpası ilə ciddi məşğuluq və indi cənub bölgəsinin bütün rayonlarında bu proses sürətlə gedir. Bildiyiniz kimi, Lənkəranı Leriklə birləşdirən 50 kilometrlik yeni müasir yol və başqa yollar salındı.

Yəni bütün istiqamətlərdə – istər enerji sahəsində, iqtisadi sahədə, istərsə də humanitar, sosial sahələrdə bizim işlərimiz düşünülmüş proqram çərçivəsində həyata keçirilir və görülən işlər nəticəsində Azərbaycanda yoxsulluq aradan qaldırılmalıdır. Bu bir proqramdır, məqsəddir və mən heç şübhə etmirəm ki, biz buna nail olacağıq. Çox istəyirəm ki, buna daha da tez nail olaq, çox istəyirəm ki, bütün bu planları daha da qısa müddət ərzində həyata keçirək.

Bilirsiniz, bu stansiyanın tikintisi də məhz bu məqsədi güdür. Çünki bizim enerji proqramımız var. Bir müddət bundan əvvəl mən xüsusi proqram imzaladım. Amma böyük elektrik stansiyasının tikintisi, adətən, 2-3 il zaman tələb edir. Bizim vaxtımız yoxdur, bizə bu gün enerji lazımdır, bizə bu gün güclü infrastruktur lazımdır. Ona görə fikirləşdik ki, hansı tədbiri görək ki, qısa müddət ərzində Azərbaycanı elektrik enerjisi ilə təmin edək. Bu stansiyaların tikintisi də məhz bu məqsədə qulluq edir. Bir il ərzində Azərbaycanda beş yerdə modul tipli elektrik stansiyalarının tikilməsi təxminən 400 meqavat, bəlkə də ondan da çox elektrik enerjisi verəcəkdir. Bu gün Azərbaycanda enerji çatışmazlığı məhz elə 400 meqavatdır. Yəni 2006-cı ildə bu çatışmazlıq aradan qaldırılacaqdır. Amma o demək deyil ki, bununla bizim işimiz bitəcəkdir. Azərbaycanda yeni sənaye müəssisələri, yeni fabriklər, zavodlar tikiləcək, əhalinin artımı davam edəcək, yeni müəssisələr tikiləcək, yeni evlər tikilir, bütün bunlar enerji tələb edir. Azərbaycanın xoşbəxtliyi bundadır ki, bizdə təbii sərvətlər var. Bildiyiniz kimi, Azərbaycanda neft və qaz hasilatı ildən-ilə artır. Keçən il Azərbaycanda 22 milyon ton neft hasil edilmişdir, bu da bütün dövrlər ərzində Azərbaycan üçün rekorddur. Növbəti illərdə bu, 50–60 milyon tona çatacaqdır.

Yəni bu təbii sərvətlər imkan verir ki, biz enerji təhlükəsizliyi baxımından heç kimdən asılı olmayaq. İndiki qış aylarında bəzi ölkələrdə yaşanan enerji, qaz böhranı onu göstərdi ki, bu çox ağır, sosial və bəzi hallarda, siyasi məsələyə çevrilir. Azərbaycan bu baxımdan sığortalıdır, təbii sərvətlər var. Amma

təbii sərvətlər o zaman insanlara xidmət edir ki, onlar işlənilir, onlardan istifadə olunur, neft hasil edilir, neft kəmərləri tikilir, stansiyalar, qaz kəmərləri tikilir. Şübhəsiz ki, bizim enerji təhlükəsizliyimiz çox yüksək səviyyədə təmin olunacaq və Azərbaycan gələcək illərdə bölgə üçün, region üçün, Avropa istehlakçıları üçün çox önəmli enerji mənbəyi olan ölkəyə çevriləcəkdir. Biz bundan məharətlə istifadə etməliyik. Azərbaycanın coğrafi vəziyyəti, onun regiondakı artan nüfuzu, rolu, habelə təbii sərvətlərimiz bizə çox gözəl imkanlar yaradır. Bu imkanlar Azərbaycan xalqının rifah halının yaxşılaşmasına xidmət edəcək, eyni zamanda, Azərbaycanın bölgədəki və dünyadakı mövqelərini möhkəmləndirəcəkdir.

Mən bu gün çox xoşbəxtəm, çox şadam. Bilirsiniz, bu stansiyanın 4-5 ay ərzində tikilməsi çox böyük nailiyyətdir. Bu gün mən xarici mütəxəssislərlə, bu stansiyanın tikintisində iştirak etmiş mütəxəssislərlə söhbət əsnasında eşitdim ki, onların təcrübəsində də bu rekorddur. Bu stansiyanın tikintisində iştirak edən şirkətlər müxtəlif yerlərdə də belə stansiyalar tikiblər. Amma heç bir yerdə belə qısa müddət ərzində buna nail ola bilməmişdilər. Azərbaycanda isə qısa müddət ərzində stansiya tikildi. Bu nəyi göstərir? Onu göstərir ki, Azərbaycanda işlər düzgün qurulur. Onu göstərir ki, burada məqsəd qoyulursa, mütləq nail olunmalıdır. Bu onu göstərir ki, bizim sözümüzlə əməlimiz arasında heç bir ziddiyyət yoxdur. Əgər demişiksə, yerinə yetirməliyik. Yadımdadır, mən sentyabrda vəzifə qoydum ki, qış aylarında stansiya istismara verilməlidir. Çünki bizə işıq qış aylarında daha çox lazımdır. Biz buna nail olduq. Şübhə etmirəm ki, bütün sahələrdə, bütün təşəbbüslərdə biz həmişə istədiyimizə nail olacaq, Azərbaycanı daha da möhkəmləndirəcək, Azərbaycan xalqının rifah halının yaxşılaşmasına çox ləyaqətlə xidmət edəcəyik.

Əziz dostlar, bir daha mən sizin hamınızı bu stansiyanın açılışı münasibətilə ürəkdən təbrik edirəm. Əminəm ki, bundan sonra bizim işığımız həmişə yanacaq, müəssisələrimiz işləyəcək və insanlar daha da yaxşı, rahat yaşayacaqlar.

Sağ olun.

* * *

*Prezident İlham Əliyev açılış mərasimindən sonra Astara elektrik stansiyasının inzibati binası ilə və burada yaradılmış Heydər Əliyev muzeyi ilə tanış oldu.*

*Muzeydə xalqımızın ümummilli lideri Heydər Əliyevin ölkəmizə rəhbərliyi dövründə tikilmiş elektrik stansiyalarının açılış mərasimlərində iştirakını, energetiklərlə görüşlərini əks etdirən fotoşəkillər toplanmışdır. Burada prezident İlham Əliyevin iştirakı ilə ötən il Astarada istifadəyə verilmiş qaz-kompressor stansiyasının açılışına dair fotoşəkillər də nümayiş etdirilir. Bütün bunlar ulu öndərin və dövlətimizin başçısının bu sahəyə göstərdiyi böyük diqqət və qayğı barədə dolğun təsəvvür yaradır.*

**Azərbaycan prezidenti İlham Əliyevin muzeyin fəxri qonaqlar kitabına yazdığı ürək sözləri:**

«Azərbaycanın enerji potensialının möhkəmlənməsində ulu öndər Heydər Əliyevin müstəsna xidmətləri olmuşdur.

Bu gün bu işlər davam edir. Astara elektrik stansiyasının istismara verilməsi bunun bariz nümunəsidir.

Ölkəmizin enerji təhlükəsizliyinin təmin olunmasında Astara elektrik stansiyası öz rolunu oynayacaqdır və cənub bölgəsini keyfiyyətli enerji ilə təmin edəcəkdir.

Astaralılara yeni uğurlar və xoşbəxtlik arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

03.02.2006»

*Sonra prezident İlham Əliyev stansiyanın qarşısına toplaşan sakinlərlə görüşüb səmimi söhbət etdi, qayğı və problemləri, yaşayış şəraiti ilə maraqlandı.*

*Sakinlər Astaraya göstərdiyi böyük diqqətə görə ulu öndər Heydər Əliyevə Allahdan rəhmət diləyərək, onun tarixi xidmətlərini xatırladılar və xalqımızın ümummilli liderinin siyasətini uğurla davam etdirən, insanların daim qayğısına qalan dövlətimizin başçısına dərin minnətdarlıqlarını bildirdilər. Onlar regionların sosial-iqtisadi inkişaf proqramı çərçivəsində Astarada görülən işləri yüksək qiymətləndirdilər, şəxsi qayğıları və problemləri barədə də söhbət açdılar.*

*Azərbaycan prezidenti xoş sözlərə görə sakinlərə təşəkkürünü bildirdi, onların problemlərinin aradan qaldırılması üçün lazımi tədbirlər görüləcəyini vurğuladı.*

## LƏNKƏRAN MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN TİKİNTİSİ İLƏ TANIŞLIQ

*3 fevral 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev müalicə-diaqnostika mərkəzinin tikintisi ilə tanış olmaq üçün fevralın 3-də Lənkəran şəhərinə gəldi. Burada çalışan inşaatçılar prezident İlham Əliyevi və onun xanımını hörmət və ehtiramla qarşıladılar, gül dəstəsi təqdim etdilər.*

*Ötən ilin sentyabrında prezidentin xeyir-duası ilə təməli qoyulan mərkəzin tikintisində son tamamlama işləri görülür. Smeta dəyəri 32 milyard manat olan yeni səhiyyə ocağının tikintisində «Embavood» MMC-nin inşaatçıları ilə yanaşı, 170 nəfər yerli sakin də çalışır. Mərkəzi Almaniyanın «Siemens» şirkətinin istehsalı olan 2,7 milyon dollarlıq tibb avadanlığı ilə təchiz ediləcəkdir.*

*Prezidentə məlumat verildi ki, əsasən böyrək xəstəliklərinin diaqnostikası və müalicəsi üçün lazım olan avadanlıq dünyanın ən tanınmış və nüfuzlu şirkətləri tərəfindən quraşdırılacaqdır. Burada həmçinin oftalmologiya, kompüter tomoqrafiyası və kardiologiya kabinetləri də fəaliyyət göstərəcəkdir. Mərkəzin bu ilin birinci yarısında istifadəyə verilməsi nəzərdə tutulmuşdur.*

**MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ**

Hörmətli cənab Prezident!

«Əs-Salam-98» sərnişin gəmisinin Qırmızı dənizdə qəzaya uğraması nəticəsində çoxsaylı insan tələfatı xəbəri məni son dərəcə kədərləndirdi.

Bu faciə ilə əlaqədar dərdinizə şərik çıxır, Sizə, həlak olanların ailələrinə və yaxın adamlarına dərin hüznlə başsağlığı verirəm.

Allah rəhmət eləsin!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *4 fevral 2006-cı il*

**İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
CƏNAB MAHMUD ƏHMƏDİNEJADA**

Hörmətli cənab Prezident!

İran İslam Respublikasının milli bayramı – İslam İnqilabı günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasında dərin tarixi kökləri olan dostluq və mehriban qonşuluq münasibətlərinin, qarşılıqlı əlaqələrimizin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost İran xalqına sülh və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2006-cı il*

## İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

Möhtərəm Ayətullah Xamenei həzrətləri!

Ölkənizin milli bayramı – İslam İnqilabı günü münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, Azərbaycan ilə İran arasındakı ənənəvi dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost İran xalqına əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *6 fevral 2006-cı il*

**QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB YƏHYA CAMMEHƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Ümidvaram ki, ölkələrimiz arasındakı dostluq münasibətlərinin inkişafı və möhkəmləndirilməsi əməkdaşlıq imkanlarımızın genişlənməsinə xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost Qambiya xalqına əmin-amanlıq və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *8 fevral 2006-cı il*

## AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ

*9 fevral  2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da axşam Fransa paytaxtına gəlmişdir.*

*Parisin Orli Beynəlxalq hava limanında prezident İlham Əliyevi Fransa hökumətinin yüksək vəzifəli şəxsləri, Azərbaycan diasporunun nümayəndələri səmimiyyətlə qarşıladılar.*

*Sonra prezident İlham Əliyev Parisdə onun üçün ayrılmış iqamətgaha yola düşdü.*

## FRANSANIN «TOTAL» ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ

*Paris*

*9 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 9-da Parisdə, onun üçün ayrılmış iqamətgahda Fransanın «Total» şirkətinin prezidenti De Mareni qəbul etmişdir.*

*Görüşdə energetika sahəsində əməkdaşlığın səviyyəsindən razılıq ifadə olundu, şirkətin Azərbaycandakı fəaliyyətindən söhbət açıldı, işbirliyinin bundan sonra da inkişaf edəcəyinə əminlik vurğulandı. «Total» şirkətinin «Şahdəniz» layihəsində iştirakı da qeyd olundu.*

*Şirkətin prezidenti Azərbaycanın beynəlxalq enerji daşıyıcıları tranziti layihəsində iştirakını xüsusi vurğuladı və gələcəkdə də ölkəmizin belə layihələrə fəal qoşulacağına əminliyini bildirdi.*

## YELİSEY SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 fevral 2006-cı il*

*Fransada səfərdə olan Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin fevralın 10-da Parisdə, Fransa dövləti başçısının iqamətgahı Yelisey sarayında rəsmi qarşılanma mərasimi olmuşdur.*

*Sarayın qarşısında prezident İlham Əliyevin şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü. Fəxri qarovul dəstəsinin rəisi Azərbaycan prezidentinə raport verdi.*

*Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti İlham Əliyevi sarayın önündə səmimiyyətlə qarşıladı. Dövlət başçıları xatirə şəkli çəkdirdilər.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ

*Paris,*
*Yelisey sarayı*

*10 fevral 2006-cı il*

*Fevralın 10-da Parisin Yelisey sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Fransa Respublikasının Prezidenti Jak Şirakın təkbətək görüşü olmuşdur.Prezident Jak Şirak xalqımızın ümummilli lideri Heydər Əliyevlə görüşlərini, gözəl münasibətlərini məmnunluqla xatırladı, o cümlədən Yelisey sarayında onunla dəfələrlə görüşdüyünü vurğuladı.*

*Prezident İlham Əliyev xoş sözlərdən məmnunluğunu ifadə edərək bildirdi ki, iki dahi siyasətçi və dövlət başçısı arasında olmuş dostluqdan iftixar duyur və bunu özü üçün gözəl nümunə hesab edir.*

*Dövlət başçıları Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli perspektivləri ətrafında geniş fikir mübadiləsi apardılar. Prezidentlər vurğuladılar ki, münaqişənin həlli üçün konkret addım atmağın vaxtı çatmışdır.*

*Görüş başa çatdıqdan sonra Fransa prezidenti Jak Şirak Azərbaycan prezidenti İlham Əliyevi Yelisey sarayının qarşısında böyük hörmət və ehtiramla avtomobilədək yola saldı.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN PREZİDENTİ ROBERT KÖÇƏRYANIN ATƏT-in MİNSK QRUPU HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

*Paris,*
*Rambuye sarayı*

*10 fevral 2006-cı il*

*Fevralın 10-da Paris yaxınlığındakı Rambuye sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Ermənistan Respublikasının Prezidenti Robert Köcəryanın ATƏT-in Minsk qrupu həmsədrlərinin iştirakı ilə görüşü olmuşdur.*

*Görüşdə Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə həllinə dair müzakirələr aparıldı.*

*Sonra Azərbaycan və Ermənistan prezidentləri arasında təkbətək görüş keçirildi.*

*Prezidentlər Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin Praqa prosesi əsasında nizama salınması ilə bağlı məsələləri müzakirə etmişlər.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev Fransaya səfərini başa çatdıraraq fevralın 12-də Paris şəhərindən Vətənə yola düşdü.*

*Parisin Orli Beynəlxalq hava limanında prezident İlham Əliyevi Fransa hökumətinin yüksək vəzifəli şəxsləri və Azərbaycan diasporunun nümayəndələri yola saldılar.*

* * *

*Azərbaycan prezidenti İlham Əliyev fevralın 12-də axşam Bakıya gəldi.*

## ABŞ-ın APARICI YƏHUDİ TƏŞKİLATLARI SƏDRLƏRİ KONFRANSININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 fevral 2006-cı il*

*Nümayəndə heyətinin rəhbəri Harold Tanner Azərbaycana səfərdən məmnun olduqlarını söylədi, səfərin yüksək səviyyədə təşkilinə görə minnətdarlığını bildirdi. O, Azərbaycanda tolerantlığın daim təmin edildiyini vurğulayaraq dedi ki, bu ölkədə bütün millətlərin nümayəndələri üçün, o cümlədən dini icmalar üçün çox yaxşı birgə yaşayış şəraiti yaradılmışdır. Bu baxımdan qonaq yəhudi icması üçün yaradılan şəraitdən məmnun qaldıqlarını söylədi. H.Tanner Azərbaycanda böyük iqtisadi inkişafın şahidi olduqlarını da bildirdi.*

*Prezident İlham Əliyev belə səfərlərin əhəmiyyətini vurğuladı və böyük tərkibdə nümayəndə heyətinin Azərbaycana gəlməsini yüksək qiymətləndirdi. Prezident İlham Əliyev dedi ki, Azərbaycanda birgə yaşayış üçün çox yaxşı şərait var və bütün millətlərin nümayəndələri ölkəmizin bərabərhüquqlu vətəndaşları kimi dostluq şəraitində yaşayırlar.*

*Prezident İlham Əliyev nümayəndə heyətinin tərkibində olan nüfuzlu təşkilatların təmsilçilərinin Azərbaycanda gedən iqtisadi inkişafın, cəmiyyətin demokratikləşmə prosesində əldə etdiyi uğurların şahidi olmalarından məmnunluğunu bildirdi.*

*Sonra Azərbaycan prezidenti nümayəndə heyətinin geniş tərkibdə üzvləri ilə görüşdü. Harold Tanner prezident İlham Əliyevə qəbula görə təşəkkür etdi və səfərin əsas məqsədlərini açıqladı. O dedi ki, Azərbaycan dünyanın digər dövlətləri üçün strateji əhəmiyyətə malik olan bir ölkədir və Amerika Birləşmiş*

*Ştatları ilə onun dostluq münasibətləri mövcuddur. Bununla yanaşı, Azərbaycan böyük neft ehtiyatları olan və iqtisadi cəhətdən inkişaf edən ölkədir. Azərbaycan bütün xalqa, o cümlədən milli azlıqlara göstərilən münasibət baxımından gözəl ölkədir. Əhalisinin əksəriyyəti müsəlman olan bir ölkədə yəhudi icmasına göstərilən münasibətlə bağlı təəssüratımız çox yüksəkdir. Səfərimiz çox gözəl keçdi və həyatımızın əvvəlki illəri ilə müqayisədə indi daha çox təəssürat aldıq.*

*Buraya gəlməzdən əvvəl Vaşinqtonda Dövlət katibi Kondoliza Rays ilə görüşümüz oldu. O, səfərlə əlaqədar Azərbaycanla bağlı eyni fikirlərə və ehtirama şərik çıxdı. Eyni zamanda, buraya gəlməzdən əvvəl İsrail prezidenti Katsav ilə görüşdük və o öz məktubunu Sizə çatdırmağı xahiş etdi.*

*Qonaq məktubu prezident İlham Əliyevə təqdim etdi və onun qısa məzmununu xatırlatdı. Məktubda deyilir ki, Amerika Birləşmiş Ştatlarının aparıcı Yəhudi Təşkilatları Sədrləri Konfransının üzvlərinin Azərbaycana səfəri və Sizinlə keçirəcəyi görüş fürsətindən istifadə edərək, özümün və İsrail xalqının salamlarını Sizə çatdırıram. Məktubda Azərbaycan və yəhudi xalqlarının dostluq münasibətləri, birgə tarixə bağlılığı vurğulanır və belə bir inam ifadə olunur ki, ölkələrimiz arasındakı münasibətlər hər iki xalqın mənafeyi naminə bundan sonra da inkişaf edəcəkdir.*

*Prezident İlham Əliyev məktuba görə təşəkkür etdi. Azərbaycan dövlətinin başçısı qonaqların bu səfərini yüksək qiymətləndirdi və onun Azərbaycan ilə Amerika Birləşmiş Ştatları arasındakı əlaqələrə töhfə verəcəyini bildirərək dedi ki, ABŞ ilə Azərbaycan müttəfiq dövlətlərdir, beynəlxalq və regional məsələlərdə tərəfdaş kimi çıxış edirlər. Bu səfər şərait yaradır ki, nümayəndə heyəti Azərbaycanda gedən inkişafı və demokratik cəmiyyət quruculuğunu öz gözləri ilə görsün. Azərbaycan mühüm strateji mövqedə yerləşir və onun böyük təbii ehtiyatları var. Bu, xalqımızın rifah halının yüksəlməsinə xidmət edir. Azərbaycanda müxtəlif dinlərə mənsub olan*

*insanlar vahid bir ailə kimi yaşayırlar. Bu bizim ən böyük sərvətimizdir və xalqımızın gündəlik həyatıdır.*

*Prezident İlham Əliyev müstəqillik əldə etdikdən sonra Azərbaycanın bir çox siyasi problemlərlə üzləşdiyini, torpaqlarımızın Ermənistan tərəfindən işğal olunduğunu xatırlatdı. Bildirdi ki, bütün bu problemlərə baxmayaraq, Azərbaycan öz dövlət müstəqilliyini qoruyub saxlaya bilmiş, gələcək üçün siyasi və iqtisadi inkişafın möhkəm özülünü yaratmışdır. Biz fəxr edirik ki, Azərbaycanda müxtəlif millətlərdən olan insanlar arasında qarşılıqlı anlaşma mövcuddur. Başqa dövlətlər Azərbaycanın bu təcrübəsindən faydalana bilərlər. Ölkəmizdə Azərbaycan xalqı ilə yəhudi xalqı arasında münasibətlər daim səmimi və dostcasına olub, hətta sovetlər dövründə də, müstəqillik dövründə də bu, davam etmiş və ölkəmizin rəsmi siyasətinə çevrilmişdir. Yəhudilər əsrlərlə Azərbaycanın müxtəlif rayonlarında, o cümlədən Qubada yaşamışlar. Prezident İlham Əliyev hər il onlarla görüşdüyünü və onların firavan həyat sürmələrindən çox məmnun olduğunu bildirdi. Ölkəmizdə yəhudi məktəbinin fəaliyyət göstərdiyi də vurğulandı.*

*Nümayəndə heyətinin üzvü, Avrasiya Yəhudi Komitəsinin sədri Aleksandr Maçkevir Azərbaycanda yəhudi icması üçün yaradılmış şəraitdən məmnun qaldığını bildirdi. O, bütün dünya yəhudiləri adından prezident İlham Əliyevə təşəkkürünü çatdırdı və Azərbaycan prezidentinə xatirə hədiyyəsi təqdim etdi.*

*Digər çıxış edənlər də bu səfərdən, Azərbaycanda yəhudilər üçün yaradılan şəraitdən məmnun qaldıqlarını bildirdilər, dostluq münasibətlərinin daha da inkişaf edəcəyinə əminliklərini söylədilər.*

*Qonaqlar adından prezident İlham Əliyevə xatirə hədiyyəsi təqdim edildi. Azərbaycan prezidenti qonaqları maraqlandıran suallara cavab verdi.*

*Görüşdən sonra prezident İlham Əliyev Prezident sarayının qarşısında qonaqlarla xatirə şəkli çəkdirdi.*

## QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ TEDO CAPARİDZE İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 14-də Prezident sarayında Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi Tedo Caparidzeni qəbul etmişdir.*

*Görüşdə Azərbaycan və Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatı arasında əlaqələrin hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## «UKRAYNA» FONDUNUN SƏDRİ LEONİD KUÇMA İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 fevral 2006-cı il*

*Fevralın 14-də Azərbaycan prezidenti İlham Əliyev Prezident sarayında «Ukrayna» Fondunun sədri Leonid Kuçma ilə görüşmüşdür.*

*Görüşdən sonra prezident İlham Əliyev və Leonid Kuçma Heydər Əliyev Fonduna gəldilər.«Ukrayna» Fondunun sədrinə və xanımına Azərbaycan xalqının ümummilli liderinin xatirəsinə hörmət əlaməti olaraq yaradılmış Fond və onun məqsədləri haqqında da məlumat verildi.*

*Ukraynalı qonaqlar Heydər Əliyevin şəxsi arxivindən götürülmüş və onun fəaliyyətinin müxtəlif dövrlərini əhatə edən eksponatlarla, o cümlədən ulu öndərin həyatının ayrı-ayrı məqamlarını əks etdirən və Azərbaycan tarixinin bütöv bir dövrü barədə geniş təsəvvür yaradan çoxsaylı fotoşəkillərlə, xalqımızın görkəmli oğluna həsr edilmiş kitablarla tanış oldular. Dahi liderin şəxsi əşyaları nadir və qiymətli eksponatlar kimi, qonaqlarda böyük maraq doğurdu.*

*Fondun ekspozisiyası ilə tanışlıqdan sonra Azərbaycan prezidenti İlham Əliyev, Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva, «Ukrayna» Fondunun sədri Leonid Kuçma və xanımı xatirə şəkli çəkdirdilər.*

*Leonid Kuçma Fondun Xatirə kitabına ürək sözlərini yazdı:* «Bu dahi insanın, Ukraynanın böyük dostunun xatirəsinin qarşısında baş əyirəm. Onun məni özünə dost saymasından həmişə qürur duymuşam, Onun işləri gözəl ölkədə – Azərbaycanda davam etdirilir».

*Heydər Əliyev Fondunun prezidenti Mehriban Əliyeva Leonid Kuçmaya xatirə hədiyyəsi təqdim etdi.*

## KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

Əlahəzrət!

Küveyt Dövlətinin milli bayramı – Milli gün münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı şəxsən öz adımdan və Azərbaycan xalqı adından təbrik edirəm.

Əminəm ki, Azərbaycan ilə Küveyt arasındakı dostluq və əməkdaşlıq münasibətləri xalqlarımızın mənafelərinə uyğun olaraq bundan sonra da inkişaf edəcək və genişlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Küveyt xalqına əmin-amanlıq və rifah arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2006-cı il*

**BRUNEY DƏRÜSSALAMIN SULTANI**
**ƏLAHƏZRƏT**
**HACI HƏSSƏNAL BOLKİAHA**

Əlahəzrət!

Ölkənizin milli bayramı – Milli gün münasibətilə Sizə və Sizin simanızda bütün xalqınıza ən səmimi təbriklərimizi və xoş arzularımızı yetirirəm.

Əminəm ki, dost ölkələrimiz arasındakı münasibətlərin, əlaqələrimizin və əməkdaşlığımızın inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, ölkənizə əmin-amanlıq və firavanlıq diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2006-cı il*

**ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ
ARNOLD RÜYTELƏ**

Hörmətli cənab Prezident!

Estoniya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı ürəkdən təbrik edirəm. Ümidvaram ki, Azərbaycan ilə Estoniya arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin xoş ənənələrini daim qoruyub saxlayacaq və möhkəmləndirəcəyik.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *14 fevral 2006-cı il*

## AVROPA KOMİSSİYASININ ÜZVÜ, AVROPA KOMİSSİYASININ XARİCİ ƏLAQƏLƏR VƏ AVROPA QONŞULUQ SİYASƏTİ ÜZRƏ KOMİSSARI XANIM BENİTA FERRERO VALDNERİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*16 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 16-da Prezident sarayında Avropa Komissiyasının üzvü, Avropa Komissiyasının Xarici Əlaqələr və Avropa Qonşuluq Siyasəti üzrə komissarı xanım Benita Ferrero Valdneri qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycan–Avropa İttifaqı əməkdaşlığının müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ 2-ci İLİNƏ HƏSR OLUNMUŞ KONFRANSDA* NİTQ

*«Park İNN–Azərbaycan» mehmanxanası*

*17 fevral 2006-cı il*

Artıq iki ildir ki, Azərbaycanda regionların sosial-iqtisadi inkişafı proqramı həyata keçirilir. Bugünkü toplantıda görülən işlər haqqında məlumat veriləcək, təhlil aparılacaq, çatışmazlıqlar haqqında söhbət gedəcəkdir. İki il ərzində regionların inkişafı üçün, demək olar ki, bütün sahələrdə böyük işlər görülmüşdür. Həm regionların sosial-iqtisadi inkişafı, həm də infrastruktur layihələri – bütün bunlar paralel şəkildə həyata keçirilir. Azərbaycanın uğurlu iqtisadi inkişafı bizə bu imkanı yaratmışdır ki, həm dövlət tərəfindən, eyni zamanda, sahibkarlar tərəfindən sərmayə qoyuluşu daha çox regionlara yönəldilsin. Bu bizim proqramımızdır. Mən bu proqramla hələ

* Конфрансда Игтисади Инкишаф назири Щейдяр Бабайев, Шяки Шящяр Иъра Щакимиййятинин башчысы Назим Ибращимов, Шамахы Район Иъра башчысы Натиг Мяммядов, Асийа Инкишаф Банкынын рящбяри Метйу Вестфал, Хачмаз районунда «НКАЙ-М КЛИНИК» ММЪ-нин рящбяри Натиг Мцтяллимов, Азярбайъанда Америка Тиъарят Палатасынын президенти Стенли Ескудеро, НМР-нин Сащибкарлар Конфедерасийасы Идаря Щейятинин сядри Аббас Бабайев вя «Азяригазбанк»ын мцшащидя Шурасынын сядри Чинэиз Ясядуллайев чыхыш етмишляр.

2003-cü ildə prezident seçkiləri ərəfəsində çıxış etmişdim. Ölkəmizin hərtərəfli, dayanıqlı və davamlı inkişafı üçün bu proqram bizə çox lazımdır.

Mən çox şadam ki, iki il ərzində görülən işlər gözəl nəticələrini vermişdir. Azərbaycanda son iki il ərzində 340 mindən artıq yeni iş yeri yaradılmışdır, çoxlu müəssisələr, fabriklər, sosial obyektlər açılmışdır. Bütün bunlar Azərbaycan xalqına xidmət edir, ölkəmizi möhkəmləndirir. Bütün bu uğurların təməlində 1990-cı illərin ortalarında başlanmış ciddi iqtisadi islahatlar proqramı dayanır.

Xalqımızın ümummilli lideri Heydər Əliyevin təşəbbüsü ilə başlanmış genişmiqyaslı islahatlar öz bəhrəsini verməkdədir. Eyni zamanda, uğurlu neft strategiyamız da Azərbaycana çox böyük xidmət göstərmişdir. İndi bizim maliyyə vəziyyətimiz yaxşılaşıbdır. Ölkədə gedən böyük abadlıq-quruculuq işlərinin təməlində də məhz 1990-cı illərin ortalarından həyata keçirilən Heydər Əliyevin neft strategiyası durur. İndi Azərbaycan öz neft-qaz potensialını artıq dünya bazarlarına çıxarır. Bu ildə bizim təbii sərvətlərimizi dünya bazarına çatdırmaq üçün iki nəhəng kəmər tikiləcəkdir.

Azərbaycanda iqtisadi artım dünyada ən yüksək sürətlə gedir. Bunu artıq bütün dünya bilir. Ötən il ümumi daxili məhsul 26 faizdən çox, sənaye istehsalı 33,5 faiz, əhalinin pul gəlirləri 27 faiz artmışdır. Əlbəttə ki, bizim büdcəmiz də artır və artmalıdır. Artıq 2006-cı ilin büdcəsi 4 milyard dollara bərabərdir. 2005-ci illə müqayisədə artım təxminən 70 faiz təşkil edir və bu bizə yeni imkanlar, yeni maliyyə mənbələri yaradır. Gərək biz bundan səmərəli istifadə edək. Gərək bütün səylərimizi xalqımızın, Vətənimizin inkişafına yönəldək.

Regionların sosial-iqtisadi inkişaf proqramı iki il bundan əvvəl qəbul edilmişdir. Bu çox müfəssəl bir sənəddir. Orada, demək olar ki, ölkəmizin bütün iqtisadi zonalarında görüləcək işlər, əsas istiqamətlər öz əksini tapmışdır. Ancaq həyat yerində durmur, ortaya yeni vəzifələr çıxır, yeni məsələlər üzə çıxır. Bildiyiniz kimi, mənim rayonlara səfərlərim çərçivəsində zona

müşavirələri keçirilir və hər müşavirədən sonra o zonanın inkişafı üçün lazım olan tədbirlər planı hazırlanır və sərəncam imzalanır.

Bir sözlə, son iki il ərzində regional inkişaf proqramına ciddi dəyişikliklər edilmişdir. Eyni zamanda, Azərbaycanın sənaye potensialının sürətlə inkişafı, tikintinin geniş vüsət alması, əlbəttə, enerjiyə tələbatımızı da artırıbdır. Bu məqsədlə 2006-cı ildə Azərbaycanın müxtəlif bölgələrində yeni elektrik stansiyaları tikiləcək. Biz bu proqramı qəbul edəndə bunlar nəzərdə tutulmamışdı. Yəni bir çox məsələ var ki, iki il bundan əvvəl onu nəzərdə tutmaq mümkün deyildi. Ancaq indi bunlar öz əksini tapır və həyata keçirilir.

O cümlədən, bu yaxınlarda şəhərətrafı kənd və qəsəbələrin inkişafına dair müşavirə keçirilmişdir və yaxın gələcəkdə müvafiq sərəncam və tədbirlər planı imzalanacaqdır. Çünki biz bu regional inkişaf proqramı ilə bütün regionları əhatə etdik, amma Bakının kəndləri kənarda qaldı. Nəzərə almalıyıq ki, şəhərətrafı kənd və qəsəbələrdə 700 min əhali yaşayır. Bu da çox ciddi, çox böyük maliyyə resursları tələb edən proqramdır. Bu imkanlar da bizdə var.

Azərbaycanda aparılan uğurlu iqtisadi siyasət, bizim neft strategiyamızın müvəffəqiyyətlə davam etdirilməsi və maliyyə nizam-intizamının möhkəmlənməsi, şəffaflığın təmin olunması bizə imkan verir ki, maliyyə resurslarımız çox sürətlə artsın. Əgər biz büdcə gəlirlərini nəzərdən keçirsək, görərik ki, son iki il ərzində bizim büdcəmiz 1 milyard 500 milyon dollardan 4 milyard dollara gəlib çatıbdır və bu da son hədd deyildir. Artıq mən hökumət qarşısında, Maliyyə Nazirliyi qarşısında vəzifə qoymuşam ki, gələn ilin büdcəsinin əsas parametrləri müəyyən edilsin. Gələn ilin büdcəsi də kəskin şəkildə artmalıdır. Buna imkan var və bu artım ilk növbədə, qeyri-neft sektorunun hesabına olmalıdır. Biz Neft Fondunda yığılan vəsaiti çox qənaətlə xərcləməliyik. Bunu xərcləmək o qədər də çətin deyildir. Ancaq biz bunu bir əmanət kimi saxlamalıyıq. Ən önəmli, ən vacib məsələlərə yönəltməliyik.

İlk növbədə, digər resurslardan istifadə etməliyik və qeyri-neft sektorunun hesabına, vergilərin hesabına büdcəmiz kəskin şəkildə artmalıdır və artacaqdır. 2008-ci ilə qədər hər il büdcəmiz artmalıdır. Bu bizə imkan verəcək ki, bütün infrastruktur layihələrimizi uğurla həyata keçirək, ölkəmizi müasirləşdirək, yeni, güclü iqtisadiyyat yaradaq, ölkəmizin sənaye potensialını gücləndirək. İndi biz neft amilindən çox məharətlə istifadə etməliyik. Azərbaycanın uzunmüddətli sənaye inkişafı konsepsiyası və proqramı hazırlanmalıdır və güclü sənaye kompleksi yaradılmalıdır. Bu, keçmişdə bizdə var idi. Sovet İttifaqı zamanı bu var idi. Amma o müəssisələrin bir çoxu köhnəlib, müasir tələblərə cavab vermir və beləliklə, yeni, müasir sənaye potensialının inkişafı lazımdır. Biz bütün bunları edəcəyik. Mən buna şübhə etmirəm. Bunu etmək üçün bütün şərtlər var. İlk növbədə, dövlətin düşünülmüş iqtisadi inkişaf konsepsiyası, proqramı var, siyasi iradə var, cəmiyyətdə bu barədə fikir birliyi var. Azərbaycandakı ictimai-siyasi vəziyyət bütün islahatları – həm siyasi, həm də iqtisadi islahatları keçirmək üçün çox müsbətdir.

Artıq Azərbaycanda güclü sahibkarlar sinfi yaranıbdır və bilirsiniz ki, sahibkarlığın inkişafı bizim siyasətimizin ən vacib istiqamətlərindən biridir. Son iki il ərzində Azərbaycanda sahibkarlıqla məşğul olanların sayı xeyli dərəcədə artıbdır. Bunu təmin etmək üçün həm dövlətin qayğısı var, dəstək var, eyni zamanda, əməli-praktiki tədbirlər də var. Bilirsiniz ki, sahibkarlara kömək üçün, onların gözəl nəticələr əldə etməsi üçün dövlət büdcədən güzəştli şərtlərlə kreditlər ayırır və bunların həcmi ildən-ilə artır. Bu il təxminən 100 milyon dollar səviyyəsindədir.

Bu vəsait sahibkarlara veriləcək və onun müqabilində yeni iş yerləri, müəssisələr, fabriklər və s. yaradılacaqdır. Eyni zamanda, regionları hərtərəfli inkişaf etdirmək üçün güclü infrastruktur olmalıdır ki, onu da sahibkar yarada bilməz. Sahibkar yol çəkə bilməz, elektrik stansiyası tikə bilməz,

aeroport tikə bilməz. Tikə bilər, amma bu onun bilavasitə vəzifəsi deyildir. Bu vəzifəni dövlət öz üzərinə götürübdür.

Ona görə indi Azərbaycanda müxtəlif yerlərdə yeni aeroportlar tikilir, yeni yollar salınır, məktəblər tikilir. Keçən il 400-ə yaxın məktəb tikilib, təmir edilib və əlavə sinif otaqları tikilibdir. Xəstəxanaların tikintisinə başlamışıq. Uzun illər idi ki, bu, çox geridə qalmış bir sahə idi. 2005-ci ildən başlayaraq, Azərbaycanın müxtəlif bölgələrində ən müasir standartlara cavab verən yeni diaqnostika-müalicə mərkəzlərinin təməl daşı qoyulubdur. Bir il ərzində, demək olar ki, Azərbaycanın bütün bölgələrində ən müasir avadanlıqla təchiz edilmiş yeni tibb ocaqları yaradılacaqdır. Bütün bunlar regionların inkişafı deməkdir. Bütün bunlar xalqın daha da yaxşı yaşaması deməkdir. Bütün bunlar ölkəmizin möhkəmlənməsi deməkdir. Bizim də vəzifəmiz budur.

Bütün bu planların təməlində bir məqsəd dayanır: ölkəmiz daha da möhkəmlənsin, daha da zənginləşsin, Azərbaycan hərtərəfli inkişaf etsin, Azərbaycan xalqı daha da yaxşı yaşasın, daha da yaxşı maaş alsın, pensiya alsın və Azərbaycan bölgədə öz mövqelərini daha da möhkəmləndirsin. Bunu etmək üçün indi şərait də bizim üçün çox əlverişlidir.

Azərbaycan artıq öz neft-qaz potensialını işə salır. Son aylar ərzində bölgədə yaşanan enerji böhranı onu göstərdi ki, Azərbaycanın önəmi artıbdır. Biz bundan istifadə etməliyik. Öz enerji potensialımızdan istifadə etməliyik. Eyni zamanda, Azərbaycan artıq Asiyadan və başqa ölkələrdən Avropaya gedən enerji dəhlizini təmin edən bir ölkədir, yəni biz artıq tranzit ölkəyə çevrilmişik. Təkcə nəqliyyat baxımından yox, eyni zamanda enerji daşıyıcılarını Asiyadan, başqa ölkələrdən Avropaya çatdırmaq üçün. Bu istiqamətdə bizim fəaliyyətimiz düşünülmüşdür və uzunmüddətlidir.

Kənd təsərrüfatının inkişafı regional inkişaf proqramının, demək olar ki, əsasını təşkil edir. Çünki regionlarda əhalinin böyük əksəriyyəti kəndlərdə yaşayır, kənd təsərrüfatı ilə məşğul olur. Biz bu sahəyə də çalışırıq ki, kömək göstərək.

«Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaradılması bu istiqamətdə atılmış çox mühüm addımdır. Onun vasitəsilə artıq kəndlərə texnika gətirilib, gübrə alınıb paylanılır. Bir sözlə, fermerlər üçün ilkin şərait yaradılır. Onlara kreditlər verilir, texnika verilir, gübrə verilir ki, onlar daha da yaxşı işləyə bilsinlər.

Bir sözlə, bütün bu iki il ərzində görülmüş işlər onu göstərir ki, istiqamət düzgün seçilmişdir, prioritetlər düzgün müəyyən edilmişdir və proqramın icrasında da müsbət meyllər kifayət qədərdir. Amma problemlər də var, çatışmayan cəhətlər var və biz bunları vaxtlı-vaxtında araşdırmalıyıq, tədbirlər görməliyik ki, bu proqram, 2008-ci ilə qədər nəzərdə tutulmuş bütün tədbirlər həyata keçirilsin.

## YEKUN NİTQİ

Regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı artıq iki ildir ki, icra olunur və proqramın əhəmiyyəti də, onun vacibliyi də hamımız üçün aydındır. Bu, Dövlət Proqramıdır. O deməkdir ki, dövlət bu proqramın həyata keçirilməsində bütün məsuliyyəti öz üzərinə götürübdür. Eyni zamanda, sahibkarların da bu proqramda fəal iştirak etməsi üçün dövlət öz tərəfindən onlara lazımi şəraiti yaradır.

Bu, ilk növbədə, kreditlərin verilməsi, digər tərəfdən, sahibkarlara olan dəstək, onlara olan inam və ümumiyyətlə, Azərbaycanda sahibkarlığın inkişafına göstərilən diqqətdir. Çünki inkişaf etmiş ölkələrin təcrübəsinə nəzər salsaq görərik ki, orada iqtisadiyyat daha çox özəl sektorun hesabına, ilk növbədə, kiçik və orta sahibkarların fəaliyyəti nəticəsində inkişaf edir. Kiçik və orta sahibkarlığın ümumi daxili məhsulda olan çəkisi nə qədər yüksəkdirsə, deməli, ölkə iqtisadiyyatı da bir o qədər inkişaf edir.

Təbii ki, Azərbaycanda buna nail olmaq üçün müəyyən vaxt, zaman lazımdır. Biz 15 il bundan əvvəl tamamilə başqa sistemdə yaşamışıq. Bildiyiniz kimi, Azərbaycan öz dövlət

müstəqilliyini bərpa etdikdən sonra da ölkədə gedən proseslər imkan vermirdi ki, dərhal ciddi quruculuq işləri aparılsın. Sosial-iqtisadi tənəzzül, siyasi-hərbi böhran – bütün bunlar, əlbəttə ki, ölkəmizi çox çətin vəziyyətə salmışdı. Yalnız son 10 il ərzində, vəziyyət sabitləşəndən sonra davamlı iqtisadi islahatlar aparılmağa başlandı və bu gün uğurla davam etdirilir.

Son iki ildə isə iqtisadi islahatların yeni dövrü başlandı. Bu dövr də çox əhəmiyyətlidir, bizim üçün çox vacibdir. Yenə də qeyd etmək istəyirəm ki, Azərbaycanın uğurlu inkişafı üçün indi ölkədə və bölgədə çox gözəl şərait mövcuddur. Bu şəraitin yaranmasında, əlbəttə ki, təbii amillər də rol oynayır, ancaq Azərbaycanın siyasəti, ölkəmizin dünyadakı, bölgədəki möhkəmlənən mövqeyi də böyük rol oynayır. Azərbaycan bölgədə gedən önəmli proseslərin təşəbbüskarıdır, icraçısıdır. Azərbaycanın iştirakı olmadan bölgədə heç bir layihə – nə siyasi, nə iqtisadi, nə də nəqliyyat layihəsi həyata keçirilə bilməz. Bu reallıqdır və getdikcə bizim önəmimiz artacaqdır.

Mən ölkəmizin gələcəyinə çox nikbinliklə baxıram. Çünki güclü Azərbaycan yaratmaq üçün bütün imkanlar var. Ölkəmizin coğrafi vəziyyəti, təbii sərvətlərlə zəngin olması, cəmiyyətdə dövlət siyasətinə olan dəstək, xalqla iqtidar arasında olan birlik, bizim iqtisadi islahatlarımız, enerji və nəqliyyat dəhlizinin təmin olunmasında Azərbaycanın artan rolu – bütün bunlar müsbət amillərdir. Biz bundan istifadə etməliyik.

Bu gün görülən işlər bir neçə ildən sonra öz bəhrəsini verəcəkdir. Necə ki, iki il bundan əvvəl sahibkarlara verilmiş kreditlər bu gün artıq yeni müəssisələrin açılışına gətirib çıxarıbdır.

Biz iki il bundan əvvəl böyük həcmdə kredit verə bilməzdik. Çünki maliyyə imkanlarımız o qədər də yaxşı deyildi. Ancaq bu il 100 milyon dollar kredit veriləcəkdir. Bu kredit işləyəcək və bəlkə də bir-iki ildən sonra yeni infrastrukturun, yeni iş yerlərinin yaradılmasına, yeni inkişafa öz töhfəsini verəcəkdir. İnkişaf budur. Əsas odur ki, siyasət düzgün müəyyən edilsin, proqram tərtib olunsun və proqram şüara çevrilməsin. Reallığı

əks etdirsin və real nəticələrə gətirib çıxarsın. Əlbəttə ki, bütün aidiyyəti orqanlar bu proqramın icrasında çox fəal iştirak etməlidir.

Yerli hakimiyyət orqanlarının üzərinə böyük vəzifələr düşür və bildiyiniz kimi, indi bölgələrdə kadr dəyişikliyi davam edir. Bu da təbii prosesdir, çünki yeniləşmə getməlidir. Əsas tələb ondan ibarətdir ki, hər bir vəzifəli şəxs, hər bir məmur öz vəzifə borcunu ləyaqətlə yerinə yetirsin, öz əməyi ilə, öz zəhməti ilə ümumi işimizə öz töhfəsini versin, insanlara diqqət, qayğı göstərsin və beləliklə, öz məsuliyyətini dərk etsin.

Sahibkarlığın inkişafı bu baxımdan da proqramın tərkib hissəsidir. Baxmayaraq ki, proqramın əsas yükü dövlətin, hökumətin üzərinə düşür. Elektrik stansiyalarının, su kəmərlərinin tikintisi, qazpaylayıcı şəbəkənin yeniləşməsi, məktəblərin, xəstəxanaların tikintisi, yolların – həm magistral, Azərbaycanı başqa ölkələrlə birləşdirən, həm də şəhərdaxili və kəndarası yolların tikintisi – bütün bunlar dövlət hesabına həyata keçiriləcək və həyata keçirilən məsələlərdir.

Sahibkarların üzərinə düşən vəzifələr də aydındır. Bu da ondan ibarətdir ki, bu gözəl sərmayə mühitindən istifadə edib yeni müəssisələrin yaradılmasına, iş yerlərinin açılmasına nail olsunlar. Yeni fabriklər, zavodlar yaradılsın ki, ölkəmiz inkişaf etsin və sahibkarlar özləri də bundan faydalansınlar.

Proqramın əsas məqsədi işsizliyin aradan qaldırılmasından, yoxsulluğun azaldılmasından ibarətdir. Hər iki istiqamətdə – əlbəttə, bu iki istiqamət bir-biri ilə sıx bağlıdır–son iki il ərzində uğurlar var. 340 min yeni iş yerinin açılması, yoxsulluğun səviyyəsinin 49 faizdən 29 faizə düşməsi reallıqdır, real nəticədir. Minimum əməkhaqqı bir neçə dəfə qalxıbdır. Düzdür, bu bizi qane edə bilməz. Çünki indiki səviyyə bizi qane etmir, minimum əməkhaqqı gərək insanın minimum tələbatını ödəsin. Bu hələ ki, belə deyildir. Amma bu da olacaqdır. Bu il də nəzərdə tutulub, gələn il də nəzərdə tutulacaq və Azərbaycanda minimum əməkhaqqı ildən-ilə qalxacaqdır. Gördüyümüz işlər, gələcəkdə bizi gözləyən

böyük neft gəlirləri, əlbəttə, bu imkanı bizə yaradacaqdır. Ancaq biz gərək çox dəqiq olaq, çox diqqətli olaq, makroiqtisadi sabitliyi poza bilən amillərdən özümüzü qoruyaq.

Çünki inflyasiyanın qalxması, qiymətlərin qalxması bizi çox ciddi düşündürür. Keçən ilin əvvəlində bu, ciddi xarakter almışdı. Görülən tədbirlər nəticəsində onun qarşısı alındı. İndi də inflyasiyanın səviyyəsi birrəqəmli həddə olmalıdır. Nəzərə alsaq ki, əhalinin pul gəlirləri inflyasiya səviyyəsini bir neçə dəfə üstələyir, real artım çox yüksək səviyyədədir.

İndi iqtisadi sahədə Azərbaycanın qarşısında bir neçə önəmli məsələ durur. Onlardan biri qeyri-neft sektorunun, kənd təsərrüfatının, infrastrukturun inkişafı və nəqliyyat infrastrukturunun inkişafıdır. Bütün istiqamətlərdə işlər yaxşı gedir, yeni yollar salınır, qaz xətləri, aeroportlar, elektrik stansiyaları, tikilir və əlbəttə ki, bu, insanların gündəlik həyatına öz təsirini göstərməlidir. Hər bir insan bunu hiss etməlidir. Ona görə həm böyük layihələr, infrastruktur layihələr həyata keçirilir, həm də hər bir rayonun, hər bir kəndin də öz proqramı olmalıdır.

Mən həmişə deyirəm, əgər hər bir kəndin problemi həll edilərsə, deməli, ölkədə bütün problemlər həll olunar. Ona görə biz gərək buna çox həssaslıqla, çox dəqiqliklə yanaşaq. İki il bundan əvvəl qəbul edilmiş proqramda əsas istiqamətlər müəyyən edilibdir, bununla yanaşı, orada konkret tədbirlər planı da var. Yenə deyirəm, eyni zamanda, hər bir rayonun, hər bir kəndin öz proqramı, öz tədbirlər planı olmalıdır. Buradan, Bakıdan bütün bunları görmək, bunların hamısını idarə etmək mümkün deyildir. Biz proqramı qəbul edirik, ondan sonra mənim rayonlara səfərlərim nəticəsində şəxsən özüm vəziyyətlə tanış oluram, görürəm. Ancaq, əlbəttə ki, yerli icra orqanlarından, onların fəaliyyətindən çox şey asılıdır. Mənim də tələbim dəyişməz olaraq qalır: yaxşı işləmək, can yandırmaq, ürəklə işləmək. Belə olsa, bizim problemlərimiz öz həllini tapar.

Əgər biz öz maliyyə sistemimizdə şəffaflığı tam şəkildə təmin etsək, istənilən məsələ öz həllini tapa bilər. İndi ayrılan

vəsaitlə çox işlər görmək olar. Sadəcə olaraq, gərək bu vəsaitdən düzgün istifadə edilsin. Ona görə biz gərək şəffaflığı təmin edək, daha da möhkəmləndirək, xərclərə nəzarət daha da güclü olmalıdır və əlbəttə, bütün vəsaitlərdən məqsədyönlü şəkildə istifadə olunmalıdır.

Nəzərə alsaq ki, Azərbaycanın büdcəsi ildən-ilə artacaq – bu il 4 milyard dollardır, gələn il xeyli artacaq – deməli, nəzarət də artmalıdır. Artan büdcəmiz həyatda – yeni iş yerlərinin açılmasında, yeni müəssisələrin, fabriklərin, zavodların, səhiyyə, təhsil, sosial infrastrukturun yaradılmasında öz əksini tapmalıdır.

Mən ümid edirəm ki, 2006-cı il də bizim üçün uğurlu olacaqdır. Çünki 2006-cı ildə ölkəmizin gələcəyini müəyyən edən iki nəhəng enerji layihəsi tamamlanacaqdır: Bakı–Tbilisi–Ceyhan neft və Bakı–Tbilisi–Ərzurum qaz kəmərləri. Bu kəmərlər uzun illər Azərbaycana xidmət edəcək, ölkəmizi zənginləşdirəcək, çox güclü maliyyə resursu bazası yaradacaqdır. Bizdən isə tələb olunan odur ki, bu imkanlardan səmərəli istifadə edək, vicdanla istifadə edək və bu böyük sərvət bizə nəsib olub, gərək o, Azərbaycanın inkişafına xidmət etsin.

Bütün imkanlar var ki, Azərbaycan ən müasir ölkəyə çevrilsin. Mən bunu artıq demişəm, hər bir imkan var – istər iqtisadi, istər siyasi, istərsə də bölgədə gedən proseslər. Biz bundan istifadə etməliyik. Əgər istifadə etməsək, biz bu şansı itirə bilərik. İndi vəziyyət çox əlverişlidir və hər bir vəzifəli şəxsdən, hər bir icra hakimiyyəti başçısından, hər bir məmurdan tələb edirəm və sahibkarlardan, iş adamlarından xahiş edirəm ki, ölkəmizin inkişafı üçün öz səylərini əsirgəməsinlər. Bu bizim vətənimizdir, xalq bizim xalqımızdır. Biz elə etməliyik ki, ən yüksək səviyyədə olaq, həm Azərbaycanın imici yüksəlsin, mövqeləri möhkəmlənsin, həm də Azərbaycan xalqının rifah halı daha da yaxşılaşsın.

İndi bizdə orta aylıq əməkhaqqı 140 dollara qalxıbdır. Bu, böyük göstəricidir. Amma bizi qane edə bilməz. Tərəqqi var, irəliləyiş var, inkişaf sürətlə gedir. Mən istəyirəm ki, daha da

sürətlə getsin, bilirəm ki, daha da sürətlə gedə bilər. Əgər bilsəydim ki, bu, maksimum sürətdir, deyərdim, elə bu sürətlə də davam edək. Sürət yüksəkdir, amma maksimum sürət deyildir. Biz işlərimizi daha da sürətləndirməliyik, bütün imkanlarımızı daha da səfərbər etməliyik və onda qarşımızda duran çox ciddi məsələlər tezliklə öz həllini tapa bilər.

Mən buna çalışıram, istəyirəm ki, qarşımıza qoyduğumuz proqramlar daha da sürətlə öz həllini tapsın. Çünki Azərbaycan xalqı buna layiqdir. Biz hamımız – hökumət, dövlət, cəmiyyət, biznes strukturları bunu etməliyik. Bu bizdən asılıdır və mən ümid edirəm ki, hamımız bu böyük məsuliyyəti dərk edirik.

İndi yerlərdə, rayonlarda hesabat toplantıları keçirilir, görülən işlər təhlil olunur. Eyni zamanda, son iki il ərzində görülən işlər İqtisadi İnkişaf Nazirliyinin xətti ilə daha dəqiqliklə təhlil olunacaqdır. Ən önəmlisi – bu gün burada bu barədə bir az danışıldı və mən ümid edirəm ki, biz buna daha da çox diqqət göstərəcəyik – mövcud olan problemlər və onların həlli yollarıdır. Əsas problemi müəyyən etmək, onun həll yolunu araşdırmaq və buna nail olmaq. Bunu  etmək üçün də hər şey var.

Bundan sonra da bizim maliyyə imkanlarımız artdıqca qarşımızda duran bütün vəzifələr öz həllini tapacaqdır. Məhz buna görə iki il bundan əvvəl bütün başqa vacib məsələlərlə yanaşı, mən əsas diqqəti, ağırlığı məhz iqtisadi islahatlara yönəltdim. Çünki hər şey buna bağlıdır. Əgər iqtisadiyyat inkişaf etmirsə, heç bir layihə öz həllini tapa bilməz. Nə qədər yaxşı yazsan da, heç bir gözəl niyyət, yaxud da təklif, proqram bunsuz həll edilə bilməz, kağız üzərində qalacaqdır. Hər şey iqtisadiyyatla bağlıdır. Biz də onu möhkəmləndiririk və bundan sonra daha da möhkəmləndirəcəyik.

Mən ümid edirəm ki, 2006-cı il Azərbaycanda iqtisadi islahatların davam etdirilməsi üçün uğurlu il olacaqdır. Yenə də deyirəm, dövlətin üzərinə düşən vəzifələr icra olunacaqdır. Əminəm ki, sahibkarlar da, iş adamları da ümumi işimizə öz töhfəsini verəcəklər. Əgər bu gün başqa ölkələrdən gəlib

Azərbaycanda iş görmək istəyənlərin sayı artırsa, deməli, yerli iş adamları da bu gözəl imkanlardan istifadə etməlidirlər. Vaxtilə Azərbaycandan getmiş, başqa ölkələrdə yaşayan vətəndaşlar indi Azərbaycana qayıdırlar. Bu gün ölkəmizə xarici ölkə vətəndaşlarının axını müşahidə olunur, Azərbaycana iş görmək, pul qazanmaq üçün, müəyyən iqtisadi layihələri həyata keçirmək üçün gəlirlər. Vaxtilə ölkədən gedirdilər, indi ölkəyə qayıdırlar. Bu proses davam edəcəkdir. Çünki Azərbaycan gözəl ölkədir. Gözəl insanlar, çox əlverişli iqtisadi şərait, investisiya axını, neft kəmərlərinin istismara verilməsi, gözəl ictimai-siyasi ab-hava, Azərbaycanda bütün xalqların bir ailə kimi yaşaması – bu, nadir bir mənzərədir.

İndi gəlin başqa ölkələrə baxaq. Mən heç misal gətirmək istəmirəm. Amma bəzi ölkələrdə proseslər çox ciddidir, başqa istiqamətdə inkişaf edir, cəmiyyətdə gərginlik var, müəyyən ziddiyyətlər var, müxtəlif zəmində olan ziddiyyətlər var, təhlükələr var, ədavət var.

Bunların heç biri Azərbaycanda yoxdur. Azərbaycanda indiki bu gözəl şərait bizə imkan verir ki, ölkəmizi daha da sürətlə inkişaf etdirək. Biz bunu bilməliyik, qiymətləndirməliyik. Azərbaycanın önəmi məhz ona görə də artır ki, burada vətəndaş cəmiyyəti möhkəmlənir, burada bütün xalqlar, bütün dinlərin nümayəndələri bir ailə kimi yaşayırlar.

İndi dünyada gedən proseslər çox təhlükəlidir. Sivilizasiyalar arasında dialoqdan danışılır, amma əslində bu, dialoq deyil, bu ziddiyyətdir. Bu çox təhlükəli meyllərdir. Ölkəmiz bu baxımdan nadir əhəmiyyət kəsb edir və biz bu vəziyyəti burada qorumalıyıq. İmkan verə bilmərik ki, bu gözəl şərait pozulsun. Baxmayaraq, yəqin elə qüvvələr var ki, bunu pozmaq istəyirlər. Amma onların cəhdləri keçmişdə də baş tutmamışdır, son aylar ərzində də baş tutmamışdır və bundan sonra da baş tutmayacaqdır.

Mən sizin hamınızı gərgin işə dəvət edirəm. Hökumət üzvlərini dəvət edirəm desəm, yaxşı çıxmaz, onlardan tələb edirəm, iş adamlarını dəvət edirəm, bütün cəmiyyəti buna dəvət

edirəm ki, biz ölkəmizi daha da gücləndirək və güclü dövlət yaradaq. Bu işdə hamınıza uğurlar arzulayıram. Sağ olun!

# DAHİ BƏSTƏKAR DMİTRİ ŞOSTAKOVİÇİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR OLUNMUŞ BEYNƏLXALQ FESTİVALIN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİ

*20 fevral 2006-cı il*

*Heydər Əliyev Fondunun, Mədəniyyət və Turizm Nazirliyinin birgə təşkilatçılığı ilə dahi bəstəkar Dmitri Şostakoviçin 100 illik yubileyinə həsr edilmiş beynəlxalq festivalın təntənəli açılışı olmuşdur.*

*Müslüm Maqomayev adına Azərbaycan Dövlət Filarmoniyasının salonuna toplaşanlar Azərbaycan prezidenti İlham Əliyevi, xanımı Mehriban Əliyevanı və ailə üzvlərini hərarətlə qarşıladılar.*

*Festivalın prezidenti, dünya söhrətli musiqiçi, həmyerlimiz Mstislav Rostropoviç səhnəyə dəvət olundu. Maestro musiqisevərlərə müraciətlə dedi: «Çox xoşbəxtəm ki, sevimli şəhərim Bakıda dahi bəstəkar Dmitri Şostakoviçin 100 illiyinə həsr edilmiş festival keçirilir. Onun Bakını və bakılı şagirdlərini necə sevdiyini çox yaxşı bilirəm. Əminəm ki, onun bu festivalda səslənəcək musiqisi musiqiçiləri və dinləyiciləri gözəlliyə məhəbbətdə birləşdirəcəkdir. Ümumiyyətlə, onun yüksək yaradıcılığı və musiqi sahəsindəki xidmətləri Azərbaycanda çox yüksək qiymətləndirilmiş və ona Azərbaycanın Xalq artisti adı verilmişdir. O həm də Azərbaycanın görkəmli bəstəkarları Qara Qarayevin və Cövdət Hacıyevin sevimli müəllimi olmuşdur. Bu mötəbər festivalın Azərbaycan kimi gözəl, sabit və inkişaf edən bir ölkədə keçirilməsinin böyük əhəmiyyəti vardır. Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri Mehriban xanım Əliyevanın təşəbbüsü ilə belə mühüm tədbirlərin təşkili dünyada mədəniyyətlərarası dialoqun inkişafı*

*baxımından çox dəyərlidir. Mən Azərbaycan xalqına bir daha minnətdaram».*

*Sonra maestro Mstislav Rostropoviçin dirijorluğu ilə Rusiya Dövlət Akademik Simfonik Orkestri D.D.Şostakoviçin 1-ci simfoniyasını və «Katerina İzmaylova» operasından beş antraktı ifa etdi.*

*Ukrayna müğənnisi, beynəlxalq müsabiqələr laureatı Oksana Dikanın (soprano) ifasında Şostakoviçin ötən əsrin hələ 30-cu illərində bəstələdiyi «Mtsensk qəzasının ledi Makbeti» operasından iki ariya səsləndi.*

*Böyük müvəffəqiyyətlə keçən konsert dəfələrlə gurultulu alqışlarla qarşılandı.*

*Maestro Mstislav Rostropoviç səhnəyə qayıdaraq tamaşaçılara dərin təşəkkürünü bildirdi, Dmitri Şostakoviçin «İki nəfər üçün çay» simfoniyasının yaranma tarixindən danışdı və əsəri simfonik orkestrin ifasında dinləyicilərə təqdim etdi.*

*Azərbaycan prezidenti İlham Əliyev konsertdən sonra filarmoniyanın foyesində maestro Mstislav Rostropoviçlə səmimi görüşdü, onu uğurlu çıxışına görə təbrik etdi.*

*Mstislav Rostropoviç dövlətimizin başçısına dərin minnətdarlığını bildirdi, Azərbaycanda mədəniyyətin və incəsənətin inkişafına göstərilən diqqət və qayğının dünyada yüksək qiymətləndirildiyini söylədi. O, prezidentin ailə üzvləri ilə də görüşdü.*

**DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ CƏNAB MUXU ƏLİYEVƏ**

Hörmətli Muxu Gimbatoviç!

Sizi Dağıstan Respublikasının Prezidenti vəzifəsinə seçilməyiniz münasibətilə ürəkdən təbrik edirəm.

Əminəm ki, xalqlarımız arasında sıx dostluq və mehriban qonşuluq telləri, Azərbaycan Respublikası ilə Rusiya Federasiyası arasında hərtərəfli əməkdaşlıq Qafqazda sülh, sabitlik və tərəqqi naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, xoşbəxtlik və dövləti fəaliyyətinizdə uğurlar arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *21 fevral 2006-cı il*

## RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN AZƏRBAYCANA SƏFƏRİ

*21 fevral 2006-cı il*

*Azərbaycanda Rusiya İlinin təntənəli açılış mərasimində iştirak etmək üçün Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 21-də Bakıya işgüzar səfərə gəlmişdir.*

*Azərbaycanın və Rusiyanın dövlət bayraqları ilə bəzədilmiş Heydər Əliyev adına Beynəlxalq hava limanında ali qonağın şərəfinə fəxri qarovul dəstəsi düzülmüşdü.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putini Azərbaycanın Baş naziri Artur Rasizadə, Xarici İşlər naziri Elmar Məmmədyarov və digər rəsmi şəxslər qarşıladılar.*

*Rusiya prezidenti avtomobil karvanının müşayiəti ilə hava limanından Fəxri xiyabana yola düşdü.*

*Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 21-də hava limanından Fəxri xiyabana gəlmişdir.*

*Burada ali qonağı və onu müşayiət edən şəxsləri Bakı Şəhər İcra Hakimiyyətinin başçısı Hacıbala Abutalıbov və Xarici İşlər nazirinin müavini Xələf Xələfov qarşıladılar.*

*Prezident Vladimir Putin görkəmli dövlət xadimi Heydər Əliyevin məzarını ziyarət etdi, ümummilli liderimizin xatirəsini ehtiramla anaraq abidəsi önünə əklil qoydu.*

*Rusiya rəhbəri görkəmli oftalmoloq alim, akademik Zərifə xanım Əliyevanın məzarı üzərinə də gül-çiçək düzdü.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

*Heydər Əliyev adına saray*

*21 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Rusiya Federasiyasının Prezidenti Vladimir Putin fevralın 21-də Heydər Əliyev adına sarayda ölkəmizdə «Rusiya İli»nin açılışı mərasimindən əvvəl təkbətək görüş keçirmişlər.*

*Dövlət başçıları Rusiyada «Azərbaycan İli»nin uğurla keçdiyini, çoxlu tədbirlər və hadisələrlə əlamətdar olduğunu vurğuladılar və Azərbaycanda «Rusiya İli»nin də eyni müvəffəqiyyətlə başa çatacağına əminliklərini ifadə etdilər. Bildirildi ki, belə tədbirlərin keçirilməsi siyasi, iqtisadi və humanitar sahələrdə əlaqələrin inkişafına təkan verəcək, ölkələrimizi, xalqlarımızı daha da yaxınlaşdıracaqdır.*

* * *

*Fevralın 21-də Heydər Əliyev adına sarayda Azərbaycanda «Rusiya İli»nin təntənəli açılış mərasimi olmuşdur. Mərasimdə Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Vladimir Putin iştirak etmişlər. Salona toplaşanlar dövlət başçılarını hərarətlə qarşıladılar. Rusiyanın və Azərbaycanın dövlət himnləri səsləndi. Prezidentlər mərasimdə nitq söylədilər.*

## Rusiya prezidenti Vladimir Putinin nitqi

Hörmətli İlham Heydəroviç!

Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Biz dövlətlərarası münasibətlərin, Azərbaycan və Rusiya Federasiyası arasında münasibətlərin inkişafının müasir mərhələsi üçün həqiqətən, əlamətdar və çox mühüm olan hadisənin iştirakçılarıyıq. Bu gün biz Azərbaycan Respublikasında «Rusiyanın milli İli»nə start veririk.

O, Rusiyanın müasir, ən yeni nailiyyətlərinə sadəcə baxış olmayıb, tarixən yaxın dövlətlərin və xalqların bərabərhüquqlu və qarşılıqlı surətdə faydalı əməkdaşlığına yeni təkan verməlidir. Elə xalqların ki, onlar əsrlər boyu münasibətlərində olan yaxşı varisliyi qayğı ilə qoruyub saxlayaraq, bu ənənələri nəsildən-nəslə ötürmüşlər.

Şübhəsiz, ilin proqramı Rusiya Federasiyasında «Azərbaycan İli»ndən heç də az populyar və önəmsiz olmayacaqdır. Rusiyada «Azərbaycan İli» isə göstərmişdir ki, xalqlarımızın taleləri nə dərəcədə sıx tellərlə bağlanmış və onların sülh, əmin-amanlıq şəraitində yaşamağa, əlbir qarşılıqlı inkişafa, bir-birini zənginləşdirməyə kömək etmək əzmi nə qədər güclüdür. Burada təəccüblü heç nə yoxdur. Axı epoxalar boyu ruslar və azərbaycanlılar bir-birini anlamaq üçün böyük qabiliyyətə, bu dərəcədə özgür mədəniyyətlərin mənəvi dəyərlərini əxz etməyə, milli və konfessiyalararası münasibətlərdə misilsiz qarşılıqlı hörmət və dözümlülük təcrübəsini qoruyub saxlamağa qadir olduqlarını göstərmişlər.

Biz vüsətli iqtisadi vəzifələrin birlikdə həllində də çox nailiyyətlər əldə etmişik. Bu həm də Xəzərdə neft mədənlərinin yaradılması və Sibir yataqlarının işlənilməsidir. Vaxtilə Rusiya geoloqu İvan Mixayloviç Qubkinin elmi axtarışları Azərbaycanda yeni «qara qızıl» yataqları kəşf etməyə imkan

vermişdir. Bakının neft universitetləri isə yüz minlərlə rusiyalı mütəxəssis hazırlamışdır və onlar indi də bu sahədə işləyirlər.

Böyük Vətən müharibəsi illərindəki döyüş qardaşlığımız xalqların dünya tarixində görünməmiş birliyinin nümunəsi olmuşdur. Fürsətdən istifadə edərək, faşizm üzərində böyük qələbənin 60 illiyi şərəfinə genişmiqyaslı tədbirlərin hazırlanması və keçirilməsində həmrəyliyə görə Azərbaycan Respublikasının Prezidentinə, Azərbaycanın bütün veteranlarına təşəkkürümü bildirmək istəyirəm.

Əməkdaşlığın belə əsaslı, zamanın sınağından çıxmış bünövrəsi, ümumi tarixə hörmət Rusiya və Azərbaycan xalqlarını yeni şəraitdə də birləşdirir. Bu gün dövlətlərimizin quruculuq sahəsində nümayiş etdirdikləri uğurlar isə elə bir perspektivli bazadır ki, biz müasir tərəfdaşlığımızı onun üzərində qururuq. Onu da unutmaq olmaz ki, bizim münasibətlərimizin müsbət xarakteri bütün regionda coğrafi-siyasi sabitlik amilidir. Burada biz kooperasiyanın yeni, səmərəli modellərini hələ axtarmalı və birlikdə həyata keçirməli, təkcə ikitərəfli imkanlardan deyil, həm də postsovet məkanındakı inteqrasiya proseslərindən tam dolğunluğu ilə istifadə etməliyik.

Əziz dostlar!

Rusiya və Azərbaycanın bir çox vətəndaşları ümumi işlə, möhkəm ailə və dostluq telləri ilə bağlıdırlar. Odur ki, biz hamımız vahid humanitar məkanın qorunub saxlanması və möhkəmlənməsində, mədəni əlaqələrin, gənclər mübadiləsinin inkişafında, elm və təhsil sahəsində təmaslarımızın genişlənməsində bilavasitə maraqlıyıq. MDB dövlətlərinin humanitar əməkdaşlıq haqqında Kazanda imzalanmış sazişi də məhz buna yönəlmişdir. Əminəm ki, humanitar əməkdaşlığın çoxtərəfli formatı bu sahədə ikitərəfli əlaqələrin imkanlarını tamamlayır və genişləndirir.

Bax, buna görə də həmin sazişin ideyasına tələbat olmuş və Birlik ölkələrinin yaradıcı və elmi ziyalıları onu dəstəkləmişlər. Onlar artıq bu ilin yazında Moskvada özlərinin ilk forumunu keçirməyi təklif etmişlər. Əminəm ki, belə qeyri-adi, məzmunlu

tədbir birgə humanitar layihələr üçün, MDB məkanında ümumi, təzələnmiş bazarlar – təhsil, elmi, mədəni xidmətlər bazarlarının açılması üçün, Birliyin bütün ölkələrində insan kapitalının inkişafı üçün çıxış nöqtəsi olacaqdır.

Əziz dostlar!

Azərbaycanda rus dilinin necə geniş yayıldığını, rus ədəbiyyatına necə böyük maraq olduğunu yaxşı bilirəm. Düşünürəm ki, Bakıda tezliklə keçiriləcək Rus kitabı birinci beynəlxalq festivalı Azərbaycanda «Rusiya İli»nin ən əlamətdar hadisələrindən birinə çevriləcəkdir. Bununla əlaqədar görkəmli Rusiya filoloqu və maarifçisi, bu il 100 illiyini qeyd edəcəyimiz Dmitri Sergeyeviç Lixaçovun sözlərini misal gətirmək yerinə düşərdi. O, millətlərin mənəvi və əxlaqi əsaslarını möhkəmlədən öz keçmişinə müraciətin vacibliyindən danışarkən vurğulamışdır ki, «əgər keçmişə belə müraciət digər xalqlardan və onların mədəni təcrübəsindən təcrid olunmaq kimi məhdud niyyətdən irəli gəlibsə, bu müraciət səmərə verə bilməz». Milli mədəniyyətləri zənginləşdirən və genişləndirən bu açıqlıq ideyası Azərbaycanda «Rusiya İli»nin ruhu ilə tam ahəngdar səslənir.

Bu gün onun başlandığını təntənəli surətdə elan edərək, bu bayramın bütün rusiyalı və azərbaycanlı iştirakçılarına uğurlar diləmək və ən xoş arzularımı bildirmək istəyirəm.

Diqqətinizə görə çox sağ olun.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Hörmətli Vladimir Vladimiroviç!

Hörmətli qonaqlar!

Əziz dostlar!

Bu gün biz Azərbaycanda «Rusiya İli»ni açırıq. Mən bu əlamətdar hadisə münasibətilə hamımızı səmimi-qəlbdən təbrik etmək istəyirəm. Əminəm ki, Azərbaycanda «Rusiya İli» uğurla keçəcəkdir.

Bu il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxınlaşacaq, bir-birimizi daha yaxşı tanıyacaq, müxtəlif istiqamətlərdə daha fəal əməkdaşlıq edəcəyik. Beləliklə, çalışacağıq ki, həm Rusiya, həm də Azərbaycan gələcəkdə də yaxşı qonşular, xeyirxah dostlar və tərəfdaşlar olaraq qalsınlar. Bu bizim mənafelərimizə uyğundur.

Ölkələrimizi və xalqlarımızı ümumi tarix birləşdirir və ənənəvi dostluq, mehriban qonşuluq və qardaşlıq münasibətləri indi davam edir, inkişaf edir və dərinləşir. Siyasi səpkidə ölkələrimiz arasında həm regional əməkdaşlıq məsələlərində, həm də beynəlxalq məsələlərdə çox aktiv qarşılıqlı fəaliyyət mövcuddur. Biz müxtəlif beynəlxalq təşkilatlarda fəal əməkdaşlıq edir və bir-birimizi dəstəkləyirik. Əlbəttə, ikitərəfli əsasda da əməkdaşlığın çox möhkəm bazası var.

Biz bu fəal siyasi dialoqun davam etdirilməsini istəyirik. Bu. birgə səylərin nəticəsidir ki, indi biz Rusiya ilə Azərbaycan arasında münasibətlərdən strateji tərəfdaşlıq münasibətləri kimi danışırıq. Bax, siyasi münasibətlərin belə möhkəm bazası bütün digər sahələrdə də əlaqələrin inkişafına təkan verir.

Bu gün bu salona gəlməzdən əvvəl biz Vladimir Vladimiroviçlə birlikdə Rusiya istehsalçılarının Azərbaycanda açılmış sərgisinə getdik. Səmərəli iqtisadi əməkdaşlığın potensialının nə qədər böyük olduğunu bir daha yəqin etdik. Sərgidə nümayiş etdirilən mallar və xidmətlər Rusiya istehsalçılarının potensialının səviyyəsini göstərir. Eyni zamanda göstərir ki, bu mallar və xidmətlərdən istifadə etmək üçün Azərbaycanda artıq möhkəm iqtisadi baza mövcuddur. Təsadüfi deyil ki, indi ölkələrimiz arasında əmtəə dövriyyəsi çox yüksək sürətlə inkişaf edir. Hamımızın yadındadır, iki il əvvəl Rusiyaya rəsmi səfərim zamanı biz Vladimir Vladimiroviçlə əmtəə dövriyyəsinin iki dəfə artırılması proqramını müəyyənləşdirdik. Lakin o vaxt biz yəqin güman etməzdik ki, bu belə tez baş verəcəkdir. Cəmi iki ildə ölkələrimiz arasında əmtəə dövriyyəsi iki dəfə artmış və indi bir milyard dolları keçmişdir. Bu gün ölkələrimizin iqtisadi imkanlarını, iqtisadiyyatın artım,

sənayenin inkişaf sürətini qiymətləndirərkən inamla demək olar ki, bu, son hədd deyildir. Ona görə də iqtisadi münasibətlərin daha da artmasına çalışacağıq.

Bütün bunlar əməkdaşlıq üçün gözəl şərait yaradır. Vladimir Vladimiroviçin bir az öncə dediyi humanitar sahədə əməkdaşlıq bizim üçün həmişə çox mühüm və yaxın olmuşdur. Bu əməkdaşlıq səmimi tələbatdan irəli gəlmişdir, yuxarıdan göndərilməmişdir, bu, yerinə yetirilməli olan direktiv deyil, cəmiyyətin normal vəziyyətidir. Azərbaycanda rus mədəniyyətinə və dilinə böyük məhəbbət və hörmətlə yanaşırlar. Demək istəyirəm ki, Azərbaycanda rus dilində təhsil elə Sovet İttifaqı dövründəki həcmdə həyata keçirilir. Burada bir məktəb belə bağlanmamış, ölkəmizin, əslində, bütün dövlət ali təhsil müəssisələrində rus dilində tədris mövcuddur. Başqa sözlə, bu, Azərbaycan dövlətinin prinsipial və ardıcıl siyasəti olmaqla yanaşı, həm də sosial və ictimai sifarişdir. Ona görə də ölkəmizdə bu siyasəti həyata keçirmək çox asandır.

Azərbaycan həmişə dözümlülüyü ilə fərqlənmişdir. Rusiya kimi, Azərbaycan da çoxmillətli ölkədir. Burada bir çox xalqların nümayəndələri bir ailə kimi yaşayırlar. Bu, dini etiqad azadlığı baxımından da belədir. Azərbaycan bir çox dinlərin nümayəndələrinin sülh, qardaşlıq və həmrəylik şəraitində yaşamasına yaxşı nümunədir. Hazırda dünyada təhlükəli meylləri gördüyümüz bir zamanda bu, xüsusilə vacibdir. Bir tərəfdən, sivilizasiyalararası dialoqdan danışılır, digər tərəfdən, dini zəmində yaradılan ziddiyyətlər bəzən süni surətdə qızışdırılır. Biz qəti mübarizəmizi, habelə fəaliyyətimizi buna qarşı qoymalıyıq. Öz nümunəmizlə göstərməliyik ki, dünya tamamilə başqa istiqamətdə inkişaf etməlidir. Azərbaycanda çoxlu rus, Rusiyada isə olduqca çox azərbaycanlı yaşayır. Bu da dövlətlərimiz arasındakı münasibətlərdə mühüm amillərdəndir. Əminəm ki, Azərbaycanda «Rusiya İli» ilə başladığımız bu il çox uğurlu olacaq, bizə daha fəal əməkdaşlıq imkanı verəcək və biz daha da yaxınlaşacağıq. Biz qonşularıq və Rusiya ilə Azərbaycan arasında mehriban qonşuluq münasibətləri çox

möhkəmdir. Onlar məhz mehriban qonşuluğun fundamental prinsiplərinə – səmimiliyə, etibarlılığa və dostluğa əsaslanır. Zənnimcə, razılaşarsınız ki, bütün bu amillər ölkələrimiz arasındakı münasibətləri şərtləndirir.

Bu imkandan istifadə edib, ölkəmizə gəldiyi və Azərbaycanda «Rusiya İli»nin açılışında şəxsən iştirak etdiyi üçün Rusiya prezidentinə təşəkkür etmək istəyirəm. Bu kürsüdən iqtisadi sahədə çox fəal əməkdaşlıq etdiyimiz Rusiya regionları rəhbərlərini salamlamaq istəyirəm. Rusiya regionlarının nümayəndə heyətləri ölkəmizə tez-tez səfər edirlər və bu gün də onlarla görüşdük.

Rusiyadan gəlmiş bütün qonaqları salamlamaq istəyirəm. Azərbaycana xoş gəlmisiniz, Azərbaycanda «Rusiya İli»nə uğurlar arzulayıram.

Diqqətinizə görə təşəkkür edirəm.

* * *

*Sonra Rusiya Federasiyası incəsənət ustalarının böyük konserti oldu. Azərbaycan tamaşaçıları Rusiyanın Əməkdar incəsənət xadimi, professor Aleksandra Permyakovanın rəhbərliyi ilə Pyatnitski adına Dövlət Akademik Rus Xalq Xorunun, P.İ.Çaykovski adına XI Beynəlxalq müsabiqənin qalibi pianoçu Denis Matsuyevin, «Terem-Kvartet»in və Sergey Jilinin rəhbərliyi ilə «Fonoqraf–Caz–Bənd» musiqi kollektivlərinin, estrada müğənnisi Nikolay Noskovun çıxışlarını alqışlarla qarşıladılar.*

* * *

*Heydər Əliyev adına sarayın foyesində «Azərbaycan: 100 il İTAR–TASS-ın obyektivində» fotosərgisi təşkil edilmişdi. Sərgiyə Rusiyanın qocaman informasiya agentliyinin ən yaxşı fotoustalarının 100-ədək işi təqdim olunmuşdu. Fotoşəkillər XX əsrin əvvəllərində neft sahəsində ilk böyük canlanmadan başlayaraq, Azərbaycanın indiki reallıqlarınadək ölkəmizin tarixinin bir əsrdən artıq dövrünü əks etdirir.*

*Şəkillərdə həm sovet dövründə, həm də müstəqillik illərində Azərbaycan–Rusiya münasibətlərinin mühüm mərhələləri öz əksini tapmışdır.*

*Ekspozisiyada Rusiyada başa çatmış «Azərbaycan İli»nə, hər iki ölkənin faşist Almaniyası üzərində Qələbəyə töhfəsinə həsr olunmuş fotoşəkillər geniş yer tutur.*

*Heydər Əliyev Fondunun prezidenti, YUNESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı Mehriban Əliyeva İTAR–TASS agentliyinin Baş direktoru Vitali İqnatenkonun müşayiəti ilə sərginin ekspozisiyasına baxmışdır.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİN RUSİYA MİLLİ SƏRGİSİNDƏ

*Heydər Əliyev adına İdman–Sərgi kompleksi*

*21 fevral 2006-cı il*

*Fevralın 21-də Azərbaycan prezidenti İlham Əliyev və Rusiya prezidenti Vladimir Putin Heydər Əliyev adına İdman–Sərgi Kompleksində «Rusiya və Azərbaycan: strateji tərəfdaşlıq» devizi ilə keçirilən Rusiya milli sərgisində olmuşlar.*

*Azərbaycan dövlətinin başçısı İlham Əliyev Rusiya prezidenti Vladimir Putini kompleksin girişində səmimiyyətlə və mehribanlıqla qarşıladı.*

*Milli geyimli qızlar dövlət başçılarına tatar milli şirniyyatı — çakçak təqdim etdilər. RF İqtisadi İnkişaf və Ticarət Nazirliyi və Ticarət və Sənaye Palatası tərəfindən təşkil olunmuş sərgidə ölkənin regionlarının, o cümlədən Moskva, Sankt-Peterburq, Tatarıstan Respublikası, Kabarda-Balkariya Respublikası, Mordoviya Respublikası, Stavropol diyarı, Omsk, Ulyanovsk, Sverdlovsk, Həştərxan, Kurqan, Penza, Saratov və Çelyabinsk vilayətlərinin, digər regionların 12 kollektiv ekspozisiyası nümayiş etdirilir. Rusiya Fövqəladə Hallar Nazirliyi ayrıca stenddə təmsil olunmuşdur. Ekspozisiyada neft-mədən avadanlığı və texnoloji avadanlıq, qara metallar prokatı və armaturlar, borular, elektrotexnika avadanlığı, kimya və meşə sənayesi məhsulları, tikinti avadanlığı, tibb texnikası, yeyinti sənayesi məhsulları, nəqliyyat (minik avtomobilləri, maşın və mexanizmlər), aqrar-sənaye texnologiyaları göstərilir.*

*Prezidentlər ölkəmizdə başlanan «Rusiya İli» çərçivəsində açılmış sərginin ekspozisiyasına baxdılar. «Ümumrusiya Sərgi*

*Mərkəzi» ASC-nin Baş direktoru Məhəmməd Musayev dövlət başçılarına Rusiya müəssisələrinin sərgidə nümayiş etdirilən məhsulları barədə ətraflı məlumat verdi. O bildirdi ki, istər sərginin, istərsə də onun işgüzar proqramının hazırlanması prosesində Rusiya biznesindən ikitərəfli münasibətlərin inkişafına, Azərbaycanda diler əlaqələri yaradılmasına dair bir çox maraqlı təkliflər alınmışdır. Təşkilatçıların fikrincə, sərgi danışıqlar aparılması və gələcək əməkdaşlığın perspektivlərinin müəyyənləşdirilməsi üçün yaxşı imkan olacaqdır.*

*Rusiya işgüzar dairələrinin sərgidə iştirak edən nümayəndələri arasında həmvətənlərimiz də var. Məsələn, Ulyanovsk motor zavodu «Ticarət Evi» MMC-nin məhsulunu müəssisənin Baş direktorunun müavini, Ulyanovskdakı Azərbaycan diasporunun rəhbəri Şakir Göyüşov təqdim etdi.*

*Prezidentlər sərgidə Moskva hökuməti tərəfindən təqdim olunmuş və 18 müəssisənin məhsulunun nümayiş etdirildiyi ən böyük bölməyə də baxdılar.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ QƏBULDA NİTQ

*Gülüstan sarayı*

*21 fevral 2006-cı il*

Hörmətli Vladimir Vladimiroviç!

Əziz dostlar, xanımlar və cənablar!

Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlamaq, hamınıza firavanlıq, sağlamlıq, sizə və ailələrinizə xoşbəxtlik arzulamaq istəyirəm.

Bu gün Azərbaycanda «Rusiya İli»nin açılışı günüdür. Biz onu bir qədər əvvəl təntənəli şəraitdə qeyd etdik. Bu, ölkələrimiz arasında bütün istiqamətlərdə gələcək əməkdaşlıq üçün çox yaxşı perspektivlər açır.

Biz Rusiyanın və Azərbaycanın əməkdaşlığına çox böyük əhəmiyyət verir və onu konkret məzmunla dolğunlaşdırmağa çalışırıq. Azərbaycanın müstəqillik əldə etdiyi vaxtdan bəri ölkələrimiz arasında münasibətlər bir neçə dövrdən keçmişdir. Onları 2000-ci ilədək olan dövrə və 2000-ci ildən sonrakı dövrə ayırmaq olar. Münasibətlərin dinamikası, konkret işlər, razılaşmalar, qarşılıqlı fəaliyyətin səviyyəsi üzrə izləsək, əlbəttə, böyük fərq olduğunu görərik.

Rusiya ilə Azərbaycan arasında münasibətlər məhz 2000-ci ildən başlayaraq tamamilə yeni məzmun kəsb etmişdir. Bunun əsasını Rusiya prezidenti Vladimir Putinin 2001-ci ilin əvvəllərində Azərbaycana rəsmi səfəri qoymuşdur. Bu, Rusiya prezidentinin Azərbaycana ilk səfəri idi. Həmin vaxtdan bu günədək biz münasibətlərimizdə ancaq müsbət hallar görürük.

Gah anlaşılmazlıq, gah da hansısa problemlər doğuran bütün məsələlər tənzimlənmişdir. Biz regional formatda fəal əməkdaşlıq edirik. Xəzər problemi, regional təhlükəsizlik barədə, Qafqazda təhlükəsizlik barədə baxışlarımız tam uyğun gəlir. Bunun əsasını iki prezident – Vladimir Putin və Heydər Əliyev qoymuşlar. Onların dostluğu, münasibətləri, müdrikliyi Rusiya ilə Azərbaycanın strateji tərəfdaşlar olmasını və əməkdaşlığımızın daha da dərinləşməsi üzərində fəal işləməsini öncədən müəyyənləşdirmişdir.

Azərbaycanda hamı Heydər Əliyev ilə Sizin şəxsi münasibətlərinizi xatırlayır. Əsl dost kimi, məhz Siz ən ağır vaxtda dostluq əli uzatdınız, ağır anda, xəstəlik anında da diqqət göstərdiniz. İnanın, Azərbaycanda bunu xatırlayır və yüksək qiymətləndirirlər.

Münasibətlərimizin indiki mərhələsi 2000-ci ildə başlanmış mərhələnin davamıdır. Biz əlaqələrimizə yeni formalar verilməsi üzərində fəal işləyirik. Həyat bir yerdə dayanmır. Qarşımıza yeni vəzifələr, yeni tələblər çıxır, biz onları həll etməyə hazır olmalıyıq. Biz bunu birlikdə etdikdə, bir çox məsələlərdə səylərimizi əlaqələndirdikdə, əlbəttə, uğurlar qazanırıq. Sülh olmadan, sabitlik olmadan inkişaf mümkün deyildir. Bu, sübut tələb etməyən aksiomadır. Ona görə də Rusiya və Azərbaycan Qafqazda sülh, əmin-amanlıq olmasında, qan tökülməməsində, evlərdə firavanlıq və rahatlıq olmasında maraqlıdır.

Azərbaycan öz tarixinin ağır məqamlarını yaşamışdır, torpaqlarımızın bir hissəsinin işğal altında olmasından indiyədək əziyyət çəkməkdədir. Ümidvarıq ki, qonşumuz kimi, böyük dövlət kimi, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması üzrə ATƏT-in Minsk qrupunun həmsədri kimi, Rusiya bu münaqişənin sülh yolu ilə həlli üçün bundan sonra da səy göstərəcəkdir.

Biz qeyri-adi heç nə, beynəlxalq hüququn, yaxud da insan məntiqinin normal çərçivəsindən kənara çıxan heç nə tələb etmirik. Biz yalnız onu tələb edirik ki, torpaqlarımız işğaldan

azad olunsun, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi yalnız və yalnız beynəlxalq hüquq prinsipləri əsasında nizama salınsın. Onda qaçqın-köçkünlərimiz öz evlərinə qayıdarlar. Onda sülh olar, regionda sülh təmin edilər.

Bu gün Azərbaycanda «Rusiya İli»nin açılışı çərçivəsində sərgi də açıldı, Rusiya istehsalçılarının potensialı bizə bir daha təqdim olundu. Rusiya–Azərbaycan geniş biznes forumunun keçirilməsi də nəzərdə tutulur. Forumda biznes nümayəndələri iştirak edəcəklər. Ümid edirik ki, bu istiqamətdə əlaqələrimiz fəal surətdə genişlənəcəkdir. Bunu demək üçün əsaslar var. Ölkələrimiz arasında əmtəə dövriyyəsinin necə dinamik inkişaf etməsi iqtisadi əlaqələrimizin uğurla inkişaf etdiyinə ən yaxşı sübutdur. Başqa sözlə desək, münasibətlərimiz, onların bütün istiqamətlərdə inkişafı, dərinləşməsi milli mənafelərimizə cavab verir, düşüncələrimizə cavab verir, əhval-ruhiyyəmizə cavab verir.

Mən bu badəni Rusiya ilə Azərbaycan arasında münasibətlərin daha da möhkəmlənməsi şərəfinə qaldırıram. Rusiyanın tərəqqisi, Rusiya xalqının firavanlığı şərəfinə və Rusiya prezidenti Vladimir Vladimiroviç Putinin sağlığına badə qaldırıram.

## Rusiya prezidenti Vladimir Putinin nitqi

Əziz dostlar!

İlk növbədə, ölkənizə gəlmək və Azərbaycanda «Rusiya İli»nin açılışında iştirak etmək imkanına görə Azərbaycan prezidentinə və onun xanımına minnətdarlığımı bildirmək istəyirəm. Rusiya–Azərbaycan münasibətləri müharibədən sonrakı bütün illər ərzində görünməmiş yüksək səviyyədədir.

Şübhəsiz, bu, ilk növbədə, Heydər Əliyeviç Əliyevin xidmətidir. Ona görə ki, məhz o, Rusiya–Azərbaycan münasibətlərinin əhəmiyyətini dərindən bildiyinə görə, Azərbaycan üçün ən ağır illərdə və Rusiya–Azərbaycan münasibətlərinin çox mürəkkəb dövründə həmin münasibətlərin normal məcraya

qayıdışı üçün imkanı qoruyub saxladı. Məhz o bizə normal dövlətlərarası münasibətlərə qayıtmaq imkanı verdi.

Mən bu gün fəaliyyətdə olan prezidentə demişəm, biz son illər Heydər Əliyevlə tez-tez ünsiyyətdə olurduq. Mən onunla ünsiyyətə alışmışdım. O çox dərin və müdrik insan idi. Mən hətta bu gün də onun yoxluğunu hiss edirəm. Tədbirə gedəndə həmişə təəssüflə fikirləşirəm ki, o bu tədbirlərdə olmayacaqdır. Lakin əsası ata tərəfindən qoyulan işləri oğul davam etdirir. Biz bunu görürük, Azərbaycanın necə və hansı sürətlə inkişaf etdiyinə sevinirik. ÜDM-in artım sürəti dünyada ən yüksək göstəricilərdəndir. Bu, Rusiya üçün də həsəd aparılmalı mövzudur. Bu onu göstərir ki, Azərbaycan rəhbərliyi öz ölkəsinin inkişafı üçün təkcə xarici siyasətdə deyil, həm də iqtisadiyyatda düşünülmüş şəkildə doğru inkişaf yolu seçmişdir. Bu isə başlıca məsələdir, gələcək tərəqqinin əsasıdır.

Bizim mənəvi əlaqələrimiz həmişə yüksək səviyyədə olmuşdur. Rusiyada ölkənizin çox böyük sayda vətəndaşı yaşayır. Mən hələ Rusiya Federasiyasının Azərbaycan əsilli vətəndaşlarını demirəm. Mən Rusiya Federasiyası ərazisində müvəqqəti yaşayıb-işləyən, burada qazandığı vəsaitlə ailələrini saxlayan bir milyondan çox Azərbaycan vətəndaşını nəzərdə tuturam. Hesab edirəm ki, bu, dövlətlərimiz arasında çox yaxşı qarşılıqlı fəaliyyət, qarşılıqlı əlaqə körpüsüdür. Çünki bu, adamlar arasında canlı qarşılıqlı əlaqədir.

Biz çox şadıq ki, münasibətlərimiz keyfiyyətcə yeni səviyyəyə çıxır. Prezidentin dediyi kimi, ticarət dövriyyəmiz bir milyard ABŞ dollarına çatmışdır. Lakin məsələ hətta bunda da deyildir. Məsələ ondadır ki, əmtəə dövriyyəmizin keyfiyyəti bir çox dövlətlərlə olan əmtəə dövriyyəsinin həcmlərindən daha yaxşı, sərfəli olması ilə fərqlənir. Hətta bu həcm bəzən daha böyük olsa da. Keyfiyyət isə ondan ibarətdir ki, sənayenin payı daim artır. O, ötən il gəmiqayırma üzrə iki dəfə, maşınqayırma üzrə bir dəfə yarım artmışdır. Bu, ölkələrimizin iqtisadiyyatlarının bir-birini tamamladığının və bir-biri üçün gərəkli olduğunun çox yaxşı keyfiyyət göstəricisidir. Rusiya bu

qarşılıqlı iqtisadi əlaqələrin inkişaf sürətini hər vasitə ilə dəstəkləyəcəkdir.

Əlbəttə, başa düşürük ki, Azərbaycan çox mürəkkəb beynəlxalq problemlər qarşısında durur, onlardan ən başlıcası Qarabağ münaqişəsinin həlli problemidir. Bu, Azərbaycan və Ermənistan xalqlarının üzərinə ağır yük kimi düşür və əlbəttə, hər iki ölkənin rəhbərliyi qarşısında, ilk baxışdan, sadəcə, həlledilməz vəzifələr qoyur. Lakin əminəm ki, xoş məram olarsa, nizamasalma variantları tapıla bilər. Demək istəyirəm ki, hər iki tərəfin xoş məramı olarsa və Rusiya kimi dövlətlərin və nizamasalmada iştirak edən digər ölkələrin vasitəçiliyi olarsa, tapıla bilər. Biz hər iki dövlət üçün bu zəruri qərarların axtarışına dair birgə işə şərait yaradılmasına bundan sonra da çalışacağıq.

Çox səmimi və həqiqətən dostcasına qəbula görə Sizə təşəkkür etmək istəyirəm. Qorxuram səhv edəm, lakin yadımdadırsa, Azərbaycan atalar sözlərindən biri belədir ki, özünüz yaxşı yaşamaq istəyirsinizsə, çalışın ki, qonşunuz yaxşı yaşasın. Biz hər vasitə ilə çalışacağıq ki, strateji tərəfdaşımız olan Azərbaycan son illərdə götürdüyü belə yüksək sürətlə inkişaf etsin.

Münasibətlərimizin inkişafı şərəfinə badə qaldırmağı təklif edirəm.

Prezidentin və onun xanımının sağlığına!

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*Prezident sarayı*

*22 fevral 2006-cı il*

*Fevralın 22-də Prezident sarayında Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin təkbətək görüşü keçirilmişdir.*

*Azərbaycan prezidenti İlham Əliyev ölkəmizdə işgüzar səfərdə olan Rusiya prezidenti Vladimir Putini Prezident sarayında səmimiyyətlə qarşıladı.*

*Sonra dövlət başçılarının təkbətək görüşü başladı. Prezident İlham Əliyev Azərbaycanda «Rusiya İli»nin açılışının uğurla keçdiyini və təqdim olunan qala-konsertin də yüksək səviyyədə təşkil edildiyini vurğuladı. Azərbaycanda Rusiya İlinin bütün il boyu bu cür davam edəcəyinə ümidvar olduğunu bildirən dövlətimizin başçısı ölkələrimiz arasında dostluq, mehriban qonşuluq, səmərəli əməkdaşlıq münasibətlərinin bundan sonra daha da möhkəmlənəcəyinə əminliyini söylədi.*

*Prezident Vladimir Putin də ölkəsinin incəsənət ustalarının Azərbaycanda «Rusiya İli»nin açılışı mərasimi iştirakçılarına təqdim etdikləri rəngarəng konsert proqramının sevinc doğurduğunu söylədi. Ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın bu cür yüksək səviyyədə davam etməsi üçün potensial imkanların olduğunu vurğulayan Rusiyanın dövlət başçısı uğurla başlayan İlin elə bu cür də başa çatacağına əminliyini bildirdi.*

*Görüşdə tərəfləri maraqlandıran məsələlər ətrafında fikir mübadiləsi aparıldı.*

* * *

*Fevralın 22-də Prezident sarayında Azərbaycan prezidenti İlham Əliyev ilə Rusiya prezidenti Vladimir Putin arasında təkbətək görüş başa çatdıqdan sonra dövlət başçılarının nümayəndə heyətlərinin iştirakı ilə geniş tərkibdə görüşü oldu. Görüşdə prezident İlham Əliyev çıxış etdi.*

**İ l h a m Ə l i y e v:** Hörmətli Vladimir Vladimiroviç!

Sizi Azərbaycanda bir daha səmimi-qəlbdən salamlayıram. Azərbaycanda «Rusiya İli» çox uğurla başlandı. Dünən biz gözəl bir konsertdə olduq və bu gün işimizi davam etdiririk. İkitərəfli münasibətlərə dair məsələlər, regional məsələlər barədə geniş fikir mübadiləsi apardıq və mövqelərimizin uyğun gəlməsi, əlbəttə, bir daha sübut edir ki, strateji tərəfdaşlıq səviyyəsində olan münasibətlərimiz getdikcə möhkəmlənir. Biz buna – həm siyasi sahədə əməkdaşlığa və məsləhətləşmələrə, həm də iqtisadiyyatda fəal əməkdaşlığa çox böyük əhəmiyyət veririk.

Məlum olduğu kimi, bu gün Rusiya–Azərbaycan biznes forumu başlanmışdır. Ümidvaram ki, bu forum çərçivəsində biznesmenlərimiz bir-birini daha yaxşı tanıyacaq, getdikcə genişlənən imkanları qiymətləndirəcəklər.

Rusiyanın da, Azərbaycanın da iqtisadiyyatları çox dinamik inkişaf edir, iqtisadi sahədə əməkdaşlığın yeni perspektiv istiqamətləri açılır. Əlbəttə ki, bu, bütün digər sahələrdə də daha fəal əməkdaşlığa kömək edəcəkdir.

Əlbəttə, biz humanitar sahədən də danışdıq. Burada biz bir müsbət hal görürük. Başqa sözlə, mən əsla şübhə etmirəm ki, Sizin səfərinizdən sonra münasibətlərimiz daha da möhkəmlənəcəkdir, bu isə milli mənafelərimizə uyğundur.

Bir daha «Xoş gəlmisiniz!» deyirəm.

**V l a d i m i r  P u t i n:** Dəvətə görə də, danışıqlarımızın keçdiyi çox xeyirxahlıq mühitinə görə də Sizə təşəkkür edirəm. Dünən axşam evinizə dəvətə görə çox sağ olun. Biz mürəkkəb beynəlxalq məsələlərə dair danışıqlara, əslində artıq dünən başladıq. Dünən neytral şəraitdə Qarabağ barədə də danışa bildik. Bu gün səhərki söhbətimiz də çox məzmunlu oldu. Biz gündəliyin əslində bütün məsələlərinə, ikitərəfli münasibətlərimizin bütün cəhətlərinə toxunduq.

Sevindirici haldır ki, iqtisadi əməkdaşlıq ardıcıl surətdə inkişaf edir. Dünən Hökumətlərarası komissiya işinə başladı. Biz iki il əvvəl müəyyənləşdirdiyimiz səviyyəyə çıxmışıq və bunu gözlənildiyindən daha tez etmişik. Əmtəə dövriyyəsinin həcmi bir milyard dolları keçmişdir, inkişafın sürətinin 40 faizdən yuxarı olması göstərir ki, biz düzgün yoldayıq.

* * *

*Fevralın 22-də Prezident sarayında geniş tərkibdə görüşdən sonra Azərbaycan–Rusiya sənədlərinin imzalanması mərasimi olmuşdur.*

*Dövlət başçıları Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin və Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin birgə bəyanatını imzaladılar.*

*Sverdlovsk vilayəti hökuməti ilə Azərbaycan Respublikası hökuməti arasında ticarət-iqtisadi, elmi-texniki və mədəni əməkdaşlıq haqqında saziş imzalandı.*

## SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN BİRGƏ MƏTBUAT KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*Prezident sarayı*

*22 fevral 2006-cı il*

### Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

Hörmətli Vladimir Vladimiroviç!
Hörmətli qonaqlar!
Əziz dostlar!

Hörmətli Vladimir Vladimiroviç, Sizin Azərbaycana səfəriniz başa çatır. Bu vaxt ərzində biz ikitərəfli, regional əməkdaşlığa dair çox geniş məsələləri müzakirə edə bildik. Rusiya ilə Azərbaycan arasında münasibətlərin bugünkü inkişafını səciyyələndirən bir çox məsələlər haqqında, habelə regionun və dünya siyasətinin məsələləri barədə baxışlarımız uyğun gəlir.

Dünən Azərbaycanda «Rusiya İli» uğurla açıldı. Əminik ki, bu il ərzində ölkələrimiz və xalqlarımız daha da yaxın olacaq, siyasi müstəvidə də fəal əməkdaşlıq edəcəyik, ticarətin dövriyyəsini artıracaq və humanitar sahənin inkişafında bundan sonra da əməkdaşlıq edəcəyik.

Başqa sözlə, biz əməkdaşlığımızın bütün istiqamətlərində son 5-6 ildə formalaşmış müsbət meyllərin davam etdiriləcəyinə və möhkəmləndiriləcəyinə ümid bəsləyirik.

Hesab edirəm ki, bu gün Rusiya ilə Azərbaycan arasında münasibətlər qonşular arasında münasibətlərə nümunə ola bilər. Həqiqətən, münasibətlərimiz mehriban qonşuluq, səmimi dostluq münasibətləridir. Bu, iqtisadiyyatlarımızı fəal inkişaf

etdirməyə, bütün istiqamətlərdə fəal əməkdaşlıq etməyə imkan verir, habelə iri sərmayə layihələrindən ötrü, ölkələrimiz arasında iqtisadi münasibətlər üçün çox yaxşı zəmin yaradır.

Bu gün çox böyük sayda rusiyalı sahibkarların iştirakı ilə Azərbaycan–Rusiya biznes forumu işinə başladı.

Ümidvaram ki, bu forumun nəticələri çox tezliklə özünü konkret layihələrdə, konkret qərarlarda göstərəcəkdir. Beləliklə, əmtəə dövriyyəsinin iki ildə nail olduğumuz ikiqat artımı ölkələrimiz arasında uzunmüddətli fəal iqtisadi əməkdaşlığın inkişafının, yəqin ki, yalnız bir mərhələsi olacaqdır.

Bunun üçün potensial var, ölkələrimizin iqtisadiyyatları dinamik inkişaf edir. Rusiya Azərbaycanın əmtəə dövriyyəsində birinci yeri tutur. Ancaq biz əməkdaşlığın daha da genişlənməsinə ümid bəsləyirik. Əlbəttə ki, Rusiya prezidenti ilə görüşlərimiz və danışıqlarımız çərçivəsində regional məsələlər, regional təhlükəsizlik, Qafqazda və regionda sabitlik məsələləri geniş səpkidə müzakirə olundu.

Biz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması məsələsini və bu münaqişənin həllinin mümkün yollarını çox ətraflı müzakirə etdik. Bu münaqişənin beynəlxalq hüquq prinsipləri və normalarına müvafiq surətdə ədalətlə nizama salınması işində qonşumuz kimi, böyük dövlət kimi, ATƏT-in Minsk qrupunda həmsədr ölkə kimi, Rusiyanın fəal roluna bundan sonra da ümid bəsləyirik.

Ümidvarıq ki, gələcəkdə ölkələrimiz arasında əməkdaşlığın bütün istiqamətlərində daha böyük tərəqqiyə, səylərimizin daha çox fəallaşmasına nail olacağıq. Bunun üçün hər cür zəmin – rəhbərlərin siyasi iradəsi, hökumət üzvlərinin fəallığı var. Hökumətlərarası komissiyamız çox səmərəli işləyir. Bunu lazımınca qiymətləndirmək lazımdır. İki ildə əmtəə dövriyyəsini iki dəfə artırmağa nail olmağımızda məhz bu çox böyük rol oynamışdır.

Ümidvarıq ki, bu il ərzində Azərbaycana Rusiyadan çoxlu qonaq gələcəkdir. Biz qonaqların, xüsusən də Rusiyadan, bizim üçün dost ölkədən qonaqların gəlməsinə çox şadıq. Yəqin ki,

olduqca çox yaradıcılıq kollektivləri gələcək, köhnə, səmimi dostların görüşləri çox olacaqdır. Əlbəttə ki, bütün bunlar bizi daha da yaxınlaşdıracaqdır. Biz buna çox ümid bəsləyirik. Fürsətdən istifadə edərək ölkəmizə səfərinə görə, Azərbaycanda «Rusiya İli»ni açmağa gəldiyinə görə Rusiya prezidentinə bir daha təşəkkür etmək, qonaqlarımız olan Rusiya respublikaları və vilayətlərinin bütün rəhbərlərinə təşəkkür etmək istəyirəm.

Xoş gəlmisiniz!

Diqqətinizə görə təşəkkür edirəm.

**Rusiya prezidenti Vladimir Putinin bəyanatı**

Öz tərəfimdən, ilk növbədə, dəvətə görə və danışıqlarımızın çox səmimi şəraitdə keçdiyinə görə Azərbaycan Respublikasının Prezidentinə təşəkkür etmək istəyirəm. Danışıqlar həmişəki kimi çox açıq və səmərəli oldu. Rusiya nümayəndə heyəti qeyd edir ki, hazırda Rusiya–Azərbaycan münasibətləri çox yüksək səviyyədədir və özündə ciddi müsbət inkişaf dinamikası vardır. Bu həm qarşılıqlı fəaliyyətimizin siyasi sahəsinə, həm iqtisadiyyata, həm də humanitar əlaqələr sahəsinə aiddir. Sonuncuya gəldikdə, dünən sizin çoxunuz Azərbaycanda «Rusiya İli»nin açılışını gördünüz. Əminəm ki, bu, humanitar əlaqələr sahəsində münasibətlərimizin inkişafına daha bir ciddi təkan olacaqdır.

Ümidvaram ki, Azərbaycanda «Rusiya İli» çərçivəsində planlaşdırılmış tədbirlər böyük maraqla, diqqətlə qarşılanacaqdır və bilirəm, Rusiya incəsənətinə, Rusiya ifaçılarına, Rusiyanın teatr xadimlərinə böyük maraq göstərən Azərbaycan tamaşaçılarının yəqin etməyə imkanı olacaq ki, bu baxımdan Rusiya bir yerdə dayanmır, Rusiya inkişafdadır. Azərbaycan tamaşaçıları və dinləyiciləri nəinki çoxdan məşhur olan şöhrətli kollektivlərimizi, həm də yeni ifaçıları görəcək və Rusiya incəsənətinin nümayəndələri ilə ünsiyyətdən böyük zövq alacaqlar.

O ki qaldı siyasi əlaqələrə, qarşılıqlı siyasi fəaliyyətə, onlar həqiqətən, çox yüksək səviyyədədir. Biz Azərbaycan və

Rusiyanın xarici işlər nazirlikləri, hökumətləri səviyyəsində, mənim də, həmkarımın da müəyyən etdiyi bütün istiqamətlər üzrə qarşılıqlı əlaqələri həyata keçirən və ya bu işə rəhbərlik edən, demək olar, bütün idarələr səviyyəsində daim ünsiyyət saxlayırıq.

Elə bir sahə var ki, o, diqqətimizi xüsusi cəlb edir – bu, iqtisadi əməkdaşlıq sahəsidir. Biz nəinki qarşıya qoyulmuş səviyyəyə çıxmışıq, həm də əməkdaşlığın bizim üçün son dərəcə mühüm və həssas sahələrində çox yaxşı inkişaf sürəti götürmüşük. Bu həm energetikadır, həm maşınqayırma, nəqliyyat, rabitə, kənd təsərrüfatı, metallurgiya sənayesidir, həm də elə bir sahədir ki, onsuz biznesi inkişaf etdirmək, ümumiyyətlə, mümkün deyildir. Mən maliyyə sahəsini nəzərdə tuturam.

Çox ümid edirəm ki, biznes nümayəndələri və regionların nümayəndələri arasında olan geniş əlaqələr lap yaxın vaxtda öz səmərəsini verəcəkdir.

Əlbəttə, həm ikitərəfli münasibətlər üçün, həm də bütün region üçün çox mürəkkəb və mühüm məsələni – Dağlıq Qarabağla bağlı məsələni də diqqətdən kənarda qoya bilmərəm. Mən Azərbaycan prezidentinin belə bir fikri ilə razıyam ki, məsələnin bütün mürəkkəbliyinə baxmayaraq, hər iki tərəf – Azərbaycan da, Ermənistan da qarşılıqlı surətdə məqbul qərar tapa bilər. Rusiya özündən asılı olan hər şeyi edəcək ki, danışıqların nəticələri müsbət olsun. Mən öz tərəfimdən Azərbaycan prezidentinə söz verdim ki, biz ermənistanlı tərəfdaşlarımızla əlavə məsləhətləşmələr keçirilməsi təşəbbüsünü irəli sürəcək və bu məsləhətləşmələri aparacağıq.

Yaxın vaxtlarda Ermənistan prezidenti ilə əlaqə saxlamaq, bu problem barəsində yeni məsləhətləşmələr aparmaq üçün onu Moskvaya dəvət etmək niyyətindəyəm. Rusiya nümayəndə heyəti aparılmış danışıqları çox səmərəli danışıqlar kimi qiymətləndirir və biz birgə işimizin təşkilinə görə azərbaycanlı tərəfdaşlarımızın hamısına təşəkkür edirik.

Diqqətinizə görə çox sağ olun.

**S u a l: Mənim sualım Rusiya prezidentinədir. Bilmək istərdim ki, Gürcüstan ilə münasibətlər niyə belə kəskinləşmişdir? İkincisi. Dünən Moskvada İran nümayəndə heyəti ilə danışıqlar aparılmışdır. Bu barədə informasiya, demək olar, yoxdur. Bu danışıqların nəticələri necədir?**

**V l a d i m i r   P u t i n:** Mən sualınızın ikinci hissəsindən – iranlı tərəfdaşlarımızla danışıqlardan başlayacağam. Deməliyəm ki, biz bu gün azərbaycanlı həmkarlarımızla danışıqların gedişində də, əlbəttə, İranın nüvə probleminin nizama salınması mövzusuna, ümumiyyətlə, İranla münasibətlərimizə toxunduq. Çünki bütün bunların bizim üçün praktiki əhəmiyyəti var. Bu bizim regiondur. Üstəlik, bizim üçtərəfli əməkdaşlıq istiqamətimiz də var. Məsələn, elektroenergetika sahəsində bir müddət bundan əvvəl üçtərəfli komissiya yaradılmışdır. Komissiya elektroenergetika sahəsində üçtərəfli formatda münasibətlərin sahmanlanması ilə məşğul olur. Ona görə də İran ətrafında baş verən bütün hadisələr bizim üçün son dərəcə mühümdür.

Moskvada İranın nüvə probleminə dair danışıqlara gəldikdə, deyə bilərəm ki, bu danışıqlar heç də asan getmir. Lakin biz ümidvarıq ki, müsbət nəticələrə nail ola bilərik. Biz nikbinliyimizi itirmirik. İran nümayəndələri öz siyasi rəhbərliyi ilə məsləhətləşə bilməsi üçün hazırda danışıqlar prosesində fasilə götürülmüşdür. Biz güman edirik ki, böhrandan çıxmağın Rusiya tərəfindən təklif olunmuş variantı – uranın saflaşdırılması üçün Rusiya ərazisində müştərək müəssisə yaradılması ilə bağlı variant iranlı tərəfdaşlarımız üçün tamamilə məqbuldur və ondan bu problemin həlli üçün bir vasitə kimi istifadə edilə bilər.

Təkrar edirəm, biz İran nümayəndələrinin son reaksiyasını gözləyirik və müsbət nəticə olacağına ümid bəsləyirik. Biz bu prosesin bütün iştirakçıları ilə daim əlaqə saxlayırıq. Mən həm avropalı, həm də amerikalı həmkarlarımızı nəzərdə tuturam. Bu məsələ barədə daha heç nə əlavə edə bilmərəm.

Rusiya–Gürcüstan münasibətlərinə gəldikdə, gürcülərin halına çox acıyıram, çox. Onlar çox gözəl və bizə yaxın xalqdır, indi ağır vəziyyətdədir, çünki Gürcüstan böyük iqtisadi çətinliklər keçirir. Sosial sahədə olduqca böyük problemlər var, əhalinin həyat səviyyəsi çox aşağıdır. Halbuki Sovet İttifaqı dövründə Gürcüstanda yaşayanların maddi rifah halı ölkə üzrə olduğundan, orta hesabla, yüksək idi. Əlbəttə, bu gün belə tənəzzül, şübhəsiz, çətinliklə yaşanır, həm də sadəcə, adamlar əziyyət çəkirlər, əhalinin böyük hissəsi ciddi çətinliklər içindədir. Əlbəttə, bu, təkcə ölkənin özündə deyil, ümumən regionda da vəziyyətin sabitliyini pozur. Əgər kimsə düşünürsə ki, bu cür məsələləri öz xalqının diqqətini ancaq xarici düşmənlər axtarmağa yönəltməklə həll etmək olar, zənnimcə, bu, səhv yoldur. Əlbəttə, diqqəti bir müddətə yayındırmaq olar, amma iqtisadi, sosial xarakterli problemləri həll etmək lazım gələcəkdir. Əlbəttə, bunu öz qonşuları ilə təkcə dialoqun gedişində deyil, həm də məsələn, Rusiya–Azərbaycan timsalında baş verdiyi kimi, müsbət əməkdaşlığın gedişində etmək daha yaxşıdır.

Bütün mürəkkəbliklərə baxmayaraq, biz tamamilə nikbinik, güman edirik ki, keçmiş Sovet İttifaqından miras qalan problemlər çətin olsa da, onları həll etmək mümkündür. Biz bu birgə işdə iştirak etməyə hazırıq. Lakin keçmiş Sovet İttifaqını onda nə vaxtsa baş vermiş hadisələrə görə tənqid edərkən, bəlkə də haqlı tənqid edərkən, gərək özün də belə səhvlərə yol verməyəsən. Bir vaxtlar Rusiyanı xalqların həbsxanası adlandırırdılar. Postsovet məkanında yaradılmış dövlət qurumları, dövlətlər gərək Sovet İttifaqının taleyini təkrar etməsinlər və vaxtilə Sovet İttifaqının yaşadığı mənfi təcrübəni təkrarlamağa çalışmasınlar. Razılığa gəlməyi və kompromisləri axtarmağı bacarmaq lazımdır. Bu, mürəkkəb prosesdir, lakin problemlərin həllinin başqa yolu yoxdur.

O ki qaldı Rusiya–Gürcüstan münasibətlərinə, son dövrün bütün çətinliklərinə baxmayaraq, müsbət meyllər çoxdur. Biz görürük ki, Gürcüstanda, o cümlədən Gürcüstan rəhbərliyində

Rusiya ilə münasibətləri inkişaf etdirmək istəyən qüvvələr var. Mən prezident Mixeil Nikolozoviç Saakaşvilini də nəzərdə tuturam. Ümid edirik ki, bu müsbət meyllər üstün gələcəkdir.

**S u a l**: **Mənim sualım Rusiya prezidentinədir. Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi həm Azərbaycan, həm də bütün region üçün ən ağrılı məsələ olaraq qalır. Cənubi Qafqazda sülh və sabitlik yaranması Rusiyanın da xeyrinədir. Rusiya bu münaqişənin həllini necə tezləşdirə bilər?**

**V l a d i m i r P u t i n:** Mən bu suala Gürcüstanla münasibətlərimiz baxımından cavab verməyə çalışdım. Yenə də deyə bilərəm, Rusiya, həqiqətən çox istəyir ki, postsovet məkanındakı bütün münaqişələr həll edilsin. Əgər kimsə deyirsə ki, bu belə deyil, o ya yanılır, yaxud da xalqlarımızı aldatmağa çalışır. Bizim Azərbaycanla əmtəə dövriyyəmiz iki il ərzində ikiqat artaraq, 1 milyard dollara çatmışdır. Dağlıq Qarabağ münaqişəsi olmasaydı, yəqin ki, bu rəqəm 5 milyard dollara çatardı. Postsovet məkanındakı münaqişələr bunun qarşısını alır. Bizim əməkdaşlıq istiqamətlərimiz saysız-hesabsızdır – energetika, özü də təkcə qaz və neft, elektroenergetika deyil, həm də nəqliyyat, rabitə, maşınqayırma, kənd təsərrüfatı, təhlükəsizlik sahəsində məsələlərin birgə həlli. Qarşılıqlı əlaqələrin bizim üçün olduqca vacib və zəruri olan çox istiqamətləri var. Münaqişələr qarşımızı kəsir, buna görə də çox istəyirik ki, onlar həll olunsun. Lakin biz razılığa gəlməyə çalışan tərəflərdən kiməsə hər hansı təzyiq göstərməyi özümüz üçün tamamilə istisna edirik. Biz yalnız vasitəçi və əldə olunmuş razılaşmaların təminatçısı rolunu yerinə yetirə bilərik. Biz bu gün Azərbaycan prezidenti ilə və dünən onun evində bu problem barədə kifayət qədər çox və ətraflı danışdıq. Bir daha təkrar etmək istəyirəm ki, zənnimcə, o haqlıdır – bütün çətinliklərə baxmayaraq, bu problemi həll etmək imkanları var. Biz hər cür kömək göstərəcəyik ki, bu münaqişə həll olunsun və keçmişdə qalsın. Deyəsən, mümkün olan hər şeyi dedim, çünki təfərrüata varmaq hələ tezdir.

**S u a l: Mənim sualım hər iki liderədir. Ticarət-iqtisadi münasibətlərin, ilk növbədə, energetika sahəsində əməkdaşlığın perspektivlərini necə qiymətləndirirsiniz?**

**İ l h a m Ə l i y e v:** Bütövlükdə iqtisadi müstəvidə əlaqələrimiz çox dinamik inkişaf edir və bu rəqəm dəfələrlə səslənmişdir. Biz iki il ərzində əmtəə dövriyyəsini ikiqat artırmağa nail olmuşuq. Ölkələrimiz arasında iqtisadi münasibətlərin indiki vəziyyəti göstərir ki, əlbəttə bu, son hədd deyildir. Bu, yalnız başlanğıcdır, birinci mərhələdir.

Zənnimcə, bu gün işə başlayan Rusiya–Azərbaycan biznes forumu əməkdaşlıq üçün yeni perspektivlər açacaqdır. Əminəm ki, bu əməkdaşlıq çoxplanlı olacaqdır. Rusiya şirkətlərinin sərmayə layihələrinin perspektivlərini böyük ümidlə izləyirik. Eyni zamanda, hazırda dünyada yaxşı nüfuzu olan və rəqabətədavamlı məhsul istehsal edən Rusiya şirkətləri, yəqin ki, Azərbaycanda öz məhsullarını satacaq tərəfdaşlar, şirkətlər kimi daha geniş təmsil olunacaqdır. Artıq deyildiyi kimi, ölkələrimizin iqtisadi potensialı çox sürətlə artır. Azərbaycanın ödəniş qabiliyyəti bu gün heç kimdə şübhə doğurmur. Əlbəttə, gələcəkdə iqtisadi islahatlarımız dərinləşdikcə, Azərbaycan Rusiya istehsalı olan yüksək keyfiyyətli məhsulları daha böyük həcmdə alacaqdır.

Energetika sahəsində əməkdaşlığımız ənənəvi xarakter daşıyır. Yəqin ki, əməkdaşlığımız elə bu sahədən başlanmışdır. Hazırda Azərbaycan Rusiyadan 4,5 milyard kubmetr qaz alır, Rusiya ərazisi ilə ildə 3 milyon tondan çox neft nəql edir. Rusiya prezidentinin dediyi kimi, enerji sistemlərimiz paralel rejimdə işləyir və elektrik enerjisinin qarşılıqlı nəqli bu gün təsərrüfat məsələlərini çox operativ həll etməyə kömək edir. Gələcəkdə bu sahəyə daha böyük diqqət yetirmək planlaşdırılır, çünki elektrik enerjisi axınını operativ tənzimləmək imkanları vəsaitə qənaət etmək üçün böyük üstünlüklər verir. Ona görə də bu istiqamətdə əməkdaşlıq ənənəvi, etibarlı, uzunmüddətlidir ki, bu da vacibdir.

Biz bütün istiqamətlərdə münasibətləri elə qurmağa çalışırıq ki, bunun uzunmüddətli perspektivləri olsun. Bu münasibətlər uzunmüddətli olduqda, sərmayədarlar da, həmin layihələrin potensial iştirakçıları da özlərini daha rahat hiss edirlər. Bu bizim vəzifəmizdir. Biznesin ölkəyə gəlməsi üçün sərmayədarlarda əminlik olmalıdır ki, bu biznes müdafiə olunacaq, yaxşı fayda verəcəkdir. Belə olan halda hamı bundan qazanacaqdır.

Bu gün biz iqtisadi əməkdaşlığın çox geniş dairəsini müzakirə etdik. Əgər 5-6 il əvvəl iqtisadi əməkdaşlıqdan danışanda neft-qaz sənayesi nəzərdə tutulurdusa, hazırda bu əməkdaşlığın dairəsi çox genişdir. Ona görə də şübhə etmirəm ki, ölkələrimiz arasında iqtisadi əməkdaşlığı fəal inkişaf etdirəcəyik. Bu gün biz ikiqat artırılmış əmtəə dövriyyəsini yaxın gələcəkdə də ikiqat artırmaq imkanlarını yarızarafat-yarıgerçək müzakirə etmişik.

**V l a d i m i r P u t i n:** Mən iqtisadi sahədə qarşılıqlı fəaliyyətimizin perspektivlərinə verilən qiymətlə tam razıyam. İlk növbədə, əlbəttə, inkişaf sürətinə, dünyada ən yüksək sürətinə görə, ikincisi isə iqtisadiyyatının bütün potensialına görə Azərbaycan Rusiya üçün bu sahədə ən öncül, ən maraqlı tərəfdaşlardan biridir. Artıq dediyim kimi, biz bir sıra istiqamətlərdə əməkdaşlıq edirik. Əgər energetikadan başlasam, deyə bilərəm ki, biz Azərbaycana xeyli elektrik enerjisi satırıq, ancaq ondan da elektrik enerjisi alırıq. Çünki bəzi regionlarda bu cür mübadilə iqtisadi cəhətdən ölkə daxilindəki istehlakdan daha səmərəlidir.

Biz üçtərəfli formatda İranla bu məsələləri həll edirik. Düşünürəm ki, burada yaxşı perspektivlər var. Energetika sahəsinə Rusiyanın sərmayələri baxımından biz iki istiqamət görürük. Birincisi, Azərbaycandakı mövcud energetika obyektlərinin bərpası, ikincisi, yenilərinin – o cümlədən Sumqayıt rayonunda – tikintisi.

Neft və qaza gəldikdə isə, biz Azərbaycana xeyli miqdarda qaz satırıq. Gələcəkdə Azərbaycan üçün zəruri olan

karbohidrogen məhsullarının satışı sahəsində əməkdaşlığın davam etdiriləcəyini istisna etmirik. Biz nəzərə alırıq ki, birgə fəaliyyətimizi davam etdirəcəyik və bəzi şirkətlərimiz artıq Azərbaycan bazarında təmsil olunmuşdur. Mən hazırda iki yerdə işləyən «LUKoyl»u nəzərdə tuturam. Əlbəttə ki, o öz fəaliyyətini genişləndirmək istəyir və hiss edirik ki, azərbaycanlı tərəfdaşlar bizim sahibkarların biznes təşəbbüslərini dəstəkləyirlər. Biz gələcəkdə də bu dəstəyə ümid bəsləyirik. Digər şirkətlər də burada baş verənləri diqqətlə izləyir. Əlbəttə, bizi xeyli dərəcədə ölkədəki iqtisadi, siyasi sabitlik cəlb edir.

Lakin energetika bizi maraqlandıran yeganə fəaliyyət sahəsi deyildir. Siz yəqin ki, «Rusal» şirkətinin burada metallurgiya sahəsinə iri sərmayələr qoymaq cəhdlərindən xəbərdarsınız. Əminəm ki, bu, təkcə ikitərəfli əməkdaşlığın inkişafına deyil, həm də Azərbaycan iqtisadiyyatının yüksəlişinə kömək edəcək perspektivli, maraqlı və miqyaslı layihələrdən biridir. Nəqliyyat, kənd təsərrüfatı, ümumən maşınqayırma sahələri perspektivlidir. Azərbaycanlı tərəfdaşlar bizim bir sıra gəmiqayırma müəssisələrinə yaxşı sifarişlər vermişlər. Əminəm ki, onlar kifayət qədər səmərəli olacaqdır. Lakin maşınqayırma ilə bağlı digər istiqamətlərdə də çoxlu perspektivli məqsədlər var və biz təkbaşına deyil, birgə işləsək, bunlara daha səmərəli nail ola bilərik.

Artıq dediyim kimi, biz maliyyə sahəsində əməkdaşlığı vacib hesab edirik. Hazırda bəzi banklarımız Azərbaycanda fəaliyyəti genişləndirməklə bağlı, azərbaycanlı tərəfdaşları ilə danışıqlar aparırlar. Bütün bunlar strateji tərəfdaşlıq adlandırdığımız məsələləri həyata keçirmək üçün yaxşı və möhkəm baza yaradacaqdır.

**S u a l: Mənim sualım hər iki prezidentədir. Ölkələrimizdə yaşayan diasporlara Azərbaycan–Rusiya münasibətlərinin daha da möhkəmlənməsi yolunda nə kimi rol verilir və Siz Azərbaycandakı rusların və Rusiyadakı azərbaycanlıların vəziyyətini necə qiymətləndirirsiniz?**

**İ l h a m   Ə l i y e v:** Əlbəttə ki, bu məsələ danışıqlarımız çərçivəsində müzakirə olundu və məmnuniyyətlə qeyd etdik ki, bu sahədəki vəziyyət bizi sevindirir. Diasporlar da ikitərəfli münasibətlərin mühüm amillərindən biridir. Əlbəttə ki, dövlətlərarası münasibətlərin ümumi fonu Azərbaycanda rusların və Rusiyada azərbaycanlıların özlərini nə dərəcədə rahat və yaxşı hiss etməsindən də asılıdır. Deməliyəm ki, bu istiqamətdə bizim aramızda tam qarşılıqlı anlaşma var. Biz ölkələrimizin ictimai-siyasi, iqtisadi həyatına diasporların fəal cəlb edilməsini Rusiya ilə Azərbaycan arasında daha sıx inteqrasiyanın mühüm amili kimi qiymətləndiririk. Rusiyada çoxlu azərbaycanlı yaşayır və hesab edirik ki, bu, normal haldır, çünki dünyada sərhədlərin açıldığı, hərəkət sərbəstliyi bizim hamımız üçün anlaşıqlı və ümumbəşəri dəyərlərin, insan hüquqlarının çox mühüm tərkib hissəsi olduğu indiki vaxtda bu amil, əlbəttə, çox mühüm rol oynayır. Mən həmişə deyirəm ki, Rusiyada azərbaycanlıların vəziyyəti pis olsaydı, onlar orada yaşamazdılar. Əgər onlar orada yaşayır, işləyirlərsə, deməli, vəziyyətləri yaxşıdır. Deməli, bu, indiki mərhələdə onları qane edir.

Hələ 70-ci illərdə Azərbaycanın rəhbəri Heydər Əliyev hər il məqsədyönlü şəkildə min nəfərədək gənc azərbaycanlını oxumaq üçün Sovet İttifaqının aparıcı ali məktəblərinə göndərirdi. Əlbəttə, bunlar əsasən, Moskvanın, Sankt-Peterburqun və digər Rusiya şəhərlərinin ali məktəbləri idi. İndi bu adamlar Azərbaycanın inkişafı naminə çox fəal işləyirlər, yəni, bu biliklər, təcrübə, erudisiya, əlbəttə ki, əlaqələr çox işlərdə kömək edir. Eyni hal bu gün də baş verir. Azərbaycandan bir çox gənclər Rusiya ali məktəblərinə təhsil almağa gedirlər, çoxları oraya işləməyə gedir. Bu, normal prosesdir, normal haldır. Əlbəttə ki, ölkələrimizin müvafiq orqanları bu prosesin tənzimlənməsini dəqiq izləməlidirlər ki, hamı özünü yaxşı və rahat hiss etsin.

Bu, ölkəmizdəki ruslara və rusdilli əhaliyə də aiddir. Onlar cəmiyyətimizin, dövlətimizin bir hissəsidir. Azərbaycanda bu

adamlara həmişə böyük hörmət və diqqətlə yanaşmışlar. Biz bu gün də iftixarla deyə bilərik ki, Azərbaycanda milli ədavətin – xüsusən də insanlara milli və ya dini əlamətə görə münasibət -də – heç bir, hətta ən kiçik təzahürü belə yoxdur.

Bizi etnik və dini dözümlülük fərqləndirir. Bu bizim sərvətimizdir, bizim gücümüz bundadır. Çünki bu, dünyəvi Azərbaycanın inkişafı üçün daha möhkəm təməl yaradır. Biz bununla fəxr edirik. Milliyyətindən, dinindən asılı olmayaraq hər bir vətəndaşın yerli əhali ilə bərabər hüquqları var. Həm işlə təmin olunmaq baxımından, həm də təhsil baxımından. Azərbaycanda, demək olar ki, bütün dövlət ali təhsil müəssisələrində rus dilində tədris var. Yəni bu ona görə qorunub saxlanmışdır ki, Azərbaycan dilini bilməyən və ya yaxşı bilməyən insanlar əziyyət çəkməsinlər. Ona görə də hamı üçün eyni şərait yaradılmışdır və bunu qiymətləndirmək lazımdır. Biz bunu qiymətləndiririk, Rusiya bunu qiymətləndirir, odur ki, bu amil dövlətlərarası münasibətlərdə çox vacibdir, insanlar ölkələrimiz arasında baş verən proseslərə çox həssaslıqla yanaşırlar.

90-cı illərdə, Rusiya ilə Azərbaycan arasında münasibətlər bir çox amillər üzündən pisləşdiyi vaxt diasporların buna necə dəqiq və həssaslıqla münasibət bildirdiyini biz Azərbaycanda çox yaxşı xatırlayırıq. Nə qədər narahatlıq var idi. Ölkədən çıxıb getmək kimi arzuolunmaz meyllər başlanmışdı. Hazırda bu yoxdur. 90-cı illərin ortalarında gedənlər indi Azərbaycana qayıdırlar. Özü də yerli millətdən olmayan adamlar. İkitərəfli münasibətlərimizin indiki səviyyəsi həm də diasporların rahat yaşamasına kömək edir. Bura onların evidir, onların Vətənidir. Odur ki, bu amillər bir-birindən asılıdır. Bir tərəfdən, ikitərəfli münasibətlərin inkişafı, onların keyfiyyətcə yeni səviyyəsi insanların yaşaması üçün yaxşı şərait yaradır. Digər tərəfdən, azərbaycanlıların Rusiyada və rusların Azərbaycanda normal həyatı ikitərəfli əlaqələrə təsir göstərir. Biz bunu qiymətləndiririk və hesab edirik ki, bu, ikitərəfli əlaqələrimizin uğurlu inkişafının çox mühüm amilidir.

**V l a d i m i r  P u t i n:** Biz bu və ya digər ölkədə Rusiyaya, ruslara, rusdilli əhaliyə münasibət barədə mühakimə yürüdərkən əsas götürdüyümüz ən mühüm amillərdən biri rus dilinə münasibətdir. İndi biz belə hesab edirik və əminəm ki, perspektivdə də belə olacaqdır. Çünki məhz rus dilinə münasibət bu və ya digər ölkənin tarixi perspektivdə Rusiyaya münasibətinin mahiyyətini müəyyən edir.

Müəyyənləşdirilir ki, strateji tərəfdaşlıqda bu element var, yaxud yoxdur? Yoxsa münasibətlərimiz cari vəzifələrin həlli üçün nəzərdə tutulan hansısa faktiki, ötəri xarakter daşıyır? Azərbaycanla münasibətlər barəsində məmnunluqla demək istəyirəm ki, biz hesab edirik, burada rus dilinə münasibət dövlət səviyyəsindədir, çox yaxşıdır. Burada rus dili məktəblərdə, məişətdə, ümumən, humanitar sahələrdə dəstəklənir və çox ümidvarıq ki, Heydər Əliyeviç Əliyevin formalaşdırdığı və onun oğlunun, Azərbaycan Respublikasının indiki prezidentinin həyata keçirdiyi bu siyasət saxlanılacaqdır.

Rusiyadakı Azərbaycan diasporuna gəldikdə, o, olduqca çoxsaylıdır. Yəqin ki, ən böyük diaspordur. Bizim hesablamalarımıza görə, əgər indi Azərbaycanda 200 min nəfərədək rus varsa, Rusiyada 2,5 milyon azərbaycanlı yaşayır. Onların təxminən 620 min nəfəri Rusiya Federasiyasının vətəndaşıdır, qalanları isə Azərbaycan vətəndaşlarıdır. Əlbəttə, bu, dövlətlərimiz arasında qarşılıqlı əlaqənin canlı körpüsüdür. Çünki indi Rusiyada yaşayan adamlar Azərbaycandakı ailələri və yaxınları ilə birbaşa və sıx əlaqə saxlayırlar. Onlar Rusiyada işləyərək və Rusiya iqtisadiyyatının inkişafına öz töhfəsini verərək, Azərbaycandakı yaxın adamlarına, öz ailələrinə kömək edirlər, ilk növbədə, maddi cəhətdən. Biz yaxşı başa düşür və onu əsas tuturuq ki, bütünlükdə dövlətlərarası əlaqələrin inkişafı, zənnimizcə, indiki şəraitdə mütərəqqi rol oynayan bu amili nəzərə almaya bilməz. Biz buna gələcəkdə də belə yanaşacağıq.

**BOLQARISTAN RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB GEORGİ PİRVANOVA**

Hörmətli cənab Prezident!

Bolqarıstan Respublikasının milli bayramı münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Əminəm ki, ölkələrimiz arasındakı dostluq münasibətləri, qarşılıqlı faydalı əlaqələrimiz və əməkdaşlığımız xalqlarımızın mənafeləri naminə bundan sonra da inkişaf edəcək və möhkəmlənəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Bolqarıstan xalqına xoşbəxtlik və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2006-cı il*

**QANA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB CON KOFİ AGİYEKUM KUFUORA**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı səmimi-qəlbdən təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Qana arasında təşəkkül tapan dostluq münasibətləri daim xalqlarımızın rifahına xidmət edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, xalqınıza əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2006-cı il*

**RUSİYA FEDERASİYASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB VLADİMİR PUTİNƏ**

Hörmətli Vladimir Vladimiroviç!

Moskvada bazarın damının uçması nəticəsində çoxsaylı insan tələfatı barədə xəbər məni dərindən kədərləndirdi. Sizə, həlak olanların doğmalarına və yaxınlarına dərin hüznlə başsağlığı verir, zərərçəkənlərin tezliklə sağalmasını arzulayıram.

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *23 fevral 2006-cı il*

## İSVEÇRƏNİN FEDERAL XARİCİ İŞLƏR NAZİRİ MİŞLİN KALMİ-REYİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*23 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında İsveçrənin Federal Xarici İşlər naziri Mişlin Kalmi-Reyin rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan ilə İsveçrə arasında münasibətlərin uğurla inkişaf etdiyini qeyd etdi. O, Azərbaycan Respublikasının İsveçrədə səfirliyinin fəaliyyət göstərməsinin ikitərəfli əlaqələrimizə verilən önəmin göstəricisi olduğunu vurğuladı. Prezident İlham Əliyev iki dövlət arasında müxtəlif sahələrdə əməkdaşlığın bundan sonra da inkişaf edəcəyinə ümidvar olduğunu bildirdi.*

*Mişlin Kalmi-Rey Azərbaycana ilk dəfə səfər etdiyini və bu səfər zamanı ölkələrimiz arasında bir sıra sənədlərin imzalanacağını xatırlatdı. O, İsveçrə ilə Azərbaycan arasındakı əlaqələrin son zamanlar genişləndiyini bildirərək, əməkdaşlığımızın bundan sonra da inkişaf etdiriləcəyinə əminliyini ifadə etdi.*

## RUSİYA FEDERASİYASININ ULYANOVSK VİLAYƏTİNİN QUBERNATORU SERGEY MOROZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*23 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 23-də Prezident sarayında Rusiya Federasiyasının Ulyanovsk vilayətinin qubernatoru Sergey Morozovun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Rusiya Federasiyasının Prezidenti Vladimir Putinin Azərbaycana səfərinin uğurla keçdiyini, bu səfər zamanı qarşılıqlı maraq doğuran məsələlərin geniş müzakirə olunduğunu vurğuladı. Prezident İlham Əliyev ölkəmizin Rusiyanın ayrı-ayrı regionları ilə əlaqələrinin inkişafının Azərbaycan-–Rusiya ikitərəfli münasibətlərinə öz töhfəsini verdiyini qeyd etdi. O, Ulyanovsk vilayəti ilə əməkdaşlığın bundan sonra da fəal surətdə həyata keçiriləcəyinə ümidvar olduğunu bildirdi.*

*Sergey Morozov hələ 1970-ci ildə Ulyanovsk vilayətində Azərbaycanın mədəniyyət günlərinin keçirildiyini, xalqımızın ümummilli lideri Heydər Əliyevin bu tədbirdə iştirak etdiyini məmnunluqla xatırlatdı. Qonaq hazırda Ulyanovsk vilayətində 37 min azərbaycanlının yaşadığını bildirdi və Azərbaycan ilə əlaqələrin bundan sonra da genişlənəcəyinə əminliyini vurğuladı.*

## TÜRKİYƏNİN NTV TELEVİZİYASINA MÜSAHİBƏ

*24 fevral 2006-cı il*

**M ü x b i r: Axşamınız xeyir, hörmətli tamaşaçılar! Proqramımızın buğünkü qonağı Türkiyənin çox yaxşı tanıdığı dövlət adamı, Azərbaycan prezidenti İlham Əliyevdir. Xoş gəlmisiniz, hörmətli Əliyev. Atanızın bir sözü var, deyirdi ki, Türkiyə ilə Azərbaycan bir millət, iki dövlətdir. Vaxt keçdikcə bu fikir tarixlə, dostluq və qardaşlıqla, işbirliyi və iqtisadiyyatla davam etdi. Proqramımıza Sizin dövrünüzdə Türkiyə–Azərbaycan əlaqələrini dəyərləndirməklə başlaya bilərikmi?**

**C a v a b:** Bəli, bu söz bizim hamımız üçün çox əzizdir və Türkiyə–Azərbaycan münasibətlərini əks etdirən gözəl bir ifadədir, ürəkdən gələn bir duyğudur. Bu gün də bizim iki ölkə bir-biri ilə sıx əməkdaşlığı davam etdirir. Bizim qardaşlığımız, birliyimiz, birgə fəaliyyətimiz, dostluğumuz həm ölkələrimiz üçün, xalqlarımız üçün, həm də geniş mənada bölgə üçün çox böyük əhəmiyyət kəsb edir. Türkiyə–Azərbaycan münasibətləri bütün istiqamətlərdə uğurla inkişaf edir. Bizim siyasi müstəvidə çox yaxın dostluq, qardaşlıq münasibətlərimiz var, iqtisadi sahədə böyük layihələri həyata keçiririk. O cümlədən enerji sahəsində. Bildiyiniz kimi, Azərbaycanın təbii sərvətləri Türkiyə üzərindən dünya bazarlarına çatdırılacaqdır. Həmçinin mədəni sahədə bizim əlaqələrimiz çox böyük əhəmiyyət kəsb edir. Yəni bütün sahələrdə Azərbaycanda bu siyasət davam etdirilir və əminəm ki, gələcəkdə də davam etdiriləcəkdir.

**S u a l: Bakı–Ceyhan mövzusu xüsusilə 2000-ci illərdə çox aktual idi və Bakıdan ilk neftin nəqli 2005-ci ilin may ayında baş tutdu. Gözlənilir ki, neft mart ayında Ceyhana**

**çatacaqdır. Əvvəl bunun dekabrda çatacağından danışılırdı. Bu gecikmə prosesin bir davamıdır, yoxsa neftin nəqlinin sürəti ilə əlaqədardır? Bu barədə Sizdən bir məlumat ala bilərikmi?**

**C a v a b:** Təbii ki, müəyyən gecikmə oldu. Amma ola bilsin ki, bu da təbiidir, çünki bu çox böyük, nəhəng bir layihədir. Yəni üç ölkəni birləşdirən, iki dənizi birləşdirən transmilli bir layihədir və onun tikintisi, mühəndis işləri də çox mürəkkəbdir. Biz də çox istəyirdik ki, bu daha da tezliklə həyata keçsin. Ancaq indi son tamamlama işləri gedir. Siz qeyd etdiniz, keçən ilin may ayında Bakıda böyük bir mərasim keçirilmiş və ilk neft kəmərə vurulmuşdur. İndi neft artıq Türkiyəyə çatıb və Türkiyədə son tamamlama işləri aparılır. Ümid edirəm ki, yaxın zamanda biz Ceyhanda kəmərin açılışını qeyd edəcəyik.

**S u a l : Enerji mövzusu çox aktualdır, xüsusilə İraq və Yaxın Şərqdə sabitliyin olmaması və başqa hadisələr neftin qiymətinə çox təsir edir. Avropa təbii qaz sıxıntısı çəkdi, təbii qazın qiyməti də məlumdur. Bu baxımdan Azərbaycan olaraq, Sizin gələcəyə baxışınız necədir, Siz bu bazarlardan nə gözləyirsiniz?**

**C a v a b:** Biz 90-cı illərin ortalarında Azərbaycanda bu sahədə işlərimizi başlayanda, fərz edə bilməzdik ki, on ildən sonra nələr olacaqdır. Bizim əsas məqsədimiz ondan ibarət idi ki, Xəzər dənizinin nefti və qazı çıxarılsın, dünya bazarlarına çatdırılsın və beləliklə, Azərbaycan öz iqtisadiyyatını möhkəmləndirsin. Bizim ulu öndərimiz Heydər Əliyevin neft strategiyası məhz bundan ibarət olmuşdur. Son on il ərzində dünyada və bölgədə çoxlu dəyişikliklər, hadisələr baş verdi, regionda təhlükəsizlik məsələləri daha da həssas oldu. Eyni zamanda, Azərbaycanın uğurlu neft strategiyası öz bəhrəsini verdi. Bakı–Tbilisi–Ceyhan neft kəməri bəziləri üçün bir əfsanə kimi görünürdü. Amma biz bunu gerçəyə çevirdik. Eyni zamanda, biz Bakı–Tbilisi–Ərzurum qaz kəmərini başlayanda, sanki bu, ikinci planda idi, yəni Bakı–Tbilisi–Ceyhanın kölgə-

sində idi. Amma indi Avropada yaşanan qaz problemi onu sanki ön plana çıxarır.

Beləliklə, indiki şəraitdə Azərbaycanın təbii sərvətləri Avropa üçün böyük rol oynamağa başlamışdır. Biz bundan çox məharətlə istifadə etməliyik. Biz Azərbaycan qazını Gürcütsan, Türkiyə ərazisi ilə Avropaya çatdırmaq niyyətindəyik və bildiyiniz kimi, bu ilin sonuna qədər qaz kəməri də istismara verilməlidir. Beləliklə, Azərbaycan Türkiyə üçün, Avropa ölkələri üçün çox etibarlı, təbii qaz hasil edən, onu nəql edən ölkəyə çevriləcəkdir. Avropa istehlakçıları da bunu istəyirlər. Çünki onlar da qazın müxtəlif mənbələrdən alınmasına maraqlıdırlar, bir mənbədən asılı olmaq istəmirlər. Bu asılılıq olanda, bəzi xoşagəlməz hadisələr ortaya çıxır. Ona görə Azərbaycanın önəmi artacaqdır. İlk növbədə bizim təbii sərvətlərimizə görə. Digər tərəfdən, gələcəkdə Orta Asiyadan mümkün olan yeni layihələr, yəni oranın təbii sərvətlərinin Azərbaycan ərazisi ilə Türkiyəyə və Avropaya nəql edilməsi. Bütün bunlar Azərbaycanı regionda çox önəmli ölkəyə çevirəcəkdir. Biz də bundan istifadə etməliyik ki, ölkəmizi daha da zənginləşdirək, daha da möhkəmləndirək və qüdrətli dövlət yaradaq.

**S u a l: Müstəqillik qazandıqdan sonra Azərbaycan çox sürətlə irəlilədi. Xüsusilə Qafqaz çərçivəsində baxdıqda, rifah səviyyəsini, beynəlxalq əməkdaşlığı və enerji mənbələrini nəzərə alsaq, həqiqətən bir sıçrayış olduğunu söyləyə bilərik. Bəzi qərb mənbələrində bunlar qeyd edilir, digər tərəfdən, ölkənin daxili işlərində və demokratikləşmədə bəzi çətinliklər olduğu da bildirilir. Sizin bu sahədə bir sıra səylərinizin olduğunu da bilirik. Sizcə, bu anlamda Azərbaycanın problemləri nədir, necə həll oluna bilər və nələr edilir?**

**C a v a b:** Yenə də qeyd etmək istəyirəm ki, Azərbaycan son on il ərzində bölgə üçün və deyə bilərəm ki, dünya üçün önəmli ölkəyə çevrilibdir. Bizim coğrafi vəziyyətimiz, geosiyasi durum, Azərbaycandan keçən nəhəng boru xətləri ölkəmizin

önəmini artırır. Xüsusilə son zamanlar dünyada təbii sərvətlər məsələsində müəyyən ixtilaflar ortaya çıxır, müəyən ziddiyyətlər meydana çıxır. Bəzi ölkələr öz maraqlarını təmin etmək üçün müəyyən yollarla bu sərvətlərə daha da yaxın olmaq istəyirlər. Yaxud da ki, özləri üçün daha sərfəli istiqamətdə nəql edilməsində maraqlıdırlar. Ona görə də şübhəsiz, Azərbaycana olan diqqət artır və diqqət artdıqca, təbii ki, müəyyən təzyiqlər də artır. Biz buna hazır olmalıyıq. Biz bu bölgədə yaşayırıq və bölgədə gedən proseslər, təbii ki, bizə də müəyyən dərəcədə təsir göstərir. Amma bütün bunlara baxmayaraq, biz öz işimizi müstəqil şəkildə aparırıq. Azərbaycanın xarici siyasəti çox açıq, şəffaf və müstəqildir. Biz heç kimdən asılı deyilik, heç bir təsirə məruz qala bilmərik, çünki özümüzü sığortalamaq üçün bizim kifayət qədər imkanlarımız var.

Dünyada gedən proseslər, siyasi islahatlar, iqtisadi islahatlar, əlbəttə ki, Azərbaycanda da öz əksini tapır. Mən qeyd etmək istəyirəm ki, son iki il ərzində biz daha çox qeyri-neft sektoruna diqqət göstərmişik. Azərbaycanda son iki il ərzində 340 min yeni iş yeri açılmışdır. Bölgələrdə inkişaf gedir, yeni elektrik stansiyaları, yollar, xəstəxanalar, məktəblər tikilibdir. Azərbaycanda 2005-ci ildə təxminən 300-dən çox məktəb tikilibdir. Yəni bütün bunlar Azərbaycanı daha da zənginləşdirir. Mən tam əminəm ki, həm iqtisadi, həm də siyasi islahatlar paralel şəkildə getməlidir. İki il bundan əvvəl Azərbaycanda yoxsulluq səviyyəsində yaşayan insanlar 49 faiz idi. Bu il isə 29 faiz olubdur. Bunu nə qədər azaltsaq, bizim siyasi islahatlarımız da bir o qədər sürətlə gedəcəkdir. Çünki bunlar bir-biri ilə bağlı olan məsələlərdir.

Azərbaycan beş ildir ki, Avropa Şurasının üzvüdür. Bizim bütün qanunvericiliyimiz Avropa standartlarına uyğun şəkildə tərtib olunubdur. Eyni zamanda, ölkədə gedən siyasi islahatlar bizi daha da möhkəmləndirir. Siyasi islahatları biz gərək çox möhkəm iqtisadi zəmin üzərində quraq. Əks təqdirdə onun səmərəsi olmayacaqdır. İnsanlar daha da yaxşı yaşamalıdırlar,

rifah qalxmalıdır. Təbii ki, insanlar daha yaxşı yaşayanda siyasi proseslərə daha da sürətlə qoşulacaqlar. Deyə bilərəm ki, indi Azərbaycanda siyasi münasibətlər cəmiyyətin diqqətini cəlb etmir. Ölkəmizin əhalisinin yalnız 3-4 faizi hər hansı siyasi partiyanın üzvüdür. İnsanları daha çox iqtisadi və sosial məsələlər maraqlandırır.

**S u a l: Bir az öncə xarici əlaqələrdən bəhs etdiniz. Dağlıq Qarabağ problemi həll edilməyibdir. Bilirik ki, bu yaxınlarda Siz Parisdə Ermənistan prezidenti Robert Köçəryan ilə görüşdünüz, başqa ölkələrin nümayəndələri də vardı. Ancaq zənnimcə, bu görüşdə arzu edilən razılaşma zəmininə yaxınlaşmaq mümkün olmadı. Siz bu danışıqlarla bağlı nə düşünürsünüz? Daha yaxşı ola bilərdimi, nə üçün olmadı?**

**C a v a b:** Bilirsiniz, Ermənistan–Azərbaycan danışıqları uzun müddətdir ki, davam etdirilir. Müəyyən mərhələlərdə tərəflər hansısa bir sazişə yaxınlaşırdılar, amma ondan sonra hansısa bir hadisə baş verirdi və buna imkan yaranmırdı. 1990-cı illərdə danışıqlarda müəyyən irəliləyiş olmuşdu. Sonra Ermənistan parlamentində terror aktı törədildi və demək olar ki, danışıqlar pozuldu. Ondan əvvəl Ermənistanın keçmiş prezidenti müəyyən reallığı əks etdirən, beynəlxalq hüquq normalarını və o cümlədən Ermənistanın milli maraqlarını özündə əks etdirən proqramla çıxış etmişdi. Ondan sonra orada çevriliş oldu, o devrildi, yenidən danışıqlar pozuldu. Yəni müəyyən mərhələdə tərəflər yaxınlaşanda nə isə baş verir və nəticə əldə olunmur.

Son iki il ərzində danışıqlar yeni formatda keçirilir. Yəni bu, Praqa prosesi adlandırılan bir çərçivədir və bütövlükdə sülh sazişinin bağlanması üçün çox müsbət bir zəmindir. Çünki Praqa prosesi məsələnin mərhələli yolla həll edilməsini təmin edir. Azərbaycanın mövqeyi dəyişməz olaraq qalır, Dağlıq Qarabağ Azərbaycan torpağıdır və Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən, Birləşmiş Millətlər Təşkilatı tərəfindən tanınır və münaqişə yalnız və yalnız beynəlxalq

hüquq normaları çərçivəsində öz həllini tapa bilər. Dağlıq Qarabağda yaşayan ermənilərin təhlükəsizliyi, onların rahat yaşaması təmin oluna bilər. Ancaq Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu deyildir. Biz heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına razılıq verə bilmərik. Bizim mövqeyimiz açıqdır, bunu dəfələrlə bəyan etmişik və o cümlədən Ermənistan prezidenti ilə keçirdiyim bir neçə danışıqlarda da bunu bəyan etmişəm. Bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrlərinə də bəyan etmişəm. Yəni bizim mövqeyimizdə heç bir dəyişiklik yoxdur. Sadəcə olaraq, Ermənistanın qeyri-konsrtuktiv mövqeyi, onların iddiaları imkan vermir ki, biz sülh sazişinə nail olaq. Mən ümid edirəm ki, dünyada, bölgədə gedən proseslər, Azərbaycanın güclənən mövqeyi, Azərbaycanın iqtisadi potensialı, o cümlədən hərbi potensialı danışıqlarda bizim mövqeyimizi daha da gücləndirəcəkdir.

Bununla yanaşı, artıq beynəlxalq vəziyyət də dəyişir. Son bir il ərzində bir neçə müsbət hadisə baş verdi. İlk növbədə, Avropa Şurası bu məsələyə dair qətnamə qəbul etmişdir və orada Ermənistan rəsmən işğalçı dövlət kimi tanınır. Həmin qətnamədə Ermənistan tərəfindən Azərbaycana qarşı aparılan etnik təmizləmə siyasəti də pislənilir.

Bundan sonra ATƏT-in faktaraşdırıcı missiyası bölgəyə, işğal olunmuş ərazilərə gəlmişdi və orada ermənilərin qanunsuz məskunlaşmasını aşkar etmişdi. Orada 10 mindən çox, bəlkə də 15 min erməni qanunsuz məskunlaşdırılmışdır. Bu da bütün beynəlxalq normalara ziddir. Avropa Şurasının bu məsələyə yanaşması, ATƏT-in gördüyü işlər, Birləşmiş Millətlər Təşkilatının bu məsələni öz gündəliyinə salması – bütün bunlar müsbət hadisələrdir, irəliləyişlərdir. Amma bunlar imkan vermir ki, biz danışıqlarda sülh sazişinə nail olaq.

Azərbaycan öz mövqeyindən geri çəkilməyəcəkdir. Bizim işimiz haqq işidir. Mən şübhə etmirəm ki, biz işğal olunmuş torpaqları azad edəcəyik.

**S u a l: Deyilənə görə, Dağlıq Qarabağda referendum keçirilməsi tələbi də vardır. Amma belə bir amil də var ki, çoxlu azərbaycanlı oranı tərk etməli olmuşdur. Təbii ki, Siz referendum tələbini qəbul etmirsiniz. Çünki ermənilər bu məsələni başqa bir səmtə yönəltməyə çalışırlar. Elədirmi?**

**C a v a b:** Bilirsiniz, Azərbaycanın Konstitusiyasına görə, referendum yalnız bütün ölkədə keçirilə bilər. Ölkənin hər hansı bir bölgəsində keçirilə bilməz. Ona görə də, əlbəttə, biz bu məsələni həm beynəlxalq normalar əsasında, eyni zamanda Azərbaycan Konstitusiyası çərçivəsində həll edə bilərik. Birincisi, Azərbaycanın Konstitusiyasını heç kim poza bilməz. İkincisi, təklif edilmiş sənədlərdə mərhələlər müəyyən olunmuşdur. İlk növbədə, Dağlıq Qarabağın ətrafında yerləşən bütün torpaqlar azad olunmalıdır və Ermənistanın işğalçı qüvvələri oradan çıxmalıdır. Ondan sonra Dağlıq Qarabağda yaşayan ermənilərin və işğal olunmuş torpaqlara qayıdacaq azərbaycanlıların təhlükəsizliyi təmin edilməlidir. Sülhməramlı qüvvələrin orada yerləşdirilməsi müzakirə olunmuşdur. Azərbaycan və Ermənistan rəhbərliyi gələcək perspektivdə Dağlıq Qarabağın statusunun müəyyən olunması barədə danışıqlar aparacaqdır. Eyni zamanda, Dağlıq Qarabağda yaşayan və münaqişəyə qədər həmin torpaqlarda yaşamış insanlar da – yəni, ermənilər, azərbaycanlılar – təbii ki, bu prosesə qoşulacaqlar. Çünki Ermənistan öz silahlı qüvvələrini işğal olunmuş torpaqlardan çıxartsa, ondan sonra Dağlıq Qarabağda yaşayan ermənilər, oraya qayıdacaq azərbaycanlılar da Dağlıq Qarabağın statusunun müəyyən olunmasında bizimlə bərabər iştirak edəcəklər. Bu hansı formada olacaq, onu gələcək göstərər.

Bilirsiniz, referendum haqqında bütövlükdə çox danışılır. Ancaq referendumun prinsipləri var. Referendum hansı prinsip əsasında keçirilə bilər? Məsələn, bilirsiniz ki, Kiprdə iki icma səs verirdi, yəni orada sayca üstünlük rol oynamırdı. Bir icma demişdi «bəli», o birisi demişdi «xeyr». Ancaq ondan sonra heç

nə olmadı, yəni qərar qəbul edilmədi. Məsələ təxirə salındı və sonra nə vaxtsa baxılacaqdır. Bu prinsip də mövcuddur.

Amma bütün bunlarla yanaşı, Azərbaycanın ərazi bütövlüyü heç vaxt danışıqlar mövzusu olmayacaqdır. Biz heç bir yolla razılıq vermərik ki, Dağlıq Qarabağ Azərbaycandan ayrılsın, çünki bu bizim torpağımızdır, bizim ulu babalarımız orada yaşayıblar. Ermənilər Dağlıq Qarabağa qonaq kimi gəlmişdilər. Çar Rusiyası XIX əsrin birinci yarısında onları oraya köçürmüşdü. 1978-ci ildə Dağlıq Qarabağda bunu əks etdirən bir abidə də ucaldılmışdır. Abidə ermənilərin Dağlıq Qarabağa gəlişinin 150 illiyini əks etdirirdi. Sonra, yəni müharibə başlayanda, ermənilər təbii ki, onu vurub dağıtdılar ki, izi qalmasın. Amma onlar oraya qonaq kimi gəlmişdilər. Azərbaycanlılar onları, necə deyərlər, qonaq kimi qəbul etmişdilər. Amma çoxluq əldə etdikdən sonra, Sovet İttifaqının dağılma ərəfəsində onlar bu separatçı hərəkətlərə başladılar. Bu hallar təkcə orada deyil, başqa yerlərdə də var. İndi qonşuluqda da bu meyllər var. Ermənilər nə vaxt ki, üstünlük, çoxluq təşkil edirlər, dərhal iddia əmələ gəlir. Baxın, dünyada nə qədər ölkə var və hər bir ölkədə milli azlıq var. Bu o demək deyil ki, milli azlıq yaşadığı torpağı ölkədən parçalayıb ayırsın. Əgər belədirsə, onda gərək Kaliforniyada, Fransada, Gürcüstanda, Rusiyanın Krasnodar vilayətində və başqa yerlərdə erməni dövlətləri yaradılsın. Ermənilər hər yerdə yaşayırlar. Azərbaycanda başqa milli azlıqlar da yaşayır, ancaq heç kim separatçılıqla məşğul olmur. Heç kim yaşadığı torpağı ayırıb özəl bir dövlət yaratmaq istəmir. Xüsusilə, ikinci erməni dövləti yaradıla bilməz. Yəni bütün bunlar reallıqdır, faktlardır. Bir daha deyirəm, beynəlxalq hüquq normaları, haqq-ədalət bizim tərəfimizdədir. Biz elə etməliyik ki, bütün başqa amillər də – iqtisadi, hərbi, siyasi, diplomatik və sair – bizim tərəfimizdə olsun. Ondan sonra biz istədiyimizə nail olacağıq.

**S u a l: Münaqişənin istədiyiniz şəkildə, sülh yolu ilə həll olunması üçün həm Sizin düşündüyünüz, həm də Avropanın düşündüyü müddət varmı?**

**C a v a b:** Əlbəttə, biz istəyirik ki, bu münaqişə tezliklə öz həllini tapsın. Çünki Azərbaycan qaçqın-köçkünləri əziyyət çəkirlər. Onlar öz torpaqlarını itiriblər. Düzdür, biz indi onları yeni şəraitlə təmin edirik. Biz onlar üçün yeni evlər, şəhərciklər tikirik. Amma onlar əziyyət çəkirlər. Ona görə də biz çox istəyirik ki, bu məsələ tezliklə həll olunsun. Amma nəyin bahasına?

Yəni fikirləşməliyik ki, tələsik, bizi qane etməyən hansısa sazişə, yaxud təklifə razılıq verək, yoxsa bir az gözləyib daha da əlverişli nəticəyə nail olaq? Mən ikincinin tərəfdarıyam. Bəziləri deyir ki, zaman heç kimin xeyrinə deyildir. Bu, mübahisəli tezisdir. Mən bununla razı ola bilmərəm. Baxın, Ermənistanın və Azərbaycanın vəziyyəti son iki il ərzində necə dəyişibdir. İki il bundan əvvəl bizim büdcəmizdə elə bir böyük fərq yox idi. Bu gün Azərbaycanın büdcəsi Ermənistanın büdcəsindən 4 dəfə böyükdür. Gələn il 6 dəfə böyük olacaqdır. 2008-ci ildə, mənim birinci dönəmim başa çatanda daha da – indi rəqəmləri demək istəmirəm – böyük olacaqdır. Ermənistan iqtisadi cəhətdən, hərbi cəhətdən Azərbaycan ilə rəqabət aparmaq iqtidarında deyildir. Eyni zamanda regionda gedən proseslər, regional əməkdaşlıq, Azərbaycan, Gürcüstan, Türkiyəni birləşdirən bütün enerji layihələri, Orta Asiyanı Avropa ilə birləşdirən nəqliyyat dəhlizləri – onların hamısı Ermənistandan yan keçir. Nə üçün? Çünki biz ona icazə vermirik. Biz imkan verə bilmərik ki, işğalçı dövlət gəlsin, burada bizimlə hansısa regional əməkdaşlıqda iştirak etsin. Regional əməkdaşlıq Ermənistansız mümkündür, amma Azərbaycansız mümkün deyildir. Məqsədimizə nail olmaq üçün biz gərək bütün tədbirləri görək. Mən bu siyasəti aparıram və çalışacağam ki, tezliklə biz bu məsələni həll edək.

**S u a l : İnşallah! Prezidentimiz Əhməd Necdət Sezərin Azərbaycana səfəri olacaqdı. Təəssüf ki, ölkələrimizdəki hava şəraiti bu səfəri təxirə salmışdır. Bu səfərin tarixi dəqiqləşdirildimi, yoxsa daha sonraya gözlənilir?**

**C a v a b :** Biz hörmətli prezidenti hər an gözləyirik. Telefonla danışdıq, hava imkan vermədi, həm burada, həm Türkiyədə hava şəraiti elə idi ki, təəssüf ki, bu səfər baş tutmadı. Amma ümid edirəm ki, yaxın zamanlarda hörmətli prezident səfər edəcəkdir. Biz artıq öz təkliflərimizi verdik. Türkiyə tərəfini qane edən istənilən tarixdə biz prezidenti qəbul etməyə çox məmnun olacağıq, bu bizim üçün böyük şərəfdir. Bizim şəxsi münasibətlərimiz də çox yaxşıdır, çox səmimidir və ümid edirəm ki, səfər tezliklə baş tutacaqdır.

**S u a l: Azərbaycanda türk şirkətləri də çox fəaldır. İnşaatda, enerji sektorunda və başqa sahələrdə. Hətta keçən il türk iş adamı Əhməd Erentok burada Azərbaycanın beynəlxalq biznes ictimaiyyətinə inteqrasiyasına köməyinə görə mükafat da aldı. Buradakı türk iş adamları ilə azərbaycanlı iş adamları arasındakı əlaqələrin inkişafı barədə nə düşünürsünüz? Bu, istədiyiniz səviyyədədirmi və gələcəkdə nələr gözləyirsiniz?**

**C a v a b :** İşlər yaxşı gedir. Bir müddət əvvəl burada Türkiyə–Azərbaycan biznes forumu keçirilmişdir. Mən də açılışda iştirak etmişdim. Bu forum bir daha göstərdi ki, bizim iqtisadi, biznes əlaqələrimiz çox yüksək səviyyədədir. Azərbaycanda türk iş adamlarına həmişə böyük hörmət var, böyük məhəbbət var. Uzun illərdir ki, onlar burada işləyirlər. Mən dəfələrlə onlarla görüşmüşəm, görüşürəm və görürəm ki, onlar da burada özlərini rahat hiss edirlər. Yəni Azərbaycan Türkiyədən gələnlər üçün ikinci vətəndir. Necə ki, bizdən Türkiyəyə gedənlər orada özlərini vətəndəki kimi hiss edirlər.

İndi Azərbaycanda biznes üçün çox gözəl şərait var. Bizim bazarımız inkişaf edir, ölkəmiz möhkəmlənir və iqtisadiyyatda liberallaşma çox geniş vüsət alıbdır. Baxmayaraq ki, neft bizim əsas iqtisadi amilimizdir və bu, dövlətin inhisarındadır, ümumi daxili məhsulun çəkisində, yəni iqtisadiyyatın çəkisində özəl sektorun faizi 75 faizdir. Bu o deməkdir ki, Azərbaycanda bazar iqtisadiyyatı çox geniş yayılıbdır. Heç bir məhdudiyyət qoyulmur, əksinə, biz çalışırıq ki, daha çox işlər görülsün,

sərmayələr qoyulsun. Keçən il Azərbaycana təxminən 4 milyard dollar sərmayə qoyulubdur. Adambaşına düşən sərmayə qoyuluşu Azərbaycanda ən yüksək həddədir. Eyni zamanda, 2005-ci ildə bizim iqtisadiyyatımız 26 faizdən çox artıbdır. Yəni bu, dünyada rekorddur. Dünyada belə bir artım heç yerdə yoxdur. Sənaye məhsulu istehsalı Azərbaycanda 2005-ci ildə 33,5 faiz artıbdır. Bu da görünməmiş bir nəticədir.

Bizim iqtisadi islahatlarımız uğurla gedir və əlbəttə ki, həm yerli iş adamları, həm də Türkiyədən gələn iş adamları bundan istifadə edirlər. Mən bilirəm ki, son 1 il ərzində buraya Türkiyədən gələn iş adamlarının sayı çox artıbdır. Burada iş görmək çox faydalıdır. Çünki burada çoxlu imkanlar var, iqtisadiyyatın yeni sektorları yaranır, yeni bazarlar açılır. Əminəm ki, Türkiyədən gələn iş adamları burada yaxşı işləyəcəklər və həm özləri yaxşı iqtisadi imkanlara nail olacaqlar, həm də Azərbaycanın inkişafında böyük rol oynayacaqlar və bizim qardaşlığımız daha da möhkəmlənəcəkdir.

**S u a l: Azərbaycanın iqtisadiyyatı çox irəli gedibdir. Amma araşdırmalarım nəticəsində onu da öyrəndim ki, sovet dövründən qalan və indi işləməyən müəssisələr vardır. Onlarla bağlı bir planınız varmı?**

**C a v a b:** Qeyd etdiyim kimi, indi bizim əsas diqqətimiz qeyri-neft sektorunun inkişafına yönəldilibdir və əlbəttə ki, sənaye potensialının möhkəmlənməsi gündəlikdədir. Çünki gec-tez neft tükənir. 40–50 ildən sonra, əlbəttə ki, Azərbaycanda bu hasilat azalacaqdır. Biz bu vəziyyəti nə ilə qarşılayacağıq: güclü iqtisadiyyatla, güclü sənaye potensialı ilə. Ona görə indi hökumətdə sənaye inkişafı proqramı hazırlanır: əgər imkan varsa, əvvəlki, Sovet İttifaqı vaxtından qalan müəssisələri canlandırmaq, bəlkə də onlardan daha da faydalı yeni müəssisələr yaratmaq, yeni sənaye istiqamətlərini müəyyən etmək. Sovet İttifaqı vaxtında çox iri müəssisələr yaranıbdır. O müəssisələr ki, bütün Sovet İttifaqında onların bazarı vardı. Bu gün Azərbaycanın buna ehtiyacı yoxdur. Biz ilk növbədə öz

ehtiyaclarımızı təmin etməliyik, bir də ki, birja məhsulları istehsal etməliyik ki, onları satanda problemlə üzləşməyək. Çünki bilirsiniz ki, indi dünyada rəqabət gedir. Dünyada – Avropada, başqa yerlərdə çoxlu istehsalçılar, onların keyfiyyətli məhsulları vardır. Onlarla rəqabət aparmaq çox çətindir. Biz elə məhsul istehsal etməliyik ki, onun satışında problem olmasın. Ona görə indi sənaye inkişafı proqramı hazırlanır. Mən şəxsən yaradılacaq yeni, müasir sənaye infrastrukturuna daha çox üstünlük verirəm, nəinki keçmişdən qalan müəssisələrin bərpasına.

**M ü x b i r: Hörmətli Prezident, vaxt ayırdığınız üçün çox təşəkkür edirik, çox maraqlı söhbət oldu.**

**I l h a m Ə l i y e v:** Sağ olun.Təşəkkür edirəm.

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ BAKININ VƏ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ* NİTQ

*Prezident sarayı*

*27 fevral 2006-cı il*

Bizim iqtisadiyyatımız dünyada ən yüksək sürətlə inkişaf edir. Bunu artıq hamı görür və dünyanın ən mötəbər beynəlxalq maliyyə qurumları da bunu təsdiqləyirlər. Azərbaycanda aparılan iqtisadi islahatlar öz bəhrəsini verməkdədir. Qısa müddət ərzində iqtisadi potensialın möhkəmlənməsində böyük işlər görülübdür. Bu eyni zamanda, ölkədə olan sosial problemlərin həllinə də kömək edir. Keçən il ümumi daxili məhsulun 26 faiz səviyyəsinə çatması, yoxsulluq şəraitində yaşayanların sayının 49 faizdən 29 faizə azalması, əlbəttə ki, görülən işlərin ən gözəl nəticələridir, bunun əyani sübutudur.

Bildiyiniz kimi, iki il bundan əvvəl regionların sosial-iqtisadi inkişafı Dövlət Proqramı tərtib edilmişdir və o, uğurla icra edilir. Bir müddət bundan əvvəl proqramın ikiillik yekunları müzakirə olunmuşdur. Biz bir daha gördük ki, iki il ərzində regionların inkişafında böyük dəyişikliklər baş vermişdir. 340 min iş yerinin açılması, əlbəttə ki, regionlarda işsizliyin aradan

---

* Мцшавирядя Бакы Шящяр Иъра Щакимиййятинин башчысы Щаъыбала Абуталыбов, Тящсил назири Мисир Мярданов, Сящиййя назири Огтай Ширялийев, «Азяренержи» СЪ-нин президенти Етибар Пирвердийев вя «Азяригаз» СЪ-нин сядри Ялихан Мяликов чыхыш етмишляр.

qaldırılmasına xidmət edir. Eyni zamanda, yeni sənaye müəssisələrinin işə salınması da qeyri-neft sektorunun inkişafında bizə böyük dayaqdır. Beləliklə, ölkəmizin iqtisadiyyatı hərtərəfli inkişaf edir.

Artıq bu məsələ regionlarda öz həllini tapır və bildiyiniz kimi, beşillik proqram uğurla icra edilir. Artıq bunun iki ili arxadadır. Qarşıdan gələn illərdə proqramın qalan hissəsi də icra olunacaqdır. Buna şübhə yoxdur. Çünki birinci iki ilin uğurlu nəticələri bunu deməyə əsas verir.

Beləliklə, 2008-ci ildə proqram başa çatanda, şübhəsiz ki, bizim regionlarımız çox sürətlə inkişaf edəcək və beləliklə, Azərbaycanın davamlı inkişafı təmin olunacaqdır. Ondan sonrakı mərhələlərdə yəqin ki, yeni məsələlər ortaya çıxacaq və biz onları da həll edəcəyik.

Belə geniş proqramın icra olunması, əlbəttə ki, bütün strukturların yüksək fəaliyyətini tələb edir. Mən bütövlükdə məmnunam ki, bu məsələyə dair fikir birliyi var və bütün strukturlar proqramın icrasında fəal iştirak edirlər.

Eyni zamanda, bildiyiniz kimi, Bakı şəhərinin ətraf qəsəbələrinin də problemləri kifayət qədərdir və onların həlli yolları, əlbəttə ki, bizi düşündürür. Bu məqsədlə bir müddət bundan əvvəl şəhər icra hakimiyyətində mənim təşəbbüsümlə geniş müşavirə keçirildi, qəsəbələrin nümayəndələri, ağsaqqalları o müşavirədə iştirak etdilər. Mənim tərəfimdən vəzifə qoyuldu ki, qısa müddət ərzində Bakıətrafı qəsəbələrin inkişaf proqramı hazırlansın və biz bunu təsdiq edək, icra edək. Hökumətə, Bakı Şəhər İcra Hakimiyyətinə və aidiyyəti orqanlara tapşırıq verilmişdir. Artıq proqram hazırdır. Biz bu gün onu müzakirə və təsdiq edəcəyik.

Bakıətrafı qəsəbələrin problemləri tezliklə həll olunmalıdır.Burada 47 qəsəbə var və onlarda 700 min insan yaşayır. Bu həm əhali baxımından, həm də ərazi baxımından çox böyük bir sahədir və əlbəttə ki, diqqətdən kənarda qalmamalıdır. Mən hesab edirəm ki, proqram çox dəqiqdir. Orada bütün məsələlər öz əksini tapır, proqramda konkret məsələlər və onların həlli

yolları qoyulubdur. Beləliklə, çalışmalıyıq ki, iki il ərzində – 2006–2007-ci illərdə bu proqram icra olunsun və bütün sosial və iqtisadi problemlər öz həllini tapsın.

Bizim iş üslubumuz belədir: problemi müəyyən etmək, onun həlli üçün lazım olan yolları müəyyən etmək, axtarmaq və tədbirlər planı hazırlamaq. Bunu etmək üçün artıq bizim maliyyə imkanlarımız da var. Bildiyiniz kimi, Azərbaycanın büdcəsi ildə 70 faiz artır. Bu ilin büdcəsi 4 milyard dollardır. Yəqin ki, bir müddət bundan sonra biz büdcəyə dəyişikliklər edəcəyik. Çünki bizim iqtisadiyyatımız sürətlə artır və əlbəttə ki, 2007-ci ildə də büdcəmiz artacaqdır. Bütün bunlar bizə imkan verir ki, bu əlavə vəsaitləri lazım olan yerlərə yönəldək və Azərbaycanın iqtisadiyyatı inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar.

## YEKUN NİTQİ

Beləliklə, bu proqramın qəbul edilməsi və icrası, əminəm ki, şəhərətrafı qəsəbələrin inkişafında böyük irəliləyişə gətirib çıxaracaqdır.

Deməli, 2 il ərzində qəsəbələrdə 66 yardımçı stansiyanın, 1 553,43 milə ötürücü xətlərin tikintisi nəzərdə tutulur. 53 ATS tikilməli, 26 poçt müəssisəsi, 320 kilometr qaz xətləri təmir olunmalı və yenidən çəkilməlidir. 4 idman kompleksi tikilməlidir, 8 idman salonu və stadionların bərpası nəzərdə tutulur. 14 kitabxana təmir olunacaq, 5 musiqi məktəbi yenidən qurulacaq, 57 ümumtəhsil məktəb bərpa ediləcək və yenidən tikiləcək, 26 uşaq bağçası, 10 xəstəxana təmir olunacaq, 10 xəstəxana yenidən tikiləcək, 8 poliklinika yenidən tikiləcəkdir. 160 kilometr su və kanalizasiya xətlərinin, 750 kilometr qəsəbədaxili və magistral yolların təmiri və tikintisi nəzərdə tutulubdur. Yəni bunlar proqramın əsas göstəriciləridir.

Əlbəttə, bu rəqəmlər özlüyündə göstərir ki, bu çox geniş proqramdır. Mən əminəm ki, proqram başa çatanda bütün qəsəbələrdə böyük inkişaf olacaqdır. Biz bunu istəyirik, buna

çalışırıq. Əlbəttə, proqramın icrası təxminən 2 ilə nəzərdə tutulubdur. Ancaq ola bilsin ki, hansısa yeni məsələ, hansısa yeni bir təklif ortaya çıxsın. Biz buna operativ şəkildə baxmalıyıq.

Bütün qurumlar çox səmərəli işləməlidirlər. Əlbəttə, şəhər icra hakimiyyəti, eyni zamanda, bütün aidiyyəti qurumlar. Hökumət ümumi əlaqələndirmə işlərini aparmalıdır ki, biz istədiyimizə nail olaq. Mən əminəm ki, buna nail olacağıq. Çünki konkret, real proqram var. Haradasa 3 aydır bu proqram hazırlanırdı. Biz meriyada müşavirəni noyabr ayında keçirdik. Ondan sonra, demək olar ki, 4 ay keçir. Yəni demək istəyirəm ki, çox geniş və müfəssəl bir proqramdır. Bunun maliyyə mənbələri də var. Heç kim deyə bilməyəcək ki, imkan olmadı, vəsait ayrılmadı, ya təxirə salındı. Bu olmamalıdır. Əgər deyiriksə iki ilə, deməli, iki ilə başa çatmalıdır, vəsait də var. Ona görə işləyin, proqramı icra edin və vaxtaşırı mənə məruzə edin.

Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIZILCA VƏ MƏXMƏRƏYƏ QARŞI MİLLİ İMMUNLAŞDIRMA KAMPANİYASINA BAŞLANMASI MƏRASİMİNDƏ

*Nizami rayonu, 1 saylı uşaq evi*

*27 fevral 2006-cı il*

*Fevralın 27-də Azərbaycan prezidenti İlham Əliyev Bakının Nizami rayonundakı 1 saylı uşaq evində qızılca və məxmərəyə qarşı milli immunlaşdırma kampaniyasına başlanması mərasimində iştirak etmişdir.*

*Kampaniya fevralın 27-dən martın 12-dək keçiriləcək və ölkəmizin 7–23 yaşlı 3 milyonadək vətəndaşını, Bakıda isə əlavə olaraq 23–29 yaşlı gəncləri əhatə edəcəkdir.*

*Bu proqramın iştirakçıları – Ümumdünya Səhiyyə Təşkilatı, YUNİSEF, ABŞ Beynəlxalq İnkişaf Agentliyi, Vişnevskaya–Rostropoviç Fondu və Azərbaycanın Səhiyyə Nazirliyi arasında qarşılıqlı anlaşma haqqında memorandum keçən ilin iyulunda imzalanmışdır. Qafqaz regionunda ilk dəfə həyata keçirilən layihənin ümumi dəyəri 3,1 milyon dollardır.*

*Dünya şöhrətli musiqiçi, maestro Mstislav Rostropoviç prezident İlham Əliyevi uşaq evinin girəcəyində səmimiyyətlə qarşıladı.*

*Sonra uşaq evinin akt salonunda Azərbaycanın gənc nəslinin sağlamlığı üçün çox böyük əhəmiyyəti olan bu kampaniyanın başlanmasına həsr olunmuş mərasim keçirildi.*

*Vişnevskaya–Rostropoviç Fondunun başçısı Mstislav Rostropoviç və Azərbaycan prezidenti İlham Əliyev mərasimdə çıxış etdilər.*

## Mstislav Rostropoviçin çıxışı

Çox hörmətli Prezident, əziz dost!

Xanımlar və cənablar!

Əziz uşaqlar!

Bu gün, 2006-cı il fevralın 27-si Azərbaycan uşaqlarının qızılca və məxmərəyə qarşı kütləvi peyvəndlənməsinin ilk günüdür. Bu kampaniyanın dörd təşkilatçısı var. Onlar Vişnevskaya–Rostropoviç Fondu, YUNİSEF, Ümumdünya Səhiyyə Təşkilatı və respublikanın Səhiyyə Nazirliyidir. Demək lazımdır ki, bu peyvəndləmə kampaniyasını bir il ərzində təşkil etmişlər.

Amerika hökuməti bu işdə bizə kömək göstərmişdir. Buna görə mərasimdə iştirak edən Amerika səfiri cənab Rino Harniş vasitəsilə ona təşəkkürümüzü bildiririk.

Kampaniyamızdan məqsəd bu gündən başlayaraq iki həftə ərzində 7 yaşından 29 yaşınadək insanları qızılca və məxmərəyə qarşı peyvəndləməkdir. Biz peyvəndləmə kampaniyasını martın 12-də başa çatdırmağı planlaşdırırıq. Bu kampaniya Azərbaycanda qızılca və məxmərəyin kökünü kəsmək uğrunda mübarizəni səmərə ilə aparmağa imkan verəcəkdir.

Demək istəyirəm ki, Azərbaycanın 3 milyon sakini peyvəndləndikdən sonra bizim Vişnevskaya–Rostropoviç Fondu ehtiyacı olanlara normal rejimdə qızılcaya, məxmərək və xənazirə qarşı peyvəndləməni davam etdirəcəkdir. Bu, fondumuzun ölkədə 1 və 6 yaşlı bütün uşaqlar üçün artıq neçə ildən bəri gördüyü işdir.

Mən Azərbaycanın bütün tibb işçilərinə bu çox yaxşı ideyanın – gözəl ölkə olan Azərbaycanın uşaqlarının, sakinlərinin sağlamlığının qorunmasına yönəldilmiş ikihəftəlik peyvəndləmə kampaniyasının həyata keçirilməsində uğurlar arzulayıram.

Çox sağ olun!

## Azərbaycan prezidenti İlham Əliyevin çıxışı

Əziz Slava!

Əziz dostlar!

Hörmətli xanımlar və cənablar!

Bu gün çox əlamətdar və gözəl bir gündür – bütün dünyada və əlbəttə, Slavanın Vətənində, Azərbaycanda artıq neçə illərdir işləyən Vişnevskaya–Rostropoviç Fondu uşaqların xəstələnməməsi üçün çox mühüm, çox nəcib bir missiyanı – uşaqların peyvəndlənməsi missiyasını həyata keçirir.

Uşaqların xəstələnməməsi üçün, sağlam böyüməsi üçün, özlərini yaxşı hiss etməsi üçün, bizim gələcəyimiz olan yeni nəslin həm fiziki, həm də mənəvi cəhətdən sağlam olması üçün dünyada bundan da nəcib missiya ola bilməz. Bakıda belə tədbirlər artıq neçənci ildir keçirilir. Bu yardımı alan uşaqların sayı ildən-ilə artır. İndiki kampaniya Azərbaycanda, demək olar, hamını əhatə edir. Bu, ürəkdən, Slavanın öz Vətəninə bəslədiyi hisslərdən gələn çox böyük zəhmətdir.

Slava Rostropoviç dünya şöhrətli musiqiçidir. Ancaq o həm də dünya şöhrətli şəxsiyyət, ictimai xadimdir. O, dərin səmimiliyi, açıqlığı, prinsipiallığı, cəsarəti ilə fərqlənən insandır. Bu gün, ölkələrdə söz azadlığının, plüralizmin, demokratiyanın olduğu dövrdə cəsarətli olmaq, hər hansı mövzuda danışmaq asandır. Ancaq Sovet İttifaqında totalitarizmin ən ağır illərində – 1970-ci illərdə demokratiyanın, söz azadlığının müdafiəsi uğrunda, ədalətsizliyə qarşı, öz simasını, mənliyini saxlamaq, kiminsə buyuruğu ilə oturub-durmamaq və təhqir olunmamaq imkanı uğrunda öz səsini açıq şəkildə ucaltmış Slava kimi insanlar çox az idi. Bu ona çox baha başa gəldi. Lakin o, bütün hücumlara, bütün təhqirlərə davam gətirdi. Ona qarşı çıxanlar bu gün tarix üçün yoxdurlar, onlar ancaq mənfi personajlar kimi mövcuddurlar. Slava isə bu gün xeyirxahlıq yaratmaqda davam edən insan kimi dünyada məşhurdur. Bu, keyfiyyətlərin – əsl mübariz insana xas çox böyük iradi qüvvə,

prinsipiallıq, cəsurluq, eyni zamanda, mərhəmət, xeyirxahlıq, insanlıq kimi keyfiyyətlərin çox nadir tərzdə təcəssümüdür.

Slava gözəl dostdur. Bunu Slavanın dostu olmaq xoşbəxtliyinə nəsib olmuş bütün adamlar deyər. Həqiqətən, bu həm çox böyük məmnunluq, həm çox böyük məktəbdir. Uşaqlar belə insanların timsalında vicdanlı və həqiqətpərəst olmaq ruhunda tərbiyə edilməli və Vətəni, öz xalqını sevməyi, eyni zamanda, heç vaxt öz prinsiplərinin əleyhinə getməməyi, heç vaxt kiminsə buyuruğu ilə oturub-durmamağı, heç vaxt yaltaqlıq etməməyi öyrənməlidirlər. Bununla yanaşı, Slava həm də son dərəcə istedadlı musiqiçidir. Elə bir musiqiçi ki, onun sənəti on illər ərzində bütün dünyada heyranlıq doğurur.

Biz çox fəxr edirik ki, Slava həmyerlimizdir. Çox xoşbəxtik ki, son dərəcə məşğulluğuna, təqvimində asudə vaxtı olmamasına baxmayaraq, o hər il Bakıya gəlir, konsertlər verir, uşaqlara ustad dərsləri keçir, bizə bu ünsiyyət xoşbəxtliyi günlərini və anlarını bəxş edir.

Bu yaxınlarda görkəmli bəstəkar Şostakoviçin anadan olmasının 100 illiyinə həsr edilmiş festivalın açılışı oldu. Yenə də Slavanın təşəbbüsü ilə Bakı Ümumdünya Şostakoviç Festivalının keçirildiyi ilk şəhər oldu. Bu onun öz Vətəninə, öz həmyerlilərinə məhəbbətinin daha bir təzahürüdür.

Mən bu gün Sizinlə yenidən görüşməyimizə çox şadam. Azərbaycanda gördüyünüz bütün işlərə görə Sizə bir daha təşəkkür etmək, çox uzun ömür, dünyamız naminə işləməyi arzulamaq istəyirəm.

* * *

*Azərbaycan prezidenti İlham Əliyev və maestro Mstislav Rostropoviç üç uşağa peyvənd edilməsinə baxdılar. Həmin gün burada 88 uşağa və 5 müəllimə peyvənd edildi. Prezident İlham Əliyev və Mstislav Rostropoviç uşaqlarla xatirə şəkli çəkdirdilər.*

## MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ AKKAN SUVERİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*27 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 27-də Prezident sarayında Mərmərə Qrupu Strateji və Sosial Araşdırmalar Vəqfinin sədri Akkan Suveri qəbul etmişdir.*

*Görüşdə Azərbaycanla Türkiyə arasında dostluq və qardaşlıq əlaqələrinin bütün sahələrdə uğurla inkişaf etdiyi vurğulanmış, ölkələrimizin müxtəlif qurumları arasında əməkdaşlığın bu münasibətlərin möhkəmlənməsinə öz töhfəsini verdiyi qeyd olunmuşdur.*

## İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN İHSANOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında İslam Konfransı Təşkilatının Baş katibi Ekmələddin İnsanoğlunun rəhbərlik etdiyi nümayəndə heyətini qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycan–İKT əməkdaşlığının hazırkı vəziyyəti və perspektivləri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## BMT-nin İNSAN HÜQUQLARI KOMİSSİYASININ DİN VƏ ƏQİDƏ AZADLIĞI ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ XANIM ASMA CAHANGİR İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*28 fevral 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev fevralın 28-də Prezident sarayında BMT-nin İnsan Hüquqları Komissiyasının din və əqidə azadlığı üzrə xüsusi məruzəçisi xanım Asma Cahangiri qəbul etmişdir.*

*Görüşdə Azərbaycanda din və əqidə azadlığının təmin olunması istiqamətində həyata keçirilən işlər, Azərbaycanın BMT-nin İnsan Hüquqları Komissiyası ilə əməkdaşlığının müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilmişdir.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN AĞDAM, TƏRTƏR VƏ BƏRDƏ RAYONLARINA SƏFƏRİ

*1 mart 2006-cı il*

### Ağdam rayonundakı «Dördyol–1» qəsəbəsi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 1-də Ağdam rayonunun ərazisində yeni salınmış «Dördyol–1» qəsəbəsinə gəldi. Prezident İlham Əliyevi burada Baş nazirin müavini, Dövlətqaçqınkomun sədri Əli Həsənov, Komitənin işçiləri, inşaatçılar və məcburi köçkünlər səmimiyyətlə qarşıladılar.*

*Azərbaycan prezidenti «Dördyol–1» qəsəbəsinin maketi və ümumiyyətlə, 2006-cı ildə burada istifadəyə verilməsi nəzərdə tutulan obyektlərin layihəsi, eləcə də salınacaq digər qəsəbələrin maketləri ilə tanış oldu. Baş nazirin müavini Əli Həsənov bildirdi ki, Ermənistanın hərbi təcavüzü nəticəsində didərgin düşmüş, çadır düşərgələrində və Bərdə rayonu ərazisində yük vaqonlarında müvəqqəti yerləşdirilmiş Ağdam və digər rayonlardan olan məcburi köçkünlərin sosial, mənzil-məişət vəziyyətinin yaxşılaşdırılması və məşğulluğunun təmin edilməsi tədbirləri haqqında prezidentin 2004-cü il 4 fevral tarixli Sərəncamına uyğun olaraq, Məcburi Köçkünlərin Sosial İnkişaf Fondu tərəfindən Ağdam rayonunda 12 və Ağcabədi rayonunda 1 qəsəbənin tikintisi başa çatdırılmaqdadır. Yeni salınan qəsəbələrdə 3860 yaşayış evi, ümumi sahəsi 190 min 632 kvadratmetr olan sosial-texniki infrastruktur obyektləri tikiləcəkdir. Burada, ümumiyyətlə, 2010 şagirdlik 15 məktəb binası, 175 yerlik 5 uşaq bağçası, 10 çarpayılıq xəstəxana, 9 ambulatoriya, feldşer, mama və tibb məntəqəsi, 1120 yerlik 8*

*klub, 7 poçt və rabitə şöbəsi, 10 inzibati bina tikilməsi, eləcə də 113,8 kilometr yol, 139,2 kilometr su xətti və 211,9 kilometrlik hava elektrik xətti çəkilməsi nəzərdə tutulmuşdur.*

*«Dördyol–1» qəsəbəsində 1160 ev tikilib və hazırda son tamamlama işləri aparılır. 13 qəsəbədə tikinti işləri başa çatdırıldıqdan sonra 3860 məcburi köçkün ailəsi təzə evlərə köçürüləcəkdir. Bu ailələrdən 149-u Kəlbəcər, 37-si Laçın rayonlarından, qalanı isə Ağdam rayonundan olan məcburi köçkünlərdir. 2006-cı ilin əvvəlinədək 674 ailə tikintisi başa çatmış dörd qəsəbəyə – «Bənövşələr», «Bənövşələr–1», «Alıbəyli–1», «Alıbəyli–2» qəsəbələrinə köçürülmüşlər. Tam köçürülmə 2006-cı ilin birinci yarısında başa çatdırılacaqdır. Yeni salınan qəsəbələrdə inşaat işlərinə respublikanın 30-dan artıq şəhər və rayonundan təxminən 20 min nəfər cəlb olunmuşdur.*

*Prezident İlham Əliyev Ağdam rayonu ərazisində qəsəbələrin necə yerləşdirilməsi və elektrik enerjisi təchizatı məsələləri ilə maraqlandı, tikintidə çalışan mütəxəssislərlə, o cümlədən Türkiyədən olan inşaatçılarla görüşdü, onların işini yüksək qiymətləndirdi. Dövlətimizin prezidenti İlham Əliyev yeni tikilmiş yaşayış evlərinə baxdı, buradakı şəraitlə maraqlandı. Azərbaycan prezidenti bildirdi ki, tikinti şirkətləri yüksək keyfiyyətlə işləsələr, gələcəkdə onlara sifarişlərin həcmi daha da artacaqdır.*

## Ümummilli lider Heydər Əliyevin abidəsini ziyarət

*Azərbaycan prezidenti İlham Əliyev sonra Quzanlı qəsəbəsinə gələrək xalqımızın ümummilli lideri Heydər Əliyevin Ağdam Rayon İcra Hakimiyyətinin binası qarşısındakı abidəsini ziyarət etmişdir.*

*Dövlətimizin başçısı, xanımı Mehriban Əliyeva və qızı Leyla ulu öndərin mərmərdən ucaldılmış abidəsi önünə gül dəstəsi qoydular.*

*Azərbaycan prezidenti buraya toplaşan sakinlərlə görüşüb səmimi söhbət etdi, onların vəziyyəti ilə maraqlandı. Sakinlər*

*təşəkkür edərək, prezident İlham Əliyevlə fəxr etdiklərini və ulu öndər Heydər Əliyevin layiqli davamçısı kimi ona güvəndiklərini, daxili və xarici siyasətini bundan sonra da dəstəkləyəcəklərini vurğuladılar.*

## Quzanlı Olimpiya İdman Kompleksinin təməlinin qoyulması mərasimi

*Martın 1-də Azərbaycan prezidenti İlham Əliyevin iştirakı ilə Ağdam rayonunun Quzanlı qəsəbəsində Olimpiya İdman Kompleksinin təməlinin qoyulması mərasimi keçirildi.*

## Prezident İlham Əliyev Qarabağ müharibəsi əlili Şakir Əliyevin qonağı olmuşdur

*Martın 1-də Azərbaycan prezidenti İlham Əliyev Ağdam rayonu ərazisində yeni salınmış «Bənövşələr» qəsəbəsində Qarabağ müharibəsi əlili Şakir Əliyevin qonağı olmuşdur.*

*Şakir Əliyev və ailə üzvləri prezident İlham Əliyevi və onun ailə üzvlərini böyük hörmət və ehtiramla qarşıladılar.*

*Əvvəllər «Ərəb–1» çadır şəhərciyində məskunlaşmış, indi isə yeni qəsəbədə rahat mənzillə təmin olunmuş Qarabağ müharibəsi əlili dövlətimizin başçısına müraciətlə dedi ki, cənab Prezident, bizə göstərdiyiniz qayğıya və diqqətə görə Sizə ürəkdən minnətdarıq. Biz düşmənə qarşı mübarizəyə hər an hazırıq və Sizə möhkəm arxayıq.*

*Sonra prezident İlham Əliyev və ailə üzvləri çay süfrəsinə dəvət olundular. Səmimi söhbət zamanı işğal olunmuş torpaqlarımızın azad olunacağına inam ifadə edildi.*

*Prezident İlham Əliyevin adından ev sahibinə hədiyyə təqdim olundu.*

## Ağdam rayonundakı 2 nömrəli orta məktəblə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev daha sonra Ağdam rayonundakı 2 nömrəli orta məktəblə tanış olmuşdur.*

*Burada dövlətimizin başçısını və xanımını böyük hörmətlə, səmimiyyətlə qarşıladılar, onlara gül dəstəsi təqdim olundu.*

*Prezident İlham Əliyev 750 şagirdin təhsil aldığı məktəbin ayrı-ayrı sinif otaqlarına, idman salonuna baxdı, tədris prosesi ilə yaxından maraqlandı, uşaqların yüksək səviyyədə təhsil alması üçün bundan sonra da hər cür şərait yaradılacağını, ümumiyyətlə, ölkəmizdə bu sahədə çox böyük işlər görüldüyünü bildirdi. Xüsusi vurğulandı ki, Azərbaycanda orta məktəblərin kompüterləşdirilməsi üçün proqram təsdiq edilib və o, Təhsil Nazirliyi tərəfindən uğurla icra olunur.*

*Azərbaycan prezidenti və xanımı Mehriban Əliyeva burada ulu öndərin həyat və fəaliyyətini, təhsilə və gəncliyə göstərdiyi qayğını əks etdirən, habelə «Yeni əsr, yeni lider İlham Əliyev» fotoguşəsi ilə də tanış oldular.*

# AĞDAM RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ YENİ SALINMIŞ «BƏNÖVŞƏLƏR» QƏSƏBƏSİNİN TƏNTƏNƏLİ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*1 mart 2006-cı il*

*Martın 1-də Azərbaycan prezidenti İlham Əliyevin Ağdam rayonuna səfəri çərçivəsində yeni salınmış «Bənövşələr» qəsəbəsinin təntənəli açılış mərasimi olmuşdur.*

*Mərasimə toplaşanlar prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük səmimiyyətlə qarşıladılar, hörmət və ehtiramlarını bildirdilər. Onların əllərində ulu öndər Heydər Əliyevin və prezident İlham Əliyevin portretləri, dövlət bayraqları, şüarlar və transparantlar var idi. Azərbaycan prezidenti İlham Əliyev mərasimdə nitq söylədi.*

**İ l h a m  Ə l i y e v**: Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür. Bu gün Ağdamda, Ağdam rayonu ərazisində gözəl şəhərcik istifadəyə verilir. Daha doğrusu, artıq iki aydır ki, insanlar buraya köçürülüblər. Amma bunun rəsmi açılışını biz bu gün edirik. Burada qeyd olundu, prezident seçkiləri ərəfəsində mən öz çıxışlarımda, bəyanatlarımda demişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmamalıdır, qaçqınlar, köçkünlər, uzun illər çətin, ağır şəraitdə yaşayan insanlar yeni evlərə köçürülməlidirlər. Bu gün bu gözəl şəhərciyin açılması və bundan sonra digər şəhərciklərin tikilməsi onu göstərir ki, bizim bütün sözlərimiz həyatda öz əksini tapır.

Azərbaycanın ən ağrılı problemi Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ problemidir. Bundan başqa, bizim ciddi problemimiz yoxdur. Çünki ölkəmiz çox sürətlə inkişaf edir,

dünya miqyasında özünə layiqli yer tutubdur. Bizim mövqelərimiz günü-gündən möhkəmlənir, ölkə iqtisadiyyatı da dünyada analoqu olmayan yüksək sürətlə inkişaf edir. Keçən il bizim iqtisadiyyatımız 26 faiz artmışdır ki, bu da dünyada ən yüksək göstəricidir. Azərbaycanda sosial problemlərin həlli istiqamətində böyük işlər görülür. Maaşlar, pensiyalar qaldırılır və əlbəttə ki, iqtisadi imkanlarımız artdıqca, bu daha da sürətlə aparılacaqdır. Azərbaycanda işsizliyin aradan qaldırılması istiqamətində böyük işlər görülübdür. Regionların inkişafı proqramı uğurla icra edilir, yoxsulluq şəraitində yaşayanların sayı kəskin şəkildə aşağı düşübdür. O cümlədən qaçqınlar, köçkünlər arasında o hədd aşağı düşübdür. Amma yenə də çox yüksək səviyyədədir və biz çalışmalıyıq ki, Azərbaycanda yoxsulluq tamamilə aradan götürülsün. Yəni biz görürük ki, bütün istiqamətlərdə gözəl nəticələr var. Qısa müddət ərzində görülən işlər onu deməyə əsas verir ki, bizim bütün planlarımız həyatda öz əksini tapacaqdır.

Bu gün Əli Həsənov mənə məlumat verdi ki, burada məktəb cəmi bir ay ərzində tikilib istifadəyə verilibdir. O cümlədən bu gözəl şəhərcik bir il ərzində, bəlkə də ondan da az bir vaxtda meydana gəldi. Mən bu gün məcburi köçkün ailəsində idim, şəraitlə tanış olurdum. Gördüm ki, çox gözəl şərait var. Yəni bu onu göstərir ki, qəbul edilmiş qərarlar sürətlə icra edilir və gələcəkdə də bütün problemlər öz həllini tapacaqdır. İlk növbədə qaçqınların, köçkünlərin problemləri, çünki onlar Azərbaycanda ən ağır şəraitdə yaşayan insanlardır.

Xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən 1990-cı illərin ortalarından başlanmış iqtisadi islahatlar siyasəti, neft strategiyası Azərbaycanda yeni şəraitin yaradılmasına imkan verdi. Çünki əgər 90-cı illərin ortalarında Heydər Əliyevin neft strategiyası başlamasaydı, bu gün bu uğurlardan danışmaq mümkün olmazdı. Azərbaycanda 2000-ci ildə yaradılmış Dövlət Neft Fondunun əsas məqsədi də məhz ondan ibarət olmuşdur ki, ən ağır, ən çətin vəziyyətdə yaşayan insanların həyat səviyyəsi yaxşılaşdırılsın. Bilirsiniz ki, 2001-ci

ildə ulu öndərimiz o tarixi qərarı qəbul etdi ki, Neft Fondundan ilkin ödəmələr məhz qaçqın-köçkün qardaşlarımızın, bacılarımızın həyat səviyyəsinin yaxşılaşdırılmasına yönəldilsin. İlk şəhərciklər də salındı və yadımdadır, 2003-cü ildə prezident seçkiləri ərəfəsində Biləsuvarda böyük şəhərciyin açılışında iştirak etmişdim.

Ondan sonrakı illərdə bu siyasət davam etdirilir və bu gün bu gözəl mənzərə, gözəl abadlıq işləri məni çox sevindirir. Buraya gələrkən mən görürdüm ki, nə qədər böyük tikinti işləri gedir, nə qədər insan işlə təmin olunur, yüksək maaş alır. Burada çox fəal iş gedir. Rayonun sosial-iqtisadi inkişafı problemi də öz həllini tapmaqdadır və əlavə vəsait ayrılacaqdır. Ağdam rayonunun inkişafı böyük diqqət tələb edir. Bu gün burada olarkən müasir və gözəl Olimpiya İdman Kompleksinin təməl daşını qoyduq. Yadımdadır ki, haradasa, 6 ay bundan əvvəl Bakıda müşavirədə qaçqın-köçkün bacı-qardaşlarımızın problemlərini müzakirə edərkən, Ağdamın icra hakimiyyəti başçısı müraciət, xahiş etmişdi ki, Ağdamda Olimpiya kompleksi tikilsin. Dərhal mən göstəriş verdim ki, bu məsələ ilə məşğul olsunlar və bu gün onun təməlini qoyduq. Qısa müddət ərzində gözəl Olimpiya kompleksi tikilib istifadəyə veriləcək və yenə gələcəyəm, onun açılışında sizinlə bərabər iştirak edəcəyəm. Yəni bütün müraciətlərə baxılır, bütün qaldırılan məsələlər çox operativ şəkildə öz həllini tapır.

Bilirsiniz, Azərbaycanda regionların inkişafı proqramı artıq iki ildir ki, uğurla icra edilir. Proqram çox genişdir, çox konkretdir. Amma yenə də deyirəm, proqramda hər bir məsələni nəzərdə tutmaq mümkün deyildir. Ona görə yerlərdən təkliflər gəlməlidir, məsələlər qaldırılmalıdır ki, biz onları operativ şəkildə həll edək. Mənim rayonlara səfərlərim də bu məqsədi güdür ki, gəlim, özüm öz gözümlə görüm, vəziyyətlə tanış olum, məsələləri müzakirə edim. Əlavə tədbirlər haqqında göstərişlər verim ki, Azərbaycanda insanları narahat edən bir dənə də problem qalmasın.

Bunu etmək üçün bizim bütün imkanlarımız var. Bizim iqtisadiyyatımız inkişaf edir, büdcəmiz artır. Bu il büdcəmiz 70 faiz artıbdır, gələn il daha da kəskin şəkildə artacaqdır. Yəni Azərbaycanda iqtisadi və sosial problemlərin həlli üçün bütün imkanlar var, maliyyə imkanlarımız var. Azərbaycanda çox gözəl ictimai-siyasi durum var, ab-hava var, ölkəmiz beynəlxalq müstəvidə də öz mövqelərini möhkəmləndirir. Bizim düşünülmüş proqramımız hər bir sahəni – istər ümumən iqtisadi inkişafı, istər sənayenin inkişafını, istər neft sənayesinin inkişafını, istərsə də sosial məsələlərin həllini və digər sahələri əhatə edən proqramlarımız var. Ona görə yerlərdən də təkliflər verilməlidir. Təşəbbüs göstərilməlidir ki, biz də operativ reaksiya verərək, bunları həll edək. Mən gələcəkdə də bizim ölkəmiz qarşısında ciddi problem görmürəm. Bizi ən çox narahat edən, ağrılı problemimiz Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həll olunmamasıdır. Bildiyiniz kimi, uzun illərdir danışıqlar aparılır, amma heç bir nəticə vermir.

Müəyyən ümidlər meydana çıxır, amma ondan sonra Ermənistanın qeyri-konstruktiv mövqeyi bu ümidləri, demək olar ki, ortadan götürür. Belə olan halda, biz öz siyasətimizə yenidən baxmalıyıq. Azərbaycan atəşkəs rejimi tətbiq olunandan sonra, 1994-cü ildən bu günə qədər danışıqlar prosesinə sadiq idi və müəyyən mərhələlərdə danışıqlarda irəliləyiş müşahidə olunurdu. Amma ondan sonra Ermənistanda baş vermiş hadisələr və Ermənistanın bu məsələyə qeyri-ciddi yanaşması, beynəlxalq ictimaiyyətin ermənilər tərəfindən çaşdırılması imkan vermirdi ki, biz bu sülh sazişinə nail olaq. Son müddət ərzində Praqa prosesi çərçivəsində müəyyən format müəyyənləşdirilibdir. Azərbaycan tərəfindən o, qəbul olunubdur. O bu məsələ ilə məşğul olan ATƏT-in Minsk qrupunun həmsədrləri tərəfindən irəli sürülüb və beləliklə, müəyyən dərəcədə sülh sazişinin əsas prinsiplərinin müəyyən edilməsinə imkan yaradır. Amma son hadisələr bir də onu göstərir ki, görünür Ermənistan bunda maraqlı deyildir. Vaxt

uzatmaq istəyir, beynəlxalq aləmi çaşdırmaq istəyir. Faktiki olaraq, danışıqların dalana dirənməsi bilavasitə Ermənistanın qeyri-konstruktiv mövqeyindən irəli gəlir.

Belə olan halda, Azərbaycan öz siyasətinə, əlbəttə, yenidən baxmalıdır, biz oturub fikirləşməliyik ki, bundan sonra nə etməliyik. Bildiyiniz kimi, biz bu məsələnin diplomatik və siyasi çərçivədə həllində maraqlı olan tərəfik, ancaq eyni zamanda, bütün başqa hadisələrə də, variantlara da hazır olmalıyıq. Məhz buna görə son iki il ərzində Azərbaycanda ordu quruculuğu prosesi çox sürətlə aparılır. Azərbaycanın hərbi potensialı möhkəmlənir, bizim müdafiə xərclərimiz kəskin şəkildə artıb və bundan sonra da artacaqdır. Biz heç vaxt torpaqlarımızın itirilməsi ilə barışmayacağıq, heç vaxt Dağlıq Qarabağın Azərbaycandan ayrılmasına izn verməyəcəyik. Bu mənim qəti mövqeyimdir və bu mövqe dəyişməz olaraq qalır. 2003-cü ildə prezident seçkilərində mən bu məramla iştirak edirdim və öz fikirlərimi, siyasətimi bəyan etmişdim, bu gün də bu mövqedəyəm. Mən heç vaxt real olmayan məsələlərə toxunmuram, heç vaxt faktiki şəkildə icra edilməyən məsələləri ortaya qoymuram. Mövqeyimdə də heç bir dəyişiklik olmur, çünki bu siyasətdir və siyasət Azərbaycanın bütün sahələrini əhatə edir. O cümlədən bu sahədə. Bu münaqişə yalnız Azərbaycanın ərazi bütövlüyü çərçivəsində öz həllini tapa bilər. Dağlıq Qarabağ Azərbaycan torpağıdır, orada yaşayan ermənilər və münaqişə öz həllini tapandan sonra qayıdacaq azərbaycanlılar orada yaşamalıdırlar. Onların təhlükəsizliyi təmin olunmalıdır. Əgər buna ehtiyac olarsa, sülhməramlı qüvvələr bu işdə iştirak edə bilər, buna bəlkə də ehtiyac olmaz. Ancaq Dağlıq Qarabağ Azərbaycandan ayrıla bilməz. Mən əminəm ki, biz bu məsələni həll edəcəyik. Çünki bu ədalətsizlik uzun müddət davam edə bilməz. Biz artıq 12 ildir ki, sülh prosesində iştirak edirik, bu bizim tərəfimizdən ən böyük güzəştdir. Çünki biz münaqişədə zərərçəkən ölkəyik. Azərbaycan qaçqınları-köçkünləri çətin vəziyyətdə yaşayırlar, bizim torpaqlarımızın 20 faizi işğal altındadır. Ermənistan bütün

beynəlxalq hüquq normalarını pozub, azərbaycanlılara qarşı etnik təmizləmə siyasəti, soyqırımı siyasəti aparıbdır.

Bu günlərdə biz Xocalı soyqırımının 14 illiyini yad etdik. Bu, bəşəriyyət əleyhinə olan cinayətdir və vaxt gələcək, bu cinayəti törətmiş insanlar məsuliyyətə cəlb olunacaqlar, beynəlxalq məsuliyyətə. Bu münaqişədə biz zərərçəkən tərəfik və bizim haqqımız çatır ki, münaqişəni istənilən yolla həll edək. Bizim başqa ölkələrin torpağında gözümüz yoxdur. Biz heç bir ölkəyə qarşı torpaq iddiası irəli sürmürük. İşğal olunmuş torpaqlar, o cümlədən Dağlıq Qarabağ bizim torpağımızdır. Ona görə Azərbaycana qaytarılmalıdır və biz buna nail olmalıyıq. Siyasi, diplomatik, iqtisadi, hərbi – istənilən yolla, ancaq eyni zamanda bütün bu amillər birlikdə öz rolunu oynayacaqdır.

Azərbaycan öz mövqelərini möhkəmləndirir, bizim iqtisadi potensialımız güclənir, siyasi mövqelərimiz möhkəmlənir, regionda gedən proseslər Azərbaycanın önəmini artırır. Beləliklə, Azərbaycan artıq regionda lider dövlətə çevrilibdir. Ermənistan bizimlə heç cür rəqabət apara bilməz. Nə iqtisadi baxımdan, nə siyasi baxımdan, nə də ki, hərbi baxımdan. Biz hazır olmalıyıq, hazırlıq işlərimizi daha da sürətlə aparmalıyıq və əlbəttə ki, bütün cəmiyyətdə səfərbərlik olmalıdır. Bizim qəbul edilmiş proqramlarımız icra olunmalıdır. Çünki proqramlar çox dəqiqdir, konkretdir və onların icrası nəticəsində ölkəmiz çiçəklənəcək, Azərbaycan zəngin, qüdrətli dövlətə çevriləcəkdir. Bunu etmək üçün yalnız o proqramları icra etmək lazımdır. Ona görə yerlərdəki rəhbərlərdən də çox şey asılıdır. Bizim bütün göstərişlərimiz yerinə yetirilməlidir, eyni zamanda, bayaq qeyd etdiyim kimi, yerlərdən təşəbbüslər də göstərilməlidir. Harada çatışmayan məsələ var, harada insanları narahat edən problem var – onların hamısı vaxtlı-vaxtında məruzə olunmalıdır və biz qərarlar qəbul edəcəyik.

Mən bilirəm ki, qaçqın-köçkün bacı-qardaşlarımızın sosial problemləri də kifayət qədərdir. Elə bilməyin ki, mən hesab edirəm bu şəhərciyi salmaqla biz burada öz işimizi, necə deyərlər, yekunlaşdıracağıq. Elə deyildir. Burada iş yerlərinin

açılması məsələsi çox aktualdır. Eyni zamanda kreditlərin verilməsi. Əgər kreditlər verilməsə, onda, əlbəttə ki, hansısa bir işi görmək çox çətin olacaqdır. Rayonların elektrik enerjisi ilə təminatı məsələsi çox ciddidir və burada bizi narahat edən məsələlər var, bu da aradan qaldırılmalıdır. Yəni məsələyə hərtərəfli, kompleks şəkildə yanaşma var.

Azərbaycan regionlarının inkişaf proqramı bütün rayonları əhatə edir. Eyni zamanda, hər bir rayonun öz inkişaf proqramı var və o proqram da icra olunmalıdır.

Əziz bacı-qardaşlarım, bu gün mən çox şadam, çox xoşbəxtəm ki, bu gözəl abadlığı görürəm, bu gözəl binaları görürəm. Bir il bundan əvvəl bunların heç biri yox idi. Təsəvvür etmək çətin idi ki, bir il ərzində minlərlə yeni ev tikilib qaçqın-köçkünlərə veriləcəkdir. Yəni bu onu göstərir ki, biz hər şeyə qadirik. Təki xoş niyyət olsun, iradə olsun və proqramlar, qəbul edilmiş qərarlar icra olunsun. Mən sizin hamınızı bir daha salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Arzu edirəm ki, biz bundan sonra da xoş günlərdə görüşək. Torpaqlarımız işğaldan azad olunandan sonra qələbəni də bir yerdə qeyd edək. Sağ olun.

## Soltanbud orta məktəbi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev «Bənövşələr» qəsəbəsinin açılış mərasimindən sonra Ağdam rayonunun Soltanbud kənd orta məktəbində olmuşdur.*

*Prezident İlham Əliyev ikimərtəbəli binada yerləşən və müasir standartlara cavab verən bu təhsil müəssisəsi ilə yaxından tanış oldu, təhsilin səviyyəsi ilə maraqlandı, idman salonuna, ayrı-ayrı sinif otaqlarına da baxdı.*

*Məktəbin kompüter sinfinin tələblərə uyğun olduğu və internet şəbəkəsinə qoşulduğu bildirildi. Prezident İlham Əliyev, ümumiyyətlə, Azərbaycanda orta məktəblərin kompüterləşdirilməsinin uğurla davam etdiyini və bunun əhəmiyyətini vurğuladı. Şagirdlər onlara göstərilən diqqətə və qayğıya*

*görə prezident İlham Əliyevə və Mehriban xanıma minnətdarlıq etdilər, yüksək təhsil alaraq ümidləri doğruldacaqlarını və Azərbaycanın gələcəyi üçün layiqli vətəndaş kimi yetişəcəklərini bildirdilər.*

*Soltanbud məktəbində ümummilli lider Heydər Əliyevin və prezident İlham Əliyevin fəaliyyətindən bəhs edən gözəl fotoguşə də yaradılmışdır.*

## Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev Ağdərə rayonundakı «N» Hərbi hissədə

*Azərbaycan prezidenti, Silahlı Qüvvələrin Ali Baş Komandanı İlham Əliyev martın 1-də Ağdərə rayonundakı «N» hərbi hissədə olmuşdur.*

*Müdafiə naziri general-polkovnik Səfər Əbiyev Ali Baş Komandana raport verdi.*

*Prezident İlham Əliyev cəbhə bölgəsində, səngərdə Vətənin keşiyində dayanan əsgər və zabitlərə baş çəkdi, onların hərbi xidmət şəraiti ilə maraqlandı, cihazlar vasitəsilə düşmənin üzbəüzdəki mövqelərini müşahidə etdi.*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN TƏRTƏR RAYONUNA SƏFƏRİ

*1 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 1-də Ağdam rayonuna səfərini başa çatdırdıqdan sonra qonşu Tərtər rayonuna gəlmişdir.*

*Yolboyu minlərlə sakin prezident İlham Əliyevi böyük hörmət və ehtiramla salamladı.*

### Tərtər şəhərində ümummilli lider Heydər Əliyevin abidəsinin açılışı

*Prezident İlham Əliyev ilk olaraq, rayon icra hakimiyyətinin qarşısındakı meydana gəldi. Burada xalqımızın ümummilli lideri Heydər Əliyevin abidəsinin təntənəli açılış mərasimi oldu. Əməkdar incəsənət xadimi, heykəltəraş Akif Əsgərovun müəllifi olduğu və tuncdan tökülmüş abidənin hündürlüyü qranit postamentlə birlikdə 6 metrə yaxındır. Abidənin ətrafında yaraşıqlı park salınmışdır.*

# TƏRTƏR RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*1 mart 2006-cı il*

*Martın 1-də Tərtər şəhərində abidənin açılışından sonra rayon ictimaiyyətinin nümayəndələri ilə görüş keçirildi.*

*Görüşə toplaşmış on minlərlə tərtərli dövlətimizin başçısını hərarətlə qarşıladılar.*

*Rayon Ağsaqqallar Şurasının sədri Həsən Pənahov görüşü açaraq dedi:*

– Cənab Prezident, Tərtər rayonuna xoş gəlib, səfa gətirmisiniz! İlk gəlişiniz sayalı olsun! Sizi bütün Tərtər camaatı səmimi-qəlbdən salamlayır. O cümlədən ağsaqqallar adından Sizi alqışlayırıq. Sizə dərin təşəkkürümüzü və minnətdarlığımızı bildiririk ki, Tərtərə çox böyük qayğı göstərirsiniz. Biz bunu unuda bilmərik. Həmişə Sizə yüksək məhəbbətimiz olacaqdır.

## Azərbaycan prezidenti İlham Əliyevin nitqi

Əziz tərtərlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Bu gün çox gözəl bir gündür. Ulu öndər Heydər Əliyevin abidəsini bir yerdə açdıq. Ümummilli lider Heydər Əliyev bütün dövrlərdə Azərbaycan xalqına xidmət edirdi. Çalışırdı ki, ölkəmiz daha da möhkəmlənsin, zənginləşsin. Bütün dövrlərdə – istər 1970-ci illərdə, istərsə də Azərbaycan öz dövlət müstəqilliyini bərpa edəndən sonra onun həyat və fəaliyyəti doğma xalqına xidmət etməkdən ibarət olmuşdur.

Bu gün mən buraya gəlməzdən əvvəl, səhər Ağdam rayonunda yeni salınmış şəhərciyin açılışında iştirak etdim. Minlərlə yeni ev, məktəblər, tibb məntəqələri tikilibdir və bizim bacı-qardaşlarımız, qaçqın-köçkünlərimiz oraya köçürülüblər. Bu

proqram davam etdiriləcəkdir. Müharibədən əziyyət çəkmiş, Ermənistanın Azərbaycana qarşı etdiyi təcavüz nəticəsində öz doğma torpaqlarından didərgin salınmış insanlar, əlbəttə ki, yeni, gözəl şəraitlə təmin olunmalıdırlar, onlar üçün yeni binalar, məktəblər tikilməlidir.

Ondan sonra Dağlıq Qarabağ ərazisində olduq, Ağdərə rayonunda. Ağdərə rayonunun ərazisində səngərdə hərbçilərlə, əsgərlərlə birlikdə oldum. Orada görüş bir az çox vaxt apardı. Ona görə sizinlə görüşə bir az gecikdim. Dağlıq Qarabağ Azərbaycan torpağıdır. Mən bu gün Dağlıq Qarabağa getməklə bunu bir daha sübut etdim. Dağlıq Qarabağ Azərbaycanın ayrılmaz bir hissəsidir. Biz nəyin bahasına olursa-olsun, doğma torpaqlarımızı işğalçı qüvvələrdən azad etməliyik.

Bu gün əsgərlərlə birlikdə səngərdə təmas xəttini müşahidə etdim, gətirilmiş yeni texnika ilə tanış oldum. Bu gün Azərbaycan ordusu çox möhkəmlənir. Ordu quruculuğu prosesi çox sürətlə gedir. Bilirsiniz ki, bu sahəyə böyük diqqət göstərilir, vəsait ayrılır. Beləliklə, Azərbaycanda çox nizami və peşəkar ordu quruculuğu prosesi sürətlə gedir. Hamımız istəyirik ki, bu daha da sürətlə getsin. Amma bunu etmək üçün, buna nail olmaq üçün ilk növbədə, gərək iqtisadi potensial möhkəm olsun, Azərbaycan daha da zənginləşsin və qüdrətli dövlətə çevrilsin.

Regionların inkişafı proqramı da məhz bu məqsədi daşıyır ki, Azərbaycanın hər bir rayonu, hər bir bölgəsi hərtərəfli inkişaf etsin, insanlar daha da yaxşı yaşasınlar, yeni iş yerləri açılsın, yeni müəssisələr, fabriklər, zavodlar tikilsin, abadlıq işləri aparılsın. Ona görə regionların inkişafı proqramı, ümumiyyətlə, bizim iqtisadi siyasətimiz bu məqsədi daşıyır. Son illər ərzində Azərbaycanda bu yaşanan inkişaf, gedən abadlıq, quruculuq işləri deməyə əsas verir ki, biz fəaliyyətimizi düzgün istiqamətdə qurmuşuq.

Tərtər də bizim hamımız üçün, Azərbaycan üçün çox əziz, doğma rayondur. Siz, demək olar ki, ön xətdəsiniz, düşmənlə üz-üzəsiniz. Müharibə illərində də tərtərlilər çox cəsarətlə

vuruşmuşlar, öz doğma torpaqlarını müdafiə etmişlər. Buna görə mən sizə öz minnətdarlığımı bildirmək istəyirəm.

İndi isə Tərtərin yeni dövrü başlayır. Mən əminəm ki, burada görülmüş işlər və bundan sonra görüləcək işlər rayonun hərtərəfli inkişafına xidmət göstərəcəkdir. Həm rayonun iqtisadi potensialı möhkəmlənməlidir, yeni müəssisələr, iş yerləri açılmalıdır, eyni zamanda, sosial infrastruktur da – məktəblər, xəstəxanalar, mədəniyyət ocaqları yeniləşməlidir, ümumi abadlıq, quruculuq işləri getməlidir. Bu meydan da yox idi, yeni yaranıb, yeni salınıb və indi çox gözəl görünür. Mən istərdim ki, Tərtərin bütün yerləri, bütün küçələri abadlaşsın. Buna da kömək göstərəcəyəm. Əlavə vəsait də ayrılacaqdır. Təki işlər sürətlə getsin, insanlar daha da yaxşı yaşasınlar.

Bilirsiniz ki, bizi ən çox narahat edən problemlərdən biri də işsizlikdir. Bu, Tərtər üçün də aktual problemdir. Demək olar ki, Azərbaycanın hər bir rayonu üçün aktual problemdir. Bu istiqamətdə işlər görülür, sürətlə yeni iş yerləri açılır. İki il ərzində 340 min yeni iş yeri açılmışdır. Əlbəttə, böyük nəticədir. Ancaq potensial daha da böyükdür. Hələ ki, yoxsulluq səviyyəsində yaşayan insanların sayı kifayət qədər çoxdur. Biz gərək onların sosial problemlərini həll edək. İş yerlərinin açılmasında gərək daha da fəal iştirak edək. Yəni ölkəmizi hərtərəfli inkişaf etdirməliyik. Buna imkanlar var. Azərbaycanın iqtisadiyyatı dünyada ən yüksək sürətlə inkişaf edir. Bizim iqtisadi inkişaf dinamikamız dünyanın istənilən ölkəsindən daha da sürətlidir. Amma bu o demək deyil ki, Azərbaycanda bütün problemlər öz həllini tapıbdır. O demək deyil ki, Azərbaycanda hər bir vətəndaş yaxşı yaşayır. Yox. Biz bunu bilirik, bu problemləri bilirik və çalışırıq ki, bunları həll edək, aradan qaldıraq. Hər bir istiqamətdə bu addımlar atılır.

Ən ağrılı problemimiz olan Dağlıq Qarabağ məsələsinin həlli istiqamətində Azərbaycanın atdığı addımlar bizi öz məqsədimizə gətirəcək, istədiyimizə nail olacağıq. Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır və bərpa ediləcəkdir. İstər sülh yolu ilə, istər hərb yolu ilə olsun – biz buna nail olaca-

ğıq. Çünki biz haqlıyıq. Bu bizim torpağımızdır. Azərbaycanın ərazi bütövlüyü bütün dünya tərəfindən tanınır. Dünyanın ən böyük, ən mötəbər beynəlxalq təşkilatı – Birləşmiş Millətlər Təşkilatı da Azərbaycanın ərazi bütövlüyünü tanıyır. Belə olan halda, əlbəttə ki, öz siyasətimizi məhz bu istiqamətdə quracağıq.

Ermənistanla danışıqlar aparılır, bəlkə də bundan sonra da aparılacaqdır. Bunu hadisələr göstərər. Əgər ehtiyac yaranarsa, danışıqlar davam etdirilə bilər. Amma eyni zamanda, biz ordu potensialımızı da möhkəmləndirməliyik və bu istiqamətdə də işlər aparılır.

Bu gün mən o bölgələrdə, təmas xəttində olarkən bir daha gördüm ki, bizim çox nizami, qüdrətli və peşəkar ordumuz var.

İqtisadi islahatlar sahəsində böyük işlər görülür. İş yerləri açılır, yeni elektrik stansiyaları tikilir, qaz xətləri, su kəmərləri çəkilir, Azərbaycanın neft strategiyası uğurla icra edilir. Qaçqın-köçkünlər üçün şəhərciklər məhz Dövlət Neft Fondunun vəsaiti hesabına tikilibdir. Əgər 1994-cü ildə ulu öndər Heydər Əliyevin təşəbbüsü ilə «Əsrin müqaviləsi» imzalanmasaydı, bunların heç biri mümkün olmayacaqdı. Bu istiqamətdə də işlər gedir. Bakı–Tbilisi–Ceyhan neft kəmərinin istismara verilməsi gözlənilir, ondan sonra qaz kəməri istismara veriləcəkdir. Azərbaycanın xəzinəsi böyüyəcək, büdcəmiz artacaqdır. İndi də bu artım var. Bir ildə büdcəmiz 70 faiz artıbdır. Bu, imkan verir ki, maaşlar qaldırılsın, orta əməkhaqqı qaldırılsın, minimum əməkhaqqı qalxsın. Bu yaxınlarda minimum əməkhaqqının qaldırılması üçün yeni tədbirlər görüləcəkdir. Azərbaycan vətəndaşları ildən-ilə daha da yaxşı yaşamalıdırlar. Bunu etmək üçün, əlbəttə ki, iqtisadi potensial möhkəmlənməlidir. Həm güclü, iqtisadi və sənaye əhəmiyyəti daşıyan müəssisələr işə salınmalıdır. Eyni zamanda, kiçik və orta sahibkarlıq inkişaf etməlidir. Regionların inkişafı bu məqsədi daşıyır. Əgər regionlarda bütün problemlər öz həllini taparsa, demək olar ki, Azərbaycanın bütün problemləri öz həllini tapar. Azərbaycan əhalisinin tam əksəriyyəti, demək olar ki, rayonlarda, kəndlərdə

yaşayır. Ona görə bu insanların həyat səviyyəsi bizi ilk növbədə düşündürməlidir.

Bilirsiniz ki, regionların inkişafı proqramı, 2004-cü ilin fevralında qəbul edilmiş proqram uğurla icra edilir. Şübhəsiz, daha da böyük işlər görülməlidir və görüləcəkdir. Amma bu, proqramı icra edən bütün qurumlardan, bütün orqanlardan asılıdır. Biz hər şeyi mərkəzdə nəzərdə tuta bilmərik, hər şeyi mərkəzdən idarə edə bilmərik. Yerlərdə olan insanlar – rəhbər işçilər, dövlət məmurları, ictimai xadimlər, ictimaiyyət gərək bu işlərdə fəal iştirak etsin.

Eyni zamanda, qeyd etdiyim kimi, sosial sahəyə də böyük diqqət göstərilməlidir. Təkcə 2005-ci ildə Azərbaycanda 300-dən çox yeni məktəb tikilibdir. Bu, misli görünməmiş bir nəticədir. Bu il də məktəb tikintisi sürətlə getməlidir. Bilirəm ki, Tərtər rayonunda da yeni məktəblər tikilir, iki məktəb tikilibdir, özü də yüksək səviyyədə. Bundan sonra da davam etdiriləcəkdir. Xəstəxanalar, insanların gündəlik təmasda olduğu bütün sosial infrastruktur yeniləşməlidir. Bizim iqtisadi siyasətimiz uğurludur. Gələn ilin büdcəsi kəskin şəkildə artmalıdır. Təsəvvür edin, iki il bundan əvvəl Azərbaycanın dövlət büdcəsi təxminən 1 milyard 300 min, 1 milyard 500 min dollar səviyyəsində idi. İndi bizim büdcəmiz 4 milyard dollardır, iki dəfədən çox artıbdır. Gələn il daha da artacaqdır. Bu o deməkdir ki, əlavə vəsait əldə edilir və bu, ilk növbədə, insanların yaxşı şəraitdə yaşamasına yönəldilməlidir.

Yollar salınmalıdır, mən əlavə vəsait ayıracağam ki, Tərtər rayonunun bütün yolları – həm rayon mərkəzində, həm də kəndlərdə – yenidən qurulsun, təmir olunsun. Bu inkişafdır, irəliləyişdir. O deməkdir ki, Azərbaycan artıq müasir şəraitə qədəm qoyur.

Biz öz tarixi köklərimizə çox bağlı olan insanlarıq. Milli və dini ənənələrimiz bizi, azərbaycanlıları bir millət kimi qorudu, saxladı. Baxmayaraq ki, əsrlər boyu biz əsarət altında yaşamışıq. Amma mədəniyyətimiz, tariximiz, dilimiz, ədəbiyyatımız, ənənələrimiz bizi millət kimi saxladı və qorudu.

Bu gün biz müstəqil dövlətin vətəndaşlarıyıq. Ona görə bu sahəyə böyük diqqət göstərilir.

Ancaq eyni zamanda, biz artıq müasir dövrdə yaşayırıq və ölkəmizi də müasirləşdirməliyik, hərtərəfli inkişaf etdirməliyik. Dünyada mövcud olan ən qabaqcıl texnologiyalar Azərbaycanda tətbiq olunmalıdır. Bilirsiniz ki, mənim də tələbim bundan ibarətdir. Əgər hansısa yeni bir bina, yaxud da xəstəxana, idman mərkəzi tikilirsə, gərək ən yüksək səviyyədə olsun. Dünyanın ən yüksək standartları gərək Azərbaycanda tətbiq edilsin. Çünki bizim ölkəmizin böyük iqtisadi potensialı var, təbii sərvətləri var. İndi böyük gəlirlər gözlənilir və belə olan halda biz insanlarımız üçün ən yüksək şəraiti yaratmalıyıq. Paytaxt da daxil olmaqla, istənilən yerdə, ən ucqar kənddə də. Yəni bu məqsəddir, bu məramımızdır. Əlbəttə, hər bir dövlət məmurundan asılıdır ki, bu proqram uğurla icra edilsin. Mən ümid edirəm ki, Tərtərdə də işlər bundan sonra yaxşı gedəcəkdir. Bir müddət bundan əvvəl mən buraya yeni icra hakimiyyəti başçısı təyin etdim. İndi bilirəm ki, burada işlər görülür, abadlıq-quruculuq işləri aparılır. Biz də mərkəzdən köməyimizi edəcəyik. Harada işlər yaxşı gedir, əlbəttə, kömək edəcəyəm, əlavə vəsait ayrılacaq və ondan sonra rayonun infrastrukturunun yeniləşməsi, sosial problemlərinin həlli üçün lazımi tədbirlər görüləcəkdir. Buna əmin ola bilərsiniz. Mən ümid edirəm ki, növbəti görüşümüzdə Tərtərdə daha da gözəl abadlıq işlərinin olduğunu görəcəyik.

Bu mənim Tərtərə ilk səfərimdir. Mən Tərtər rayonunda olmamışdım. Bu gün çox şadam ki, buradayam. Əminəm ki, bundan sonra tez-tez gələcəyəm, həmişə sizinlə birlikdə olacağam.

Əziz bacılar və qardaşlar, bir daha bu əziz gündə sizi ürəkdən salamlayıram, sizə cansağlığı, xoşbəxtlik arzulayıram. Sağ olun.

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏRDƏ RAYONUNA SƏFƏRİ

*1 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 1-də ölkəmizin qədim şəhərlərindən biri olan Bərdədə olmuşdur. Rayon sakinləri dövlətimizin başçısını və onun ailə üzvlərini böyük hörmət və ehtiramla, gül-çiçəklə qarşıladılar. Onlar prezident İlham Əliyevi qarşılamağa Azərbaycanın dövlət bayraqları, xalqımızın ümummilli lideri Heydər Əliyevin və prezidentin portretləri, transparantlarla çıxmışdılar.*

### Bərdədə ümummilli lider Heydər Əliyevin abidəsinin açılışı

*Martın 1-də ümummilli lider Heydər Əliyevin Bərdə şəhərinin mərkəzi meydanında ucaldılmış abidəsinin təntənəli açılış mərasimi olmuşdur. Prezident İlham Əliyev mərasimdə iştirak etmişdir.*

### Bərdədə Heydər Əliyev muzeyinin rəsmi açılışı

*Martın 1-də Bərdədə prezident İlham Əliyevin iştirakı ilə Heydər Əliyev muzeyinin rəsmi açılışı olmuşdur.*

*Ümumi sahəsi 900 kvadratmetr olan muzey Heydər Əliyev parkında yerləşir. Burada ulu öndərin 1970–80-ci və 90-cı illərdə 14 dəfə Bərdəyə səfərini əks etdirən materiallar xüsusi yer tutur. Eyni zamanda, ümummilli liderimizin ailəvi fotoşəkilləri, həyat və fəaliyyətinə, dünyanın müxtəlif ölkələrinə səfərlərə, müasir dövrdə iqtisadi inkişafımızın təməli hesab olunan neft strategiyasının həyata keçirilməsinə dair fotomateriallar nümayiş olunur.*

# BƏRDƏ RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞDƏ NİTQ

*1 mart 2006-cı il*

Əziz bərdəlilər!

Əziz bacılar və qardaşlar!

Mən sizin hamınızı ürəkdən salamlayıram. Xatırlayıram ki, il yarım bundan əvvəl sizinlə birlikdə bu gözəl muzeyin və abidənin təməl daşını qoyduq. Bu gün həm muzeyin, həm də ulu öndər Heydər Əliyevin abidəsinin açılışında birlikdə iştirak edirik.

Muzey çox gözəl memarlıq abidəsidir. Eyni zamanda, muzeyin ekspozisiyası Heydər Əliyevin həyat və fəaliyyətini əks etdirir. Mən çox şadam, çox sevinirəm ki, belə gözəl muzey məhz Bərdədə tikilibdir və biz bu gün bunun açılışını qeyd edirik. Siz özünüz yaxşı bilirsiniz ki, Heydər Əliyevin Bərdəyə, bərdəlilərə həmişə böyük diqqəti var idi. Bərdəyə və bərdəlilərə həmişə böyük qayğı ilə, məhəbbətlə yanaşırdı. Təsadüfi deyil ki, 70-ci illərdə, Azərbaycanda rəhbər vəzifədə çalışdığı dövr ərzində, demək olar, hər il Bərdəyə gəlirdi, bəzi hallarda ildə iki dəfə gəlirdi. Yadımdadır, ondan sonra 1990-cı illərdə də Bərdədə çox gözəl görüşlər keçirilmişdir.

Bərdə Azərbaycanın çox önəmli şəhəridir, tarixi şəhəridir. Hər bir azərbaycanlı üçün çox doğma, əziz yerdir. Qarabağ torpağıdır. Bərdəyə və bərdəlilərə ulu öndər tərəfindən yaradılan münasibət bu gün davam etdirilir. Bu, son iki il yarım ərzində mənim Bərdəyə üçüncü səfərimdir. Çox şadam ki, hər dəfə Bərdəyə gələndə biz yeni tikilən, yaradılan gözəl binaları, gözəl muzeyləri, idman obyektlərini, məktəbləri, xəstəxanaları açırıq, yenilərinin təməl daşını qoyuruq.

2003-cü ildə Bərdədə böyük İdman Olimpiya Kompleksinin açılışını qeyd etdik, 2004-cü ildə gözəl məktəb, eyni zamanda, Olimpiya kompleksi istifadəyə verilmişdir. Bu gün bu gözəl muzey öz qapılarını açır. Eyni zamanda, bu gün Bərdədə yeni, müasir diaqnostika və müalicə mərkəzinin təməl daşını qoyacağıq. Son müddət ərzində Bərdədə bir neçə yeni sənaye müəssisəsi açılmışdır. Yeni iş yerləri yaranır, müəssisələr istismara verilir. Yəni ki, Bərdə yaşayır və hərtərəfli inkişaf edir. Həm sənaye potensialı möhkəmlənir, gözəl memarlıq abidələri ucaldılır, eyni zamanda məktəblər, xəstəxanalar tikilir, yeni yollar salınır. İnkişaf budur və Azərbaycanın bütün şəhərlərində və rayonlarında biz bu inkişafı görürük.

Biz istəyirik ki, bu daha da sürətlə getsin, insanların rifah halı daha da sürətlə yaxşılaşsın. Azərbaycan vətəndaşları rahat yaşasınlar, sülh, əmin-amanlıq, rifah şəraitində yaşasınlar. Bizim məqsədimiz budur, məramımız budur. Bu yol Heydər Əliyev yoludur.

90-cı illərin əvvəllərində Azərbaycanın düşdüyü ağır böhran bizim ölkəmizi faktiki olaraq məhvə aparırdı. Məhz Heydər Əliyevin yenidən Azərbaycan rəhbərliyinə qayıdışından sonra ölkədə inkişaf dövrü başladı. Bu gün biz bu inkişaf dövrünü yaşayırıq. Ölkədə böyük quruculuq-abadlıq işləri aparılır, sosial sektor inkişaf edir. Eyni zamanda, güclü iqtisadi potensial yaranır və möhkəmlənir. Bizim büdcəmiz artır, sosial ödənişlər artır, maaşlar, pensiyalar artır. Düzdür, hələ ki, bu artım bizi tam qane etmir. Çünki bu bizim tələbatımızı tam şəkildə ödəmir, amma dinamika var. Yəni gözəl inkişaf sürəti var.

Mən əminəm və bilirəm ki, Azərbaycan ildən-ilə daha da möhkəmlənəcək və Azərbaycanda hər bir vətəndaş daha da yaxşı yaşayacaqdır. Bunu demək üçün əsaslı dəlillər var, faktlar var. Bizim gördüyümüz işlər, qarşımıza qoyduğumuz proqramlar, onların uğurlu icrası bunu deməyə əsas verir. Yəni biz qabaqcadan bilirik ki, Azərbaycanda 2006-cı ildə, 2007-ci ildə, 2008-ci ildə və ondan sonrakı illərdə hansı işlər görüləcəkdir. Çünki bu işləri, görüləcək işləri biz müəyyən

etmişik. Artıq Azərbaycanda regionların sosial-iqtisadi inkişafı proqramı uğurla icra edilir. İki ildir proqram icra edilir və demək olar ki, indi Azərbaycanın bütün rayonlarında iş yerləri açılır, müəssisələr işə salınır, elektrik stansiyaları tikilir, sosial infrastruktur yaradılır. Bu proqramın uğurlu icrasının gedişində son iki il ərzində meydana çıxan digər problemlər, digər məsələlər öz həllini tapır və tapacaqdır.

Bilirsiniz ki, regionların inkişafı proqramı mənim fəaliyyətimdə çox mühüm yer tutan bir proqramdır. 2003-cü ildə prezident seçkiləri ərəfəsində mən bu proqramla çıxış etmişdim və seçicilərə öz ideyalarımı, öz təkliflərimi, öz fikirlərimi bildirmişdim. Bəyan etmişdim ki, beş il ərzində Azərbaycanda 600 min yeni iş yeri yaradılacaqdır. İki il ərzində bunun artıq 340 mini yaradılıbdır. Bəyan etmişdim ki, Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bu gün səhər Ağdamda yeni, gözəl şəhərciyin açılışında iştirak etdik və görürük ki, qısa müddət ərzində Azərbaycanda bir dənə də çadır şəhərciyi qalmayacaqdır. Bəyan etmişdim ki, Azərbaycanda yoxsulluq azalacaq və tamamilə aradan qaldırılacaqdır. Yoxsulluq şəraitində yaşayanların sayı iki il ərzində 49 faizdən 29 faizə düşmüşdür. Bütün bunlar reallıqdır, həqiqətdir, faktlardır.

Heydər Əliyevin neft strategiyası uğurla davam etdirilir. Baxmayaraq ki, bu strategiyanın həyata keçirilməsində müəyyən mərhələlərdə qarşıya ciddi problemlər çıxmışdı, süni şəkildə maneələr yaradılmışdı. Bütün bunlara baxmayaraq, Azərbaycan öz strateji xəttindən dönmədi. Heç bir qüvvə bizi bu yoldan döndərə bilməz.

Eyni zamanda, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin həlli işində də bizim mövqeyimizdə heç bir dəyişiklik, yaxud da ki, dönüş yoxdur və olmayacaq da. Bizim işimiz haqq işidir və Azərbaycanın ərazi bütövlüyü bərpa edilməlidir. İşğal olunmuş torpaqlar azad edilməlidir, bizim soydaşlarımız o torpaqlara qayıtmalıdırlar, o cümlədən Dağlıq Qarabağa da qayıtmalıdırlar. Mən əminəm ki, biz buna nail olacağıq.

Bu gün mən Dağlıq Qarabağda da oldum, Ağdərə rayonunda oldum. Orada səngərdə əsgərlərlə bir yerdə oldum. Bu bir daha onu göstərir ki, Azərbaycan istədiyinə nail olacaqdır. Bizim heç bir ölkənin torpağında gözümüz yoxdur. Amma öz torpağımızı da heç kimə verən deyilik.

Yəni demək istəyirəm ki, 2003-cü ildə sizin qarşınızda götürdüyüm bütün öhdəlikləri çalışıram yerinə yetirim. Çalışıram ki, öz əməyimlə, xalqın dəstəyi ilə Azərbaycanı daha da möhkəmləndirim.

Bu gün Azərbaycanda çox gözəl ictimai-siyasi mühit var. Xalqla iqtidar arasında olan birlik, qarşılıqlı anlaşma bizim işimizə çox böyük təkandır, çox böyük dəstəkdir. Mən buna arxalanıram, mən bu dəstəyə arxalanıram. Əgər bu dəstək olmasaydı, Azərbaycanın mövqeyi – o cümlədən beynəlxalq müstəvidə – zəif ola bilərdi. Bizim gücümüz bundadır. Gücümüz ondadır ki, mən xalqın iradəsinə arxalanaraq, Azərbaycanın müstəqil siyasətini çox cəsarətlə aparıram. Baxmayaraq ki, indiki zəmanədə ölkələr, regionda yerləşən ölkələr bəzi hallarda müstəqil siyasət aparmaqda çətinlik çəkir. Azərbaycan öz siyasətini yalnız və yalnız milli maraqlarına uyğun şəkildə aparır.

Regionun coğrafi-siyasi durumu o qədər də sabit deyildir. Regionda olan münaqişələr, ixtilaflar, ziddiyyətlər, əlbəttə ki, bizi çox narahat edir. Amma Azərbaycan bu çətin regionda yerləşən çox sabit ölkədir. Azərbaycanda sabitlik var, vətəndaş birliyi var, həmrəylik var, əmin-amanlıq var, inkişaf var. Əgər bunlar olmasa, inkişaf da heç vaxt ola bilməz. Heç bir investor – nə yerli, nə də xarici investor sabit olmayan ölkəyə heç vaxt sərmayə qoymaz. Əgər əmin deyilsə ki, bu gün, sabah, beş, on ildən sonra bu siyasət davam etdiriləcək, heç vaxt o sərmayəni qoymaz. Bu gün bütün investorlarda bu əminlik var. Ona görə Azərbaycana milyardlarla dollar həcmində yerli və xarici sərmayə qoyulur. Xarici sərmayə qoyuluşunun adambaşına düşən həcminə görə Azərbaycan birinci yerdədir. İqtisadi

inkişaf sürətinin artımı Azərbaycanda ən yüksək həddədir. Sənaye istehsalı bir ildə 33 faiz artıbdır.

Bizim uğurlu neft strategiyamız öz bəhrəsini verməkdədir. Heydər Əliyevin adını daşıyan Bakı–Tbilisi–Ceyhan neft kəməri bu il işə düşəcəkdir. Bu bizə əlavə və böyük həcmdə maliyyə resursu gətirəcəkdir ki, bu da öz dövlətimizə, ölkəmizin hərtərəfli inkişafına xidmət göstərəcəkdir. Yeni müəssisələr yaranacaq, məktəblər, xəstəxanalar, idman kompleksləri, mədəniyyət ocaqları, elektrik stansiyaları tikiləcək, yollar, xiyabanlar salınacaq, qaz xətləri, su kəmərləri çəkiləcəkdir.

Bütün bunlar da artıq baş verir. Azərbaycanda elektrik stansiyaları tikilir, yollar salınır, xəstəxanalar tikilir. Təkcə keçən il 300-dən çox yeni məktəb tikilibdir. Bərdədə ən müasir standartlara cavab verən diaqnostika-müalicə mərkəzi tikiləcəkdir ki, artıq bundan sonra, Allah göstərməsin, əgər kimsə xəstələnərsə, Bakıya və başqa şəhərlərə getməyə ehtiyac olmayacaqdır. Yəni budur bizim siyasətimiz, bizim sözümüz və əməlimiz. Bunların arasında olan birlik, vəhdət hər bir uğurun təməlində dayanan bir amildir.

Mən bu gün sizin qarşınızda çıxış edərkən gələcəyi də düşünürəm: biz haraya gedirik, necə inkişaf edəcəyik? Azərbaycan gələn il, iki ildən sonra, beş ildən sonra necə ölkə olacaqdır? Biz nə istəyirik, nəyə nail olmaq istəyirik? Bu gün məni düşündürən bunlardır. Ancaq mən gələcəyə də çox nikbinliklə baxıram. Heç bir ciddi problem, yaxud da maneə görmürəm. Çünkü bu günə qədər nəzərdə tutduğumuz bütün işlər həyatda öz əksini tapıbdır. Elə bir söz deyilməmişdir, elə bir vəd verilməmişdir ki, o bu gün həyatda öz əksini tapmasın. Nəyi demişəmsə, o var və olacaqdır.

Gələcəkdə bizi daha böyük işlər gözləyir. Bütün cəmiyyət gərək səfərbər olsun. Hər bir məmur, hər bir yerli rəhbər işçi, hər bir ictimai xadim, hər bir vətəndaş əməyi ilə ümumi işimizə öz töhfəsini verməlidir. Əlbəttə ki, yerlərdə işləyən kadrlardan çox şey asılıdır. Yerli rəhbərlər ciddi işləməlidirlər. İqtisadi və sosial proqramlarımızın həyata keçirilməsində fəal iştirak

etməlidirlər. Bizim göstərişlərimizi yerinə yetirməlidirlər. İnsanlara qayğı ilə, diqqətlə yanaşmalıdırlar. Bütün ölkəmizə lazım olan, davamlı, dayanıqlı inkişafı təmin edən proqramlarda fəal iştirak etməlidirlər. Yalnız bu təqdirdə biz istədiyimizə nail ola bilərik.

Son iki il ərzində Azərbaycanda bütün sahələrdə inkişaf var. İnkişaf sürəti məni qane edir. Ancaq ümumi inkişaf səviyyəmiz məni qane edə bilməz. Çünki işsizlik var, yoxsulluq var, bəzi hallarda ədalətsizlik var. Əlbəttə ki, bəzi hallarda insanlara münasibət də lazımi səviyyədə deyildir. Mənim tələbim ondan ibarətdir ki, hər bir məmur ləyaqətlə işləsin, vicdanla işləsin. Əgər hər bir məmur öz vəzifə borcunu vicdanla yerinə yetirsə, Azərbaycanda bütün problemlər öz həllini tapa bilər. Ona görə mən bir daha bunu vurğulamaq istəyirəm. Mənim tələbim də bundan ibarətdir. Bizim nəzərdə tutduğumuz işlər, qəbul etdiyimiz proqramlar icra olunmalıdır. İqtisadi və sosial məsələlər öz həllini tapmalıdır və insanlara münasibət yüksək səviyyədə olmalıdır.

Bir şeyi də sizə bildirmək istəyirəm. Son zamanlar mən rayonlarda olarkən təbii ki, çoxlu məktublar alıram və indi də mənim nümayəndələrim burda – Bərdədədirlər. Ağdamda, Tərtərdə mən özüm məktublar almışam. Bütün məktublar təhlil edilir və çalışırıq ki, qaldırılan məsələlərə operativ qaydada reaksiya verək. Amma bu ərizələrin, məktubların təhlili onu göstərir ki, şikayət xarakterli ərizələrin sayı getdikcə azalır. Məktublarda daha çox xahişlər əks olunur. Kimsə ya maddi yardım istəyir, yaxud da məsələn, xəstə adam istəyir ki, ona kömək olunsun, müalicəyə göndərilsin. Yəni bu təhlil də onu göstərir ki, ölkəmizdə aparılan islahatlar artıq öz bəhrəsini verməkdədir. Şikayət nə qədər az olsa, deməli, rayonda, yaxud da şəhərdə ab-hava, ictimai-siyasi vəziyyət o qədər də yaxşıdır. Mən əminəm və ümid edirəm ki, getdikcə Azərbaycanda problemlər həll olunacaq, insanları narahat edən problemlər aradan qaldırılacaqdır.

Əziz dostlar, bacılar və qardaşlar!

Mən sizi bu gözəl abidənin, muzeyin açılışı münasibətilə bir daha ürəkdən təbrik edirəm. Mən qeyd etdim, artıq bir neçə dəfədir ki, Bərdəyə gəlirəm. Prezident kimi artıq üçüncü dəfədir ki, Bərdədəyəm. Bundan sonra da gələcəyəm, hələ biz bir yerdə çox olacağıq. Belə gözəl açılışlarda çox iştirak edəcəyik. Növbəti dəfə yəqin ki, bir ildən sonra, bəlkə daha da tez, yeni xəstəxananın açılışında görüşəcəyik. Mən xəstəxananı tikdirməklə demək istəmirəm ki, Allah eləməsin, siz xəstələnin, xəstəxanaya gedin. Amma kimsə xəstələnərsə, burada ən yüksək səviyyədə müalicə almalıdır.

Sizi bir daha ürəkdən salamlayıram, öpürəm, bağrıma basıram. Sağ olun.

* * *

## Bərdə şəhərində Müalicə-diaqnostika mərkəzinin təməlinin qoyulması mərasimi

*Azərbaycan prezidenti İlham Əliyev martın 1-də Bərdə şəhərində Dövlət Neft Şirkətinin vəsaiti hesabına inşa ediləcək Müalicə-diaqnostika mərkəzinin təməlinin qoyulması mərasimində iştirak etmişdir*

## Bərdə şəhərində Daxili Qoşunların yeni «N» hərbi hissəsinin inzibati binasının tikintisi ilə tanışlıq

*Azərbaycan prezidenti, Ali Baş Komandan İlham Əliyev martın 1-də Bərdə şəhərində Daxili İşlər Nazirliyi Daxili Qoşunlarının yeni yaradılan «N» hərbi hissəsinin inzibati binasının tikintisi ilə tanış olmuşdur.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ BƏRDƏ, AĞDAM VƏ TƏRTƏR RAYONLARININ SOSİAL-İQTİSADİ İNKİŞAFINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ* NİTQ

*1 mart 2006-cı il*

Mən bu gün səhərdən Qarabağ bölgəsindəyəm və müxtəlif tədbirlər, görüşlər keçirildi. Mən bütövlükdə burada gedən işlərdən razıyam. Bu gün səhər Ağdamda yeni şəhərciyin açılışında iştirak etdik. Uzun illərdir ki, öz doğma torpaqlarından didərgin düşmüş insanlar artıq öz doğma rayonlarına qayıdırlar. Biz o şəhərciyin salınması haqqında qərar verəndə məhz bu amili rəhbər tuturdum ki, Ağdamdan olan məcburi köçkünlər Ağdam rayonu ərazisində məskunlaşsınlar. Ancaq yeni, müasir şəraitdə. Ondan sonra Dağlıq Qarabağın ərazisində, Ağdərə rayonu ərazisində hərbi hissədə oldum, təmas xəttində əsgərlərlə görüşdüm. Sonra Tərtərdə ictimaiyyətlə görüş oldu. Bərdədə çox gözəl tədbirlər keçirildi.

Bütün sahələrdə inkişaf var. Regional inkişaf proqramı da icra olunur. Artıq iki ildir ki, biz bunu icra edirik və iki ilin nəticələri də göz qabağındadır. 340 min yeni iş yeri açılıbdır, onların tam əksəriyyəti rayonlardadır. Kənd təsərrüfatının inkişafında gözəl nəticələr var. «Aqrolizinq» Səhmdar Cəmiyyətinin yaradılması kəndlilərə, fermerlərə böyük dayaqdır. Həm texnika paylanılır,

* Мцшавирядя Бярдя Район Иъра Щакимиййятинин башчысы Елман Аллащвердийев, Аьдам район Иъра Щакимиййятинин башчысы Щясян Сарыйев, Тяртяр Район Иъра Щакимиййятинин башчысы Видади Исайев чыхыш етдиляр.

həm də kreditlər, gübrələr verilir. Bu il özəl sektora veriləcək kreditlərin həcmi təxminən 100 milyon dollardır. Bu, özəl sektora böyük bir dəstəkdir.

Azərbaycan əhalisinin yarısı kəndlərdə yaşayır. Ona görə kəndin problemi də gərək öz həllini tapsın. İndi yeni elektrik stansiyaları tikilir. Astarada tikildi. Ondan sonra Xaçmaz, Şəki, Naxçıvan və Bakıda tikiləcək, demək olar ki, bütün ölkəmizi əhatə edəcəkdir. Bir il ərzində əlavə 450 meqavat enerji mənbəyi yaranacaqdır. Elektrik enerjisinin davamlı verilməsi də, əlbəttə ki, sənaye potensialının artımına gətirib çıxaracaqdır.

Dediyim kimi, regional inkişaf proqramı uğurla icra edilir. Amma yerlərdə yeni məsələlər, yeni problemlər, yeni təkliflər ortaya çıxır. Məsələn, bu gün qeyd etdim ki, biz keçən il qaçqın-köçkünlərə aid olan müşavirədə məsələni müzakirə edəndə Ağdamın icra hakimiyyətinin başçısı məsələ qaldırdı ki, Olimpiya İdman Kompleksi tikilsin. Göstəriş verdim, bu gün onun təməl daşını qoyduq.

Dövlətqaçqınkomun sədri məsələ qaldırmışdı ki, Yuxarı Mil kanalının tikintisi təmin olunsun. Bu işlər görülür. Məsələ qaldırmışdı ki, texnika lazımdır, köçkünlərə 10 kombayn lazımdır. Biz bunu təmin etdik, verildi. Bütün bu məsələləri geniş proqramda nəzərdə tutmaq mümkün deyil. Yəni bu, qeyri-mümkün olan bir şeydir. Ona görə mən həmişə maraqlanıram, soruşuram və sizdən də təkliflər gözləyirəm ki, daha nə kimi işlər görülməlidir, hansı sahəyə daha da böyük diqqət göstərilməlidir. Elektrik enerjisi, qaz, su təchizatı, yol təsərrüfatı, məktəb, xəstəxana və s. baxımından. İndi bizim imkanlarımız var. Bütün rayonlarda bu işlər gedir.

Bu gün Bərdədə müasir diaqnostika-müalicə mərkəzinin təməlini qoyduq. On aydan sonra təhvil veriləcəkdir. Özü də ən yüksək səviyyədə. Yəqin ki, başqa rayonlarda da belə mərkəzlərin tikintisi lazımdır. Məktəblər – indi Azərbaycanda 4500 məktəb var. Bu yaxınlarda müşavirədə Təhsil nazirindən soruşdum, dedi ki, onların 30 faizi yararsız vəziyyətdədir. Demək, haradasa, 1000–1500 məktəb yararsız vəziyyətdədir.

Keçən il 300-dən çox məktəb tikilib, təmir edilibdir. Yəqin ki, bu il də o qədər olmalıdır. Biz çalışmalıyıq ki, 2008-ci ilə qədər, yəni 5 illik proqram başa çatanda bütün məktəblər əsaslı təmir olunsun, yeniləri tikilsin. Səhiyyə ocaqları, mədəniyyət ocaqları, yollar – yəni sosial infrastruktur da həmçinin. O ki qaldı elektrik stansiyalarına, qazpaylayıcı xətlərə, su kəmərlərinə – biz bu işləri mərkəzləşmiş qaydada görürük ki, ölkəmizi tam şəkildə əhatə etsin.

Ona görə mən bugünkü müşavirədə istərdim – indi burada üç rayonun icra hakimiyyətinin başçıları iştirak edirlər – görülən işlər haqqında məruzə edəsiniz, deyəsiniz ki, qısa müddət ərzində əlavə nə kimi tədbirlər görülməlidir.

Bilirsiniz ki, mən rayonlara tez-tez gedirəm. Demək olar ki, hər ay, iki aydan bir bölgələrdə oluram. İndi sizin qaldırdığınız və sabah bizə təqdim edəcəyiniz məsələlər mən növbəti dəfə gələnə qədər gərək öz həllini tapsın.

## YEKUN NİTQİ

Rayonlarda bizi ən çox narahat edən problemləri hamınız qeyd etdiniz. Elektrik enerjisi, qaz, su təchizatı – əsas problemlər bunlardır. Bu istiqamətdə işlər görülür. Qeyd etdiyim kimi, yeni elektrik stansiyalarının tikintisi imkan verəcək ki, enerjiyə olan tələbat tam şəkildə ödənilsin. Eyni zamanda, Azərbaycanda bu ildən başlayaraq yeni qaz yatağı istismara verilir və oradan çıxarılacaq qaz, əlbəttə ki, əhaliyə xidmət edəcəkdir. Yəni bu məsələlərin əksər hissəsi öz həllini 2006-cı ildə tapmalıdır. Amma bununla yanaşı, digər məsələlər var. Siz də bunları qeyd etdiniz. Artezian quyularının qazılması, məktəblərin təmiri, tikintisi, xəstəxanaların tikintisi, yolların salınması – bütün bunlar, əlbəttə, öz həllini tapmalıdır. Yeni iş yerlərinin açılması da həmçinin. Konserv zavodu da tikilməlidir, əlavə kreditlər də verilməlidir. Yəni bütün bunlar gərək dəqiqliyi ilə hesablansın. Öz təkliflərinizi Prezidentin İcra Aparatına, Zeynal Nağdəliyevə təqdim edin. Sizə də tapşırıq

verirəm ki, bu üç rayonun sosial-iqtisadi inkişafına dair əlavə tədbirlər planı hazırlansın və orada bütün məsələlər konkret əksini tapsın: nə vaxt görülməlidir, necə görülməlidir, bunun maliyyə mənbəyi haradan olacaq, nə qədər maliyyə vəsaiti lazımdır ki, biz bunları həll edək. Əlavə vəsait də ayrılacaqdır. Hər şey gərək dəqiqliyi ilə hesablansın və yeni sərəncam çərçivəsində biz bunları həll edək.

Azərbaycanda sosial-iqtisadi problemlər çoxdur. Regionların inkişafı proqramının əsas məqsədi də budur ki, bütün problemlər aradan qaldırılsın. İşlər gedir, yeni iş yerləri açılır, yoxsulluq səviyyəsində yaşayanların sayı aşağı düşür, əməkhaqqı artır. İndi, məsələn, bilirsiniz ki, tikinti sektorunda da çox böyük irəliləyiş var. Əvvəllər çoxlu sayda işsiz adamlar var idi. İndi mən rayonlarda oluram, müxtəlif binaları tikən insanlardan soruşuram, deyirlər ki, kim işləmək istəyirsə, o da özünə iş tapır. Bəzi hallarda ayrı-ayrı firmalar işçi qüvvəsi axtarır, tapa bilmirlər. Biz gərək bütün məsələlərə kompleks şəkildə baxaq. Harada işlər görülür, biz gərək bunu əlaqələndirək. Müəyyən rayonlarda daha çox tikinti aparılır. Deməli, gərək biz insanları səfərbər edib o rayonlara yönəldək. Bu, təbii bir prosesdir. Yenə deyirəm, əgər hər bir rayonun, hər bir kəndin problemi öz həllini taparsa, deməli, ölkədə problem qalmayacaqdır.

Yollar, kənd yolları bərbad vəziyyətdədir. Uzun illərdir ki, vəsait qoyulmur. İndi vəsaitimiz var və bu sahəyə ayrılır. Siz rayonlarda yaşayırsınız, burada rəhbərlik edirsiniz və hər şeyi də bilirsiniz. Nə etmək lazımdır, onu da bilirsiniz. Bəzi işlərə sizin gücünüz çatmır. Təbii ki, siz bizə müraciət etməlisiniz. Əlavə vəsait ayrılacaqdır. Vəsait olan halda hər şeyi etmək mümkündür.

Bilirsiniz ki, bu yaxınlarda yol tikintisinə lazım olan təxminən 15 milyon dollar dəyərində yeni texnika alınıbdır. Ona görə ki, biz bunu rayonlarda yolların tikintisinə yönəldək və bundan istifadə edək. Texnika olan halda, vəsait olan halda bütün işləri görməliyik. Ona görə mən sizə göstəriş verirəm,

rayonun problemlərini həll etmək üçün maksimum nə lazımdırsa bütün təkliflərinizi Zeynal Nağdəliyevə təqdim etməlisiniz ki, biz konkret, dəqiq proqram tərtib edək. O, birillik ola bilər, ikiillik ola bilər. Ondan sonra siz bunu icra etməlisiniz ki, bu problemlər aradan qaldırılsın. Biz bu yolla ölkəmizi, vətəndaşlarımızı narahat edən problemləri həll edərik.

Bizdə enerjiyə olan tələbat ildən-ilə artır. Düzdür, indi yeni elektrik stansiyaları tikilir və bu tələbat ödənilir. Məni bəzi hallarda inandırmağa çalışırlar ki, rayonlarda hər şey yaxşıdır. Amma mən bilirəm ki, belə deyildir. Bilirəm ki, işıq fasilələrlə verilir, qaz verilmir, demək olar ki, rayonun əhalisinin yarısı onu alır, yarısı almır. Bunun, əlbəttə, təbii səbəbləri var. Çünki kifayət qədər qazımız yoxdur. Biz gərək onu xaricdən alaq və istədiyimiz həcmdə də ala bilmirik. Çünki Rusiyadan gələn magistral qaz kəmərlərinin müəyyən gücü var. Lap istəsək də, 4 milyard 500 milyon kubmetrdən çox qaz ala bilmirik. Yəni bu, təbii məhdudiyyətdir. Amma bilirəm ki, bizim öz «Şahdəniz» qaz yatağımız işə düşəndən sonra bu məsələ həll olunacaqdır.

Elektrik enerjisinə gəldikdə isə, burada heç bir məhdudiyyət yoxdur. Çünki biz qazı elektirk stansiyalarına veririk, ondan başqa, mazut da var. Elektrik stansiyaları da tikilir. Nə üçün biz əhalini işıqla istədiyimiz səviyyədə təmin edə bilmirik? Gərək biz bunu araşdıraq. Elektrik stansiyalarında ildə 2 milyon ton mazut yandırılır, ondan əlavə, 5 milyard kubmetr qaz da yandırılır. Yenə də kifayət etmir. Ona görə bu məsələ ciddi araşdırılmalıdır və mənə real məlumat verilməlidir.

Mən həmişə, hər yerdən soruşuram ki, işıq necə verilir. Bəzi yerlərdə yerli icra nümayəndələri deyirlər ki, hər şey yaxşıdır. Məni aldatmaq lazım deyil, hər şeyi dəqiqliyi ilə bilməliyəm. Bu sualı ona görə vermirəm deyəsiniz ki, yaxşıdır, mən də deyəm ki, sağ olun. Sualı ona görə verirəm ki, vəziyyəti bilim. Çünki mən Bakıda oturub bunun hamısını bilə bilmərəm. Aidiyyəti orqanlara sual verirəm, deyirlər ki, yaxşıdır, yaxşılaşır. Yaxşı, bu nə qədər yaxşılaşacaq? Mənə lazımdır ki, hər bir kənddə istənilən vaxtda işıq olsun. Qışda insanlar

üşüməsinlər. Bu, insanlarımızın təbii tələbatıdır. Biz də bunu təmin etməliyik. Əsas məsələlər bunlardır – elektrik enerjisi, qaz, su təchizatı və təbii ki, meliorasiya məsələləri və iş yerləri.

O ki qaldı məktəblərin, xəstəxanaların təmirinə, tikintisinə, bilirsiniz ki, bu işlər artıq Azərbaycanda geniş vüsət alıbdır. Demək olar ki, bu bir yenilik oldu. Uzun illər idi ki, xəstəxanalar tikilmirdi. İndi ən müasir xəstəxanalar tikilir. Bu il və keçən ilin sonunda onların, deyəsən, 5-i və ya 6-sının təməl daşı qoyulubdur. Birinci Lənkəranda, ondan sonra Gəncə, Qazax, Quba, Bərdə, Zaqatala və başqa yerlərdə. Yəni bu sosial infrastruktur yeniləşəcəkdir. Əlbəttə ki, gərək siz yerlərdə bu işləri aparasınız. Mərkəzi icra orqanları ilə daim əlaqədə olasınız. Biz Prezidentin İcra Aparatında da regional məsələlərlə məşğul olan şöbəni möhkəmləndirdik. Çünki orada da islahatlar aparılır. Yeni yanaşmalar mövcuddur və iş təkmilləşibdir. Mən əminəm ki, biz bu işdə ciddi irəliləyişə nail olacağıq.

Hər halda, regional inkişaf proqamının uğurla icra olunması deməyə əsas verir ki, istiqamət düzgün seçilib, işlər də düzgün şəkildə aparılır. Ancaq biz həmişə gərək öz işimizdən narazı olaq. Baxmayaraq ki, uğurlar da var, nəticələr də var, amma problemlər də var və çətinliklər də var. Nə qədər ki, bunlar var, biz öz işimizdən razı ola bilmərik. Ona görə mən sizi çox ciddi işləməyə dəvət edirəm ki, proqram tərtib etdiyimiz kimi icra olunsun və qarşıya yeni çıxan məsələlər öz həllini tapsın.

Siz burada bir neçə ciddi məsələyə toxundunuz. Onların, bu məsələlərin proqramda əksi yoxdur. Çünki iki il bundan əvvəl unudulmuşdu, yaxud da bu məsələlər sonra meydana çıxıbdır, həm də, ümumiyyətlə, bütün məsələləri bir proqramda əhatə etmək mümkün deyildir. Amma indi qaldırdığınız məsələlərə konkret şəkildə baxılacaq, qərarlar qəbul ediləcək və siz də onları icra etməlisiniz. Bu işdə sizə uğurlar arzulayıram.

Bütövlükdə yenə də deyirəm, mən Qarabağ bölgəsində olmağımdan çox məmnunam. Çox istəyirəm ki, Qarabağ bölgəsi daha da inkişaf etsin. O bizim tarixi diyarımızdır, doğma

torpağımızdır. Bura döyüş bölgəsidir, müharibə bölgəsidir, xüsusi diqqət olmalıdır. Bura çox xüsusi münasibət olmalıdır. Burada sosial problemlər olmamalıdır. İşıq həmişə yanmalıdır, qaz olmalıdır, yaxşı sosial infrastruktur olmalıdır.

Qarabağ həmişə möhkəm olsun, Azərbaycanın dayağı olan Qarabağ çiçəklənsin! Uğurlar arzulayıram.

Sağ olun.

**İRLANDİYANIN PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**XANIM MERİ MAKALİSƏ**

Hörmətli xanım Prezident!

İrlandiyanın milli bayramı – Müqəddəs Patrik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı təbrik edirəm.

Əminəm ki, ölkələrimiz arasında yaranmış dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın rifahına xidmət edəcəkdir. Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2006-cı il*

**NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB HİFİKEPUNYƏ POHAMBAYA**

Hörmətli cənab Prezident!

Namibiya Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və bütün xalqınızı təbrik edirəm.

Ümidvaram ki, Azərbaycan ilə Namibiya arasında təşəkkül tapmaqda olan ikitərəfli münasibətlər dostluq və qarşılıqlı anlaşma zəminində inkişaf edəcəkdir.

Sizə ən xoş arzularımı yetirir, dost ölkənizə əmin-amanlıq və yüksəliş diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2006-cı il*

**TUNİS RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB ZEYNULABİDİN BİN ƏLİYƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan–Tunis əlaqələri, ikitərəfli münasibətlərimiz xalqlarımızın mənafeləri naminə daim inkişaf edəcək və genişlənəcəkdir.

Sizə ən xoş arzularımı çatdırır, dost Tunis xalqına sülh və rifah diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2006-cı il*

**PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ**

Hörmətli cənab Prezident!

Pakistan İslam Respublikasının milli bayramı – Pakistan günü münasibətilə Sizə və dost xalqınıza öz adımdan və Azərbaycan xalqı adından səmimi təbriklərimizi yetirməkdən məmnunluq duyuram. Bu gün Azərbaycan ilə Pakistan arasındakı münasibətlərin vəziyyətindən böyük razılıq hissi ilə danışmaq olar.

Əminəm ki, gündən-günə genişlənən əlaqələrimiz, bir çox sahələrdə həyata keçirdiyimiz faydalı əməkdaşlığımız bundan sonra da xalqlarımızın rifahına töhfələr verəcəkdir. Bu bayram günündə Sizə ən xoş arzularımı yetirir, möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost Pakistan xalqına sülh və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2006-cı il*

**BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB İACUDDİN ƏHMƏDƏ**

Hörmətli cənab Prezident!

Ölkənizin milli bayramı – Müstəqillik günü münasibətilə Sizi və Sizin simanızda bütün xalqınızı öz adımdan və Azərbaycan xalqı adından səmimi-qəlbdən təbrik edirəm. Əminəm ki, Azərbaycan–Banqladeş münasibətləri xalqlarımızın iradəsinə uyğun olaraq bundan sonra da dostluq və əməkdaşlıq məcrasında inkişaf edəcəkdir. Sizə ən xoş arzularımı yetirir, dost Banqladeş xalqına əmin-amanlıq və tərəqqi diləyirəm.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2006-cı il*

# ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*3 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 3-də Prezident sarayında Ümumdünya Əqli Mülkiyyət Təşkilatının nümayəndə heyətini qəbul etmişdir.*

*Prezident İlham Əliyev Azərbaycan hökuməti ilə Ümumdünya Əqli Mülkiyyət Təşkilatı arasında əməkdaşlıq haqqında yenicə imzalanan razılaşmanı münasibətlərimizdə ciddi bir addım kimi dəyərləndirdi. Prezident İlham Əliyev dedi ki, ölkəmiz uzun illər başqa sistemdə yaşayıb və ümumilikdə mülkiyyət qiymətləndirilməyib, ancaq dövlət mülkiyyəti olub və hər şey dövlətə tabe idi. Hazırda isə Azərbaycan müstəqildir, bazar iqtisadiyyatı prinsipləri əsasında inkişaf edir.*

*Ümumdünya Əqli Mülkiyyət Təşkilatının Baş direktoru Kamil İdris dedi ki, imzalanan sənəddə nəzərdə tutulanları elə yerinə yetirməliyik ki, ölkənin, xalqın və hökumətin mənafeyinə xidmət etsin.*

*Prezident İlham Əliyev bu sənədin təşkilatla əməkdaşlığımızın möhkəm hüquqi çərçivədə davam etməsinə xidmət göstərəcəyinə əminliyini vurğuladı.*

**YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ**
**ZATİ-ALİLƏRİ**
**CƏNAB KAROLOS PAPULİASA**

Hörmətli cənab Prezident!

Yunanıstan Respublikasının milli bayramı – Müstəqillik günü münasibətilə Sizə və bütün xalqınıza ən səmimi təbriklərimizi yetirirəm.

Ümidvaram ki, Azərbaycan ilə Yunanıstan arasındakı dostluq və əməkdaşlıq münasibətlərinin inkişafı daim xalqlarımızın mənafelərinə xidmət edəcəkdir.

Sizə möhkəm cansağlığı, işlərinizdə uğurlar, dost xalqınıza əmin-amanlıq və firavanlıq arzulayıram.

*Hörmətlə,*

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

Bakı, *3 mart 2006-cı il*

## 8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ AZƏRBAYCAN QADINLARINA TƏBRİK

Hörmətli xanımlar!

Sizi 8 Mart – Beynəlxalq Qadınlar günü münasibətilə səmimi-qəlbdən təbrik edir, hamınıza cansağlığı, ailə səadəti, xoşbəxtlik və uğurlar arzulayıram.

Tariximizə bir çox parlaq səhifələr yazmış Azərbaycan qadınının milli-mənəvi dəyərlər sistemimizin təşəkkülündə və yaşadılmasında müstəsna rolu vardır.

Qadın adını hər bir azərbaycanlı həmişə uca tutmuş, ana məfhumunu Vətənin təcəssümü saymışdır. Azərbaycan qadınının gözəlliyi, sədaqəti, mərdliyi, ana məhəbbətinin ülviliyi xalq yaradıcılığı nümunələrində, görkəmli sənətkarlarımızın əsərlərində dönə-dönə vəsf olunmuşdur.

Böyük mədəni irsə malik olan bir xalq kimi, Azərbaycan xalqı qadının ailədə və cəmiyyətdəki yerinə daim böyük ehtiramla yanaşmışdır. Əlamətdar hadisələrlə səciyyələnən qadın hərəkatı bu gün dinamik inkişaf yolu tutan ölkəmizdə demokratikləşmə və dövlət quruculuğu proseslərində Azərbaycan qadınının fəal iştirakı üçün möhkəm zəmin yaratmışdır. Elm, təhsil, mədəniyyət, səhiyyə və digər sahələrdə qazandığı uğurlar qadınlarımızın nə qədər böyük potensiala malik olduğunu nümayiş etdirir.

Ümidvaram ki, Azərbaycan qadını öhdəsinə düşən bütün vəzifələrlə yanaşı, gənc nəslin doğma torpağa, milli dövlətçiliyə, azərbaycançılıq ideyalarına sədaqət ruhunda tərbiyəsinə daha çox diqqət göstərəcək, xalqa və cəmiyyətə layiqli övladlar yetişdirmək naminə var qüvvəsini sərf edəcəkdir.

Bayramınız mübarək olsun!

**İLHAM ƏLİYEV**
**Azərbaycan Respublikasının Prezidenti**

*7 mart 2006-cı il*

## AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN YAPONİYAYA RƏSMİ SƏFƏRİ

*7 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 7-də Yaponiyaya rəsmi səfərə gəlmişdir.*

*Azərbaycanın və Yaponiyanın dövlət bayraqları ilə bəzədilmiş Tokionun Haneda Beynəlxalq Hava Limanında Prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı Yaponiya hökumətinin yüksək vəzifəli şəxsləri, Azərbaycanın Tokiodakı səfiri Azər Hüseynov və Yaponiyanın Bakıdakı səfiri Tadahiro Abe mehribanlıqla qarşıladılar. Prezident İlham Əliyevə və xanımına gül dəstələri təqdim olundu.*

*Azərbaycan prezidenti İlham Əliyev hava limanından onun üçün ayrılmış iqamətgaha – «İmperial» mehmanxanasına yola düşdü.*

## YAPONİYA BEYNƏLXALQ MÜNASİBƏTLƏR İNSTİTUTUNDA GÖRÜŞ

*8 mart 2006-cı il*

*Martın 8-də Yaponiya Beynəlxalq Münasibətlər İnstitutunda Azərbaycan prezidenti İlham Əliyev ilə görüş keçirilmişdir.*

*Görüşdə Yaponiyanın Təhsil və Elm naziri, ölkənin sabiq Baş naziri, sabiq Xarici İşlər naziri, tanınmış elm xadimləri, nüfuzlu diplomatlar, səfirlər, iş adamları, hərbçilər, Yaponiyanın Bakıdakı keçmiş səfiri, hazırda Yaponiya Xarici Əlaqələr İnstitutunun idarəedici direktoru Toşiyuki Fucivara, Yaponiya ictimaiyyətinin, kütləvi informasiya vasitələrinin nümayəndələri iştirak edirdilər. Ümumiyyətlə, görüşə 120 nəfər dəvət olunsa da, 150-dən çox adam gəlmişdi.*

*İnstitutun prezidenti Yukio Yato Azərbaycan prezidenti İlham Əliyevi və xanımı Mehriban Əliyevanı böyük hörmət və ehtiramla salamladı.*

*Salona toplaşanlar prezident İlham Əliyevi hərarətlə qarşıladılar. Cənab Yukio Yato Azərbaycan prezidentinin tərcümeyi-halı barədə qısa məlumat verdi.*

*Prezident İlham Əliyev görüş iştirakçıları qarşısında geniş mühazirə ilə çıxış etdi.*

Hörmətli xanımlar və cənablar!

Hörmətli dostlar!

İlk növbədə, burada çıxış etmək üçün mənə verdiyiniz gözəl imkana görə sizə minnətdarlığımı bildirirəm. Mən regional vəziyyət haqqında, ikitərəfli münasibətlər və ümumiyyətlə, ölkəmizin ümumi inkişafı haqqında öz fikirlərimi sizinlə bölüşəcəyəm.

Bildiyiniz kimi, mən Yaponiyada rəsmi səfərdəyəm. Bu səhər mənim səfərim başlayıb və bu çox uğurla keçən bir səfərdir. Mənim çox gərgin iş proqramım var və bu səfər çərçivəsində çalışacağam ki, ikitərəfli münasibətlərimizin bütün sahələrinə toxunum. Biz bu münasibətlərin səviyyəsindən çox məmnunuq. Azərbaycan öz müstəqilliyini bərpa etdikdən sonra Yaponiya dərhal onun müstəqilliyini tanıyıb və bizimlə münasibətlər quran ilk ölkələrdən biridir. Həmin vaxtdan etibarən ölkələrimiz arasında çox fəal və səmərəli əməkdaşlıq yaranmışdır. Bu əməkdaşlıq qarşılıqlı hörmətə, marağa və qarşılıqlı dostluq hisslərinə əsaslanır.

İki ölkə arasındakı münasibətlərin inkişafında Azərbaycanın keçmiş prezidenti Heydər Əliyevin Yaponiyaya 1998-ci ildəki səfəri mühüm rol oynamışdır. Statistikaya nəzər salsaq görərik ki, ölkələrimiz arasındakı əlaqələr daha sürətlə inkişaf etmiş, yapon şirkətləri, tərəfdaşlar, sərmayədarlar Azərbaycanın iqtisadiyyatına yüz milyonlarla dollar sərmayə qoymuşlar. Bu, ikitərəfli münasibətlərin bizim üçün nə dərəcədə vacib olduğunu aydın şəkildə nümayiş etdirir. Biz ikitərəfli münasibətlər sahəsində, eyni zamanda beynəlxalq təşkilatlar çərçivəsində fəal əməkdaşlıq edirik, bir-birimizi dəstəkləyirik və qarşılıqlı maraq doğuran məsələlər üzərində işləyirik. Regional əməkdaşlıq məsələlərində işbirliyi qurmuşuq. Azərbaycan regional səviyyədə mühüm ölkələrdən biridir. Biz inkişaf proqramlarını həyata keçiririk və hətta bəzi hallarda regional inkişafın əsas təşəbbüskarlarından biriyik.

Azərbaycanın müstəqillik qazanmasından sonra çox qısa müddət keçmişdir. Söhbət cəmi 15 ildən gedir. Lakin biz çətin anları da yaşamışıq, böhranlarla üzləşmişik, vətəndaş müharibəsini keçmişik. Hazırda isə Azərbaycan sürətlə inkişaf edən ölkəyə çevrilibdir. Azərbaycanda çox ciddi siyasi və iqtisadi islahatlar gedir. Nail olduğumuz inkişaf sürəti apardığımız bu islahatların uğurunun nəticəsidir.

1996-cı ildən etibarən ölkədə siyasi və iqtisadi vəziyyət sabitləşmişdir. Bundan əvvəl bizdə çox böyük iqtisadi çətin-

liklər yaranmışdı. 1996-cı ildən bəri iqtisadiyyatımız çox sürətlə inkişaf edir. Əvvəlcə il ərzində ümumi daxili məhsulun artımı orta hesabla 10 faiz idi. Lakin son illər, xüsusən də ötən il artım çox yüksəkdir. 2005-ci ildə Azərbaycanda ümumi daxili məhsulun artımı 26 faizdən çox olmuşdur. Ümid edirik ki, bu il həmin artım sürəti eyni səviyyədə saxlanılacaqdır. 2005-ci ildə sənaye istehsalı 33 faiz artmışdır ki, bu da dünyada rekord göstəricidir. Beləliklə, ümumi daxili məhsulun və sənaye istehsalının artımına görə Azərbaycan dünyada öncül yerlərdən birini tutur və təbii ki, biz bundan fərəhlənirik. Bütün bu nailiyyətlər Heydər Əliyevin çox düşünülmüş və müdrik iqtisadi siyasətinin nəticəsidir. Bu siyasət davam etdirilir və bunun nəticəsində Azərbaycan güclü iqtisadiyyata malik olan, tərəqqi edən ölkəyə çevriləcəkdir.

Bildiyiniz kimi, iqtisadiyyat hər bir inkişafın təməl daşıdır. Əgər güclü iqtisadiyyat yoxdursa, sosial proqramları və eyni zamanda, müstəqil xarici siyasəti həyata keçirmək mümkün deyildir. Xüsusən də bu, beynəlxalq ictimaiyyət üçün yeni olan ölkədən ötrü olduqca vacibdir. Ölkəmiz vətəndaş müharibəsindən əziyyət çəkmişdir və indi də erməni təcavüzündən əziyyət çəkməkdədir. Şübhəsiz ki, müstəqil xarici siyasətin davam etdirilməsi o qədər də asan iş deyildir. Lakin Azərbaycan buna nail olmuşdur. Bizim siyasətimiz çox şəffaf, açıq və səmimidir və milli maraqlarımıza, tərəfdaşlarımız və dostlarımızla səmimi münasibətlərə əsaslanır. İqtisadi islahatlar siyasətimiz, Azərbaycanın beynəlxalq işlərdə rolu və regional səviyyədəki rolu – bunlar bir-biri ilə bağlı olan məsələlərdir. Ona görə də mən demək istəyirəm ki, biz bütün istiqamətlərdə nəticələrdən fərəhlənə bilərik.

Artıq bildirdiyim kimi, iqtisadi göstəricilərimiz yüksəkdir. 1994-cü ildən biz Azərbaycanda yeni neft strategiyasının həyata keçirilməsinə başladıq. Bu strategiya prezident Heydər Əliyev tərəfindən müəyyən edilmişdir və hazırda çox müsbət nəticələr verir. Azərbaycan iqtisadiyyatına milyardlarla dollar qoyulmuş və biz adambaşına düşən birbaşa xarici sərmayələrin həcminə

görə regionda hələ də birinci yerdəyik. Biz çox əlverişli biznes mühitinin yaradılmasına nail olduq və sərmayədarlar ölkəmizdə özlərini çox rahat hiss edirlər.

Beləliklə, neft strategiyası region səviyyəsində Azərbaycanın əhəmiyyətini daha da artırdı. Bu strategiya bizim milli sərvətlərimizdən istifadə etməyə imkan yaradır. Bununla yanaşı, regional əməkdaşlıq proqramlarında təşəbbüskar ölkə kimi çıxış etməyə imkan verir və Xəzərin karbohidrogen ehtiyatlarının dünya bazarlarına çıxarılması, habelə mühüm sosial proqramların həyata keçirilməsi üçün imkanlar açır. Çünki biz hökumət olaraq xalq üçün işləyir, xalqın həyat tərzinin yaxşılaşdırılması üçün çalışırıq. Ona görə də Azərbaycanın müasir tarixində bizim neft siyasətimizin xüsusi yeri var. Yəni enerji siyasəti, iqtisadi siyasət və ümumi siyasət arasında fərq qoymaq mümkün deyildir. Bunların hamısı bir-biri ilə bağlıdır və Azərbaycanda biz bütün bu məsələlərə kompleks şəkildə baxırıq.

Regionda təkcə yaxşı mövqeyə və yaxud karbohidrogen yataqlarına malik olmaq hələ tam kifayət deyildir. Çünki biz bilirik ki, neft və qazla zəngin olan ölkələrin heç də hamısı uğur əldə edə bilməmişdir. Ona görə qarşımızda duran vəzifələrdən biri artıq buraxılmış səhvləri təkrarlamamaqdan ibarət olmalıdır. Bu məqsədlə Neft Fondu yaradılmışdır. O çox şəffaf bir qurumdur. Açıq və beynəlxalq səviyyədə auditdən keçən təsisatdır və onun əsas məqsədi insanların rifahına və daha çox sosial proqramlara yardım etməkdən ibarətdir.

Regional vəziyyətə gəldikdə, bildiyiniz kimi, bu o qədər də sadə deyildir. Regionda keçmişdə hərbi əməliyyatlar olmuşdur və münaqişələr hələ də mövcuddur və burada yerləşən bütün ölkələr bunu hiss edir. Lakin Azərbaycan sabitlik məkanıdır. Ölkəmizdə siyasi, sosial və iqtisadi sabitlik mövcuddur. Qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var, onlarla heç bir problemimiz yoxdur. Biz beynəlxalq təşkilatlarda fəal iştirak edirik. Eyni zamanda, regional təşkilatlarda fəaliyyət göstəririk. Azərbaycan həmin təşkilatlarda mühüm rol oynayır.

Artıq qeyd etdiyim kimi, biz siyasətimizi, ilk növbədə, milli maraqlarımıza uyğun müəyyənləşdirir və həyata keçiririk. Məmnunluq hissi ilə bildirmək istəyirəm ki, biz bütün əsas problemləri, bəlkə o qədər də ciddi olmayan, lakin həllini gözləyən, keçmişdə olan problemlərin hamısını qonşularımızla həll edə bilmişik. Regional sabitlik, regional sülh və əməkdaşlıq inkişaf üçün ən mühüm ilkin şərtlərdən biridir.

Azərbaycan cəlbedici bir ölkədir. Azərbaycanın əlverişli coğrafi mövqeyi, zəngin təbii sərvətləri var və biz buna xüsusi diqqət yetiririk. Müxtəlif ölkələr və təşkilatların Azərbaycana diqqəti artır. Bəzi hallarda, Azərbaycana aid olan məsələlərdə maraqlar hətta toqquşur. Lakin bizim əsas məqsədimiz rəqabət yox, əməkdaşlıq ruhunun yaradılmasıdır. Dostluq ruhunun tam bərqərar olunmasıdır. Biz istəmirik ki, Azərbaycan digər ölkələrin mübarizəsi yerinə çevrilsin. Azərbaycan elə bir ölkədir ki, orada şirkətlər və dostlar əməkdaşlıq edə bilər və bu, qarşılıqlı fayda üçün edilməlidir. Əgər əməkdaşlıq ruhunda fəaliyyət göstərilsə, hamı bundan bəhrələnəcəkdir. Əgər biz diqqətimizi əsasən öz məsələlərimizə yönəltsək, digər ölkənin, qonşunun daxili işlərinə müdaxilə etməsək, daha təhlükəsiz şəraitdə yaşayacağıq. Bu bizim fəlsəfəmizdir. Bu bizim siyasətimizin əsasını təşkil edir və düzgün yoldur. Çünki bizim təcrübəmiz onu göstərir ki, əgər yaxşı əməkdaşlıq və dostluq ruhunda işləyiriksə, ciddi yanaşma ilə işləyiriksə və digərlərinin işlərinə müdaxilə etmiriksə, çox yaxşı nəticələrimiz olur. Bu özünü iqtisadi əməkdaşlıqda, iqtisadi göstəricilərdə, sosial sabitliyin bərqərar olunmasında və regional təhlükəsizlik məsələlərində göstərir. Çünki regional sülh və təhlükəsizlik bizim üçün çox vacib olan məsələdir. Bu, sadəcə, beynəlxalq həyata aid olan məsələ deyildir. Eyni zamanda, bu bizim həyatımızın, təhlükəsizliyimizin əsasını təşkil edir. Ona görə də mən əminəm ki, gələn illər ərzində bu ənənə davam edəcək və Azərbaycan bu istiqamətdə daha da fəal olacaqdır.

İqtisadi inkişaf, siyasi inkişaf, cəmiyyətin demokratikləşməsi prosesi – bunlar hamısı paralel getməlidir. Digər məsələləri

yaddan çıxararaq, yalnız bir məsələ üzərində işləmək olmaz. Yalnız paralel olaraq işləməklə məsələləri irəliyə doğru aparmaq lazımdır. Xüsusən də əgər Azərbaycandan söhbət gedirsə, uzun illər ərzində o, dövlətçilik imkanlarından məhrum olmuşdu, digər dövlətin bir hissəsi idi və tamamilə fərqli bir vəziyyətdə və ölkədə yaşamışdır. Totalitar rejim hökm sürürdü. Ona görə də totalitarizmdən demokratiyaya keçid bizim gələcəyimiz üçün sınaqdır.

Biz hazırda çox mühüm mərhələni keçməkdəyik. Bu, Azərbaycanın gələcəyinə yönəlibdir. Sovet İttifaqı dağıldıqdan sonra Azərbaycanın müstəqil ölkə kimi yaşamağa başlamasından cəmi 15 il keçib və biz indi tamamilə fərqli bir vəziyyətdəyik. Sovet İttifaqı dağıldıqdan sonra bütün keçmiş sovet respublikaları oxşar vəziyyətə düşdü və onlar özlərinin iqtisadi siyasətini uğurla həyata keçirməyə çalışırdılar. Son illər ərzində iqtisadi potensialımız bərpa edilmişdir. Azərbaycanda indiki iqtisadi potensial 1990-cı illərdə müşahidə olunmuşdur. O vaxt hələ Sovet İttifaqı mövcud idi. Lakin siyasi baxımdan biz indi tamamilə başqa bir cəmiyyətdə yaşayırıq. Cəmiyyətimiz azaddır, öz taleyimizi özümüz həll edirik. Beynəlxalq birliyin, beynəlxaq təşkilatların üzvüyük və müstəqilliyimiz bizim üçün ən böyük sərvətdir.

Ona görə də biz özümüzü qorumalıyıq, həm siyasi, həm də iqtisadi cəhətdən güclənməliyik, xarici siyasət vasitəsilə, ənənəvi tərəfdaşlarımızla və dostlarımızla münasibətlərin gücləndirilməsi siyasəti vasitəsilə möhkəmlənməliyik. Gələcəkdə bu meyl daha da güclənəcəkdir. Ölkə daha güclü olacaq, xalqımız daha yaxşı yaşayacaqdır. Bu bizim iqtisadi siyasətimizin əsas məqsədlərindən biridir. Yoxsulluğun aradan qaldırılması və işsizliyin qəbul olunan səviyyəyə qədər aşağı salınması vacib məqsəddir. Biz bu istiqamətlərdə irəliləyişə nail olmuşuq. Son iki il ərzində Azərbaycanda 340 min yeni iş yeri açmışıq. Bu da bizim apardığımız siyasətin uğurundan xəbər verir. Eyni zamanda, yoxsulluq şəraitində yaşayan insanların sayı sürətlə aşağı düşməyə başlamışdır. Belə bir şəraitdə biz

uğurlarımızdan istifadə edərək, sosial inkişaf proqramlarını həyata keçirməkdəyik. Bu baxımdan bizi narahat edən ən mühüm məsələ qaçqınların və məcburi köçkünlərin vəziyyətidir.

Bildiyiniz kimi, Azərbaycan uzun illərdir ki, qonşu Ermənistanın təcavüzünə məruz qalmışdır. Ermənistan indi də ərazimizin 20 faizini işğal altında saxlayır. Onlar işğal olunmuş ərazimizdə etnik təmizləmə siyasəti aparmışlar və bunun nəticəsində 1 milyondan çox azərbaycanlı qaçqın və məcburi köçkün vəziyyətinə düşmüşdür. Azərbaycan hökuməti bu məsələni nəzarətdə saxlayır və çalışır ki, həmin insanlara yardım göstərsin. Biz çox ciddi sosial proqramlar həyata keçiririk ki, həmin insanların həyatı yaxşılaşsın. Lakin bu, asan iş deyildir. Ola bilsin ki, dünyada ən böyük sayda qaçqınlar və məcburi köçkünlər bizim ölkədədir. Bunların sayı 1 milyondan çoxdur. Bu çox böyük iqtisadi və sosial gərginlik yaradır, eyni zamanda, ciddi siyasi problemdir. Biz çalışırıq ki, bu məsələni həll edək. Baxmayaraq ki, az qala 20 ildir münaqişə həll olunmayıbdır.

Biz sülh prosesinə sadiqik. Hələ də ümid edirik ki, bu məsələni beynəlxalq hüququn norma və prinsiplərinə uyğun olaraq həll edə bilərik. Bu, Azərbaycan üçün ən əsas məsələdir və ona görə də Azərbaycan danışıqlarda iştirak edir. Bu danışıqlar ATƏT-in Minsk qrupu vasitəsilə həyata keçirilir. Bu qrupun həmsədrləri Fransa, Amerika və Rusiyadır. Bu problemin əsası separatizmdir. Yəni, Azərbaycanın ərazisini ondan qoparıb Ermənistana birləşdirmək istəyirlər. 1980-ci illərin sonları – 1990-cı illərin əvvəllərində Ermənistan silahlı qüvvələri Azərbaycanın ərazisini işğal etmişdir. Biz əminik ki, siyasi, hüquqi və tarixi nöqteyi-nəzərdən həqiqət, ədalət bərpa olunacaqdır. Çünki tarixi baxımdan Dağlıq Qarabağ heç vaxt Ermənistanın ərazisi olmamışdır. Ermənilər o yerlərdə yaşamamışlar, çar Rusiyasının qərarı ilə oraya köçürülmüşlər. Bu, XIX əsrin birinci yarısında baş vermişdir. Hətta həmin

yerin toponimlərinə nəzər salsanız, orada ermənilərin heç bir izini tapa bilməzsiniz.

Dağlıq Qarabağın mərkəzi Xankəndi adlanan şəhərdir. Bu, «xanın kəndi» deməkdir. Sovetlər vaxtında həmin şəhərin adını dəyişdirib Stepanakert qoymuşlar, bolşevik Stepan Şaumyanın adını daşıyan bir şəhər olmuşdur. O da ermənidir. Yenə deyirəm, tarixi baxımdan bu yer heç vaxt Ermənistana məxsus olmamış və ermənilər burada yaşamamışlar. Onlar buraya köçürülmüşlər və sonralar yerlərin, tarixi abidələrin adını dəyişmişlər. Daha sonra, onlar çoxluq təşkil etdikdən sonra separatizmə can atdılar. Bu separatizm meylləri Sovet İttifaqının digər yerlərində də baş vermişdir. Gürcüstanda, Moldovada da eyni səbəbdən belə bir münaqişələr yaranmışdır. Cənubi Osetiya, Abxaziya və Dnestryanı bölgə münaqişələrinin də eyni səbəbləri var, onlar eyni qüvvələr tərəfindən, separatçı qüvvələr tərəfindən dəstəklənir. Bunun nəticəsində yerli əhaliyə qarşı etnik təmizləmə aparılmış, ölkələrin ərazi bütövlüyü pozulmuş və nəticədə torpağı işğal olunmuşdur. Bu, məsələnin tarixi tərəfidir.

Yaxın tarixə nəzər salsaq, gəlin ona hüquqi nöqteyi-nəzərdən baxaq. Azərbaycanın ərazi bütövlüyü bütün təşkilatlar tərəfindən tanınıbdır. Azərbaycan Birləşmiş Millətlər Təşkilatına ümumi bir ölkə kimi, Dağlıq Qarabağ da daxil olmaqla qəbul edilmişdir. BMT də Azərbaycanın ərazi bütövlüyünü tanımışdır. Bizim ölkənin ərazi bütövlüyünü tanımayan yeganə ölkə Ermənistandır. Yəni, hüquqi nöqteyi-nəzərdən Dağlıq Qarabağın Azərbaycanın bir hissəsi olması heç cür şübhə altına alına bilməz və münaqişə yalnız bu əsaslarla həll edilməlidir. Beləliklə, Azərbaycanın ərazi bütövlüyü bərpa olunmalıdır. Biz Dağlıq Qarabağda yaşayan ermənilərə mümkün olan ən yüksək muxtariyyət statusu verməyə hazırıq.

Siz bilirsiniz, dünya təcrübəsi, Avropada olan təcrübə onu göstərir ki, muxtariyyətlər var, milli azlıqlar mövcuddur. Ancaq milli azlıqlar varsa, bu o demək deyil ki, onların bir ölkənin torpağını qoparıb həmin ölkənin ərazi bütövlüyünü pozmaq

hüququ var. Muxtariyyətlə bağlı çox yaxşı təcrübə mövcuddur, milli azlıqlar var və biz eyni həll yolunu təklif edirik. Bu muxtariyyəti Dağlıq Qarabağda yaşayan ermənilər üçün də nəzərdə tuturuq. Lakin Ermənistanın məntiqinə varsaq, o hesab edir ki, Dağlıq Qarabağda olan ermənilər öz müqəddəratını təyin etmək istəyirlər. Prinsip etibarilə millətlərin öz müqəddəratını təyin etmək hüququ düzdür. Lakin bu halda həmin yanaşma düzgün deyildir. Çünki ermənilər bir xalq kimi, artıq öz müqəddəratını təyin ediblər. Yəni erməni dövləti mövcuddur. Təsəvvür edin ki, əgər ermənilər istədikləri yerlərdə, yaşadıqları yerlərdə, dünyanın müxtəlif guşələrində bu hüquqdan istifadə edərək, öz müqəddəratını təyin etsələr nələr baş verər? Hətta Minsk qrupunun həmsədrləri olan ölkələrdə – Fransada, Birləşmiş Ştatlarda, Rusiyada ermənilər yaşayırlar, Yaxın Şərqdə, Qafqazda, digər ölkələrdə də yaşayırlar. Əgər onlar bu cür qərar versələr ki, istədikləri yerlərdə öz müqəddəratını təyin etmək istəyirlər, onda nələr baş verər?! Bu heç cür qəbuledilməzdir və Azərbaycan heç vaxt buna razılıq verməyəcəkdir.

Mən artıq Azərbaycanın razılaşacağı məsələlər haqqında danışdım. Yəni bizim mövqeyimiz dəyişməz olaraq qalır. Azərbaycanın ərazi bütövlüyü danışıqlar mövzusu ola bilməz. Azərbaycanın zəbt olunmuş torpaqları danışıqlar yolu ilə azad edilməli, bir milyon azərbaycanlı qaçqın və məcburi köçkün öz doğma yurd-yuvasına qayıtmalıdır. Biz Dağlıq Qarabağ bölgəsində yaşayan ermənilərin və oraya qayıdacaq azərbaycanlıların təhlükəsizliyinə zəmanət verə və Dağlıq Qarabağın statusunu Azərbaycanın ərazi bütövlüyü çərçivəsində müəyyən edə bilərik. Məhz bu mövqeyə əsaslanaraq, mən prezidentlərin görüşlərində iştirak etdim və xarici işlər nazirlərinin də görüşləri davam edir. Lakin əfsuslar olsun ki, heç bir nəticə yoxdur. Ona görə də biz bir-birimizdən soruşmalıyıq: bu danışıqlar nəticəsiz olaraq nə qədər davam edə bilər?Yəni, hər bir prosesin sonu olmalıdır, dünyada hər bir şeyin sonu var. Biz sülh yolu ilə nizamlanmaya sadiqik. Lakin

biz əlavə beş il, on il gözləyə bilmərik ki, nizamlanma yolu tapılsın. Biz aydın şəkildə bilməliyik ki, vəziyyət nə yerdədir. Yəni vəziyyəti aydınlaşdırmalıyıq və bizim hansı vəziyyətdə olduğumuzu dünya ictimaiyyətinə çatdırmalıyıq. Əgər biz sülh yolu ilə, beynəlxalq prinsiplərə əsaslanaraq nizamlanmanı istəyiriksə, çalışmalıyıq ki, bütün imkanlardan istifadə edilməklə bu istiqamətdə nəticələr əldə olunsun. Əgər bu istiqamətdə nəticə əldə edə bilməsək, onda biz siyasətimizi və strategiyamızı yenidən nəzərdən keçirib yeni yanaşmalar axtarmalıyıq.

Qafqazda münaqişələr məsələsi, o cümlədən Ermənistan ilə Azərbaycan arasında olan münaqişə elə məsələdir ki, bu, regional sabitlik, regional inkişaf üçün təhlükədir. Regionda normal və firavan həyat üçün ən böyük maneədir. Biz bunu aradan qaldırmalıyıq. Bütün bu münaqişələr keçmişdən qalan mirasdır. Sovet İttifaqı dağıldıqdan sonra biz hamımız müstəqil olduq. Lakin bu münaqişələr qaldı. Bu münaqişələr öz həllini tapmalıdır. Həll olunmamış münaqişələr gələcəkdə də qalsa, işlər çətin olacaqdır. Artıq biz XXI əsrdə yaşayırıq. Ona görə də, əlbəttə ki, beynəlxalq ictimaiyyət bu sahədə daha fəal rol oynamalıdır. Bəzən bizə deyirlər ki, gəlin iki ölkə öz aranızda razılaşın. Yox, bu yol işləmir. Biz məsələyə dəqiq aydınlıq gətirməliyik – nə baş verib, təcavüzə birinci kim başlayıb, kim kimin ərazisini zəbt edib, kim etnik təmizləmə siyasəti aparıbdır. Sonra isə çox aydın şəkildə nəticəni nəzərə alaraq, münaqişənin beynəlxalq prinsiplər əsasında həllinin yolunu tapmalıyıq. Mən hesab edirəm ki, biz bu yolla irəliyə gedə bilərik.

Regional inkişaf və əməkdaşlığa gəldikdə, bu hazırda beynəlxalq birlik üçün də vacib bir məsələyə çevrilir. Xəzər hövzəsi, Xəzərin təbii sərvətləri, daha geniş regionda olan proseslər – bütün bunlar dünyada ümumi vəziyyətə təsir göstərir. Hazırda biz çox həssas və həlledici mərhələyə yaxınlaşırıq ki, regionda və dünyada gələcək meylləri müəyyən edə bilək. Bir daha deyirəm ki, Azərbaycan regional əməkdaşlığa sadiqdir

və bu əməkdaşlığın möhkəmləndirilməsi üçün çox yaxşı imkanlar vardır.

Biz nəhəng transmilli, çoxmilyonlu dollarlıq layihələrin həyata keçirilməsi ilə məşğuluq. Bunlar enerji ilə bağlıdır. Azərbaycanın Xəzərdəki sektorundan neft və qazın dünya bazarlarına nəql edilməsini nəzərdə tutur və artıq bu, reallığa çevrilir. İki il bundan əvvəl insanlar bəzən buna bir əfsanə kimi baxırdılar. Hazırda isə bu, reallığa çevrilməkdədir. Boru kəmərləri beynəlxalq tərəfdaşlar vasitəsilə tikilir və bu yaxınlarda bizim sərvətlərimiz dünya bazarlarına çatdırılacaqdır. Eyni zamanda, Xəzərin şərq sahilində yerləşən qonşular Azərbaycan və Avropa ölkələri arasında əməkdaşlığa zəmin yaradacaqdır. Azərbaycan Asiya və Avropa arasında körpüdür. Biz tarixi İpək Yolunun mərkəzində yerləşirik və çox mühüm nəqliyyat infrastrukturumuz var. Biz bunu daha da müasirləşdirməliyik. Azərbaycandan keçən nəqliyyat dəhlizi vasitəsilə nəinki karbohidrogenlərin, eyni zamanda, bütün malların daşınmasını mümkün etməliyik. Bu, iqtisadi baxımdan fayda gətirən bir layihədir.

Bildiyiniz kimi, regionda və eyni zamanda Avropa ölkələrində qazla bağlı müəyyən problemlər yaranmışdı. Biz bu sahədə də çox böyük təchizatçıya çevrilə bilərik. Azərbaycan 1 trilyon kubmetrə yaxın ehtiyatı olan yataqlardan hasil ediləcək qazı dünya bazarlarına çıxarmaq iqtidarında olacaqdır. Bu da regionda qaz boru kəməri məsələsini vacib edir. Enerji, təhlükəsizlik, nəqliyyat, regional əməkdaşlıq məsələləri – bütün bunlar Azərbaycanın iştirak etdiyi sahələrdir və Azərbaycan bu baxımdan mühüm, hətta müəyyən hallarda təşəbbüsü irəli sürən ölkədir. Bu sahələrdəki fəaliyyətimiz onu göstərir ki, işlərimiz və son nəticələr uğurlu olacaqdır. Bu, ölkəmizin daha da yaxşı tanınmasına, ölkəmizin iqtisadi inkişafına və regionda siyasi sabitliyin bərqərar olunmasına xidmət edir.

Biz hansı istiqamətdə addımlayırıq, gələcəkdə ölkəmizi necə görmək istəyirik? Şübhəsiz ki, bizim bir çox planlarımız var. Biz ölkəmizi möhkəmləndirməliyik, onun iqtisadiyyatını

gücləndirməliyik. Bunun üçün bütün imkanlar var, təbii sərvətlərimiz var. Biz bunu dünya bazarlarına çıxara bilərik. Azərbaycan artıq xeyli maliyyə resurslarına malikdir. Ölkəmizin bir çox böyük problemlərini həll edə bildik. Eyni zamanda, təhlükəsizlik və sabitlik üçün çox vacib rol oynayırıq, dünyada bir sıra sülhyaratma əməliyyatlarında iştirak edirik. Biz terrorizmə qarşı mübarizədə fəalıq. Regionda təhlükəsizlik məsələlərində yaxından iştirak edirik.

Siyasi münasibətlərə gəldikdə, Azərbaycanın əhəmiyyəti get-gedə daha da artacaqdır. Artıq qeyd etdiyim kimi, bizim yaxşı münasibətlərimiz var. Biz beynəlxalq təşkilatlarda yaxşı mövqelərə malikik. Avropa təşkilatlarında, regional təşkilatlarda, müsəlman dünyasının təşkilatlarında özümüzə məxsus yerimiz var, biz tanınırıq, bizə etimad göstərilir və hörmət edilir.

Gələcəkdə, eyni zamanda dini dözümlülük baxımından da ölkənin əhəmiyyəti artacaqdır. Çünki Azərbaycan elə bir ölkədir ki, burada bütün dinlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Biz sivilizasiyaların dialoqu haqqında da danışa bilərik. Çünki bəzi hallarda dini zəmində təxribatlar da törədilir. Lakin Azərbaycan dini dözümlülük, etnik dözümlülük baxımından yaxşı nümunədir. Azərbaycan çoxmillətli ölkədir, burada bütün millətlərin nümayəndələri sülh şəraitində yaşayırlar. Bu, beynəlxalq təşkilatlar çərçivəsində əməkdaşlığımızın da yaxşı bir elementidir.

Siz bilirsiniz ki, biz sosial inkişaf baxımından nəyi planlaşdırırıq. Çox müasir, təfərrüatlı sosial-iqtisadi inkişaf proqramları tərtib edirik, infrastrukturun inkişafını planlaşdırırıq. Biz proqramları çox dəqiq formada həyata keçiririk. Hər bir proqramın özünün məzmunu, cədvəli var və heç bir yubanma olmadan həyata keçirilir. Dediyim kimi, ötən il ümumi daxili məhsulun artımı 26 faizdən çox, sənaye istehsalının artımı 33 faiz olmuş, əhalinin gəlirləri 27 faiz səviyyəsində artmışdır. Orta aylıq əməkhaqqının səviyyəsi yüksəlmişdir. Bütün bunlar yaxşı nəticələrdir və real şəkildə təsirini göstərir. Əgər hər hansı bir

işə başlayırıqsa, buna müəyyən müddət lazımdır. Bu, proqramın, işin miqyasından asılıdır. Ona görə vaxt artıq yetişib ki, biz iqtisadi siyasətimizin, siyasi baxışlarımızın faydasını görək. Azərbaycan buna nail olubdur.

Əgər biz gələcəyə baxsaq görərik ki, Azərbaycan beynəlxalq birliyə tam inteqrasiya olunubdur. Azərbaycan demokratik ölkədir, bütün azadlıqlar təmin edilibdir. Ölkəmiz siyasi, iqtisadi cəhətdən güclüdür. Biz regional işlərdə – həm iqtisadi əməkdaşlıq baxımından, həm təhlükəsizlik baxımından, həm də sosial sahədə güclüyük. Ölkə dostları ilə özünün səmərəli əməkdaşlığını davam etdirmək istəyir.

Mən bir daha bildirmək istəyirəm ki, Yaponiya ilə Azərbaycan arasındakı münasibətlərin çox yaxşı tarixi vardır. Artıq bildirdiyim kimi, Azərbaycan müstəqilliyini bərpa etdikdən sonra, xüsusən də son on il ərzində biz çox yaxşı, geniş münasibətlər qura bilmişik. Siyasi münasibətlərimiz çox yüksək səviyyədədir. İqtisadi əlaqələrimiz də güclənir. Yaponiya Azərbaycana kreditlər ayıran ölkədir. 700 milyon dollar səviyyəsində kredit ayırmışdır. 70 milyon dollar səviyyəsində qrantlar ayırmışdır. Yaponiya Azərbaycanda ən böyük sərmayədarlardan biridir. Yapon şirkətləri Azərbaycanın müxtəlif sektorlarında işləyir.

Bu gün səhər Azərbaycan–Yaponiya iqtisadi forumunda iştirak etdik. Orada hər iki ölkənin biznes dairələri mövcud olan yeni imkanları araşdırdılar. Gördülər ki, bütün sahələrdə işlər artmaqdadır. Hər bir sahə inkişaf mərhələsindədir. Ona görə də gələcək əməkdaşlıq üçün çox yaxşı imkanlar var. Bizim üçün çox yaxşı olardı ki, Yaponiya şirkətləri ilə sıx əməkdaşlıq edək. Çünki biz bir-birimizi tanıyırıq, bir-birimizə etimad göstəririk. Eyni zamanda bildirmək istəyirəm ki, dünyanın bir çox yerlərindən şirkətlər Azərbaycana gəlib fəaliyyət göstərirlər. Deyə bilərik ki, Yaponiya şirkətləri də gəlib cəmiyyətimizə çox yaxşı qovuşmuşlar və çox yaxşı mövqelərə malikdirlər. Bizim aramızda, yaponlar və azərbaycanlılar arasında çox yaxşı anlaşma var. Bizim zəngin adət-ənənələrimiz var. Hər iki xalq

yaşlı nəslə hörmətlə yanaşır. Bizim bir-birimizə qarşı səmimi hisslərimiz var. Bu da özlüyündə bizi bir-birimizə daha da yaxınlaşdırır. Ümid edirəm ki, mənim səfərim, keçirdiyim görüşlər, apardığım müzakirələr gələcək əməkdaşlığa xidmət edəcəkdir. Azərbaycan Yaponiyanın etibarlı dostu olacaq və biz gələcəkdə hər iki ölkənin xalqı üçün çalışacağıq.

Çox sağ olun.

**Y u k i o  Y a t o:** Mühazirə başa çatdı, indi suallarınızı verə bilərsiniz. Xahiş edirik, sualınızı verməzdən əvvəl özünüzü təqdim edin.

**O s a k a  K e n c i:** Mənim adım Osaka Kencidir. İndi hörmətli prezidentin nitqini dinlədim. Çox dərin mənalı nitq idi. Cənab Prezident, Sizin fəaliyyətiniz haqqında məlumatımız var. Biz bilirik ki, Siz dünyada sülhün bərqərar olması yolunda fəaliyyət göstərirsiniz. Bundan başqa, biz bilirik ki, ölkənin, xalqın lideri kimi, iki il bundan əvvəl prezident seçilmisiniz. Ölkənin mövcud olan problemlərinin tam aradan qaldırılması üçün yorulmaz fəaliyyət göstərirsiniz. Ölkə daxilindəki hər hansı çətinliklərin həlli üçün öz gücünüzü əsirgəmirsiniz. Bilirik ki, fəaliyyətinizin çox hissəsini məhz Azərbaycan xalqının rifahının daha da yaxşılaşmasına yönəldirsiniz. Biz bilirik ki, bu o qədər də asan iş deyildir. Onu da bilirik ki, Yaponiyanın korporasiyaları və şirkətləri ölkənizdə fəaliyyət göstərir. Bu haqda məlumatımız var. Azərbaycan ilə Yaponiya arasındakı əlaqələrin daha da yaxşılaşdırılmasına dair fikirlərinizi eşitməkdən çox məmnunuq.

Səkkiz il bundan əvvəl Yaponiyada keçirilmiş Olimpiya oyunları zamanı mən Sizin atanız prezident Heydər Əliyevlə görüşməyə nail oldum. O vaxt prezident mənə Azərbaycanın mədəniyyəti, Azərbaycanla Yaponiya arasındakı oxşarlıqlar haqqında danışdı. Mən də Azərbaycan–Yaponiya əlaqələrinin daha da inkişafını dəstəkləyirəm.

**S u a l: Mənim adım Araitodur. Biz bilirik ki, Azərbaycan öz potensialı, gücü və təbii sərvətləri hesabına**

**dövlətçiliyin möhkəmlənməsi sahəsində böyük nailiyyətlər əldə edə bilmişdir. Eyni zamanda, biz bilirik ki, Azərbaycan hazırda çox nəhəng enerji layihəsinin başa çatdırılması ərəfəsindədir. Bilirik ki, dünyada ən uzun hesab olunan boru kəməri çəkilməkdədir. Bu boru kəməri Azərbaycanın yataqlarından hasil olunan enerji daşıyıcılarını dünya bazarlarına çıxaracaqdır. Bu, Azərbaycanın uğurunun, əldə etdiyi nailiyyətlərin bariz nümunəsidir.**

**Müstəqilliyini bərpa etdikdən sonra Azərbaycan dövlətçilik yolunda böyük uğurlar əldə etmişdir. Amma bizi narahat edən digər bir məsələ də var ki, 1988-ci ildən 1994-cü ilə qədər Azərbaycan olduqca böyük problemlərlə üzləşmişdir. Hazırda Azərbaycan torpaqlarının 20 faizi Ermənistanın işğalı altındadır. Bu problem danışıqlar yolu ilə həll olunmalıdır. Mənim sualım ondan ibarətdir ki, əgər bu məsələ sülh yolu ilə öz həllini tapmasa, cənab Prezident, Siz bunun üçün digər yeni bir strategiya seçə bilərsinizmi?**

**İ l h a m Ə l i y e v:** Sizin sualınızın birinci hissəsinə gəldikdə, onu demək istəyirəm ki, boru kəmərlərinin tikintisində bizim əsas məqsədimiz hansısa ölkənin ərazisindən kənar keçməkdən ibarət deyildi. Bizim əsas məqsədimiz öz neftimizi dünya bazarlarına çıxarmaqdan ibarət idi. Əvvəl bizim iki boru kəmərimiz var idi. Onların hər ikisi Qara dənizə gedirdi. Biri Rusiyanın ərazisindən, digəri isə Gürcüstan ərazisindən keçir. İstədiyimiz qədər nefti ixrac etmək məqsədi ilə biz üçüncü boru kəmərinin tikintisinə qərar verdik ki, bu da Aralıq dənizinə çıxışı təmin edir. Bu bizim üçün çox vacib bir layihədir.

Mən bilirəm, mətbuatda bəzi müəyyən məqalələr yazılır, məlumatlar gedir, bu məsələyə daha çox siyasi məna verməyə çalışırlar. Yox, biz bu məsələni siyasiləşdirmək istəmirik. Bu bizim üçün iqtisadi layihədir, kommersiya xarakteri daşıyan layihədir, xarici şirkətlər bu layihəyə milyardlarla dollar qoyublar. Azərbaycanın özü sərmayə kimi təqribən 1 milyard dollar qoyubdur. Bu layihə Azərbaycan xalqına xidmət edəcək və sərmayədarlar da bunun bəhrəsini görəcəklər. Eyni zamanda,

artıq dediyim kimi, bu bizim üçün çox böyük bir məsələ idi. Çünki bu, dünyada nadir bir layihədir ki, özünə milyardlarla dollar cəlb edib, üç ölkəni və iki dənizi birləşdirən transmilli layihədir. Mühüm geosiyasi məkandan, müxtəlif coğrafi ərazilərdən keçir. Bu, tarixi bir hadisədir.

O ki qaldı Dağlıq Qarabağ məsələsinə, mən artıq qeyd etdiyim kimi, danışıqlar daim davam edə bilməz. Bunun sonu olmalıdır. Bu günə qədər mərhələlər və elə dövrlər olmuşdur ki, müxtəlif seçimlər masa üzərində idi. Əgər biz danışıqların tarixçəsinə nəzər salsaq görərik ki, 1994-cü ildə atəşkəs əldə olunandan sonra danışıqlar təqribən iki-üç il aparıldı. Bundan sonra Ermənistanın rəhbərliyi reallığı başa düşdü. Keçmiş illərin reallığını və günün reallığını anladı.

Sonra Ermənistanın keçmiş prezidenti bir bəyanatla çıxış etdi və məqalə yazdı ki, biz vəziyyəti anlamalıyıq. Biz bunun başa çatdırılmasının, yəni işğala son qoyulmasının vacibliyini başa düşməliyik. Bu, Ermənistan xalqının maraqlarına da uyğun idi. Lakin millətçi qruplar Ermənistanda dövlət çevrilişi etdilər və prezidenti devirdilər.

Sonra 1999-cu ildə hər iki tərəf müəyyən bir paket üzərində işləyirdi və elə görünürdü ki, biz artıq həll mərhələsinə yaxınlaşırıq. Sonra isə Ermənistan parlamentində terror aktı törədildi, Ermənistanın spikeri, Baş naziri və parlamentin digər üzvləri qətlə yetirildi. Bu da Ermənistan parlamentində terror aktı idi. Daha sonra, əgər belə demək olarsa, bu, Ermənistan tərəfinin istifadə etdiyi bir dəlil oldu ki, onlar danışıqları dayandırsınlar. Bir az vaxt keçdi.

İndi isə biz danışıqların yeni mərhələsindəyik. Praqa prosesi çərçivəsində biz münaqişənin mərhələli həllinə çalışırıq. Praqa prosesi Azərbaycan tərəfindən dəstəklənir, Praqa prosesi ATƏT-in Minsk qrupu tərəfindən dəstəklənir və bizə belə gəlirdi ki, Ermənistan da bunu dəstəkləyir. Belə olmasaydı, Ermənistan bu prosesdə iştirak etməzdi. Lakin, əgər belə demək olarsa, müəyyən bir mərhələyə yaxınlaşdıqca, fikirləşirdik ki, Praqa prosesi müəyyən nəticələr verər. Ancaq bundan sonra

yeni bir şey baş verdi. Bu yaxınlarda Fransada keçirilmiş görüş Ermənistan tərəfindən tam heçə çıxarılmışdır. Yəni bu bir daha nümayiş etdirir ki, bu ölkə ya beynəlxalq ictimaiyyəti aldatmaq, ya vaxt udmaq, yaxud məsələni yubatmaq və digər bir məsələyə nail olmaq istəyir. Bu onların tamamilə qeyri-konstruktiv mövqeyini göstərdi. Əgər onlar məsələnin sülh yolu ilə həllini istəmirsə, biz bunu onlardan xahiş etməyəcəyik. Biz bunu xahiş etməli deyilik. Bu bizim hüququmuzdur, bizim haqlı mövqeyimizdir. Bizim digər ölkəyə qarşı heç bir iddiamız yoxdur. Bizim torpağımız zəbt olunubdur. Əgər bu danışıqlar prosesi rəsmən başa çatdırılsa, ondan sonra biz öz addımlarımızı yenidən nəzərdən keçirməliyik. Biz bunu Azərbaycanda geniş ictimai səviyyədə müzakirə edəcəyik və qərar qəbul edəcəyik.

**S u a l: Qafqazda ən çətin problemlərdən biri Dağlıq Qarabağ problemidir. Biz bilirik ki, hələ də bu problemlə yaşayan Azərbaycan bütün çətinliklərə baxmayaraq, iqtisadi tərəqqiyə doğru addımlayır və bu iqtisadi tərəqqiyə doğru Sizin rəhbərliyiniz altında gedir. Mən Sizinlə şəxsən görüşməyimə çox şadam.**

**Sualım iki hissədən ibarətdir. Birincisi, Azərbaycan hazırda dünyada İslam aləminin fəaliyyətinə necə yanaşır? İkincisi, Orta Asiya, eləcə də Qafqaz ölkələrində demokratiya hansı vəziyyətdədir və necə qurulur? Bu, əsas mövzulardan biridir. Bir tərəfdən, iqtisadi inkişaf, digər tərəfdən, demokratik sistemin qurulması bir-biri ilə necə uzlaşır? Demokratiya ölkənizdə hansı formada bərqərar olubdur?**

**İ l h a m Ə l i y e v:** Mən öz çıxışımda qeyd etdim ki, Azərbaycanda bizim çox dözümlülüyü ilə fərqlənən cəmiyyətimiz var. Bütün dinlərin nümayəndələri burada sülh şəraitində yaşayırlar. Dini və yaxud etnik zəmində burada heç bir problem olmamışdır. Bu bir daha sübut edir ki, Ermənistanın Dağlıq Qarabağla bağlı təbliğatı, yəni bu münaqişənin guya dini və etnik zəmində olması barədə təbliğatı düzgün deyildir. Çünki

Azərbaycanda müxtəlif dinlərin və etnik azlıqların nümayəndələri sülh şəraitində yaşayırlar. Ona görə də Azərbaycanda heç vaxt dini problemlər olmamışdır. İndi də Azərbaycanın siyasəti çox aydındır. Bu gün dünyanın müxtəlif yerlərində cərəyan edən, çox xoşagəlməz hadisələrin təsiri altına düşmək bizi olduqca narahat edir. Bu günə qədər bizdə heç vaxt belə bir şey olmamışdır və əminəm ki, olmayacaqdır. Çünki bu bizim nəinki siyasətimiz, həm də gündəlik həyatımızdır. İslam ölkələrinin daxilində müəyyən fərqlər var, bölünmələr var. Bu, yaxşı meyl deyildir. Azərbaycan bundan tam azaddır.

Mən qeyd etdim ki, bizim təcrübəmiz öyrənilə bilər. Biz təcrübəmizi bölüşə bilərik ki, bütün millətlərin, bütün dinlərin nümayəndələri bir ailədə necə yaşaya bilərlər. Biz ölkəmizdə heç vaxt heç kimi təqib etməmişik, heç vaxt öz iradəmizi məcburi qaydada digər etnik qruplara qəbul etdirməmişik.

Məsələn, bizdə rus icması var, rus dilində qəzetlər var, televiziya kanalları yayımlanır, məktəblər var. Azərbaycanda digər millətlərin nümayəndələri yaşayır və bizim heç vaxt problemimiz olmayıbdır. Etnik problemlər yalnız o vaxt özünü büruzə verir ki, siz təqib edirsiniz, təzyiq göstərirsiniz ki, öz iradənizi, ideyalarınızı digərlərinə təlqin edəsiniz. Əgər hər hansı bir şəxs qanunlara uyğun yaşayırsa, heç bir problem yoxdur. Yaxşıdır ki, bizdə belə bir problem yoxdur və əminəm ki, olmayacaqdır.

Demokratikləşmə məsələsinə gəldikdə isə, bu da vacib bir məsələdir. Xüsusən də keçmişdə tamamilə fərqli bir sistemdə yaşamış ölkələrdən söhbət gedəndə. Biz – yaşlı nəsil və yaxud mənim həmyaşıdlarım tamamilə fərqli bir sosial mühitdə formalaşmışıq. İndi isə keçid prosesi gedir və özü də sürətlə gedir. Lakin bu kiminsə məsləhəti və yaxud da kiminsə istəyi əsasında ola bilməz. Çünki bu proses təkamül, inkişaf yolu ilə getməlidir. Əgər cəmiyyətdə yoxsulluq varsa, demokratiyanın səviyyəsi heç vaxt zəngin şəraitdə yaşayan cəmiyyətdəki kimi ola bilməz. Yəni əgər xalq yoxsuldursa, onların sosial

problemləri ciddidirsə, demokratiya onları düşündürən ən son məsələdir. Onlar iş haqqında, ərzaq haqqında, uşaqlarına necə çörək tapmaq haqqında fikirləşirlər və belə şəraitdə onlar azad ola bilmirlər. Ona görə də biz azad sahibkarlığın inkişafına yüksək diqqət yetiririk. Belə şəraitdə insan azad olur. Onlar özəl bizneslə məşğul olanda, dövlət qurumlarından asılı olmurlar. Beləliklə, onların həyatdakı davranışı da dəyişilir.

Eyni sözləri siyasi təsisatlara da aid etmək olar. Azərbaycanda biz istənilən Qərb ölkəsində mövcud olan siyasi təsisatlar kimi, bütün təsisatları yaratmışıq. Lakin bu o demək deyil ki, Azərbaycanda demokratiyanın səviyyəsi həmin ölkələrdəki kimidir. Əlbəttə ki, yox. Bunun baş verməsini gözləmək tamamilə sadəlövhlük olardı. Əfsuslar olsun, müəyyən qərar qəbul edən dairələr, təsisatlar hesab edirlər ki, bu çox asandır. Bu və ya digər yerdə gəlib demokratiyanı elan etmək, yaxud onu bayraqla, dəyənəklə gətirmək və demək ki, sabah siz demokrat olmalısınız, bu tamamilə anormaldır, qəbuledilməzdir. Həyat göstərir ki, bu cür yanaşma, bu üsul işləmir. Demokratiyanın ixracı işləmir. Bu, təkamül, keçid prosesi olmalıdır. Əlbəttə ki, hökumət, tərəfdaşlar, beynəlxalq təşkilatlar, qeyri-hökumət təşkilatları fəal olmalıdırlar. Biz deyə bilmərik ki, müstəqilsiniz, gəncsiniz, elə belə də yaşayın. Yox, biz işləməliyik və cəmiyyətdəki reallıqdan çıxış etməliyik. Demokratiya kənardan gətirilirsə, ixrac olunursa və yaxud məcburən tətbiq edilirsə, bunun heç bir faydası olmur. Bu, sadəcə sosial, siyasi problemlərin yaranmasına, sabitliyin pozulmasına gətirib çıxarır, mənfi nəticələr doğurur.

Biz öz ölkəmizdə yaşayırıq, öz ölkəmizi tanıyırıq. Necə inkişaf etməyi, necə yaşamağı özümüz həll edirik. Ona görə demokratiya məsələsində çox diqqətli olmaq lazımdır. Buna avtomatik şəkildə, təkcə istək əsasında nail olmaq mümkün deyildir. Ona görə biz beynəlxalq təşkilatların üzvüyük, çox qabaqcıl qanunvericilik qəbul etmişik. Lakin eyni zamanda, hər şey öz vaxtında olmalıdır. Cəmiyyət də insan orqanizmi kimi canlıdır. Yəni əgər siz su içmək istəyirsinizsə, içirsiniz. İçmək

istəmirsinizsə, içmirsiniz. Elə bir şey ola bilməz ki, kənardan kimsə gəlsin, bu suyu sizə məcburən içirtsin. Onda sizin problemləriniz olar. Ona görə biz rasional, praqmatik və düşünülmüş yanaşmanın tərəfdarıyıq. Hesab edirəm ki, bizim göstəricilər, siyasi sabitlik, real iqtisadi inkişaf, sosial proqramlar – bütün bunlar onu göstərir ki, bu yanaşma uğurludur.

**Y u k i o Y a t o:** Suallar üçün vaxt başa çatdı. Bu, sonuncu sual idi. Ona görə də hörmətli qonaqlar, hörmətli iştirakçılar, sizin adınızdan mən cənab Prezidentə minnətdarlığımızı bildirirəm. Gəldiyinizə görə çox sağ olun.

*Cənab Yukio Yato görüşdən xatirə olaraq, prezident İlham Əliyevə institutun adından hədiyyə təqdim etdi.*

*Görüşdən sonra iştirakçılar prezident İlham Əliyevə yaxınlaşaraq səmimi görüşüb söhbət etdilər, dərin məzmunlu mühazirəsinə görə təşəkkürlərini bildirdilər.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN İMPERATORU AKİHİTONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*8 mart 2006-cı il*

*Martın 8-də Tokioda Azərbaycan Respublikasının Prezidenti İlham Əliyevin və Yaponiyanın İmperatoru Akihitonun təkbətək görüşü olmuşdur.*

*Əlahəzrət Akihito və imperatriçə Miçiko prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı İmperator sarayının qarşısında böyük hörmət və ehtiramla qarşıladılar.*

*Sonra prezident İlham Əliyev ilə imperator Akihito arasında təkbətək görüş oldu.*

*Prezident İlham Əliyevi bir daha səmimiyyətlə salamlayan və onun Yaponiyaya rəsmi səfərini yüksək qiymətləndirən əlahəzrət Akihito ölkələrimiz arasındakı əlaqələrin daha da inkişaf etdirilməsinin faydalı olduğunu bildirdi. Xalqlarımız arasındakı tarixi dostluq əlaqələrindən söhbət açan imperator Azərbaycan ilə münasibətlərin möhkəmləndirilməsinə Yaponiya dövlətinin xüsusi maraq göstərdiyini vurğuladı. O, xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci ilin fevralında Yaponiyaya səfərini məmnunluqla yada saldı və bu görüşlə bağlı xoş xatirələrini danışdı. Əlahəzrət Akihito dedi ki, məhz Heydər Əliyevin səyləri və qətiyyəti sayəsində uğurlu islahatlar aparan Azərbaycan dünyanın inkişaf etmiş ölkələrindən birinə çevrilmək yolunda inamla irəliləmişdir və bu gün həmin siyasətin Azərbaycanda davam etdirilməsi öz bəhrəsini verir.*

*Xoş sözlərə, göstərilən qonaqpərvərliyə görə əlahəzrət Akihitoya təşəkkürünü bildirən prezident İlham Əliyev Yaponiyaya ilk rəsmi səfər etməsindən çox məmnun olduğunu söylədi, ölkəmizdə hüquqi, demokratik, dünyəvi dövlət quruculuğu sahəsində görülmüş işlərdən danışdı. Dövlətimizin başçısı dedi ki, müstəqil*

*Azərbaycan Respublikası Yaponiya ilə əməkdaşlığın daha da inkişaf etdirilməsi və möhkəmləndirilməsinə böyük maraq göstərir və indiki səfər ikitərəfli münasibətlərdə yeni mərhələ açacaqdır.*

*Prezident İlham Əliyev bildirdi ki, Azərbaycan dünya ölkələri ilə bütün sahələrdə qarşılıqlı surətdə faydalı əməkdaşlığın inkişaf etdirilməsinə daim diqqət yetirir. Bu baxımdan Yaponiya ilə əlaqələrə xüsusi önəm verilir. Azərbaycanın qapıları dünya ölkələrinin iş adamlarının üzünə açıqdır. Ölkəmizdə ictimai-siyasi sabitlik mövcuddur, sərmayələrin qorunması, xarici iş adamlarının tam sərbəst fəaliyyəti üçün hər cür şərait yaradılmışdır.*

*Xəzərin Azərbaycan sektorundakı yataqların birgə işlənilməsi sahəsində görülən işlərə toxunan prezident İlham Əliyev Yaponiyanın «İtoçu» şirkətinin layihələrdə böyük paya malik olduğunu vurğuladı. Dövlətimizin başçısı Yaponiyanın Azərbaycan ilə bütün sahələrdə əməkdaşlığın genişləndirilməsinə maraq göstərməsini yüksək qiymətləndirdi.*

*Söhbət zamanı Azərbaycan–Yaponiya əməkdaşlığının inkişaf perspektivləri, bölgədə vəziyyət, Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması və digər məsələlər barədə də geniş fikir mübadiləsi aparıldı.*

* * *

*Azərbaycan prezidentinin xanımı Mehriban Əliyeva ilə imperatriçə Miçiko arasında da səmimi söhbət oldu.*

*Görüşdən sonra əlahəzrət Akihito və imperatriçə Miçiko prezident İlham Əliyevi və xanımı Mehriban Əliyevanı sarayın qarşısında böyük ehtiramla yola saldılar.*

## YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ

*8 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 8-də Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyinin (JİCA) prezidenti xanım Sadako Oqatanı qəbul etmişdir.*

*Prezident İlham Əliyevi səmimiyyətlə salamlayan Sadako Oqata Azərbaycan prezidentinin Yaponiyaya ilk səfərinin çox uğurlu olacağına və ölkələrimiz arasında əməkdaşlığın inkişafında yeni mərhələ açacağına əminliyini söylədi.*

*Yaponiyanın Azərbaycanla bütün sahələrdə əlaqələrin daha da inkişafına xüsusi maraq göstərdiyini, Yaponiya şirkətlərinin Azərbaycanda bir sıra mühüm layihələrə sərmayə qoyduğunu və ölkəmizə kreditlər ayrıldığını xatırladan xanım Sadako Oqata dedi ki, biz Azərbaycanla əməkdaşlığı genişləndirmək istəyirik. Azərbaycan Qafqazda elə bir ölkədir ki, onun iqtisadiyyatının inkişafına qoyulan istənilən sərmayə gələcəkdə bəhrəsini verəcək və dinamik inkişafa səbəb olacaqdır.*

*Prezident İlham Əliyev Yaponiyaya ilk səfərinin ölkələrimiz arasında bütün sahələrdə əməkdaşlığın daha da möhkəmlənməsi və genişlənməsində yeni mərhələ açacağına ümidvar olduğunu vurğuladı.*

*Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi ilə Azərbaycan arasında yaranmış əlaqələrdən razılığını ifadə edən dövlətimizin başçısı bildirdi ki, ölkələrimizin əməkdaşlığının genişləndirilməsi üçün yaxşı imkanlar və perspektivlər vardır.*

*Söhbət zamanı Azərbaycanla JİCA arasında əməkdaşlığın perspektivləri barədə geniş fikir mübadiləsi aparıldı.*

## AZƏRBAYCAN–YAPONİYA İQTİSADİ FORUMUNDA NİTQ

*Tokio,*
*«İmperial» mehmanxanası*

*8 mart 2006-cı il*

*Martın 8-də Tokionun «İmperial» mehmanxanasında Azərbaycan–Yaponiya iqtisadi forumu keçirilmişdir.*

*Forumun iştirakçıları Azərbaycan prezidenti İlham Əliyevi hərarətli alqışlarla qarşıladılar.*

*Müxtəlif sahələri təmsil edən Azərbaycandan 30-dək, Yaponiyadan isə 100-ə yaxın şirkətin nümayəndələrinin iştirak etdikləri forumda çıxış edən Yaponiya İnvestisiyalarının Təşviqi Agentliyinin (JETRO) vitse-prezidenti Yoşitada Takahaşi dedi ki, 1991-ci ildə Azərbaycan dövlət müstəqilliyini əldə etdikdən sonra bu dost ölkə ilə yaxşı münasibətlərimiz qurulmuşdur və bir çox istiqamətlərdə, o cümlədən iqtisadi sahədə əməkdaşlıq uğurla həyata keçirilir. Azərbaycanda qeyri-neft sektorunun inkişafı sahəsində müxtəlif proqramların həyata keçirilməsində Yaponiya şirkətləri də iştirak edirlər. JETRO Azərbaycanın iqtisadi potensialı ilə bağlı araşdırmalar aparmaq, seminarlar keçirmək və öz mütəxəssislərini göndərmək niyyətindədir.*

*Azərbaycan prezidenti İlham Əliyev forumda nitq söylədi.*

**İlham Əliyev:** Hörmətli xanımlar və cənablar!

Əziz dostlar!

Mən ilk növbədə sizin hamınızı salamlamaq istəyirəm. Ümidvar olduğumu bildirmək istəyirəm ki, bu biznes forumu gələcəkdə ikitərəfli münasibətlərimizin inkişafı üçün çox faydalı olacaqdır. Biz Azərbaycan ilə Yaponiya arasındakı münasibətlərə olduqca böyük diqqət yetiririk. Azərbaycan müstəqillik qazandıqdan sonra ölkələrimiz arasındakı əlaqələr çox uğurla inkişaf etmişdir. Biz müxtəlif sahələrdə əməkdaşlıq

edirik, çox güclü siyasi münasibətlərimiz var. Ölkələrimiz arasındakı iqtisadi əməkdaşlıq münasibətlərimizin rəvan inkişafında mühüm rol oynayır.

Azərbaycan böyük tarixə, zəngin adət-ənənələrə, mədəniyyətə malik olan ölkədir. Lakin Azərbaycan müstəqil ölkə kimi, inkişafa 15 il bundan əvvəl qədəm qoymuşdur. Müstəqilliyimizin ilk illərində biz böyük çətinliklərlə üzləşmişdik. İqtisadi böhran, sənaye istehsalının aşağı düşməsi ölkədə gərgin vəziyyət yaratmışdı. Aparılan siyasi və iqtisadi islahatlar nəticəsində hazırda Azərbaycanda iqtisadi baxımdan sürətli inkişaf üçün əsas yaranmışdır. Azərbaycanın iqtisadiyyatı ötən il dünyada ən sürətlə inkişaf edən iqtisadiyyat olmuşdur. Bütün bunlar bizim üçün yeni imkanlar açır və daha faydalı ikitərəfli əməkdaşlıq edə bilərik.

Yaponiya ilə əməkdaşlığımızın ilk sahəsi, əlbəttə ki, enerji sahəsidir. Neft və qaz hasilatı sahəsidir və Yaponiya şirkətləri Azərbaycanın enerji sektoruna yüz milyonlarla dollar sərmayə qoymuşlar. Bu əməkdaşlıq çox səmərəlidir və qarşılıqlı fayda gətirir. Yaponiya şirkətləri Xəzərin karbohidrogen ehtiyatlarının kəşfiyyatı, hasilatı və nəql olunmasında iştirak edirlər.

Lakin mən hesab edirəm ki, münasibətlərimizin inkişafının indiki mərhələsində və Azərbaycanın hazırkı iqtisadi vəziyyətində iqtisadi əlaqələrimizin şaxələndirilməsi üçün böyük imkanlar vardır. Ümumiyyətlə, Azərbaycanın iqtisadi vəziyyətinə nəzər salsaq, göstəricilər çox uğurludur. Ötən il iqtisadi artım 26 faizdən çox olmuşdur. Sənaye istehsalı 33 faizdən çox artmışdır. Hazırda biz diqqətimizi əsasən infrastruktur sahəsinə, regional inkişaf proqramlarına və yeni iş yerlərinin açılmasına yönəldirik. Bütün bunlar Yaponiya şirkətləri üçün yeni imkanlar açır və onlar iqtisadiyyatın qeyri-neft sektorunda iştirak edə bilərlər. Hazırda bu bizim üçün prioritet xarakter daşıyır. Çünki Azərbaycanda enerji sektorunda əsas məsələ artıq həll olunmuşdur. Yəni bu sahə milyardlarla dollar həcmində birbaşa xarici sərmayələri cəlb edə

bilmişdir. Hazırda Azərbaycanda adambaşına düşən xarici sərmayələrin həcmi regionda ən böyük göstəricidir.

Biz çox mühüm nəqliyyat infrastrukturunun yaradılmasına nail olduq. Bu il neft və qaz boru kəmərləri istismara veriləcəkdir. Əlbəttə ki, biz bu imkanlardan istifadə edərək, təbii sərvətlərdən, önəmli coğrafi mövqeyimizdən istifadə edərək, karbohidrogen ehtiyatlarımızı dünya bazarlarına çıxara biləcəyik. Əminəm ki, gələn illər ərzində bu sahələr sərmayələr üçün çox cəlbedici olacaqdır.

Bütün bu sahələrlə yanaşı, biz diqqətimizi digər sahələrə də yönəldə bilərik. Həmin sahələrdə imkanları qiymətləndirmək, öyrənmək məqsədi ilə hökumət rəsmiləri ilə işgüzar dairələr arasındakı birbaşa əlaqələr çox faydalıdır. Mən əminəm ki, bu gün iştirak etdiyimiz Yaponiya–Azərbaycan biznes forumu bu imkanların araşdırılması üçün əhəmiyyətli olacaqdır. Əlbəttə ki, gələn illər ərzində potensial sərmayələr üçün yeni sahələr açılacaq və bu, əməkdaşlıq üçün əlavə imkanlar yaradacaqdır. Bu, gələcəkdə hər iki tərəfin iqtisadi inkişafı üçün yaxşı perspektivlər açır.

İlk növbədə, Azərbaycana birbaşa xarici sərmayələr yüksək dəyərləndirilir. Bizdə çox yaxşı sərmayə mühiti var. Mən artıq bildirdim ki, Azərbaycana birbaşa xarici sərmayə formasında milyardlarla dollar vəsait qoyulmuşdur. Bütün bunlar onu göstərir ki, potensial sərmayədarlar ölkəmizin iqtisadiyyatına sərmayə qoyduqda özlərini rahat hiss edə bilərlər. Beləliklə, əlverişli biznes mühiti çox yaxşı imkanlar açır. Eyni zamanda, indi iqtisadi inkişaf üçün yeni sahələr çox cəlbedici olacaqdır və yapon şirkətləri burada həmçinin podratçılar qismində, xidmət göstərən şirkətlər kimi işləyə bilərlər. Çünki artıq öz sərvətlərindən istifadə edən ölkədə bir çox işlər görülə bilər.

Azərbaycanın xarici sərmayələrdən asılı olduğu dövr artıq başa çatır. İndi bizim özümüzün sərmayə proqramlarımız artır və onlar həyata keçirilir. Bu il büdcə ötən illə müqayisədə 70 faiz artmışdır. İqtisadi islahatlar, maliyyə əsaslarının gücləndirilməsi və yeni imkanların araşdırılması ölkədə yeni

vəziyyət yaradır. Başqa sözlə desək, gələn illər ərzində regional iqtisadi inkişaf proqramları, sosial inkişaf proqramları, enerji proqramları, yolların tikintisi proqramları bizimlə birgə işləyən şirkətlər üçün yeni imkanlar açacaqdır. Əlbəttə ki, biz Yaponiya şirkətlərinin bu sahələrdə iştirakını yüksək dəyərləndirəcəyik. Çünki bir-birimizi artıq uzun illərdir tanıyırıq. Keçmişdə çox yaxşı əməkdaşlıq etmişik. Yaponiya şirkətləri ilə əməkdaşlığımız bütün sahələrdə qarşılıqlı etimad prinsiplərinə və yaxşı iradəyə, qarşılıqlı hörmətə, dostluğa əsaslanır. Biz artıq 10 il ərzində birgə işləmək sahəsində kifayət qədər təcrübə toplamışıq. Sizin şirkətlər ən yüksək texnologiyalara malikdir və bu bizə lazımdır. Biz ölkəmizi müasirləşdirməliyik. Ölkəmizə yeni texnologiyaları gətirməliyik. Bunu edə bilsək, müxtəlif sahələri müasirləşdirə biləcəyik: infrastruktur, yolların çəkilməsi, kommunikasiyalar, sosial infrastruktur, məktəblərin tikilməsi, səhiyyə sahəsi, əlbəttə ki, nəqliyyat sahəsi. Azərbaycan çox mühüm coğrafi mövqedə yerləşir. Azərbaycanın dəniz, hava limanları var, şoseləri var. Mən əminəm ki, Yaponiya şirkətləri bütün sahələrdə öz yerlərini tutacaqlar.

Biz bilirik ki, gələcəkdə nə baş verəcəkdir. İqtisadi siyasətimizi konkret inkişaf proqramlarına əsaslanmaqla həyata keçiririk. Həmin proqramlar bu yaxınlarda qəbul edilmişdir və uğurla həyata keçirilir. Kənd təsərrüfatı, regional inkişaf, yolların tikintisi, enerji sahəsi, təhsil, səhiyyə sahəsi – bütün bunlar inkişafın əsas elementləridir. Bütün sektorlar, bütün layihələrimiz və planlarımız konkret proqramlara əsaslanır. Əlbəttə ki, bu proqramlar, əsasən, öz potensialımıza, özümüzün maliyyə resurslarına arxalanır. Lakin eyni zamanda, biz xarici şirkətlərin və sərmayədarların iştirakını da yüksək dəyərləndirirdik.

Mən artıq dedim ki, bu ildən başlayaraq biz maliyyə vəsaitlərimizdən istifadə edərək, birgə sərmayə proqramlarına başlamışıq. Biz bu işi xarici maliyyə təsisatları və yaxud şirkətlərlə birgə aparırıq. Öz sərmayə proqramlarımız var, bu da

büdcədə nəzərdə tutulub və rəqəmlər ildən-ilə artır. 2006-cı ildə müxtəlif sahələrə yatırmaq üçün milyonlarla dollar ayrılmışdır. Hesab edirik ki, özümüzün vəsaitlərindən istifadə edilməsi potensial sərmayədarlar üçün də etimad yaradır. Ona görə də Azərbaycan hökuməti ölkənin inkişafı üçün layihələrdə potensial sərmayədarlarla birgə sərmayədar kimi iştirak etməyə hazırdır.

Mən hesab edirəm ki, bu, Yaponiya şirkətlərinin özləri üçün də maraqlı olardı. Çünki əgər layihədə hökumətin özü iştirak edirsə və ya müəyyən bir struktur hökumət adından iştirak edirsə, şübhəsiz ki, potensial sərmayədar tam əmin ola bilər ki, bu layihə uğurla həyata keçiriləcəkdir.

Biz hazırda çox ciddi sənaye inkişafı proqramları üzərində işləyirik. Çünki biz neçə illər gələcəyi görməliyik. Neft, qaz – bu sərvətlər bir gün tükənəcək və ona görə də biz həmin o vaxt çərçivəsinə uyğun işləməliyik. Yəni iqtisadiyyatımız gələcəkdə nəyə əsaslanacaq? Ona görə də qarşıdakı on il ərzində ölkədə güclü sənaye potensialı yaradılmalıdır ki, Azərbaycan gələcəkdə yalnız neft və qazdan, onların qiymətlərindən asılı olmasın. Ona görə biz bu istiqamətdə də iş aparırıq. Hesab edirəm ki, bu sahələrdə də birgə əməkdaşlıq üçün imkanlar olacaqdır.

Başqa sözlə desək, gələcəkdə Azərbaycana nəyin lazım olacağını, yəni hansı proqramların həyata keçiriləcəyini, onların necə olacağını bilirik. Büdcəmizin artımı onu göstərir ki, bütün planlarımız və proqramlarımız çox uğurla həyata keçiriləcəkdir. Son üç il ərzində büdcənin həcmini üç dəfə artıra bildik və bu, yalnız başlanğıcdır. Böyük iqtisadi inkişafın yalnız başlanğıcıdır və bu, insanların həyatını daha da yaxşılaşdıracaq, daha yaxşı infrastruktur yaradacaq, yüzlərlə yeni iş yeri açılacaq və Azərbaycan daha güclü iqtisadiyyata malik olacaqdır.

Mən eyni zamanda bildirmək istəyirəm ki, hazırda həyata keçirdiyimiz regional inkişaf proqramları iki il yarım müddət ərzində 340 mindən artıq yeni iş yerinin açılmasına imkan yaratmışdır. Bu bir daha aydın şəkildə göstərir ki, ölkəmiz əməli

nəticələri hiss edir, həmin nəticələr ümumi daxili məhsulun artımına, yoxsulluğun azaldılmasına dair rəqəmlərdə əks olunubdur. Misal üçün, son iki il ərzində yoxsulluğun səviyyəsi 49 faizdən 29 faizə düşmüşdür. Əlbəttə ki, bu irəliləyiş yeni iş yerlərinin açılmasında da özünü büruzə verir.

Bir sözlə, biz Yaponiya ilə Azərbaycan arasında bütün sahələrdə əməkdaşlığa ürəkdən sadiqik. Bu, bütün iqtisadi sektorlara aiddir. Bizim çox yaxşı birgə əməkdaşlıq tariximiz var, aramızda yaxşı anlaşma var. Beynəlxalq təşkilatlar çərçivəsində yaxşı əməkdaşlıq edirik. Bir çox beynəlxalq hadisələrə eyni baxışlarımız var və Azərbaycanla Yaponiya arasında olan siyasi münasibətlər yaxşı səviyyədədir. Siyasi münasibərlərimizin inkişafı baxımından götürsək, mənim Yaponiyaya rəsmi səfərim bu münasibətləri daha da gücləndirəcəkdir. Ona görə də mən hesab edirəm ki, bütün sahələrdə əməkdaşlıq etməyimiz üçün heç bir maneə yoxdur.

Mən eyni zamanda Azərbaycanın işgüzar adamlarının burada olmasından çox şadam. Onlar biznes mühitinin yaradılmasına olduqca böyük diqqət yetirirlər. Azərbaycanda kiçik və orta müəssisələr çox yüksək sürətlə inkişaf edir. Biznes əlaqələrimiz konkret layihələrə və daha yaxşı anlaşmaya imkan yaradacaqdır. Ümumiyyətlə götürsək, bu anlaşma çox yüksək səviyyədədir. Lakin əlaqələrimiz nə qədər geniş olsa, bir-birimizi daha çox tanıyacağıq.

Artıq dediyim kimi, hazırda Azərbaycan böyük iqtisadi inkişafın ərəfəsindədir və bu inkişaf hər bir sektorda lazımdır. Biz səhiyyə, təhsil, infrastruktur sahələrini, elektrik stansiyalarını, su təchizatı və kommunikasiya sahələrini, qaz qurğularını, kənd təsərrüfatı sahəsini yaxşılaşdırmalıyıq. Çünki biz müasir ölkə qurmalıyıq, müasir və səmərəli iqtisadiyyat qurmalıyıq. Bu məqsədlə bizə yaxşı məsləhət, yaxşı biliklər lazımdır. Bizim yaxşı tanınmış şirkətlərə, tərəfdaşlara ehtiyacımız var.

Bildiyiniz kimi, biz uzun illər ərzində Yaponiya hökumətindən müxtəlif təşkilatlar vasitəsilə, Yaponiyanın qurumları

vasitəsilə texniki, maliyyə yardımı almışıq. Bunlar da iqtisadiyyatımızın müxtəlif sektorlarının inkişafına əsas yaradır. İndi isə artıq fəal əməkdaşlıq vaxtı yetişibdir. Biz böyük istəklə bu əməkdaşlığı bütün iqtisadi sektorlarda genişləndirmək əzmindəyik. Bu bizim əsas prioritetimizdir. Biz iqtisadiyyatımızı şaxələndirməliyik və güclü qeyri-neft sektoru yaratmalıyıq.

Ümidvaram ki, məqsədlərimizə nail olacağıq. Çünki qəbul etdiyimiz proqramların hamısı uğurla həyata keçirilir və xarici tərəfdaşlarımızla bütün əməkdaşlığımız çox yaxşı nəticələr verir. Xüsusən də Yaponiya şirkətləri ilə müxtəlif sahələrdə əməkdaşlıq yaxşı nəticələr verir və ümidvaram ki, mənim səfərim, keçirilən bu biznes forumu birgə işin aparılması üçün yeni imkanlar açacaqdır.

Mən hamınızı bir daha salamlamaq istərdim və sizə gələcəkdə uğurlar arzulayıram. Bütün yapon dostlarımızı Azərbaycana dəvət edirəm və gələcəkdə bizimlə işləməyi arzulayıram.

Çox sağ olun.

## YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN İDARƏEDİCİ DİREKTORU TOŞİYUKİ FUCİVARA VƏ FSAS ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*Tokio*

*9 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 9-da onun üçün ayrılmış iqamətgahda Yaponiya Xarici Əlaqələr İnstitutunun idarəedici direktoru, bu ölkənin Bakıdakı keçmiş səfiri Toşiyuki Fucivaranı və FSAS şirkətinin nümayəndələrini qəbul etmişdir.*

*Cənab Toşiyuki Fucivara dövlətimizin başçısı ilə yenidən görüşməyindən şərəf duyduğunu söylədi. O, prezident İlham Əliyevin Beynəlxalq Əlaqələr İnstitutundakı mühazirəsinin böyük məmnunluqla qarşılandığını bildirərək dedi ki, biz onun əhəmiyyətini nəzərə alaraq, yapon dilinə tərcümə etmişik. Mühazirənizin mətni artıq internetdə yerləşdirilib ki, bütün xalqımız Azərbaycan haqqında əsl həqiqətlər barədə dolğun məlumat əldə edə bilsin.*

*Prezident İlham Əliyev xoş sözlərə görə cənab Fucivaraya təşəkkür etdi və keçmiş səfir kimi, onun Azərbaycanla bağlı fəaliyyətini yüksək qiymətləndirdi.*

*Toşiyuki Fucivara FSAS şirkətinin nümayəndələrini dövlətimizin başçısına təqdim edərək dedi ki, bu şirkətin fəaliyyəti, əsasən, kompüter texnologiyaları ilə bağlıdır və beş min işçisi vardır. Əməkdaşlardan iki nəfəri azərbaycanlıdır və onlar da Sizi görməkdən məmnundurlar. Bu iki gənc Bakı Dövlət Universitetinin məzunlarıdır və xüsusi seçim əsasında işə qəbul olunmuşlar. Yapon dilini də yaxşı öyrənmişlər.*

*Azərbaycan prezidenti şirkətin fəaliyyətini yüksək qiymətləndirdi və yeni uğurlar arzuladı.*

## Azərbaycanın Yaponiyadakı səfirliyi ilə tanışlıq

*Azərbaycan prezidenti İlham Əliyev martın 9-da ölkəmizin Yaponiyadakı səfirliyi ilə tanış olmuşdur.*

*Prezident İlham Əliyevi səfir Azər Hüseynov və səfirliyin əməkdaşları böyük hörmətlə qarşıladılar və bina barədə məlumat verdilər.*

*Ötən ilin oktyabrından fəaliyyətə başlayan səfirlik Tokionun mərkəzi hissəsində yerləşir və diplomatik fəaliyyət üçün burada hər cür şərait vardır.*

*Prezident İlham Əliyev əməkdaşların iş otaqları ilə tanış oldu, müasir tələblərə cavab verən avadanlıqla təmin edilmiş səfirlikdə yaradılan şəraitdən razılığını bildirdi, müvafiq tövsiyə və tapşırıqlarını verdi.*

*Prezident İlham Əliyev yadigar olaraq səfirliyə Bakının mənzərəsi təsvir edilmiş rəsm əsəri təqdim etdi və əməkdaşlarla xatirə şəkli çəkdirdi.*

## YAPONİYA XARİCİ TİCARƏT TƏŞKİLATININ SƏDRİ OSAMU VATANABE İLƏ GÖRÜŞ

*Tokio*

*9 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 9-da Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiya Xarici Ticarət Təşkilatının (JETRO) sədri Osamu Vatanabeni qəbul etmişdir.*

*Prezident İlham Əliyevi Yaponiyada görməkdən böyük şərəf duyduğunu bildirən cənab Osamu Vatanabe Tokioda Azərbaycan–Yaponiya iqtisadi forumunun keçirilməsini yüksək qiymətləndirdi, prezident İlham Əliyevi martın 8-də Beynəlxalq Münasibətlər İnstitutundakı çıxışı münasibətilə təbrik etdi.*

*JETRO-nun sədri sonra rəhbərlik etdiyi təşkilatın tarixi barədə məlumat verdi. O xatırlatdı ki, Azərbaycan müstəqillik əldə etdikdən sonra ölkələrimiz arasında birbaşa əlaqələr yaranmışdır və bu inkişaf edir. İlham Əliyevin prezident seçilməsindən sonra həyata keçirilən islahatlar Azərbaycanın daha sürətlə inkişafına imkan yaratmışdır.*

*Osamu Vatanabe 2001-ci ildə JETRO-nun xətti ilə Azərbaycanda və digər Qafqaz ölkələrində keçirilən sərgilərin böyük rəğbətlə qarşılandığını bildirdi. O dedi ki, 1958-ci ildə yaradılmış JETRO qeyri-kommersiya təşkilatıdır və hökumətin himayəsi altında fəaliyyət göstərir. Onun əsas vəzifəsi beynəlxalq ticarətin sürətli inkişafına nail olunması üçün xarici ölkələrlə əlaqələri möhkəmləndirməkdir.*

*Prezident İlham Əliyev JETRO-nun fəaliyyətindən xəbərdar olduğunu bildirdi və bu təşkilatla əməkdaşlığın Azərbaycan–Yaponiya əlaqələrinin inkişaf etdirilməsi üçün yeni imkanların aça biləcəyini vurğuladı.*

*Dövlətimizin başçısı Azərbaycanın potensial iqtisadi imkanları haqqında da danışdı və Yaponiya şirkətlərinin ölkəmizdə bir çox layihələrdə iştirak etdiklərini xatırlatdı. Prezident İlham Əliyev beynəlxalq ticarətin inkişafı üçün tranzit yolların əhəmiyyətini vurğulayaraq, Böyük İpək Yolunun bərpasına da toxundu, Azərbaycanın bu beynəlxalq layihəyə üstünlük verdiyini bildirdi və bununla əlaqədar Bakıda vaxtilə beynəlxalq konfrans da keçirildiyini xatırlatdı.*

## YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TARO ASO İLƏ GÖRÜŞ

*Tokio*

*9 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 9-da Tokioda, onun üçün ayrılmış iqamətgahda Yaponiyanın Xarici İşlər naziri Taro Asonu qəbul etmişdir.*

*Dövlətimizin başçısını böyük ehtiramla salamlayan nazir prezident İlham Əliyevin Yaponiyaya ilk rəsmi səfərini yüksək qiymətləndirdi və əmin olduğunu bildirdi ki, bu, ölkələrimiz arasında münasibətlərin daha sürətlə inkişaf etməsində mühüm rol oynayacaqdır. Azərbaycanın strateji cəhətdən çox mühüm ərazidə yerləşdiyini vurğulayan cənab Taro Aso ölkəmizlə əməkdaşlığın daha da genişləndirilməsinə Yaponiyanın xüsusi diqqət yetirdiyini söylədi. Xalqımızın ümummilli lideri Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya səfərini xatırladan nazir ölkələrimiz arasında əlaqələrin həmin dövrdən başlayaraq inkişaf etdiyini bildirdi və dedi ki, prezident İlham Əliyevin indiki səfəri ikitərəfli əməkdaşlıqda yeni mərhələ açacaqdır. Yaponiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və bundan sonra da müxtəlif tədbirlərdə ölkənizi dəstəkləyəcəkdir.*

*Prezident İlham Əliyev Azərbaycan–Yaponiya əməkdaşlığının ardıcıl surətdə inkişaf etdirilməsi, qarşılıqlı münasibətlərin daha da yaxşılaşdırılması istiqamətində mühüm işlər görüldüyünü bildirdi və hər iki tərəfi maraqlandıran bir sıra məsələlər barədə fikir və mülahizələrini söylədi. Yaponiyaya bu səfərinin ikitərəfli münasibətlərin inkişafında yeni mərhələ açacağına əminliyini vurğulayan dövlətimizin başçısı keçirdiyi*

*çoxsaylı görüşlərin qarşılıqlı surətdə faydalı əməkdaşlığın daha da genişləndirilməsi baxımından çox uğurlu olduğunu bildirdi.*

*Söhbət zamanı Xəzərin Azərbaycan sektorunda neft yataqlarının birgə işlənilməsində Yaponiya şirkətlərinin yaxından iştirak etməsi və eləcə də bu ölkənin iş adamlarının digər layihələrə maraq göstərməsi və gələcəkdə Azərbaycana sərmayə qoymaq istəyən şirkətlərin fəaliyyəti üçün gözəl şəraitin yaradılacağı da vurğulandı.*

*Görüşdə ölkəmiz üçün ən ağrılı problem olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi barədə də ətraflı söhbət getdi. Prezident İlham Əliyev bu sahədə hazırkı vəziyyət haqqında danışdı, münaqişənin həlli məsələsində ölkəmizin mövqeyini açıqladı.*

## YAPONİYA RADİOTELEVİZİYA KORPORASİYASININ (NHK) MÜXBİRİNƏ VERDİYİ MÜSAHİBƏ

*Tokio*

*9 mart 2006-cı il*

**S u a l: Cənab Prezident, ilk sualım enerji ilə bağlıdır. İxrac neftinin Bakıdan Ceyhan limanına Bakı–Tbilisi–Ceyhan boru kəməri ilə nəqli bir neçə aydan sonra mümkün olacaqdır. Bu əməliyyatın başlanılmasını Siz necə qiymətləndirirsiniz?**

**C a v a b:** Bu, təbii ki, çox mühüm beynəlxalq hadisəyə çevriləcəkdir. Çünki Bakı–Tbilisi–Ceyhan boru kəməri iki dənizi və üç ölkəni birləşdirən transmilli çoxmilyardlıq layihədir. Bu, nəhəng və hazırda dünyada ən böyük enerji layihəsidir. Boru kəmərinin tikintisi başa çatdıqdan sonra Azərbaycan gündə ən azı bir milyon barel nefti dünya bazarlarına ixrac etmək iqtidarında olacaqdır. Gələcəkdə bəlkə bundan da çox olacaqdır. Əlbəttə ki, bu nailiyyət iqtisadiyyatımızı gücləndirəcək və Azərbaycanın beynəlxalq və regional səviyyədə əhəmiyyətini artıracaqdır. Nəhayət, regionda sülhə və təhlükəsizliyə xidmət edəcəkdir.

**S u a l: Nəinki sizin ölkəniz Azərbaycan, eləcə də digər ölkələr, misal üçün, Qazaxıstan neft və təbii qazın hasilat həcmini artırmaqdadır. Siz milli enerji strategiyasını necə təsvir edərdiniz?**

**C a v a b:** Bizim strategiyamız əsasən milli maraqlarımızın qorunmasına yönəlibdir. Təbii ki, hasilat həcminin artırılması, dünyanın əsas xarici şirkətləri ilə qurulmuş çox səmərəli əməkdaşlıq və eyni zamanda, beynəlxalq və regional sahədə

Azərbaycanın mövqeyinin möhkəmləndirilməsi həmin strategiyanın bir hissəsidir. Zəngin təbii sərvətləri, əlverişli coğrafi mövqeyi ilə, artıq mövcud olan çox güclü və müasir nəqliyyat infrastrukturu vasitəsilə Azərbaycan regionda aparıcı ölkəyə çevrilir. Biz yaxın zamanda Avropaya təbii qaz nəql edəcəyik. Eyni zamanda Xəzər dənizindən nefti Aralıq dənizinə çatdıracaq boru kəmərimiz olacaqdır. Bu, Xəzəryanı dövlətlərin tarixində ilk belə hadisə olacaqdır. Əlbəttə ki, gələcəkdə digər ölkələr həmin boru kəmərinə qoşula bilər. Onlar bizim sistem vasitəsilə özlərinin hasilatı artan enerji daşıyıcılarını nəql edə bilər. Azərbaycan isə bundan həm siyasi, həm də iqtisadi baxımdan yalnız bəhrələnəcəkdir.

**S u a l: Geosiyasi məntiqlə danışsaq, hazırda Azərbaycanın Rusiya ilə münasibətlərinin olduqca böyük əhəmiyyəti var. Bir sıra təhlilçilər hesab edirlər ki, Bakı–Tbilisi–Ceyhan boru kəməri Rusiya ərazisindən kənar keçmək məqsədini daşıyır. Yəni belə çıxır ki, Azərbaycan bu cür geosiyasi əhəmiyyət daşıyan boru kəmərinin Rusiyadan keçməsini arzu etmir. Siz belə analitik qiymətə necə yanaşırsınız?**

**C a v a b:** İlk növbədə onu deyim ki, bizim bütün qonşu ölkələrlə çox yaxşı münasibətlərimiz var. Hesab edirəm ki, bu amil regionun sabit inkişafı üçün, o cümlədən regionda dostluq və əməkdaşlıq naminə olduqca vacibdir. Azərbaycanın qonşu ölkələrlə əməkdaşlığının genişləndirilməsi üçün öz işimizi davam etdiririk.

Bakı–Tbilisi–Ceyhan boru kəmərinə gəldikdə isə, burada reallıqdan uzaq çoxlu spekulyativ şayiələr və fərziyyələr yayılmışdır. Bizim məqsədimiz kəmərin hansısa ölkənin ərazisindən kənar keçməsindən ibarət olmamışdır. Siz artıq bilirsiniz ki, bu gün neftimizi Qara dənizə Rusiya vasitəsilə nəql edən boru kəməri mövcuddur. Digər marşrutla biz nefti Qara dənizə Gürcüstan vasitəsilə çıxarırıq. Bizim üçün əsas məqsəd Aralıq dənizinə çıxışı təmin etməkdən ibarət olmuşdur. Bu, dünya bazarına çıxış deməkdir və Aralıq dənizinə aparan yol

Gürcüstan və Türkiyədən keçir. Buna görə də biz Bakı–Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsi üzərində işləyərkən, heç bir siyasi məqsəd güdmürdük. Məqsədimiz güclü buraxıcılıq qabiliyyətinə malik üçüncü boru kəmərinin tikilməsindən ibarət idi. Bu kəmərdən istifadə edərək, biz nə qədər istəsək neft hasil edəcəyik və istədiyimiz qədər də nəql edəcəyik. Çünki Azərbaycan gələn iki-üç il ərzində gündə bir milyon bareldən çox neft hasil edə biləcəkdir. Qara dənizə çıxan mövcud iki boru kəmərinin belə imkanları yoxdur. Bu birincisi.

İkincisi, həmin kəmərlər beynəlxalq bazara çıxışı təmin etmir. Bazar Qara dəniz regionu ilə məhdudlaşır. Eyni zamanda, bildiyiniz kimi, Bosfor boğazı məsələsi var. Bu çox ciddi məsələdir. Ona görə də Bakı–Tbilisi–Ceyhan boru kəməri bizim üçün kommersiya və iqtisadi xarakter daşıyan layihədir. Aydındır ki, müəyyən qüvvələr həmin layihəyə siyasi məna verməyə çalışırlar. Lakin mən hesab etmirəm ki, bu mövqe düzdür.

**S u a l: Siz Putinin rəhbərlik etdiyi Rusiya ilə konstruktiv münasibətləri necə qurmusunuz?**

**C a v a b:** Bizim çox yaxşı münasibətlərimiz var. Mən prezident Putin ilə dəfələrlə görüşmüşəm. O bu yaxınlarda Azərbaycana səfər etmişdir və onunla çox uzun və səmərəli müzakirələrimiz oldu. Biz keçmişdə mövcud olmuş və öz həllini gözləyən bütün məsələləri aradan qaldıra bilmişik. İndi Azərbaycan ilə Rusiya arasında həll olunmamış heç bir məsələ yoxdur. Biz yaxşı qonşuluq edirik. Son iki il ərzində ticarət dövriyyəsini iki dəfə artırmışıq və hər iki ölkə bundan bəhrələnir. Buna görə də biz mövcud əlaqələrimizin səviyyəsindən çox razıyıq və bu amil nəinki ikitərəfli münasibətlər baxımından, həm də yaşadığımız regionda təhlükəsizlik üçün də çox vacibdir.

**S u a l: Birləşmiş Ştatlara gəldikdə, bəzən deyilir ki, bu ölkə Azərbaycanda hərbi bazalar yaratmağa hazırlaşır. Eyni zamanda, biz Sizin rəsmi mövqeyinizlə tanışıq, ərazinizdə heç bir Amerika hərbi bazasının yaranmasını**

**istəmirsiniz. Siz Birləşmiş Ştatlarla münasibətlərinizi necə qurursunuz? Biz bilirik ki, ABŞ strateji baxımdan mühüm olan bu regiona böyük maraq göstərir.**

**C a v a b:** Bizim ABŞ-la uzun müddətdir gözəl münasibətlərimiz var. Müstəqilliyimizi qazandıqdan bəri həmin münasibətlər get-gedə daha çox sahələri əhatə edir. Misal üçün sizə deyə bilərəm ki, Bakı–Tbilisi–Ceyhan boru kəmərinin çəkilməsində ABŞ hökumətinin oynadığı rol çox mühüm idi. Bildiyiniz kimi, Bakı–Tbilisi–Ceyhan boru kəməri beynəlxalq maliyyə təsisatlarının ayırdığı kreditlər hesabına tikilmişdir. Layihənin 70 faizi kredit hesabına, qalan 30 faizi isə payçıların vəsaiti hesabına həyata keçirilmişdir. Ona görə də Birləşmiş Ştatların siyasi və əməli dəstəyi bizim enerji layihələrimiz üçün həlledici olmuşdur.

Eyni zamanda, biz müxtəlif iqtisadi sahələrdə də əməkdaşlıq edirik. Terrorizmə qarşı əməliyyatlarda da çox yaxşı əməkdaşlıq aparırıq. Bildiyiniz kimi, Azərbaycan antiterror koalisiyasının üzvüdür və bizim əsgərlər Amerika qoşunları ilə birgə dünyanın müxtəlif yerlərində sülhməramlı əməliyyatların həyata keçirilməsində iştirak edirlər. Bir sözlə, əlaqələrimizin çox möhkəm bünövrəsi var və biz bundan çox məmnunuq.

O ki qaldı, xarici hərbi bazalar məsələsinə, bildiyiniz kimi, biz dəfələrlə tamamilə aydın şəkildə bəyan etmişik və Amerika rəsmiləri də bildiriblər ki, bu məsələni müzakirə etmirik. Buna ehtiyac yoxdur. Azərbaycanda heç bir ölkənin hərbi qüvvəsi yoxdur.

**S u a l: Azərbaycanın Qərb ilə Şərq arasında yerləşməsini, bir tərəfdən Birləşmiş Ştatlar və Avropa ölkələrinin, digər tərəfdən isə Rusiyanın olmasını nəzərə alsaq, bu vəziyyətdə Siz tarazlığı necə qoruyub saxlayırsınız və Azərbaycanın beynəlxalq aləmdə mövqeyini necə görürsünüz?**

**C a v a b:** Bilirsiniz, mən tamamilə əminəm ki, ölkənin və xalqın maraqlarını tam əks etdirən uğurlu siyasəti həyata keçirmək üçün aparılan siyasətin özü düzgün olmalıdır. Çox

səmimi, açıq və ürəkli olmaq lazımdır. Biz ikitərəfli münasibətlərimizə aid olan hər hansı çox ciddi məsələni bir çox ölkələrlə müzakirə etməkdən çəkinmirik. Ona görə də bu baxımdan spekulyasiya üçün yer yoxdur. Eyni zamanda, digər vacib məsələ var və Azərbaycan buna çox sadiqdir. Həmin məsələ müstəqil siyasətin aparılmasından ibarətdir. Azərbaycan müstəqil ölkədir və hər hansı qarşıdurma üçün yer deyildir. Bu baxımdan, mənim apardığım siyasət olduqca açıq siyasətdir. Mən tərəfdaşlarımızı və dostlarımızı bizimlə əməkdaşlıq etmək, işbirliyi qurmaq məqsədi ilə Azərbaycana dəvət edirəm. Biz qarşıdurmadan uzaq olmalıyıq. Fikrimcə, ölkənin uğurlu inkişafı da məhz bu mövqeyə əsaslanır. Çünki bizim müxtəlif hallarda bir-biri ilə qarşıdurmada olan ölkələrlə çox düzgün, açıq və səmimi münasibətlərimiz var.

**S u a l: Birləşmiş Ştatlarla Rusiya arasındakı əlaqələr son bir-iki il ərzində o qədər də rəvan deyildir. Siz bu iki ölkə arasındakı münasibətləri necə təhlil edirsiniz?**

**C a v a b:** Siyasətimizin mühüm elementlərindən biri də ondan ibarətdir ki, biz digər ölkələrin daxili işlərinə qarışmırıq. Eyni zamanda, biz hər hansı qüvvənin bizim işlərimizə müdaxilə etməsini görəndə və ya hiss edəndə, buna çox həssas yanaşırıq. Bu səbəbə görə də həmin məsələ siyasətimizin mühüm meyarlarından biridir. Biz digər ölkələr arasındakı əlaqələrə müdaxilə etməyə yox, onlarla yaxşı münasibətlərdə olmağa, əməkdaşlıq etməyə çalışırıq. ABŞ-la Rusiya arasında olan münasibətlər onların hökumətlərinin və xalqlarının işidir. Biz əməkdaşlıq məsələsinə öz töhfəmizi vermək istəyirik.

Mən sizə deyə bilərəm, Azərbaycan regionda nadir ölkələrdən biridir ki, orada həmin iki ölkədən olan şirkətlər çox sıx və uğurlu əməkdaşlıq edirlər. Əgər biz bu əməkdaşlığa töhfə verə bilsək, bundan çox şad olardıq. Zənnimcə, ən yaxşı iş məhz əməkdaşlıq yollarının tapılmasıdır. Diqqəti mübahisələrə yönəltməkdənsə, yaxşı olardı ki, əməkdaşlıq naminə işləyək.

**S u a l: Siz regionunuzda sabitliyin bərqərar olunmasındakı rolunuzu necə görürsünüz? Sabitlik üçün hansı işləri görə bilərsiniz?**

**C a v a b:** Sabitliyin yaradılmasında vacib olan elementlər əməkdaşlıq və iqtisadi təkanlardır. Çünki regionda və ümumən, dünyada bir çox problemlər yoxsulluq, işsizlik, ağır iqtisadi vəziyyət və sərvətlərin qeyri-düzgün bölüşdürülməsi ilə bağlıdır. Ona görə də əminəm ki, real xeyir gətirən iqtisadi inkişaf, uğurlu əməkdaşlıq sabitlik və sülhə yaxşı töhfə verə bilər. Əgər biz Azərbaycanın öz sərvətlərinin ixracçısı və tranzit ölkə kimi rolunu götürsək görərik ki, bu rol tərəfdaşlarımızın iqtisadiyyatının möhkəmlənməsinə xidmət edir.

Məsələn, bizimlə əməkdaşlıq edən ölkələr sərfəli qiymətlə enerji daşıyıcılarını ala biləcək və Xəzərin şərq hissəsində yerləşən ölkələri götürsək, onlar beynəlxalq bazarlara çıxış əldə edəcək, bizim ərazimizlə malların daşınmasına nail olacaqlar. Əgər siz Şərq–Qərb kommunikasiyalarını, İpək Yolunu nəzərdə tutursunuzsa, Azərbaycandan yan keçə bilməzsiniz. Şərq–Qərb nəqliyyat dəhlizini götürsək, burada da Azərbaycanın öz yeri var və heç kim bizdən yan keçə bilməz.

Bir sözlə, bura strateji yerdir, önəmli coğrafi mövqeyi, yaxşı resursları və nəqliyyat xətti var. Bizim yaxşı və bərabər tərəfdaş olmağa hazırlığımızı da nəzərə alsaq, bütün bunlar sabitliyə əlavə dəstək verə bilər.

**S u a l: İranda çoxlu azərbaycanlı yaşayır. Hazırda isə İran nüvə məsələsinin əsas səbəbkarına çevrilmişdir. Bu məsələnin həllində Siz hansı rolu oynaya bilərsiniz? Sizin fikrinizcə, nizamlanma üçün nə isə edə bilərsinizmi?**

**C a v a b:** Bilirsiniz, mən bir daha təkrar etmək istəyirəm, biz müxtəlif ölkələrə öz iradəmizi qəbul etdirmək və ya hər hansı nizamlanmada xidmətimizi təklif etmək fikrində deyilik. Bu bizim işimiz deyildir. Əgər müxtəlif ölkələr arasında daha yaxşı anlaşmanın qurulmasında Azərbaycanın iştirakına ehtiyac duyularsa, biz bunu etməyə hazırıq. Mən hesab edirəm ki, Azərbaycan prinsip etibarilə bu sahədə rol oynaya bilər. Çünki

mən əvvəldə qeyd etdiyim kimi və sizin də dediyiniz kimi, bizim bütün qonşularımızla, o cümlədən tərəfdaşlarımızla yaxşı əlaqələrimiz var. Bizim müxtəlif beynəlxalq təşkilatlarda, Avropa və islam dünyasına aid qurumlarda yaxşı mövqelərimiz var. Ona görə də töhfə verməyə hazır və əməkdaşlığa açıq olan ölkə kimi, Azərbaycan, əgər lazım gələrsə, öz rolunu oynaya bilər. Əgər bizdən xahiş etsələr və ya bizə müraciət etsələr, müəyyən işi görə bilərik. Lakin öz təşəbbüsümüzlə çıxış etmək, zənnimcə bu, münasib ideya deyildir.

**S u a l: Son zamanlar biz keçmiş sovet respublikalarında böyük siyasi dəyişikliklərin şahidi olduq. Ukraynada «narıncı inqilab» baş verdi. Mərkəzi Asiya ölkələrində hadisələr oldu. Azərbaycan da keçmiş sovet respublikası olduğundan, Siz bu cür siyasi fenomeni, yəni inqilabları necə qiymətləndirirsiniz?**

**C a v a b:** Hər bir ölkənin özünün yolu, keçmişi və gələcəyi var. Sovet İttifaqı dağıldıqda hər bir keçmiş sovet respublikasının eyni şansları və imkanları var idi. Lakin bir neçə ölkə uğura nail oldu, digərləri yox. Azərbaycana gəldikdə isə, biz görürük ki, müstəqillik qazandıqdan sonra ölkəmiz bütün sahələrdə çox böyük nailiyyətlər əldə etmişdir. Həm siyasi sahədə, həm də iqtisadi inkişaf sahəsində irəliləyiş müşahidə olunmuşdur. Hazırda bizim iqtisadiyyatımız dünyada ən sürətlə inkişaf edən iqtisadiyyatdır. Ötən il ərzində ölkəmizdə ÜDM-in artımı 26 faizdən çox olmuş, sənaye istehsalı 33 faiz, əhalinin gəlirləri 27 faiz artmışdır. Bütün bunlar uğurlu iqtisadi siyasətin əyani sübutudur. Bizim ölkəmizdə siyasi sabitlik çox yüksək səviyyədədir. Xalq ilə hökumət arasında birlik mövcuddur. Siyasətimiz əhalinin əksəriyyəti tərəfindən dəstəklənir. Bizim regionda çox yaxşı əlaqələrimiz var.

Bir sözlə, Azərbaycanın taleyi çox uğurlu olmuşdur. Müəyyən ölkələr bu uğura nail ola bilmədilər, onlar bundan kənar düşdülər və ona görə də həmin ölkələrdə baş vermiş dramatik dəyişikliklər, ola bilsin, müstəqillik tarixi ilə bağlıdır. Sovet respublikaları müstəqil olandan sonra hamının imkanları

eyni olmuşdur. Biz siyasətimizi və taleyimizi müəyyən etməliydik. Müəyyən ölkələr buna nail oldu, digərləri isə bunun öhdəsindən gələ bilmədi. Bilirsiniz, bəzi insanların arasında yayılmış səhv təsəvvür ondan ibarət idi ki, əgər müəyyən bir ölkədə inqilab baş verirsə, demək, digər ölkədə də bu, baş verməlidir. Bu, düz deyil.

**M ü x b i r:** Elə bil ki, domino effektidir.

**I l h a m Ə l i y e v:** Misal üçün, mən bilirəm ki, Azərbaycanda parlament seçkilərindən öncə müəyyən dairələr, təşkilatlar və siyasətçilər inqilabın baş verməsini gözləyirdilər. Lakin regiondakı vəziyyətə yaxşı bələd olan hər kəs bilirdi ki, bu cür hadisə mümkün deyildir. Bunun üçün əsas yoxdur. Çünki inqilabın baş verməsi üçün ilkin şərtlər, səbəblər mövcud olmalıdır. Əgər buna səbəb yoxdursa, həmin hadisə süni şəkildə baş verə bilməz. Azərbaycana inqilabın ixrac edilməsinə çalışan müəyyən dairələrin istəyindən asılı olmayaraq, həmin səylər əbəs idi. Ona görə də bu gün müstəqilliyimizin artıq 15-ci ilini yaşadıqda, keçmiş sovet respublikalarına eyni prizmadan baxmaq düzgün olmazdı. İndi vəziyyət tamamilə başqadır, ölkələr fərqlidir.

**S u a l: Sizin ölkənizdə seçkilərin nəticəsinə gəldikdə, nəinki ölkədaxili müəyyən qruplar, ATƏT kimi bir sıra beynəlxalq təşkilatlarda seçki prosesində müəyyən pozuntuların olmasını qeyd etmişlər. Eyni zamanda, biz bilirik ki, Siz 10 seçki dairəsində təkrar seçkilər keçirəcəksiniz. Belə çıxır ki, Azərbaycan seçkinin nəticələrindən şikayətlənən qurumların narahatlığını aradan qaldırmaq üçün müəyyən addımlar atmalıdır. Siz təkrar seçkiləri necə keçirəcəksiniz?**

**C a v a b:** Hətta demokratiya yaxşı inkişaf etmiş ölkələrdə də siz seçkilərdə bəzən problemlərin yaranmasını görürsünüz. Bu təbiidir. Bizim seçkilərə gəldikdə isə, bu dəfə seçki pozuntularından qorunmaq üçün bir çox mexanizmlər işə salınmışdır. Qəsdən seçki qanununun pozulmasını mümkünsüz edən bir sıra yeni tədbirlər də görülmüşdür. Onlardan biri «exit-

poll» idi və Azərbaycanda onu ABŞ Dövlət Departamenti tərəfindən seçilmiş şirkət aparmışdır. Bu bizim tərəfimizdən seçilmiş şirkət deyildi və «exit-poll»un nəticələri ilə rəsmi nəticələr 90 faizdən çox hallarda üst-üstə düşmüşdür, tamamilə uyğun gəlmişdir. Yalnız müəyyən hallarda fərqlər çox cüzi, yəni 1 və ya 2 faiz olmuşdur.

Əlbəttə ki, biz tədbirlər gördük. Hər hansı pozuntu üzə çıxdığı təqdirdə, bir sıra dairələrdə seçkilərin nəticələri ləğv edilmişdir. Bu səbəbdən biz həmin 10 dairədə təkrar seçkilər keçirəcəyik. Yəni 125 dairədən yalnız 10-da bunu edəcəyik. Bu, böyük nisbət deyildir.

Ümumiyyətlə, Azərbaycan xalqının iradəsi seçkilərin nəticələrində tam əks olunmuşdur. Biz seçki təcrübəsinin yaxşılaşdırılması məqsədi ilə beynəlxalq təşkilatlarla birgə işləmək istəyimizi ifadə etdik. Lakin seçkilərin yaxşı şəraitdə keçirilməsi şübhə altına alına bilməz və seçkilərdə xalqın iradəsi tam əks olunmuşdur.

Dediyim kimi, 10 dairədə təkrar seçkilər keçiriləcəkdir. Ona görə də mən bütün beynəlxalq təşkilatları, o cümlədən ATƏT-i, «exit-poll» ilə məşğul olan şirkətləri bir daha ölkəmizə dəvət edirəm. Onlar gəlsinlər və monitorinq keçirsinlər. Bilirsiniz, xüsusən regionda gəzən inqilabi əhval-ruhiyyəni götürsək, Azərbaycandakı parlament seçkiləri beynəlxalq təşkilatların olduqca ciddi nəzarəti altında keçirilmişdir. Ölkəmizə minə yaxın müşahidəçi gəlmişdi. Onların sayını eşidəndə, rəqəm inanılmaz gəlir. Bu cür şəraitdə əgər hər hansı bir şəxs seçki prosesinə müdaxilə etmək istəyirdisə, bunu gizlətmək mümkün olmazdı. Ona görə də 10 dairədə seçkilər ləğv edilmiş, pozuntulara yol vermiş seçki rəsmiləri ya həbs edilmiş, ya da tutduğu vəzifədən uzaqlaşdırılmışlar. Bununla biz seçki prosesinə müdaxilə edənləri cəzalandırmaq iradəmizi nümayiş etdirdik.

**S u a l: Siz Buş administrasiyasının demokratiyanı genişləndirmək siyasətini necə qiymətləndirirsiniz? Bir çox islam**

**ölkələri bu siyasətdən məyus qalmışlar. Siz buna necə yanaşırsınız?**

**C a v a b:** Bilirsiniz, demokratiya bir prosesdir və biz demokratikləşmə prosesini keçməkdəyik. 15 il bundan əvvəl biz tamamilə başqa şəraitdə yaşamışıq. Yəni Sovet İttifaqında, totalitar rejim altında yaşamışıq. Hazırda müstəqil bir ölkə kimi, demokratiyaya keçid çox sürətlə gedir. Misal üçün, son on beş ildə Azərbaycanın keçdiyi yolu digər ölkələr bəlkə də 100 ilə keçmişlər. Hazırda biz bütün siyasi təsisatları qurmuşuq, ölkəmizdə mətbuat və söz azadlığı var. Bütün siyasi partiyalar fəaliyyət göstərir. Avropa Şurasına qəbul olunduqdan sonra Avropa standartlarına əsaslanan yeni qanunlar qəbul edilmişdir.

Bir sözlə, Azərbaycanda bu proses çox fəal gedir. Əlbəttə ki, biz həmin prosesi daha da sürətləndirmək istərdik. Lakin təkamül yolu ilə inkişafın öz qaydaları var. Buna müdaxilə etmək olmaz. Heç kim bunu edə bilməz. Bəlkə cəhd göstərirlər, lakin bu, uğur gətirməyəcəkdir. Eynilə, normal siyasi prosesə də müdaxilə edilə bilməz. Yəni ölkəyə yad olan meyarları məcburi tətbiq etmək və ya onu daha da sürətləndirmək mümkün deyildir. Ona görə də hər bir vəziyyətə aid xüsusi yanaşmadan istifadə olunmalıdır. Ölkəyə nəyin lazım olacağını ən yaxşı kim bilir? Əlbəttə ki, həmin ölkədə yaşayanların özləri və xalqın seçdiyi liderlər. Ona görə də bu bizim öz iradəmiz, qərarımız və baxışlarımızdır. Onlar üstünlük təşkil edir və bu belə də olmalıdır. Bütün bunlar nəzərə alınmalıdır.

Mən yenə də hesab edirəm ki, bir sıra keçmiş sovet respublikalarında baş verənlər haqqında səhv təsəvvür yaranmışdır. Həmin ölkələrdə baş vermiş hadisələri təfərrüatlı şəkildə təhlil etsəniz görərsiniz ki, onların tarixçəsi tamamilə fərqli idi. Mən burada detallara varmaq istəmirəm.

Mən onların hər birində baş vermiş hadisələr haqqında kifayət dərəcədə məlumatlıyam. Hər şey eyni deyildi. Yəni bunu götürüb avtomatik qaydada tamamilə fərqli inkişaf səviyyəsində olan ölkəyə tətbiq etmək olmaz. Biz birgə çalışmalıyıq. Daha yaxşı həyat tərzini təmin etmək üçün daha

yaxşı həll yollarını tapmalıyıq. Biz sabitlik və təhlükəsizliyi uçuruma aparmalı deyil, ona töhfə verməliyik. Bu bizim ölkədir. Mən Azərbaycanın seçilmiş prezidentiyəm və ölkənin bu günü və gələcəyi, Azərbaycan xalqının rifahı və təhlükəsizliyi üçün məsuliyyət daşıyıram. Bu, olduqca aydın şəkildə başa düşülməlidir. Biz yaratmaq naminə birgə çalışmalıyıq və yaxşı şəraiti təmin etməliyik.

**S u a l: Siz addımlarınızı hansı istiqamətdə davam etdirmək istəyirsiniz? Gələcəkdə Türkiyə kimi, Avropa İttifaqının üzvü olmaq istəyirsiniz, yoxsa Qərb ilə Şərq arasında orta mövqedə qalmaq fikrindəsiniz? Siz hansı siyasi niyyəti həyata keçirmək istəyirsiniz?**

**C a v a b:** Bilirsiniz, biz realist olmalıyıq. Əgər burada sizə desəm ki, biz Avropa İttifaqının üzvü olmaq istəyirik, bu söz heç nəyi dəyişməyəcəkdir. Yəni bu sözdən iş sürətlənməyəcəkdir. Biz ölkəmizdəki və Avropa İttifaqındakı vəziyyəti düzgün qiymətləndirməliyik. Avropa İttifaqının yaşadığı problemləri və duyduğu narahatlığı nəzərə almalıyıq. Biz elə bir mövqedə olmalıyıq ki, o bizi Avropa İttifaqına daha da yaxınlaşdırsın. Hazırda biz Avropa İttifaqı ilə «Yeni qonşuluq siyasəti» çərçivəsində əməkdaşlıq edirik. Biz bu proqramların tezliklə yerinə yetirilməsinə başlayırıq. Çünki fikrimizcə, həmin addımlar ölkənin daha da inkişaf etdirilməsi, onun demokratikləşməsi və iqtisadiyyatı, Qərblə əməkdaşlığı üçün yaxşı şərait yaradacaqdır. Lakin eyni zamanda, biz həddindən artıq həvəsə düşməməliyik. Biz addımlarımızı real vəziyyətə, realist ssenariyə əsaslanaraq atmalıyıq. Bu, birincisi.

İkincisi, mən sizə demək istəyirəm ki, Azərbaycan özünə arxalanan ölkədir. Apardığımız tam müstəqil xarici siyasətin də əsasını məhz bu amil təşkil edir. Biz heç kimdən asılı deyilik. Vaxt keçdikcə müstəqilliyimiz və gücümüz daha da artacaqdır. Müstəqillik təkcə rəmzlər, bayraq və milli himn demək deyildir. Əsl müstəqillik yalnız ölkənin milli maraqlarına əsaslanan müstəqil siyasətin aparılmasıdır. Yəni hər hansı digər ölkəyə bağlı olmamaq, kiminsə arxasınca addımlamamaq, ondan asılı

olmamaq deməkdir. Özünü dəyişməmək və xalqla birlikdə öz gələcəyini müəyyən etmək gərəkdir. Ona görə də Azərbaycan öz işini asanlıqla davam etdirərək yaşayacaqdır. Onun tutduğu yol, o cümlədən tərəfdaşlara və qonşularına münasibətdə mövqeyi olduqca konstruktiv və düzgündür.

Azərbaycan digər ölkələrlə ikitərəfli səviyyədə, eləcə də beynəlxalq təşkilatlar çərçivəsində iş aparmalıdır. Əgər beynəlxalq təşkilatlarda bizə ehtiyac duyularsa, əlbəttə ki, biz bu məqsədlə fəal işləyəcəyik. Əgər kimsə bunu istəmirsə, biz də istəmərik. Bilirsiniz, belə şayiələr də gəzirdi ki, guya Azərbaycanda parlament seçkilərindən sonra ölkəmizə qarşı Avropa Şurası tərəfindən sanksiyalar tətbiq ediləcək və yaxud Azərbaycan təcrid olunacaqdır. Azərbaycanı təcrid etmək mümkün deyildir. Belə bir hadisənin baş verəcəyini zənn etmək də mümkün deyildir. Yəni müəyyən təşkilat Azərbaycanı istəməsə, onda Azərbaycan da onu istəməyəcəkdir. Biz elə bir vəziyyətdə deyilik ki, yalvaraq və yaxud mərhəmətli bir addım gözləyək. Biz möhkəm mövqeyə malik ölkəyik, yaxşı nailiyyətlərə nail olmuşuq və əməkdaşlıq üçün açığıq.

**S u a l: İqtisadiyyata gəldikdə, bilirik ki, o çox sürətlə inkişaf edir. ÜDM-in artımı 26 faizdən çoxdur. Eyni zamanda, əfsuslar ki, Sizin ölkədə əhalinin təbəqələri arasında fərqlər var. Siz cəmiyyətdə olan bu fərqləri hansı yolla aradan qaldırmaq fikrindəsiniz?**

**C a v a b:** Bu, hazırda olduqca böyük iqtisadi artım müşahidə edilən və keçid dövrünü yaşayan ölkə üçün təbiidir. Bu, sona çatacaqdır. Məqsədimiz yoxsulluğun və işsizliyin azaldılmasını sürətləndirməkdir. Sizə deyə bilərəm ki, bu sahədə uğur əldə etmişik. İki il öncə, rəsmi statistikaya görə, yoxsulluq şəraitində yaşayan insanların sayı 49 faiz təşkil edirdi. Həmin rəqəm indi 29 faizdir, lakin bu da çoxdur. İki il ərzində 20 faiz azalmışdır. Bu o deməkdir ki, iki il bundan əvvəl yoxsul yaşayan həmin 20 faiz indi artıq belə şəraitdə yaşamır. Eyni zamanda, son iki il yarım ərzində Azərbaycanda

340 min iş yeri açılmışdır. Bu amil cəmiyyətdə ədalətin bərqərar olunmasına əsas yaradacaqdır.

Biz Neft Fondunun vəsaitlərini yoxsulluqda yaşayan insanlara, qaçqınlara və Ermənistanın təcavüzündən əziyyət çəkmiş şəxslərə yardım etmək üçün istifadə edirik. Hökumətin sosial siyasəti çox fəaldır. İqtisadiyyatımız bazar iqtisadiyyatı prinsiplərinə əsaslanır. Lakin siz bizim büdcəmizə nəzər salsanız görərsiniz ki, o sosialyönümlüdür. Büdcənin əsas hissəsi əmək haqları və pensiyaların ödənilməsinə, təqaüdlərin verilməsinə sərf edilir. Biz özəl sektoru dəstəkləmək, daha çox iş yerləri yaratmaq məqsədi ilə özəlləşdirmə prosesini daha da sürətləndirməliyik ki, insanlar yaxşı yaşasın və əmək fəaliyyəti ilə məşğul ola bilsinlər. Əgər onların işi olsa, artıq yoxsul hesab edilməzlər. Biz diqqətimizi bu sahələrə yönəldirik. Əlbəttə ki, bütün enerji layihələrimiz gəlir verəndən sonra, yəni boru kəmərləri işə düşəndən sonra bizim bir çox maliyyə mənbələrimiz olacaq, Azərbaycana milyardlarla dollar daxil olacaqdır. Həmin vəsaitlərin düzgün bölüşdürülməsi ən vacib məsələyə çevriləcəkdir.

**S u a l: Yaponiya ilə Azərbaycan arasında heç bir siyasi problem mövcud deyildir. Siyasi münasibətlərimiz yaxşı səviyyədədir. Həmin siyasi münasibətlərə əsaslanaraq, gələcəkdə Siz Yaponiya ilə əlaqələri necə inkişaf etdirmək istərdiniz?**

**C a v a b:** Biz ölkələrimiz arasındakı münasibətlərin səviyyəsindən çox razıyıq. Həmin əlaqələr uzun illər boyu olduqca müsbət olmuşdur. Mənim ölkənizə rəsmi səfərim buna daha bir sübutdur və əminəm ki, bu səfər münasibətlərin inkişafında əlavə təkan olacaqdır. Bildiyiniz kimi, səfərim çərçivəsində biz yapon və azərbaycanlı iş adamlarının iştirakı ilə Yaponiya–Azərbaycan iqtisadi forumunu da təşkil etmişik. Bu tədbir biznes dairələrinin işbirliyi üçün daha yaxşı şərait yaradacaqdır. Eyni zamanda, mən dünən Yaponiya–Azərbaycan Birgə İqtisadi Komitəsinin nümayəndələri ilə də görüş keçirdim və Azərbaycana gələcəkdə lazım olacaq bir çox praktiki layihələri

müzakirə etdim. Gələn illər ərzində ölkəmiz get-gedə kreditlərdən tam azad olacaqdır. Çünki bizim özümüzün vəsaitlərimiz yaranacaqdır. Bizə müasir texnologiya, yaxşı məsləhət və etibarlı tərəfdaşlar lazımdır. Ona görə də Azərbaycan bazarı yapon şirkətləri üçün açıqdır. Biz onları uzun illər boyu tanımışıq və alqışlayırıq. Münasibətlərimiz hər zaman yaxşı olubdur.

Azərbaycanın inkişafının hazırkı mərhələsində bir çox yaxşılaşdırılma işləri görülməlidir. İnfrastruktur layihələri, səhiyyə və təhsil proqramları həyata keçirilməli, energetika sistemi, su təchizatı və mühəndis kommunikasiyaları yaxşılaşdırılmalıdır. Gələn illər ərzində bütün bu sahələrə milyardlarla dollar sərmayə yatırmaq fikrindəyik. Ona görə də biz öz texnologiyası və bilikləri ilə ölkəmizə gələn yapon şirkətlərini səmimiyyətlə alqışlayırıq. Mən hesab edirəm ki, münasibətlərimizin bu iqtisadi komponenti çox vacib rol oynayacaqdır. Ümumiyyətlə, bu amil istənilən digər sahədə əlaqələrin daha da yaxşılaşdırılmasına səbəb olacaqdır.

**M ü x b i r:** Müsahibəyə görə çox sağ olun.

**I l h a m Ə l i y e v:** Sağ olun.

## «İTOÇU» ŞİRKƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*Tokio*

*10 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 10-da Tokioda, onun üçün ayrılmış iqamətgahda «İtoçu» şirkətinin sədri Uçihiro Nivanı qəbul etmişdir.*

*Azərbaycan prezidentini Yaponiyada görməkdən şərəf duyduğunu bildirən «İtoçu» şirkətinin sədri bu səfərin ölkələrimiz arasında əlaqələrin inkişafına təkan verəcəyini vurğuladı, eyni zamanda, 1998-ci ildə onunla Naqano Qış Olimpiya oyunları zamanı olan görüşünü xatırlatdı. Uçihiro Niva bildirdi ki, prezident Heydər Əliyevin 1998-ci ildə Yaponiyaya tarixi səfərinin ölkələrimiz arasında münasibətlərin inkişafında xüsusi rolu olmuşdur. Yaponiya Azərbaycanla biznes əlaqələri qurmağa xüsusi əhəmiyyət verir.*

*Xoş sözlərə görə təşəkkür edən prezident İlham Əliyev Naqano Olimpiadasından əvvəl də 1996-cı ildə Yaponiyada olduğunu xatırlatdı. Dövlətimizin başçısı Azərbaycanda yapon şirkətlərinin fəaliyyəti üçün hər cür şəraitin yaradıldığını bildirdi.*

## «İNPEKS» ŞİRKƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*Tokio*

*10 mart 2006-cı il*

*Martın 10-da Azərbaycan prezidenti İlham Əliyev Tokioda onun üçün ayrılmış iqamətgahda «İNPEKS» şirkətinin sədri Kunihiko Matsuonu qəbul etmişdir.*

*Şirkətin sədri prezident İlham Əliyevlə görüşündən şərəf duyduğunu bildirdi və onunla iki il əvvəl olmuş görüşünü də xatırlatdı. Cənab Kunihiko Matsuo dedi ki, Azərbaycan siyasi, iqtisadi, sosial sahədə sürətlə inkişaf edir, ölkə tərəqqi yolundadır və biz bundan məmnunuq. Azərbaycan–Yaponiya iqtisadi forumu çox yüksək səviyyədə keçdi. Sizin nitqinizdə Azərbaycanın qonşularla, o cümlədən Xəzəryanı dövlətlərlə münasibətlərinə dair söylədiyiniz strategiya bizdə xüsusi təəssürat yaratmışdır və bunu düzgün siyasət hesab edirik. Yaponiya isə Azərbaycanla yaxın qonşu olmasa da, qəlbən qonşudur. Keçən il Tokioda Azərbaycan səfirliyinin açılması ikitərəfli əlaqələrə yeni təkan vermişdir.*

*Prezident İlham Əliyev Tokioda keçirdiyi görüşlərin, apardığı danışıqların Yaponiya ilə Azərbaycan arasındakı mövcud əməkdaşlığın daha da genişlənməsində mühüm rol oynayacağını bildirdi. Dövlətimizin başçısı dedi ki, biz Yaponiya ilə tərəfdaşlığa xüsusi əhəmiyyət veririk. Yaponiya şirkətlərinin Azərbaycandakı fəaliyyəti ölkələrimiz arasında münasibətlərin daha da inkişafına kömək edir.*

*Görüşdə bir sıra konkret layihələrin həyata keçirilməsi, bölgədə vəziyyət və qarşılıqlı maraq doğuran bir sıra məsələlər barədə geniş fikir mübadiləsi aparıldı.*

# YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞ

*Tokio*

*10 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 10-da Tokioda onun üçün ayrılmış iqamətgahda Yaponiya Beynəlxalq Əməkdaşlıq Bankının prezidenti Kyuozuke Şinozavanı qəbul etmişdir.*

*Prezident İlham Əliyevlə görüşməyindən məmnunluğunu söyləyən bankın rəhbəri inkişaf etməkdə olan Azərbaycanla əməkdaşlığa böyük əhəmiyyət verdiklərini və əlaqələrin gələcəkdə də davam etdiriləcəyini bildirdi.*

*Prezident İlham Əliyev Azərbaycanın iqtisadi imkanlarından, ölkəmizdə aparılan islahatlardan və onların uğurlu nəticələrindən danışdı. Bildirdi ki, Azərbaycan özünün indiki inkişaf mərhələsində dünyanın qabaqcıl dövlətlərinin, o cümlədən Yaponiyanın təcrübəsinin öyrənilməsinə, bu ölkələr ilə əməkdaşlığın genişləndirilməsinə böyük önəm verir. Yaponiya şirkətlərinin ölkəmizə maraq göstərməsini müsbət qiymətləndirən prezident İlham Əliyev dedi ki, respublikamızda xarici iş adamlarının fəaliyyəti, sərmayələrin qorunması üçün əlverişli şərait yaradılmışdır və bu iş gələcəkdə də davam etdiriləcəkdir.*

*Söhbət zamanı qarşılıqlı maraq doğuran məsələlər barədə də fikir mübadiləsi oldu.*

# AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN BAŞ NAZİRİ DZÜNİTİRO KOİDZUMİNİN GÖRÜŞÜ

*10 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev martın 10-da Yaponiyaya rəsmi səfəri çərçivəsində ölkənin Baş naziri Dzünitiro Koidzumi ilə görüşmüşdür.*

*Cənab Koidzumi prezident İlham Əliyevi Yaponiya hökuməti başçısının rəsmi iqamətgahında böyük ehtiramla, dostcasına qarşıladı.*

*Sonra Azərbaycan prezidenti ilə Yaponiyanın Baş naziri arasında görüş oldu.*

*Yaponiyaya rəsmi səfərinə görə respublikamızın rəhbərinə minnətdarlığını bildirən cənab Koidzumi ölkələrimiz arasındakı əlaqələrin qədim tarixini xatırlatdı. Prezident İlham Əliyevin bu səfərini olduqca əhəmiyyətli hadisə adlandıran Baş nazir dedi ki, o, Azərbaycana xüsusi maraq göstərir. Yaponiya coğrafi-siyasi cəhətdən çox mühüm bölgədə yerləşən Azərbaycanla əməkdaşlığın daha da inkişaf etdirilməsinə böyük əhəmiyyət verir. Azərbaycanda aparılan uğurlu iqtisadi islahatların və onların nəticələrinin Yaponiya hökuməti və ictimaiyyəti tərəfindən yüksək qiymətləndirildiyini və maraqla qarşılandığını söyləyən Baş nazir ölkəmizin iqtisadi inkişafından məmnunluğunu bildirdi.*

*Səfər günlərində ona və nümayəndə heyətinə göstərilən qonaqpərvərliyə görə minnətdarlığını bildirən prezident İlham Əliyev dünyanın ən inkişaf etmiş ölkələrindən biri olan Yaponiya ilə bütün sahələrdə əməkdaşlığın daha da dərinləşdirilməsi və genişləndirilməsində bu səfərin yeni mərhələ olacağını söylədi.*

*Dövlətimizin başçısı Azərbaycandakı mövcud ictimai-siyasi vəziyyət, islahatların həyata keçirilməsi nəticəsində əldə olunmuş uğurlar barədə danışdı. Eyni zamanda ölkəmizin ən əsas problemi olan Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin sülh yolu ilə aradan qaldırılması istiqamətində görülən işlərdən ətraflı söhbət açdı, beynəlxalq təşkilatlarda və toplantılarda Azərbaycanın haqq işini dəstəkləməsinə görə Yaponiya tərəfinə minnətdarlığını bildirdi.*

*Cənab Koidzumi bir daha vurğuladı ki, Yaponiya Azərbaycanın ərazi bütövlüyünü dəstəkləyir və münaqişənin sülh yolu ilə aradan qaldırılmasına ümid edir.*

*Prezident İlham Əliyevin Yaponiyaya səfərinin ölkələrimizin münasibətlərində yeni mərhələ açacağını bildirən Baş nazir imzalanacaq sənədlərin əməkdaşlığın daha da genişlənməsi üçün yaxşı baza yaradacağını vurğuladı.*

*O dedi ki, Yaponiya Azərbaycanı özünə dost ölkə, layiqli tərəfdaş hesab edir və onunla bütün sahələrdə əməkdaşlığın inkişafına böyük maraq göstərir.*

## AZƏRBAYCAN–YAPONİYA SƏNƏDLƏRİNİN İMZALANMASI MƏRASİMİ

*Tokio,*
*Baş nazirin iqamətgahı*

*10 mart 2006-cı il*

*Martın 10-da Yaponiya Baş nazirinin iqamətgahında ikitərəfli sənədlərin imzalanma mərasimi oldu.*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev və Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi «Azərbaycan Respublikası və Yaponiya arasında dostluq və əməkdaşlığın gələcək inkişafı haqqında birgə Bəyannamə» imzaladılar.*

*Sonra «Azərbaycan Respublikasının Hökuməti və Yaponiya Hökuməti arasında texniki əməkdaşlıq haqqında saziş», «Azərbaycan Respublikası Xarici İşlər Nazirliyi və Yaponiya Xarici İşlər Nazirliyi arasında əməkdaşlıq proqramı» imzalandı.*

*Sənədlərin imzalanma mərasimindən sonra Yaponiyanın Baş naziri Dzünitiro Koidzumi və Azərbaycan prezidenti İlham Əliyev jurnalistlər qarşısında qısa bəyanatlarla çıxış etdilər.*

### Yaponiyanın Baş naziri Dzünitiro Koidzuminin bəyanatı

Bu gün mən Azərbaycan Respublikasının Prezidenti zatialiləri cənab İlham Əliyevlə görüşməkdən və iki ölkə arasında münasibətlərin daha da yaxşılaşdırılmasına dair birgə bəyannamənin və ölkələrimiz arasında iqtisadi əlaqələri daha da möhkəmləndirəcək texniki əməkdaşlıq sazişlərinin imzalanmasından olduqca məmnunam. Mən səfərdə olan prezident Əliyevi səmimi-qəlbdən salamlayıram. Bu, Azərbaycan

Respublikasının Prezidenti kimi, cənab İlham Əliyevin Yaponiyaya ilk rəsmi səfəridir. Mən tamamilə ümidvaram ki, onun hazırkı səfəri ölkələrimiz arasında əlaqələrin daha da genişlənməsinə və ölkələrimizin iqtisadi inkişafına xidmət edəcəkdir

Yaponiya şirkətləri və iş adamlarının Azərbaycana maraqları gündən-günə artır. Prezidentlə keçirdiyim indiki görüş zamanı Azərbaycanın iqtisadi artımının 26 faiz səviyyəsində olmasını eşitməkdən çox məmnun oldum və bu rəqəm Yaponiyanın göstəricisindən on dəfə artıqdır. Ümidvaram ki, Azərbaycanda ticarət və sərmayələr üçün mühitin daha da yaxşılaşdırılması Yaponiyanın iştirakını genişləndirəcək və Azərbaycan ilə iqtisadi əlaqələrin inkişafına töhfə verəcəkdir. Beynəlxalq məsələlərə gəldikdə, Azərbaycan Yaponiyanın BMT Təhlükəsizlik Şurasında daimi üzvlüyü məsələsini tam dəstəkləyir və bu dəstəyə görə biz Azərbaycana dərin minnətdarlığımızı bildirir, BMT-nin islahatı sahəsində səylərin gələcəkdə davamını arzulayırıq. Prezident Əliyev Ermənistanla münaqişədən irəli gələn çətin vəziyyət barədə mənə məlumat verdi və biz bu problemin sülh yolu ilə aradan qaldırılmasını səmimiyyətlə arzulayırıq. Bu gün prezident Əliyevlə təmaslarımızı nahar zamanı davam etdirməkdən məmnunam. Mən prezident Əliyevi bəyanatla çıxış etməyə dəvət edirəm.

## Azərbaycan prezidenti İlham Əliyevin bəyanatı

İlk növbədə, Yaponiyaya səfərim zamanı mənə və nümayəndə heyətimizə göstərilmiş qonaqpərvərliyə görə Yaponiyanın Baş naziri Dzünitiro Koidzumiyə minnətdarlığımı bildirmək istəyirəm. Azərbaycanda biz ikitərəfli münasibətlərin inkişafına böyük əhəmiyyət veririk və ümidvaram ki, Yaponiyaya rəsmi səfərim ölkələrimiz arasında əlaqələrin inkişaf etdirilməsi üçün yeni imkanlar açacaqdır.

Bizim siyasi münasibətlərimiz çox yüksək səviyyədədir və beynəlxalq təşkilatlar çərçivəsində bir-birimizi dəstəkləyirik. Baş nazirin qeyd etdiyi kimi, biz keçirdiyimiz görüş zamanı

regional sabitlik və təhlükəsizlik, o cümlədən Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsi məsələlərini müzakirə etdik. Mənim Yaponiyaya səfərim zamanı yapon və azərbaycanlı iş adamlarının iştirakı ilə Azərbaycan–Yaponiya biznes forumu keçirilmiş və vacib iqtisadi məsələlər müzakirə olunmuşdur. Əminəm ki, bu təmaslardan sonra görüşlərin praktiki nəticələri olacaqdır. Mənim Yaponiya şirkətlərinin rəhbərləri, bank və digər maliyyə təsisatlarının nümayəndələri ilə görüşlərim zamanı iqtisadi əməkdaşlığımıza və Azərbaycanın sənaye inkişafına dair müxtəlif məsələləri nəzərdən keçirdik. Ölkələrimizin iqtisadi inkişafı ilə bağlı bizim çox böyük planlarımız var. Onların həyata keçirilməsi üçün bizim maliyyə resurslarımız mövcuddur. Bizə yaxşı tərəfdaşlar, müasir texnologiyalara, bilik və bacarığa malik şirkətlər lazımdır və siz bilirsiniz ki, Yaponiya bu sahədə dünyada aparıcı ölkədir. Göstərdiyi qonaqpərvərliyə və nümayəndə heyətimizi səmimiliklə qəbul etdiyinə görə mən bir daha Yaponiya hökumətinə və xalqına dərin minnətdarlığımı bildirmək istəyirəm. Əminəm ki, bütün sahələrdə apardığımız əməkdaşlıq gələcəkdə daha da möhkəmlənəcəkdir.

## AZƏRBAYCAN PREZİDENTİNİN ŞƏRƏFİNƏ

*Martın 10-da Yaponiyanın Baş naziri Dzünitiro Koidzuminin adından Azərbaycan prezidenti İlham Əliyevin şərəfinə ziyafət verildi.*

* * *

## SƏFƏR BAŞA ÇATDI

*Azərbaycan prezidenti İlham Əliyev Yaponiyaya ilk rəsmi səfərini başa çatdıraraq martın 10-da axşam Vətənə yola düşdü.*

## ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ STİVEN MƏNN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*13 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 13-də Prezident sarayında ATƏT-in Minsk qrupunun amerikalı həmsədri Stiven Mənni qəbul etmişdir.*

*Görüş zamanı Ermənistan–Azərbaycan, Dağlıq Qarabağ münaqişəsinin nizama salınması ilə bağlı aparılan danışıqlar prosesinin hazırkı vəziyyəti ilə bağlı məsələlər müzakirə olunmuşdur.*

## RUMINİYANIN MİLLİ MÜDAFİƏ NAZİRİ TEODOR ATANASİUNUN BAŞÇILIQ ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*Prezident sarayı*

*14 mart 2006-cı il*

*Azərbaycan prezidenti İlham Əliyev Rumıniyanın Azərbaycanın müstəqilliyini tanımış ilk dövlətlərdən biri olduğunu və ölkələrimiz arasında əməkdaşlığın uğurla həyata keçirildiyini vurğuladı. O, Rumıniyaya rəsmi səfərini məmnunluqla xatırlayaraq, bu səfər zamanı bir sıra mühüm ikitərəfli sənədlərin imzalandığını qeyd etdi. Prezident İlham Əliyev Rumıniyanın Milli Müdafiə nazirinin bu səfərinin ölkələrimiz arasında hərbi sahədə əlaqələrin genişlənməsinə töhfə verəcəyinə ümidvar olduğunu bildirdi.*

*Teodor Atanasiu ölkəmizə səfəri zamanı səmərəli görüşlər keçirdiyini və iki ölkə arasında hərbi əməkdaşlıq sahəsində bir sıra sənədlərin imzalandığını qeyd etdi. Qonaq ölkələrimizin əlaqələrinin bundan sonra da inkişaf edəcəyinə əminliyini vurğuladı.*

## ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ ÜZRƏ MÜAVİNİ DANİEL FRİD İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*14 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 14-də Prezident sarayında ABŞ Dövlət katibinin Avropa və Avrasiya məsələləri üzrə müavini Daniel Fridi qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycan–ABŞ ikitərəfli münasibətlərinin müxtəlif sahələri ilə bağlı fikir mübadiləsi aparılmışdır.*

## TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Dünya azərbaycanlılarının II qurultayında iştirak etmək üçün ölkəmizə gələn Türkiyə nümayəndə heyətinin üzvlərindən bir qrupunu qəbul etmişdir.*

**İ l h a m  Ə l i y e v:** Əziz dostlar, xoş gəlmisiniz! Mən sizin hamınızı Azərbaycanda ürəkdən salamlayıram. Bizim dəvətimizi qəbul edib sabahkı qurultayda iştirak etmək üçün Azərbaycana gəlmisiniz. Bu da məni çox sevindirir. Hər dəfə biz görüşəndə çox gözəl söhbətlər edirik, səmimi fikir mübadiləsi aparılır. Belə görüşlər nə qədər çox olsa, bizim əlaqələrimiz də bir o qədər möhkəm olacaqdır. Bizim aramızda olan dostluq, qardaşlıq münasibətləri çox yüksək səviyyədədir və dinamik şəkildə davam edir. Türkiyə və Azərbaycanın birliyi həm ölkələrimiz, həm xalqlarımız, həm də bütün bölgə üçün böyük əhəmiyyət kəsb edir.

Sabah Dünya azərbaycanlılarının II qurultayı keçiriləcəkdir. Bu çox böyük hadisədir, bizi birləşdirən hadisədir. Türkiyədən belə böyük heyətin buraya gəlməsi, qurultayda iştirak etməsi bizim aramızda olan dostluq, qardaşlıq münasibətlərini bir daha göstərir, bunu açıq şəkildə ifadə edir. Ona görə mən sizin hamınızı ürəkdən salamlayıram və bir daha demək istəyirəm ki, sizi görməyimə çox şadam. Sizinlə çoxlu görüşlərimiz olubdur və görüşlər nə qədər çox olsa, bizim birliyimiz də bir o qədər möhkəm olacaqdır. Bir daha xoş gəlmisiniz!

**H a l u k  İ p ə k** (*Türkiyə–Azərbaycan parlamentlərarası dostluq qrupunun sədri*): Hörmətli Prezident, Sizi xoş gördük.

Əvvəlcə Türkiyə Böyük Millət Məclisinin üzvləri adından hörmət və sevgimizi bildiririk. Sizin üçün çox önəmli olan qurultaya biz dəvət olunanda buna çox böyük heyətlə qatılmaq qərarına gəldik. Burada olmaqdan hamımız çox məmnunuq.

Milli Məclisinizin sədri Türkiyə Böyük Millət Məclisimizi ziyarət etdi, dostluq qrupunun yeni sədri ilə həmkarlarımız tanış oldular və parlamentlərimiz arasında əməkdaşlığı daha yaxşı səviyyədə əlaqələndirmək üçün razılığa gəldik. Hətta hər altı aydan bir hər iki ölkənin parlament nümayəndələrinin qarşılıqlı səfərləri barədə də anlaşdıq. Dostluq qrupu olaraq Xocalı qırğını ilə bağlı son bir il ərzində Türkiyə Böyük Millət Məclisində xeyli işlər gördük, orada fotosərgi açdıq. Biz Azərbaycanın sürətli inkişafını, dünya azərbaycanlılarının qurultayda bir araya gəlmələrini çox yüksək qiymətləndirir və Azərbaycana gələcəkdə uğurlar diləyirik.

**Y ü c e l A r t a n t a ş** (*Türkiyə Böyük Millət Məclisinin deputatı*): Hörmətli Cümhur başqanım, azəri millət vəkili olaraq söyləyirəm ki, Azərbaycan üçün çox önəmli olan Dünya azərbaycanlılarının qurultayında həmkarlarımın da iştirak etməsi mənim üçün qürurverici bir hadisədir. Həqiqətən, Türkiyədə Azərbaycanla bağlı hər bir məsələ qəlbən duyulur, hamı Azərbaycan dövlətini ürəkdən dəstəkləyir və bundan sonra da dəstəkləyəcəkdir. Bu, türk xalqının ürəyində var və yaşayır. Türk xalqı öz dəstəyini Azərbaycandan heç vaxt əsirgəmədi və bundan sonra da əsirgəməyəcəkdir. Xüsusilə sizin bu qurultayınız dünyadakı azərbaycanlılar üçün, həqiqətən böyük bir mənəvi dəstək olur, onlara böyük bir mənəvi, psixoloji güc verir. Bu, Azərbaycan diasporunun ikinci qurultayıdır və dünyadakı Azərbaycan qurumlarının fəaliyyətinə yeni güc verir. Ona görə, cənab Prezident, Sizi və dostlarımızı təbrik edirəm. Ciddi fəaliyyət göstərirlər. Qarşıda daha yaxşı işlər olacaqdır. Təşəkkür edirəm.

**Ş a b a n D i ş l i** (*Türkiyə Böyük Millət Məclisinin deputatı, Ədalət və İnkişaf Partiyası sədrinin müavini*): Hörmətli Cümhur başqanım, mən də səmimi dəvətiniz üçün Sizə və

Komitə sədriniz Nazim İbrahimova çox təşəkkür edirəm. Mən buraya Ədalət və İnkişaf Partiyası sədrinin əvəzinə gəlmişəm. Sizə hörmətli Baş nazirimizin salamını gətirmişəm. Türkiyədə martın 18-i Çanaqqala döyüşünün ildönümü olduğu üçün hörmətli Baş nazirimiz tədbirlərdə iştirak edəcəyindən özü gələ bilmədi. Dünya azərbaycanlılarının II qurultayının uğurlu keçməsini arzulayırıq və belə olacağını da bilirik. Ümid edirəm ki, gələcəkdə Türkiyədə və daha sonra Azərbaycanda, Bakıda Dünya türk qurultayı da keçirə bilərik. Hörmətli Komitə sədri və Yeni Azərbaycan Partiyası ilə belə bir düşüncəmiz var. Buna Sizin də dəstək verməyinizi istərdik.

Hörmətli Cümhur başqanım, icazənizlə, Sizə bir hədiyyəmiz var, onu təqdim etmək istərdik. (*Azərbaycan prezidenti İlham Əliyevə xatirə hədiyyəsi təqdim olundu).*

**D u r s u n   A k d ə m i r** (*Türkiyə Böyük Millət Məclisinin İğdırdan olan deputatı*): Cənab Prezident, mən Ana Vətən Partiyasını təmsil edirəm. İğdır Naxçıvanla qonşudur və Türkiyənin Azərbaycana açılan bir qapısıdır. Bizim əlaqələrimiz çox möhkəmdir. Türkiyə Azərbaycanın bölgədə ən önəmli qardaş dövlət olmasından fəxr edir. «Bir millət, iki dövlət» fəlsəfəsini hamımız yaxşı dərk edirik. Azərbaycanın dərdi hər zaman bizim də dərdimiz olmuşdur.

Eyni zamanda, Ermənistanın əsassız soyqırımı iddiası, Ermənistanın Qarabağı işğal etməsindən irəli gələn narahatlıq hamımızı düşündürür. Azərbaycan–Türkiyə dostluq qrupunun üzvü olaraq, keçən il və bu il Türkiyə Böyük Millət Məclisində Xocalı soyqırımının ildönümü ilə əlaqədar tədbirlər keçirmişik. Sizin bu soyqırımla bağlı çıxışlarınız məsələnin bütün dünyaya çatdırılması üçün çox faydalıdır. Biz hər zaman sizin yanınızdayıq. Türkiyə–Azərbaycan qardaşlığının bütün türk dünyasına böyük güc verəcəyinə ümid edir və Sizə təşəkkürümü bildirirəm.

**İ l h a m   Ə l i y e v:** Sağ olun. Mən də sizə təşəkkür edirəm. İlk növbədə, sizdən rica edirəm ki, mənim səmimi salamlarımı hörmətli Baş nazirə çatdırasınız. Bizim aramızda

çox gözəl münasibətlər var. Türkiyə və Azərbaycan arasında, o cümlədən də rəhbərlik səviyyəsində münasibətlər çox yüksəkdir. Bu yaxınlarda Türkiyə prezidenti bizim ölkəmizə səfər edəcəkdir. Səfər daha öncə nəzərdə tutulmuşdu, ancaq hava şəraitinin yaxşı olmaması buna imkan vermədi. Amma onu bu yaxınlarda gözləyirik.

Çox şadam ki, Türkiyənin bütün bölgələrini təmsil edən millət vəkilləri bizimlə bərabərdirlər. Bu bir daha onu göstərir ki, bizim aramızda olan münasibətlər hərtərəflidir. Türkiyənin hər bir bölgəsi ilə də bizim tarixi, mədəni köklərimiz var. Bu gün, demək olar ki, burada bütün Türkiyə təmsil olunur. Çünki hər bir bölgədən xalq tərəfindən seçilmiş millət vəkilləri bu gün buradadırlar. Bu çox böyük əhəmiyyətə malik hadisədir.

Siz qeyd etdiniz və mən də bunu tam dəstəkləyirəm ki, gələcəkdə dünya türklərinin qurultayı da keçirilməlidir. Bütün türkdilli dövlətlərin nümayəndələri də iştirak etməlidirlər. Biz çox istəyirik ki, türkdilli dövlətlər arasında olan əlaqələr daha da möhkəmlənsin, əlaqələr daha da mütəmadi, sıx olsun. Türkiyə ilə Azərbaycan arasında əlaqələr ən yüksək səviyyədədir. Lazımdır ki, bütün türkdilli dövlətlər daha da səmərəli işləsinlər. Çünki bizim məqsədimiz birdir, niyyətimiz birdir, problemlərimiz də bənzər problemlərdir.

Hörmətli millət vəkili qeyd etdi ki, ərazi bütövlüyümüzün pozulması, torpaqlarımızın işğal altında qalması bizim üçün ən böyük problemdir. Azərbaycan indi çox sürətlə inkişaf edir. Siyasi proseslər müsbət istiqamətdə inkişaf edir, iqtisadiyyat yüksəlir, ölkədə mövcud olan sosial problemlər öz həllini tapır.

Ümid edirəm ki, bizim gələcəkdə o qədər də böyük, ciddi problemimiz olmayacaqdır. Ancaq torpaqlarımızın işğal altında olması ən böyük problemdir. Bunun da səbəbi ondadır ki, Ermənistanın təcavüzkar siyasəti buna gətirib çıxarıbdır. Azərbaycanın torpaqları işğal altındadır, bir milyondan artıq insan qaçqın-köçkün vəziyyətində yaşayır və əlbəttə, bu, bütün bölgədə gedən proseslərə mənfi təsir göstərir.

Biz heç bir fövqəladə iddiada deyilik. Sadəcə, onu tələb edirik ki, bizim torpaqlarımız işğaldan azad olunsun. Ermənistanın işğalçı qüvvələri bu torpaqlardan çıxsın. Ondan sonra biz qonşu kimi yaşayaq. Bizim problemimiz bundan ibarətdir. Əgər Ermənistanın rəhbərliyi Türkiyəyə qarşı torpaq iddiasını kənara qoysa, qondarma «soyqırımın» tanınmasına çalışmağa son qoysa, əlbəttə, Türkiyə–Ermənistan münasibətləri normallaşa bilər. Əgər onlar bizim torpaqlarımızdan çıxarlarsa, onda Ermənistan–Azərbaycan münasibətləri də normallaşa bilər. Biz bu bölgədə yaşayırıq, qonşuyuq və qonşuluqda yaşamağa məhkumuq. Ancaq o şərtlə ki, separatizmə son qoyulsun, etnik təmizləmə siyasətinin nəticələri aradan qaldırılsın, Azərbaycan vətəndaşları öz dədə-baba torpaqlarına qayıda bilsinlər və əlbəttə ki, Türkiyə və Azərbaycana olan əsassız torpaq iddialarına son qoyulsun. Bunlar təbii tələblərdir və biz də bu tələblərdə çox israrlıyıq.

Əlbəttə, bölgədə gedən proseslər, Türkiyənin, Azərbaycanın möhkəmlənməsi bizim mövqelərimizi daha da gücləndirir. Mən bilirəm ki, son illər ərzində Türkiyədə iqtisadiyyat çox sürətlə artır. Bir neçə il bundan əvvəl yaşanan iqtisadi böhran aradan qaldırılıbdır. İndi iqtisadiyyat sürətlə irəliyə gedir. O cümlədən Azərbaycanda da indi iqtisadiyyatda müsbət proseslər gedir, yeni iş yerləri açılır, iqtisadi artım var. Bu yaxınlarda açılışında iştirak edəcəyimiz Bakı–Tbilisi–Ceyhan neft kəmərinin tikintisi başa çatır. Eyni zamanda, «Şahdəniz» yatağından çıxarılan qaz artıq bu il Türkiyəyə nəql ediləcəkdir. Bütün bunlar həm iqtisadi, həm də siyasi hadisələrdir və bizim mövqeyimizi daha da möhkəmləndirəcəkdir. Azərbaycan Türkiyə vasitəsilə öz enerji daşıyıcılarını Avropaya nəql edəcəkdir. Bildiyiniz kimi, Avropada qaz məsələsi çox qabarıq şəkildə ortaya çıxıbdır. Yəni bölgədə gedən proseslər, bizim regional əməkdaşlığımız bizim mövqelərimizi möhkəmləndirir. Əlbəttə, bizi bağlayan çox dərin tarixi köklərdir, bizim milli mənsubiyyətimizdir, mədəniyyətimiz, tariximiz, qardaşlığımızdır. Bütün bunlar çox möhkəm təməldir. Ancaq bunlarla yanaşı, bölgədə gedən proseslər indi daha çox bizim birliyimizdən asılıdır. Biz nə qədər bir yerdə olsaq,

siyasətimizi nə qədər əlaqələndirilmiş şəkildə aparsaq, o qədər də bölgədə istədiyimizə nail olacağıq.

Bu gün Türkiyədən, yaxud da Azərbaycandan yan keçməklə bölgədə heç bir – istər siyasi, istər iqtisadi layihə, istər nəqliyyat layihəsi, istərsə də hər hansı başqa layihə baş tuta bilməz. Bu bizim önəmimizi artırır və biz birlikdə, əlbəttə, həm bölgədə gedən proseslərə, həm də geniş mənada qitədə gedən proseslərə təsir mexanizmlərimizi daha da gücləndiririk. O cümlədən buna görə çox sıx əməkdaşlıq olmalıdır.

Siz qeyd etdiniz ki, bizim Milli Məclisin nümayəndə heyəti Türkiyəyə səfər etmişdir. Onlar da çox razı qayıtmışlar, onlara çox böyük hörmət göstərmişlər. Bu əlaqələr hər bir səviyyədə – dövlətlərarası, hökumətlərarası, millət vəkilləri, iş adamları, sənət adamları arasında əlaqələr – möhkəmlənməlidir. Biz bunu görürük və bu bizim siyasətimizdir. Prezident kimi, mən çox çalışıram ki, bu birlik daha da möhkəm olsun və biz bu məqsədlərə nail olaq.

Sizi bir daha ürəkdən salamlayıram. Siz doğma ölkənizdəsiniz, qardaşlar arasındasınız. Əminəm ki, burada keçirdiyiniz günlər xatirənizdə uzun illər qalacaqdır.

*Görüşdən sonra prezident İlham Əliyev Türkiyə nümayəndə heyəti ilə xatirə şəkli çəkdirdi.*

## LİTVA PREZİDENTİNİN MÜŞAVİRİ XANIM HALİNA KOBESKAYTEN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Litva prezidentinin müşaviri xanım Halina Kobeskayteni qəbul etmişdir.*

*Görüş zamanı Azərbaycan ilə Litva arasında müxtəlif sahələrdə əlaqələrin uğurla inkişaf etdiyi vurğulandı, Azərbaycan diasporunun Litvanın iqtisadi, ictimai həyatında fəal iştirakı bildirildi.*

## ÇEXİYA VƏ AVROPA PARLAMENTLƏRİNİN ÜZVÜ JAN BREZİNAN İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Çexiya və Avropa parlamentlərinin üzvü Jan Brezinanı qəbul etmişdir.*

*Görüşdə Azərbaycan ilə Çexiya arasında əməkdaşlıq məsələləri barədə fikir mübadiləsi aparılmışdır.*

## QIRĞIZISTANIN DÖVLƏT KATİBİ DASTAN SARIQULOV İLƏ GÖRÜŞ

*Prezident sarayı*

*15 mart 2006-cı il*

*Azərbaycan Respublikasının Prezidenti İlham Əliyev martın 15-də Prezident sarayında Qırğızıstanın Dövlət katibi Dastan Sarıqulovu qəbul etmişdir. Görüş zamanı Azərbaycan–Qırğızıstan ikitərəfli münasibətlərinin müxtəlif sahələri ilə bağlı məsələlər müzakirə edilmişdir. Qırğızıstanın Dövlət katibi ölkəsinin prezidenti Kurmanbek Bakiyevin ehtiramını və salamlarını dövlətimizin başçısına çatdırmış, Qırğızıstan prezidentinin məktubunu prezident İlham Əliyevə təqdim etmişdir.*

*Qırğızıstan prezidenti Dünya azərbaycanlılarının II qurultayının keçirilməsi münasibətilə dövlətimizin başçısını təbrik etmişdir. Məktubda Azərbaycan Respublikasının milli maraqlarının müdafiə olunması ilə bağlı həyata keçirilən tarazlaşdırılmış dövlət siyasətinin əsasının xalqımızın ümummilli lideri Heydər Əliyev tərəfindən qoyulduğu vurğulanmış, müasir tariximizdə Azərbaycanın üzləşdiyi çətin anlarda, o cümlədən 20 Yanvar hadisələri zamanı məhz Heydər Əliyevin xalqımızın tarixi məsuliyyətinin müstəsna daşıyıcısı kimi, siyasi iradəsini irəli sürmüş milli lider olduğu qeyd edilmişdir. Daha sonra məktubda qardaş Azərbaycanın qırğız xalqı üçün müasir inkişaf istiqamətinin mühüm mənbələrindən biri olduğu vurğulanmışdır. Prezident İlham Əliyev salamlara görə minnətdarlığını bildirdi və onun da salamını Qırğızıstan prezidentinə çatdırmağı xahiş etdi.*

# QEYDLƏR

**1. Birləşmiş Millətlər Təşkilatı** (BMT) – müasir dünyanın ən nüfuzlu beynəlxalq təşkilatı. Qərargahı Nyu-York şəhərindədir. Əsas vəzifəsi beynəlxalq sülhü və təhlükəsizliyi qorumaq və möhkəmlətmək, dövlətlər arasında əməkdaşlığı inkişaf etdirməkdir. BMT-nin Nizamnaməsi 1945-ci il iyulun 26-da San-Fransisko konfransında 50 dövlətin nümayəndəsi tərəfindən imzalanmış, 1945-ci il oktyabrın 24-də qüvvəyə minmişdir. Hazırda BMT-yə 198 dövlət daxildir.

BMT-nin əsas orqanları Baş Məclis, Təhlükəsizlik Şurası, İqtisadi və İctimai Şura, Qəyyumluq Şurası, Beynəlxalq Məhkəmə və Katiblikdir.

Azərbaycan Respublikası 1992-ci ildən BMT-nin üzvüdür.

Dövlətimizin apardığı uğurlu xarici siyasət nəticəsində Azərbaycan 2011-ci ilin oktyabr ayında BMT-nin Təhlükəsizlik Surasına qeyri-daimi üzv qəbul olunmuşdur. – 5,79,189,190, 207,224,258,307.

**2. Avropa Şurası** (AŞ) – Avropada hökumətlərarası təşkilat. 1949-cu ildə yaradılmışdır. Qərargahı Fransanın Strasburq şəhərində yerləşir. AŞ-nın əsas məqsədi Avropada sülhü və təhlükəsizliyi qorumaq, seçki sistemində çoxpartiyalılığa riayət etmək, demokratiyanı və insan hüquqlarını müdafiə etmək, möhkəmləndirmək, Avropa ölkələrinin mədəniyyətlərinin yaxınlaşmasına çalışmaq və s. ibarətdir. AŞ-nın ali orqanları Nazirlər Komitəsi, Məsləhət Assambleyası, Sahə Nazirliklərinin Müşavirəsi və Katiblikdir. Azərbaycan 2001-ci ildən Avropa Şurasının üzvüdür. – 5,24,79,85,86,87,88,188,190,298.

**3. ATƏT –** Avropada Təhlükəsizlik və Əməkdaşlıq Təşkilatı. Əsası 1975-ci il iyulun 3–9-da Helsinkidə qoyulmuşdur. Burada Avropanın 33 dövlətinin, ABŞ və Kanadanın dövlət və

hökumət rəhbərləri iştirak edirdi. ATƏT «soyuq müharibə»nin qurtarmasından sonra ümumavropa təhlükəsizlik sistemini formalaşdıran, yeni Avropanın siyasi və iqtisadi həyatının sivil birgəyaşayış qaydalarını müəyyən edən, dövlətlərarası münasibətləri rəqiblik və münaqişə yolundan əməkdaşlıq və qarşılıqlı mənafe istiqamətlərinə yönəldən bir təşkilat funksiyasını icra edir.

Azərbaycan 1992-ci ildən ATƏT-in üzvüdür və 1993-cü ilin ikinci yarısından ATƏT-in zir əvə görüşlərində Azərbaycan nümayəndə heyəti fəal iştirak edir. – 5,55,79,190,294,295.

**4. Avropa İttifaqı** – 1992-ci ildə 12 ölkəni (Belçika, Böyük Britaniya, Almaniya, Yunanıstan, Danimarka, İrlandiya, İspaniya, İtaliya, Lüksemburq, Niderland, Portuqaliya, Fransa) birləşdirən Avropa Birliyi bazasında 1993-cü ildə Maastrixt müqaviləsinə əsasən yaradılmışdır.

Sonralar Avropa İttifaqına Avstriya, Finlandiya daxil olmuşdur. Müqavilə vahid siyasi, iqtisadi mühitin və valyutanın yaradılmasını, malın, kapitalın və adamların azad hərəkətinə bütün maneələrin aradan qaldırılmasını irəli sürmüşdür. Vahid Avropa vətəndaşlığı qəbul edilmişdir. Avropa Mərkəzi Bankında Avropa valyuta interneti fəaliyyət göstərir, 1999-cu ildə vahid valyuta–avro işlənir, vahid pul-kredit siyasəti aparılır. – 5,54,57,131,296,297.

**5. Dağlıq Qarabağ Muxtar Vilayəti** – Azərbaycan Respublikası ərazisində muxtar vilayət. 1923-cü il iyulun 7-də təşkil edilmişdir. Dağlıq Qarabağda 1988-ci ilə qədər 170 min əhali yaşayırdı. Ərazisi 4 min $km^2$-dir. Mərkəzi Xankəndidir.

1988–92-ci illərdə muxtar vilayətin erməni separatçıları və millətçiləri Ermənistan silahlı qüvvələri ilə birlikdə bu ərazidə yaşayan azərbaycanlıları doğma torpaqlarından çıxararaq Dağlıq Qarabağı işğal etdilər. BMT-nin 822, 853, 874, 884 saylı qətnamələrinə görə, erməni işğalçıları Azərbaycan torpaqlarını qeyd-şərtsiz tərk etməlidirlər. Ancaq Azərbaycan torpaqları hələ də erməni

tapdağı altındadır. – 5,11,49,55,79,80,87,88, 89,96,121,122,160,163,165,168,170,173,189,189,190,191,192, 210,215,216,217,222,223,230,231,257,258,259,266,267,286, 305,308,309,314.

**6. Müstəqil Dövlətlər Birliyi** (MDB) – 1991-ci il dekabrın 8-də Belorusiya, Rusiya və Ukrayna dövlət başçılarının imzaladıqları saziş əsasında SSRİ dağıldıqdan sonra yeni dövlətlərarası birlik kimi yaradılmışdır. Azərbaycan 1993-cü ilin sentyabrında MDB-yə daxil olmuşdur. Tərkibinə keçmiş SSRİ-nin 12 müttəfiq respublikası – Azərbaycan, Belarus, Ermənistan, Gürcüstan, Qazaxıstan, Qırğızıstan, Moldova, Özbəkistan, Rusiya, Tacikistan, Türkmənistan, Ukrayna daxildir. MDB-nin 1993-cü ildə qəbul edilmiş nizamnaməsində aşağıdakı birgə fəaliyyət sahələri nəzərdə tutulur: insan hüquq və azadlıqlarının təmin edilməsi; xarici siyasi fəaliyyətin əlaqələndirilməsi; ümumi iqtisadi məkanın formalaşdırılmasında, nəqliyyat sisteminin və rabitənin inkişafında əməkdaşlıq; əhalinin sağlamlığının və ətraf mühitin mühafizəsi; sosial və mühacirət məsələləri, mütəşəkkil cinayətkarlıqla mübarizə; müdafiə siyasətində və sərhədlərin qorunmasında əməkdaşlıq.

MDB-nin orqanları aşağıdakılardır: Dövlət başçıları Şurası; Hökumət başçıları Şurası; Xarici İşlər nazirləri Şurası; Dövlətlərarası iqtisadi Şura; Mərkəzi Sankt-Peterburq şəhərində olan Parlamentlərarası Assambleya və s. MDB-nin daimi fəaliyyət göstərən orqanı Minsk şəhərində yerləşən Əlaqələndirmə Məsləhət Komitəsidir. – 6,79,85,151.

**7. Heydər Əliyev,** Heydər Əlirza oğlu (1923–2003) – Müstəqil Azərbaycan dövlətinin memarı və qurucusu, xalqımızın ümummilli lideri, görkəmli dövlət xadimi, Azərbaycan Respublikasının prezidenti (1993–2003), iki dəfə Sosialist Əməyi Qəhrəmanı.

1964-cü ildə Azərbaycan SSR Nazirlər Soveti yanında Dövlət Təhlükəsizlik Komitəsi sədrinin müavini, 1967-ci ildə isə sədri vəzifəsinə irəli çəkilmişdir.

Azərbaycan Kommunist Partiyası Mərkəzi Komitəsinin iyul (1969) plenumunda Heydər Əliyev MK-nın büro üzvü, Azərbaycan KP MK-nın Birinci katibi seçilmişdir.

H.Əliyevin respublikaya rəhbərlik etdiyi ilk illərdən əhatəli iqtisadi konsepsiya hazırlanmış, yeni istehsal sahələri yaradılmış, Azərbaycanın iqtisadi potensialı güclənmişdir. H.Əliyevin respublikaya bilavasitə rəhbərlik etdiyi dövrdə (1969–82-ci illər) idarəetmə mexanizminin və metodlarının təkmilləşdirilməsi, əmək və ictimai-siyasi fəallığın artırılması, kənd təsərrüfatının inkişafında yüksək göstəricilər əldə edilməsi, azərbaycançılıq məfkurəsinin, milli ruhun, milli özünüdərkin yüksəlişi, müstəqil dövlətçilik ideyalarının güclənməsi və reallaşması üçün dəyərli işlər görülmüşdür.

H.Əliyev 1971-ci ildə Sovet İttifaqı Kommunist Partiyası Mərkəzi Komitəsinin üzvü, 1976-cı ilin martında Sov.İKP MK Siyasi Bürosu üzvlüyünə namizəd, 1982-ci ilin noyabrında isə Siyasi Büro üzvü seçilmiş və eyni zamanda SSRİ Nazirlər Soveti sədrinin Birinci müavini təyin edilmişdir.

H.Əliyev Moskvada işlədiyi dövrdə də həmişə Azərbaycanı düşünmüş, onun taleyi ilə yaşamış, doğma respublikanın dünyada tanıdılması üçün əlindən gələni etmişdir.

H.Əliyev 1990-cı ilin 20 yanvarında sovet qoşunlarının Bakıda törətdiyi qanlı faciəni qətiyyətlə pisləmiş və Azərbaycanın Moskvadakı nümayəndəliyində kəskin bəyanatla çıxış etmişdir.

H.Əliyev 1990-cı ilin iyulunda Azərbaycana qayıtmış, əvvəlcə Bakıda, sonra isə Naxçıvanda yaşamışdır. O, 1991–93-cü illərdə Naxçıvan Muxtar Respublikası Ali Məclisinin sədri, Azərbaycan Respublikası Ali Sovetinin sədr müavini olmuş, Ali Sovetin sessiyalarında fəal iştirak etmiş, Azərbaycanda mövcud ictimai-siyasi vəziyyəti həmişə obyektiv təhlil etmiş, mühüm prinsipial fikirlər söyləmiş, Dağlıq Qarabağ münaqişəsinin səbəblərini aşkara çıxarmış və təqsirkarların dəqiq ünvanını göstərmişdir. 1993-cü ilin may–iyununda dövlət böhranının, hakimiyyətsizliyin, başıpozuqluğun kulminasiya nöqtəsinə çatması ilə ölkədə vətəndaş

müharibəsi və müstəqilliyin itirilməsi təhlükəsi yarandıqda Azərbaycan xalqı H.Əliyevin hakimiyyətə gətirilməsi tələbi ilə ayağa qalxdı və Azərbaycanın o zamankı dövlət rəhbərliyi onu rəsmən Bakıya dəvət etməyə məcbur oldu. H.Əliyev iyunun 15-də Azərbaycan Ali Sovetinin sədri seçildi, iyulun 24-də Milli Məclisin qərarı ilə Azərbaycan Respublikası prezidentinin səlahiyyətlərini həyata keçirməyə başladı.

1993-cü il oktyabrın 3-də ümumxalq səsverməsi nəticəsində H.Əliyev Azərbaycan Respublikasının prezidenti seçildi. H.Əliyevin Azərbaycan rəhbərliyinə qayıdışı ilə ölkənin ictimai-siyasi, sosial, iqtisadi, elmi-mədəni həyatında böyük dönüş oldu, beynəlxalq norma və prinsiplərə uyğun müstəqil dövlət quruculuğu prosesi başlandı. Dövlətimizin xarici siyasəti, eləcə də dünyanın aparıcı dövlətləri və beynəlxalq təşkilatları ilə əlaqələri milli maraqlara əsaslanan xətlə inkişaf etməyə başladı. Dağlıq Qarabağ münaqişəsinin həllində ilk mərhələ kimi, cəbhə xəttində atəşkəs elan edilməsinə nail olundu. H. Əliyevin fəal diplomatiyası nəticəsində ATƏT-in Lissabon sammitində (1996) bu beynəlxalq təşkilatın 54 üzvündən 53-ü (Ermənistandan başqa) Dağlıq Qarabağ probleminin həllində Azərbaycanın mənafeyinə uyğun prinsipləri açıq şəkildə müdafiə etdi.

1994-cü ilin sentyabrında Bakıda dünyanın aparıcı neft şirkətləri ilə «Əsrin müqaviləsi» adı almış mühüm müqavilələr bağlandı.

1999-cu ilin aprelində GUÖAM birliyinin geniş bir məkanda yaranmasında H.Əliyevin önəmli xidməti olmuşdur.

H.Əliyevin «İnsan hüquq və azadlıqlarının təmin edilməsi haqqında» fərmanları Azərbaycanın dünyaya və Avropaya inteqrasiyası prosesinin sürətləndirilməsinə geniş imkanlar yaratdı. Məhz bunun nəticəsində Azərbaycan 1996-cı ilin iyunundan Avropa Şurasına «Xüsusi qonaq» statusu almış, 2001-ci il yanvarın 25-də isə onun tamhüquqlu üzvü olmuşdur.

H.Əliyev 1998-ci il oktyabrın 11-də xalqın yüksək siyasi fəallığı şəraitində keçirilən seçkilərdə yekdilliklə yenidən prezident seçildi.

H.Əliyev bir sıra beynəlxalq mükafatlara, o cümlədən Beynəlxalq Atatürk Sülh Mükafatına, müxtəlif ölkə universitetlərinin fəxri doktoru adına və digər yüksək nüfuzlu fəxri adlara layiq görülmüşdür. – 6,11,44,49,83,84,101,111,127,133,148,160, 161,162,179,184,186,209,210,212,213,219,221,224,227,228,232,252,253,254,271,285,301.

**8. Bakı–Tbilisi–Ceyhan** – 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsini» imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 6,11,90,92,101,141,186,224, 232,287,289,290,316.

**9. Bakı– Tbilisi – Ərzurum** – Cənubi Qafqaz qaz kəməri. Rəsmən 2007-ci ildə açılmışdır. Kəmərin uzunluğu 970 km-dir (442 km Azərbaycandan, 248 km Gürcüstandan, 280 km isə Gürcüstan–Türkiyə sərhədindən Ərzuruma qədərdir). Kəmərə qaz «Şahdəniz»dən ötürülür. – 6,11,92,101,141,186.

**10. ATƏT-in Minsk qrupu** – 1992-ci il martın 24-də yaradılmışdır. 1997-ci ildə Minsk qrupunun tərkibinə aşağıdakı dövlətlər daxil olmuşdur: Azərbaycan, Ermənistan, Belarus, Almaniya, İtaliya, Rusiya, ABŞ, Fransa, Türkiyə, Danimarka və İsveç. 1994-cü ilin dekabrından Minsk qrupuna iki sədr – Rusiya və İtaliya rəhbərlik edirdi. 1996-cı ilin dekabrından onun üç – Rusiya, ABŞ və fransalı həmsədrləri var. Qrupun əsas vəzifəsi Ermənistan–Azərbaycan münaqişəsinin sülh yolu ilə aradan qaldırılmasına və Dağlıq Qarabağ probleminin dinc vasitələrlə həll edilməsinə bilavasitə kömək etməkdir. – 11,96, 122,159,168,190,215,257,259,266,309.

**11. Birləşmiş Ərəb Əmirlikləri** – Cənubi Asiyada dövlət. Sahəsi 83,6 min km$^2$, əhalisi 2,5 milyon nəfərdir. BƏƏ-nin tərkibinə 7 əmirlik daxildir. Ali orqanı – Federal Milli Şuradır ki,

prezidenti 5 il müddətinə seçir. Paytaxtı Əbu-Dabi şəhəridir. – 14,15.

**12. Zaid bin Sultan əl-Nəhəyyan** (1918–2004) – Əbu-Dabi Əmirliyində 250 il hökmranlıq etmiş ən-Nəhəyya sülaləsinin 14-cü hakimi olmuşdur. – 14.

**13. Şeyx Məktum bin Rəşid əl-Məktum** (d.1949) – Birləşmiş Ərəb Əmirlikləri Baş naziri və vitse-prezidenti, Dubay əmiri. 1971-ci ildən Ərəb Əmirliklərinin Müdafiə naziridir. – 15.

**14. M i l a d  b a y r a m ı** – İsa peyğəmbərin anadan olması şərəfinə keçirilən xristian bayramı. Dekabrın 25-də qeyd edilir. Milad bayramının ilkin mənbəyi hər il qış günəş duruşu zamanı (21–25 dekabr) xilaskar Allahın «doğulması» ilə əlaqədar keçirilən qədim bütpərəst mərasim bayramı olmuşdur. Milad bayramını ilk dəfə Roma xristian icmaları keçirmişdir. Milad bayramı 431-ci ildə Efes kilsə yığıncağında qanuniləşdirilmişdir. – 16–17.

**15. Qurani–Kərim,** ə l - Q u r a n – müsəlmanların müqəddəs kitabı. Quranı Allah Cəbrayıl vasitəsilə Məhəmməd əleyhüssəlama göndərib. Quran qafiyəli nəsrlə yazılmış 114 surə  və 6200-dən çox ayədən ibarətdir. «Məkkə surələrinə» (610–622, Məkkə, 90 surə) və «Mədinə surələrinə» (622–632, Mədinə, 24 surə) bölünür. – 16.

**16. İsa,** İ i s u s  X r i s t o s – xristianlığın əfsanəvi banisi. Xristianlığın təliminə görə İsa «Allah insandır» və «Allah oğludur». Rəvayətə görə İsa Roma imperatoru Avqustun dövründə Fələstinin Vitleyem şəhərində doğulmuş İudeya, Qalileya, Samariya və s. yerlərdə yeni dini təbliğ etmiş, çarmıxa çəkilmiş, sonra diriləərək qeyb olmuşdur. İsaya etiqad xristianlığın əsas ehkamlarındandır. – 16.

**17. Qurban bayramı** – müsəlman dünyasında ən əziz bayramlardan biri. Qurban bayramı zil-hiccə ayının 10-cu günü başlayır. Müsəlmanlar bu bayramı islamın əsas şərtlərindən biri – həcc mərasimlərinin yerinə yetirilməsi və böyük Allahın bəndələrinin günahının bağışlanması günü kimi qeyd edirlər. – 18–19.

**18. Bəhreyn,** B ə h r e y n  d ö v l ə t i – Cənub–Qərbi Asiyada dövlət (əmirlik). Sahəsi 0,69 min km$^2$, əhalisi 598 min nəfərdir. Bəhreyn konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Paytaxtı Manamadır. – 20.

**19. Şeyx Həməd bin İsa əl-Xəlifə** (d.1950) – 1999-cu ildən Bəhreynin əmiri, 2001-ci ildən isə özünü kral elan etmişdir. Kral Bəhreyndə bir sıra siyasi islahatlar aparmış, eyni zamanda siyasi amnistiya və qadınlara seçkilərdə iştirak etmək hüququ vermişdir. – 20.

**20. Küveyt,** K ü v e y t  d ö v l ə t i – Qərbi Asiyada dövlət. Sahəsi 1708 km$^2$, əhalisi 2 milyondan çoxdur. Küveyt konstitusiyalı monarxiyadır. Dövlət başçısı əmirdir. Qanunverici orqan və hökumət əmirə və birpalatalı Milli Məclisə tabedir. Paytaxtı əl-Küveytdir. – 21,74,128.

**21. Sabah Cabir əl-Əhməd** (1926–2006) – Küveyt dövlətinin (1977–90, 1991–2006) əmiri olmuşdur. 1990-cı il avqustundan 1991-ci ilin mart ayına qədər mühacir olmuşdur. – 21.

**22. Amerika Birləşmiş Ştatları** (ABŞ) – Şimali Amerikada dövlət. Şimaldan Kanada, cənubdan Meksika, şərqdən Atlantik okeanı və qərbdən Sakit okeanla əhatə olunur. Ərazisi 9,14 milyon km$^2$, əhalisi 280 milyon nəfərə yaxındır. İnzibati cəhətdən 50 ştata bölünür. Ali qanunvericilik orqanı ikipalatalı (Nümayəndələr Palatası və Senat) ABŞ Konqresidir. Dövlət başçısı prezidentdir. Paytaxtı Vaşinqton şəhəridir. – 22,123–125,259, 289,290,291,311.

**23. Çarlz Uold** (d.1948) – ABŞ generalı. 1995–2006-cı illərdə Amerikanın Avropa komandanlığının komandan müavini olmuşdur. – 22.

**24. Portuqaliya,** Portuqaliya Respublikası – Cənub–Qərbi Avropanın Pireney yarımadasında dövlət. Sahəsi 92 min km$^2$, əhalisi 9,9 milyon nəfərdir. İnzibati ərazisi 19 mahala və iki muxtar vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Respublika Məclisidir. Paytaxtı Lissabondur. – 23.

**25**. **Anibal Kavaku Silva** (d.1939) – Portuqadiya siyasi xadimi. 2006-cı ildən Portuqaliya prezidentidir. 1985–95-ci illərdə Portuqaliyanın Baş naziri olmuşdur. – 23.

**26. Macarıstan,** Macarıstan Respublikası – Mərkəzi Avropada dövlət. Sahəsi 93 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Dövlət Şurasıdır. Paytaxtı Budapeştdir. – 24,102.

**27. Əlixan Məlikov** (d.1951) – mühəndis. 2000–2009-cu illərdə «Azəriqaz» Qapalı Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışmışdır. – 25-38.

**28. Artur Rasizadə,** Artur Tahir oğlu (d.1935) – Azərbaycanın dövlət xadimi. SSRİ Dövlət mükafatı laureatı. 1986–92-ci illərdə Azərbaycan Respublikası Baş nazirinin birinci müavini vəzifəsində işləyib. 1996-cı ildən Azərbaycan Respublikasının Baş naziridir. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 25–38,148.

**29. Natiq Əliyev,** Natiq Agaəli oğlu (d.1947) – 1993–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Neft Şirkətinin prezidenti olmuşdur. Hazırda Azərbaycan Respublikası Energetika naziridir. Birinci çağırış Azərbaycan Respublikası Milli Məclisinin deputatı olmuşdur. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 25–38.

**30. Hacıbala Abutalıbov,** H a c ı b a l a İ b r a h i m o ğ-l u (d.1944) – Bakı Şəhər İcra Hakimiyyətinin başçısı. Fizika–riyaziyyat elmləri doktorudur. – 25–38,58–73,148.

**31. Zeynal Nağdəliyev,** Z e y n a l S ə f ə r o ğ l u (d.1957) – tarix elmləri doktoru. 2005-ci ildən Prezident Administrasiyasının Regional idarəetmə və yerli özünüidarəetmə orqanları ilə iş şöbəsinin müdiri. – 25–38,238,239.

**32. Yaşar Həsənov,** Y a ş a r M ə m m ə d ə l i o g l u (d.1953) – mühəndis-mexanik. 2005-ci ildən «Azəristiliktəchizat» Açıq Səhmdar Cəmiyyətinin sədri vəzifəsində çalışır. Yaşar Həsənov Azərbaycan Respublikasının «Əməkdar mühəndis» fəxri adına layiq görülmüşdür. – 25 38.

**33. Rövnəq Abdullayev,** R ö v n ə q İ b r a h i m o ğ l u (d.1965) – mühəndis. 2003-cü ildən Heydər Əliyev adına Bakı Neft Emalı Zavodunun direktoru, 2005-ci ildən Azərbaycan Dövlət Neft Şirkətinin prezidenti və «Neftçi» futbol klubunun prezidentidir.

Rövnəq Abdullayev Azərbaycan Respublikası Milli Məclisinin deputatıdır. – 25–38,40–45.

**34. Mixeil Nikolozoviç Saakaşvili** (d.1967) – hüquqşünas. 2003–2013-cü illər Gürcüstan Respublikasının prezidenti. 2000–2001-ci illərdə Gürcüstanda Ədliyyə naziri olmuşdur. Vahid Milli Hərəkat Partiyasının sədri, «məxməri inqilab»ın liderlərindən biridir. – 27,103,173.

**35. «Azəriqaz» İstehsalat Birliyi** – ARDNŞ-in hasil etdiyi təbii qazın Rusiya, İran və Gürcüstana ixrac edilən nəqli ilə məşğuldur. «Azəriqaz» İstehsalat Birliyinin əsas vəzifəsi respublikanın istehlakçılarını fasiləsiz, keyfiyyətli və təhlükəsiz təbii qazla təmin etmək, abonentlərə yüksək səviyyəli xidmət göstərmək, qaz şəbəkəsini beynəlxalq standartlara uyğun yenidən qurmaqdan ibarətdir. – 28,30.

**36. Xızı** – Azərbaycan Respublikasında inzibati rayon. 1990-cı ildə yaradılmışdır. Ərazisi 1850 km$^2$, əhalisi 14,3 min nəfərdir. – 29.

**37. Şamaxı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil olunmuşdur. Sahəsi 3848 km$^2$, əhalisi 91,4 min nəfərdir. – 29

**38. Ağsu** – Azərbaycan Respublikasında inzidati rayon. 1943-cü ildə təşkil edilmişdir. 1963-cü ildə ərazisi ləğv edilib Kürdəmir rayonuna birləşdirilmişdi. 1965-ci ildə ayrılaraq yenidən müstəqil rayon olmuşdur. Ərazisi 1020,1 km$^2$, əhlaisi 69,4 min nəfərdir. – 29.

**39. Bərdə** – Azərbaycan Respublikasında rayon.1930-cu ildə təşkil edilmişdir. Sahəsi 957 km$^2$, əhalisi 132,9 min nəfərdir. – 29,208,227–241.

**40. Masallı** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 292 km$^2$, əhalisi 178,8 min nəfərdir. – 29.

**41. Astara** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilib Lənkəran rayonuna verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Cənubda və qərbdə İranla həmsərhəddir. Sahəsi 616 km$^2$, əhalisi 101,188 min nəfərdir. – 29,33,104–113.

**42. Beyləqan** (1989-cu ilə qədər Jdanov) – Azərbaycan Respublikasında inzibati rayon. 1939-cu ildə təşkil edilmişdir. Ərazisi 1131,1 km$^2$, əhalisi 81,7 min nəfərdir. – 29.

**43. «Azərenerji»** – Dövlət şirkəti. Elektrik sistemləri avadanlıqlarının texniki istismarı, elektrik enerjisi ötürülməsi, bölüşdürülməsi, generasiya güclərinin və şəbəkələrinin planlaşdırılması və inkişaf məsələlərini həll edir. – 30,32,33.

**44. Azərbaycan Respublikası Dövlət Neft Şirkəti** (ARDNŞ) – respublikada neft və qazın kəşfiyyatına, çıxarılmasına və emal edilməsinə rəhbərlik edən qurum. 1991-ci ildə təşkil edilmişdir. Şirkət neft və qaz quyularının qazılması və istifadəyə verilməsi, nəql edilməsi və s. məqsədilə dünyanın bir sıra ölkələrinin iri neft şirkətləri ilə sazişlər, müqavilələr bağlamışdır. – 30,37,234.

**45. Sumqayıt** – Azərbaycanda şəhər. Bakıdan 35 km şimal–qərbdə, Xəzər dənizinin qərb sahilində yerləşir. Sahəsi 83 km$^2$, əhalisi 231,1 min nəfərdir. Əvvəllər kiçik yaşayış məntəqəsi olan Sumqayıt 1938-ci ildə Bakı neft sənayesini elektrik enerjisi ilə təmin edəcək İstilik Elektrik Stansiyasının tikintisi ilə şəhər tipli qəsəbəyə çevrildi və get-gedə Bakıdan sonra ölkəmizin ikinci sənaye şəhərinə çevrildi. Sənayesində kimya və metallurgiya sahələri əsas yet tutur. – 33,35, 92,108

**46. Almaniya,** A l m a n i y a F e d e r a t i v R e s p u b -l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 357 min km$^2$, əhalisi 81,9 milyon nəfərdir. AFR tərkibində 16 ərazisi olan federasiyadır. Dövlət başçısı prezident, hökumət başçısı isə federal kanslerdir. Ali qanunverici hakimiyyət orqanı parlamentdən – Bundestaq və Bundersatdan ibarətdir. Paytaxtı Berlin şəhəridir. – 33,64,95.

**47. Gəncə –** Azərbaycan Respublikasında şəhər. Sahəsi 107 km$^2$, əhalisinin sayına görə Bakıdan sonra ikinci şəhərdir. Gəncə Azərbaycanın qədim şəhərlərindəndir, salındığı tarix dəqiq məlum deyil. Bəzi müəlliflər Gəncənin Makedoniyalı İsgəndərin dövründə (e.ə.336–323) salındığını qeyd etmişlər. – 30,36,240.

**48. «Siemens» –** alman şirkəti. 1847-ci ildə yaradılmışdır. Bakıda numayəndəliyi 1998-ci ildə açılıb. Şirkət elektrik

məhsulları və elektroavadanlıqların hazırlanması və tətbiqi sahəsində dünya liderlərindən biridir. İllik dövriyyəsi – 118 milyard dollardır. Bütün dünyada işçilərinin sayı 140 min nəfərdir. – 33,113.

**49. Gürcüstan,** G ü r c ü s t a n R e s p u b l i k a s ı – Cənubi Qafqazın mərkəzi və qərb hissəsində dövlət. Sahəsi 69,7 min km$^2$, əhalisi 5493 min nəfərdir. Dövlətin başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Tbilisi şəhəridir. – 30,36,103,172,173,187,192,193,265,288.

**50. Naxçıvan** – Azərbaycan Respublikasında şəhər. Naxçıvan Muxtar Respublikasının paytaxtı. Ərazisi 0,013 min km$^2$, əhalisi 67 min nəfərdən çoxdur. Naxçıvan Azərbaycanın ən qədim şəhərlərindəndir. Müasir Naxçıvan qədim, antik və orta əsr şəhər yerinin xarabalıqları üzərində yerləşmişdir.

Naxçıvan e.ə. IX–VI əsrlərdə qədim Manna və Midiyanın, eramızın əvvəllərində Albaniyanın, IV əsrdən Sasanilərin tərkibində olmuşdur. 654-cü ildə isə Naxçıvanı ərəblər işğal edirlər. Naxçıvan Azərbaycan Atabəylər dövlətinin (1136–1225) paytaxtlarından biri olmuşdur. 1828-ci il Türkmənçay müqaviləsinə qədər Naxçıvan müxtəlif dövlətlərin nüfuz dairəsində olub. Məhz bu ildən Naxçıvan Rusiya imperiyasına birləşdirildi və qəza mərkəzinə çevrildi. Naxçıvan şəhəri 1924-cü il fevralın 9-da Naxçıvan MSSR təşkil ediləndən muxtar respublikanın paytaxtı oldu. – 35,36,107,236,314.

**51. Rusiya,** R u s i y a F e d e r a s i y a s ı – Avropanın şərqində, Asiyanın şimalında dövlət. Ərazisi 17075,4 min km$^2$, əhalisi 146,3 milyon nəfərdir. Rusiya Federasiyasına 21 respublika, 6 diyar, 49 vilayət, federal əhəmiyyətli Moskva və Sankt-Peterburq şəhərləri, 10 muxtar vilayət və mahal daxildir.

Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı Dövlət Duması və Federasiya Şurasıdır. Paytaxtı Moskva şəhəridir. – 35,46–47,102,148–179,182,184,192,239,257,259,265,288, 289,290,291.

**52. Azərbaycan Beynəlxalq Əməliyyat Şirkəti** (**ABƏŞ**) – 1994-cü ilin axırlarında yaradılmışdır. «Xəzərin Azərbaycan sektorunda neft yataqlarının müştərək işlənilməsi və istifadəyə verilməsi» haqqında Azərbaycan Respublikası Dövlət Neft Şirkəti ilə dünyanın bir neçə böyük neft şirkətləri arasında imzalanmış müqavilənin payçıları adından onun şərtlərini həyata keçirmək məqsədilə yaradılmış əməliyyat şirkətidir. Buraya 7 ölkəni (B.Britaniya, Yaponiya, Norveç, Rusiya, Türkiyə və Səudiyyə Ərəbistanı) təmsil edən 11 iri neft şirkəti daxildir. – 36,37.

**53. Qardabani** (1947-ci llədək Qarayazı) – Gürcüstan Respublikasında inzibati rayon. –36.

**54. Serbiya və Çernoqoriya İttifaqı** – 2003–2006-cı illərdə keçmiş Yuqoslaviya Sosialist Federativ Respublikasının altı respublikasından ikisində yaranmış dövlət. 2006-cı il may referendumundan sonra Çernoqoriya Serbiyadan ayrılaraq müstəqil dövlət elan edildi. Serbiya isə 2006-cı ilin iyunundan müstəqil dövlət elan edildi və İttifaq öz varlığını itirdi. – 39.

**55. Svetozor Maroviç** (d.1955) – 2003–2006-cı illərdə Serbiya və Çernoqoriya İttifaqının prezidenti olmuşdur. Konstitusiyaya uyğun olaraq həm də hökumət başçısı olmuş, ancaq faktiki olaraq hökuməti idarə etməmişdir. –39.

**56. «Neftçi» –** Azərbaycanda futbol klubu. SSRİ dövründə «Neftyanik» adlanırdı. «Neftçi» rəsmi oyununu 1937-ci ildə keçirmişdir. Azərbaycan futbolunun flaqmanı olan «Neftçi» 1966-cı ildə SSRİ birinciliyinin bürünc medalını qazanmışdır, 2006-cı ildə Müstəqil Dövlətlər Birliyi Kubokunu almışdır. – 40–45.

**57. Ağasəlim Mircavadov,** Ağasəlim Seyidəhməd oğlu (d.1947) – məşqçi. Azərbaycanın əməkdar məşqçisi. 1993–95-ci illərdə Azərbaycan Milli futbol komanda-

sının Baş məşqçisi olmuş, 2005–2008-ci illərdə «Neftçi» və «Xəzər» (Lənkəran) klublarının Baş məşqçisi olanda MDB və Baltikyanı ölkələri çempionlarının «Birlik Kuboku» yarışında qızıl medallar qazanmışlar. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 40–45.

**58. Ramiz Mirzəyev** (1954–2007) –mühəndis. «Azəriqaz» sistemində müxtəlif rəhbər vəzifələrdə çalışmışdır. 1997–2007-ci illərdə «Azərneftyağ» İstehsalat Birliyinin Baş direktoru olmuşdur. – 40–45.

**59. FİFA –** Beynəlxalq Futbol Federasiyası. 1904-cü ildə Parisdə yaradılmışdır. Hazırda 210-a yaxın milli federasiyanı birləşdirir. – 43,44,45.

**60. UEFA –** Beynəlxalq Avropa İdman Təşkilatı – Avropa Futbol Assosiasiya Şurası. Əsası 1954-cü ildə qoyulmuşdur. – 44,45.

**61. Sergey İvanov** (d.1953) – Rusiya dövlət və hərbi xadimi. 1998-ci ildə Federal Təhlükəsizlik Xidməti İdarəsində direktor müavini, 1999-cu ildə Rusiya Federasiyası Təhlükəsizlik Şurasının katibi, 2001-2007-ci illərdə isə Rusiyanın Müdafiə naziri olmuşdur. Rusiya Federasiyası Təhlükəsizlik Şurasının daimi üzvüdür. – 46–47.

**62. Vladimir Putin** (d.1952) – 2000–2008-ci illərdə Rusiya Federasiyasının prezidenti. 1975–97-ci illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır. 1998-ci ildə Rusiya Federasiyası prezidenti administrasiyasının rəhbəri, 1998–99-cu illərdə FTX-nın direktoru, 1999-cu ilin avqustundan Rusiya hökumətinin başçısı, 2008-ci ilin mayında Rusiya Federasiyasının Baş naziri təyin edilmişdir. 2012-ci ilin mart ayında yenidən Rusiya Federasiyasının prezidenti seçilmişdir. – 46,47,102,148–179,182,289.

**63. Lənkəran** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 661 $km^2$, əhalisi 146,9 min nəfərdir. – 50,104–113.

**64. Ramiz Quliyev,** Quliyev Ramiz Əyyub oğlu (d.1947) – tarzən, professor. Azərbaycan Respublikasının Xalq artisti. – 50.

**65. Bakı Musiqi Akademiyası** – 1921-ci ildə yaradılıb. Bakı Musiqi Akademiyası Azərbaycanda ilk musiqi tədris müəssisəsidir. 4 fakültəsi vardır. Təhsil iki pilləlidir – bakalavr və magistratura. Bakı Musiqi Akademiyasının tərkibində opera studiyası və musiqi məktəbi studiyası fəaliyyət göstərir. – 50.

**66. Şri-Lanka,** Şri-Lanka Demokratik Sosialist Respublikası – Cənubi Asiyada dövlət. Millətlər Birliyinə daxildir. Sahəsi 65,6 min $km^2$, əhalisi 18,3 milyon nəfərdir. İnzibati ərazisi 25 əyalətə bölünür. Dövlət və hökumət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı rəsmi olaraq Cayavar Denapurakotte, faktiki isə Kolombodur. – 52.

**67. Mahinda Pacapakse** (1945) – 2005-ci ildən Şri-Lanka Respublikasının prezidenti. 2004–2005-ci illərdə Şri-Lankada Baş nazir olmuşdur. Milli Alyansa daxil olan Şri-Lanka Azadlıq Partiyasının liderlərindən biridir. – 52.

**68. Yeni Zelandiya** – Sakit okeanın cənub-qərbində dövlət. Sahəsi 270,5 min $km^2$, əhalisi 3,62 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator təmsil edir. Qanunverici orqan parlamentdir. Paytaxtı Vellinqtondur. – 53.

**69. Helen Klark** (d.1950) – Yeni Zelandiyanın Baş naziri (1999–2008). Yeni Zelandiya Liberal Partiyasının lideri. 2003-cü ildə Helen Klark Amerika ordusunun İraqa girməsini ciddi tənqid etmiş və həmin ildə Yeni Zelandiyanın respublikaya

çevrilməsini «qaçılmaz» hesad etmişdir. (Hal-hazırda rəsmi olaraq Böyük Britaniya kraliçası özünün təyin etdiyi general-qubernator vasitəsilə ölkəyə başçılıq edir). – 53.

**70. Avstriya,** A v s t r i y a R e s p u b l i k a s ı – Mərkəzi Avropada, Dunay hövzəsində dövlət. Sahəsi 83,8 min km$^2$, əhalisi 8,1 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Vyanadır. – 54.

**71. «Yeni qonşuluq siyasəti»** (YQS) – Avropa İttifaqının qonşu ölkələrdə əməkdaşlığın möhkəmləndirilməsi və Avropa İttifaqı və qonşu ölkələr arasında təhlükəsiz və firavan zonalar, Avropa İttifaqı sərhədlərində «dairəvi dost ölkələr» yaratmaq, həmçinin Aİ ilə qonşu ölkələr arasında siyasi, təhlükəsiz, iqtisadi və mədəni sahələrdə daha sıx əməkdaşlıq etməyə şərait yaradır. YQS-nin əsas məqsədi Avropa İttifaqının qonşu ölkələrində stabilliyin, təhlükəsizliyin qorunması, maraqlı ölkələrdə rifah halının yaxşılaşdırılmasıdır. – 54,297.

**72. Belçika,** B e l ç i k a K r a l l ı ğ ı – Qərbi Avropada dövlət. Sahəsi 30,5 min km$^2$, əhalisi 10,2 milyon nəfərdir. Belçika konstitusiyalı monarxiyadır. Dövlət başçısı kral, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Brüsseldir. – 55.

**73. Avropa Komissiyası,** A v r o p a Ş u r a s ı ö l k ə l ə r i n i n K o m i s s i y a s ı – AŞ Hökumətlərinin ali icraedici orqanı, AŞ-nın bütün maraqlarına cavab verən siyasi müstəqil institut. Onun tərkibinə üzv olkələrin hökumətlərinin vahid razılığı ilə seçilən 20 komissar daxildir. Komissiyanın tərkibini minimum üzv ölkələrin nümayəndələri təmsil edir. Komissiyanın üzvləri öz ölkələrini yox, bütün AŞ-nı təmsil edirlər. AŞ-nın bütün qərarları Komissiyadan keçməlidir. Qərarların yerinə yetirilməsinə AŞ nəzarət edir. – 56,101,131.

**74. Heyki Talvitiye** (d.1939)–2003–2006-cı illərdə Avropa Şurasının Cənubi Qafqaz üzrə xüsusi nümayəndəsi olmuşdur. – 57.

**75. Ziya Məmmədov,** Z i y a A r z u m a n o ğ l u (d.1952) – dəmiryolçu mühəndis. 1996–2005-ci illərdə Azərbaycan Dövlət Dəmir Yolunun rəisi, 2005-ci ildən isə Azərbaycan Respublikasının Nəqliyyat naziridir. – 58–73.

**76. Ramil Usubov,** R a m i l İ d r i s o ğ l u (d.1948) – general-polkovnik. 1994-cü ildən Azərbaycan Respublikasının Daxili İşlər naziridir. – 58–73.

**77. Cabir əs-Sabah** – 2006-cı ildən Küveyt əmiri. Hakimiyyətə gəldikdən sonra ölkədə bir sıra demokratik islahatlar keçirmiş, qadınlara dövlət orqanlarında işləməyə icazə verilmiş, onlar seçib-seçilmək hüququ əldə etmişlər. – 74,128.

**78. Finlandiya,** F i n l a n d i y a R e s p u b l i k a s ı – Şimali Avropada dövlət. Sahəsi 397 min km$^2$, əhalisi 5,13 milyon nəfərdir. İnzibati ərazisi 11 lyaniyə (əyalətə) bölünür. Aland adaları isə muxtar ərazidir. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Helsinki şəhəridir. – 75,104.

**79. Tarya Halonen** (d.1943) – Finlandiyanın ictimai və siyasi xadimi. Müxtəlif illərdə Ədliyyə, Sosial Müdafiə və Xarici İşlər nazirliklərinə başçılıq etmişdir. 2000-ci ildən Finlandiya Respublikasının prezidentidir. – 75.

**80. Kanada** – Şimali Amerikada dövlət. Sahəsi 9,97 milyon km$^2$, əhalisi 29,6 milyon nəfərdir. Kanada 10 əyalətə və 3 əraziyə bölünmüş federasiyadır. Dövlət başçısı Böyük Britaniya kraliçasıdır. Onu ölkədə general-qubernator əvəz edir. Qanunverici orqanı ikipalatalı (Senat və İcmalar palatası) parlamentdir. Paytaxtı Ottavadır. – 76.

**81. Stiven Harper** (d.1959) – 2006-cı ildən Kanadanın 22-ci Baş naziri. Mühafizəkarlar Partiyasının lideri. – 76.

**82. Polşa,** P o l ş a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 312,7 min km$^2$, əhalisi 38,7 milyon nəfərdir. İnzibati cəhətdən 49 voyevodalığa bölünür. Ali və yeganə qanunverici orqanı ikipalatalı Seymdir. Paytaxtı Varşava şəhəridir. – 77.

**83 Lex Kaçinski** (1949–2010) – 2002–2005-ci illərdə Varşavanın meri, 2005–2010-cu illərdə Polşanın prezidenti olmuşdur. 2010-cu il aprelin 10-da Smolensk yaxınlığında təyyarə qəzasında həlak olmuşdur. Haqq və Ədalət Partiyasının liderlərindən biri olmuşdur. – 77.

**84. İslam Konfransı Təşkilatı (İKT)** – 1969-cu ildə yaradılmışdır. Müsəlman ölkələrinin çoxunu birləşdirir. Nizamnaməsinə görə İslam Konfransı Təşkilatının fəaliyyəti müsəlmanların həmrəyliyinin möhkəmlənməsinə, üzv dövlətlər arasında əməkdaşlığa yönəldilmişdir. İqamətgahı Ciddədədir (Səudiyyə Ərəbistanı). Azərbaycan 1991-ci ildən İKT-nin üzvüdür. – 79,85,206.

**85. GUAM** – Avropada adi silahların azaldılması haqqında müqavilənin cinah sənədi müzakirə olunduqdan sonra həmin sənədi bəyənən ölkələrdən – Gürcüstan, Ukrayna, Azərbaycan və Moldovadan ibarət qeyri-rəsmi «dördlər qrupu» yaradıldı. Sonralar bu quruma Özbəkistan da qatıldı (10 oktyabr 1997). 2005-ci ildə isə Özbəkistan bu qurumu tərk etdi. – 79,85.

**86. Milli Bank** (Mərkəzi Bank) – Azərbaycan Respublikasının mərkəzi bankıdır. Onun əsas vəzifəsi qiymətlərin sabitliyinin təmin edilməsi, xarici dönərli valyutalara nisbətən milli valyutanın kursunun möhkəmləndirilməsi, həmçinin ölkə bank sisteminin sabitliyinin qorunmasıdır. AMB valyuta tənzimlənməsi və nəzarətini həyata keçirir, xarici dövlətlərlə hesablaşma qaydalarını müəyyən edir, xarici valyuta ehtiyatlarını

idarə edir. AMB həmçinin Azərbaycan Respublikasının ödəmə-hesabat balansının tərtibinə rəhbərlik edir. – 82.

**87. Dövlət Neft Fondu –** 1999-cu ildə yaradılmışdır. Əsas fəaliyyəti Azərbaycanın neft strategiyasından əldə edilən gəlirlərin idarə edilməsidir. – 82,90,213,214,224,254,298.

**88. «Aqrolizinq»** – 2004-cü ildə təsis edilib. Şirkət ölkənin Kənd Təsərrüfatı Nazirliyinin strukturuna daxildir. Ölkənin 55 rayonunda «Aqrolizinq»in xidmət məntəqələri var. – 93, 136.

**89. Horst Köler (**d.1943) – alman dövlət və siyasi xadimi, iqtisadçı – politoloq. 2000–2004-cü illərdə Beynəlxalq Valyuta Fondunun prezidenti, 2004-cü ildən Almaniyanın prezidentidir. – 95.

**90. Rau Yohannes** (1931–2006) – Almaniya dövlət xadimi. 1999–2004-cü illərdə Almaniyanın federal prezidenti olmuşdur. Almaniya Sosial Demokrat Partiyasının liderlərindən biri. – 95.

**91. Ukrayna,** U k r a y n a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Ərazisi 603,7 min km$^2$, əhalisi 51,3 milyon nəfərdir. Ukraynanın tərkibinə 24 vilayət və Krım Respublikası daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı – Ali RADA-dır. Paytaxtı Kiyev şəhəridir. – 97,127, 293.

**92. Anatoli Kinax** (d.1954) – Ukrayna siyasi və dövlət xadimi. 2005–2006-cı illərdə Ukraynanın Milli Təhlükəsizlik və Müdafiə Şurasının sədri olmuşdur. Hal-hazırda Ukrayna Ali «RADA»-nın deputatıdır. – 97.

**93. Ümumdünya Gömrük Təşkilatı** (ÜGT) – dövlətlərarası beynəlxalq təşkilat. ÜGT-na, demək olar kı, bütün dünyanın gömrük xidməti daxildir. ÜGT beynəlxalq ticarətin 98%-nə nəzarət edir. 1953-cü ildə yaradılmışdır. Mənzil-qərargahı Brüsseldədir (Belçika) – 98–102.

**94. Mişel Dane** (d.1941) – hüquqşünas. 1999–2008-ci illərdə Ümumdünya Gömrük Təşkilatının Baş katibi olmuşdur.Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif olunmuşdur. – 100–102.

**95. Kəmaləddin Heydərov,** K ə m a l ə d d i n F ə t t a h o ğ l u (d.1961) – gömrük xidməti general-polkovniki. 1995–2006-cı illərdə Azərbaycan Respublikası Dövlət Gömrük Komitəsinin sədri, 2006-cı ildən Azərbaycan Respublikası Fövqəladə Hallar naziridir. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. – 102.

**96. İsveçrə,** İ s v e ç r ə K o n f e d e r a s i y a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 41,3 min km$^2$, əhalisi 7,1 milyon nəfərdir. İsveçrə federativ, 23 kantona bölünmüş respublikadır. Dövlət başçısı prezidentdir, prezidenti parlament Federal Şura üzvlərindən 1 il müddətinə seçir, yenidən seçilmək hüququ yoxdur. Prezident həmçinin hökumət başçısıdır. Qanunverici hakimiyyət iki palatadan ibarət Federal Məclisə məxsusdur. Paytaxtı Bern şəhəridir. – 104,183.

**97. ABB** – dünyada ən böyük texnoloji şirkətlərdən biri. ABB-nin istehsal etdiyi avadanlıqları və qərargahları dünyanın 100-dən artıq ölkəsini əhatə edir. ABB-nin tarixi 1883-cü ildən İsveç və 1891-ci ildən İsveçrə ABB-si başlanır. 1988-ci ildə hər iki şirkət birləşərək ABB-ni yaratdılar. Mənzil qərargahı Sürixdədir (İsveçrə). – 104,105.

**98. «Azenko»** – Azərbaycanda tikinti şirkəti. 2006-cı ildən fəaliyyətə başlamışdır. «Azenko Holdinq»in tərkibinə beş tikinti şirkəti daxildir. Yarandığı vaxtdan «Azenko» hotel binalarının, hündür mərtəbəli evlərin, biznes mərkəzlərinin tikinti işləri ilə məşğul olur. – 106.

**99. Şəki –** (1968-ci ilədək Nuxa rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü

ildə ləğv edilərək ərazisi Oğuz rayonuna verilmiş, 1965-ci ildə yenidən mustəqil rayon olmuşdur. Sahəsi 2,43 min km$^2$, əhalisi 176 min nəfərdir. – 107,236.

**100. Xaçmaz** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. 1963-cü ildə ləğv edilərək ərazisi Quba və Qusar rayonlarına verilmiş, 1965-ci ildə yenidən müstəqil rayon olmuşdur. Sahəsi 1045 km$^2$, əhalisi 148,4 min nəfərdir. – 107,236.

**101. Lerik** (1938-ci ilədək Zuvand rayonu) – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Cənub və cənub–qərbdə İranla həmsərhəddir. Sahəsi 1084 km$^2$, əhalisi 66,2 min nəfərdir. – 108.

**102. Misir Ərəb Respublikası** – Afrikanın şimal–şərqində və Asiyanın Sinay yarımadasında dövlət. Sahəsi 1001,4 min km$^2$, əhalisi 61 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Qahirə şəhəridir. – 114.

**103. Hüsnü Mübarək,** S e y i d M ə h ə m m ə d (d.1928) – 1975–81-ci illərdə Misir Ərəb Respublikasının vitse-prezidenti, 1981–2011-ci illərdə prezidenti olmuşdur. – 114.

**104. İran,** İ r a n İ s l a m R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada dövlət. Sahəsi 1,65 milyon km$^2$, əhalisi 62,2 milyon nəfərdir. Paytaxtı Tehran şəhəridir. İnzibati cəhətdən 24 ostana bölünür. Ali qanunverici hakimiyyət orqanı 4 il müddətinə seçilən Xalq Şurası Məclisidir. Hökuməti Baş nazir təşkil, prezident isə təsdiq edir. – 115,116,171,292.

**105. Mahmud Əhmədinejad** (d.1956)–2005–2013-cü illərdə İran İslam Respublikasının prezidenti olmuşdur. – 115.

**106. İran İslam İnqilabı** – İranın daxilində Milli Cəbhənin, xaricdən isə ruhanilərin Fransada mühacirətdə olan başçısı

Ayətüllah Ruhulla Xomeyninin rəhbərlik etdiyi ümumxalq hərəkatı. Bu hərəkat getdikcə gücləndi və 1979-cu ildə şah (Məhəmməd Rza Pəhləvi) ölkəni tərk etdi. Mühacirətdən vətənə qayıtmış imam Xomeyni İran İslam Respublikasını elan etdi. – 115,116.

**107. Xamenei,** Hüseyn Xamenei Seyid Əli (d.1939) – İranın dini və dövlət xadimi. 1981–89-cu illərdə İranın prezidenti, 1989-cu ildən isə İran İslam Respublikasının dini rəhbəridir. – 116.

**108. Qambiya,** Qambiya Respublikası – Qərbi Afrikada dövlət. Sahəsi 11,3 min km$^2$, əhalisi 1148 min nəfərdir. Millətlər Birliyinə daxildir. Dövlət və hökumət başçısı prezidentdir. Qanunverici orqanı Nümayəndələr Palatasıdır. Paytaxtı Banculdur. – 117.

**109. Yəhya Cammeh** (d.1965) – Qambiya siyasi və dövlət xadimi. 1994-cü ildən Qambiya Respublikasının prezidentidir. – 117.

**110. Fransa,** Fransa Respublikası – Qərbi Avropada dövlət. Sahəsi 551 min km$^2$, əhalisi 58,4 milyon nəfərdir. İnzibati cəhətdən 95 departamentə bölünür. Qanunverici orqanı iki palatadan (Milli Məclis və Senat) ibarət parlament həyata keçirir. İcra hakimiyyəti prezident və Nazirlər Şurasına məxsusdur. Paytaxtı Paris şəhəridir. – 118–122,192,252,257,259,267.

**111. Paris –** Fransanın paytaxtı. Ölkənin iqtisadi, siyasi və mədəniyyət mərkəzi, dünyanın ən böyük və gözəl şəhərlərindən biri.

Paris dünyanın ən orijinal və təkrarsız şəhərlərindəndir. Burada Renessans və klassisizm üslublarında çoxlu dəbdəbəli ansambllar, binalar, eləcə də orta əsrlərə aid parklar və heykəllər, təmtəraqlı meydanlar, bulvar və prospektlər var. Bir

sıra beynəlxalq təşkilatların (YUNESKO və s.) iqamətgahı Parisdədir. – 118–122,189.

**112. «Total»** – məşhur fransız neft şirkəti. 1954-cü ildə təşkil olunmuşdur. Bir çox ölkələrdə neftin kəşfiyyatı, emalı və satışı ilə məşğul olur. – 119.

**113. «Şahdəniz» –** Azərbaycanın Xəzər dənizi sektorunda ən böyük və ən zəngin qaz yataqlarından biri. – 119,239,316.

**114. Yelisey sarayı** – Parisdə Fransa prezidentlərinin iqamətgahı. – 120.

**115. Jak Şirak** (d.1932) – Fransanın görkəmli siyasi və dövlət xadimi. 1974–76 və 1986–88-ci illərdə Fransanın Baş naziri, 1977–95-ci illərdə Paris şəhərinin meri, 1995–2007-ci illərdə Fransa Respublikasının prezidenti. «Heydər Əliyev» ordeni ilə təltif olunmuşdur. – 120,121.

**116. Kondoliza Rays** (d.1954) – Amerika dövlət və siyasi xadimi. 2004–2008-ci illərdə Amerika Birləşmiş Ştatlarının Dövlət katibi olmuşdur. – 124.

**117. Moşe Katsav** (d.1945) – İsrail dövlət xadimi. 2000–2007-ci illərdə İsrail prezidenti. – 124.

**118. Quba** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 2575 $km^2$, əhalisi 140,0 min nəfərdir. – 125,240.

**119. Qara Dəniz Ölkələri İqtisadi Əməkdaşlıq Təşkilatı** – 1992-ci ildə İstanbul zirvə görüşündə yaradılmışdır. Buraya Albaniya, Azərbaycan, Bolqarıstan, Ermənistan, Gürcüstan, Moldova, Rumıniya, Rusiya, Serbiya, Xorvatiya, Türkiyə, Ukrayna və Yunanıstan daxildir. Bu təşkilat ancaq iqtisadi əməkdaşlıq maraqları əsasında qurulmuş təşkilatdır. İqamətgahı İstanbuldadır. – 126.

**120. Tedo Caparidze** (d.1946) – gürcü siyasətçisi və diplomat. 2004–2005-ci illərdə Qara Dəniz İqtisadi Əməkdaşlıq Təşkilatının Baş katibi olmuşdur. – 126.

**121. Heydər Əliyev Fondu** – qeyri-hökumət, qeyri-kommersiya təşkilatı. Rəsmi açılışı 10 may 2004-cü ildə olmuşdur. Heydər Əliyev Fondunun prezidenti YUNESKO-nun və İSESKO-nun Xoşməramlı səfiri, Milli Məclisin deputatı, Azərbaycanın birinci xanımı Mehriban Əliyevadır.

Fondun yaradılmasında məqsəd ümummilli lider Heydər Əliyevin xatirəsinə ehtiramı ifadə etmək, Heydər Əliyev siyasi məfkurəsinin həmişəyaşar səciyyəsini əks etdirmək, Heydər Əliyevin yaratdığı milli dövlətçilik ideyalarını yeni nəsillərə daima aşılamaq olmuşdur.

Fondun prezidenti onun səlahiyyətli qanuni numayəndəsidir. Fondun işinə bilavasitə rəhbərlik icraçı direktora aiddir. Fondun nəzdində Ekspert Şurası, fondun strukturunda bir sıra qurumlar fəaliyyət göstərir. – 127,145,156.

**122. Leonid Daniloviç Kuçma** (d.1938) – Ukraynanın siyasi və dövlət xadimi. 1994–2005-ci illərdə Ukrayna Respublikasının prezidenti olmuşdur. Azərbaycan Respublikasının «İstiqlal» ordeni ilə təltif olunmuşdur. – 127.

**123. YUNESKO –** BMT-nin maarif, elm və mədəniyyət işlərinə baxan hökumətlərarası təşkilatı. 1945-ci ilin noyabrında yaradılmış, 1946-cı ildən fəaliyyətə başlamışdır. Ali orqanı iki ildən bir çağırılan konfransdır. Katibliyi Parisdədir. Azərbaycan 1992-ci ildən YUNESKO-nun üzvüdür. – 127,156.

**124. Mehriban Əliyeva,** Mehriban Arif qızı (d.1964) – ictimai və siyasi xadim, fəlsəfə doktoru, prezident İlham Əliyevin həyat yoldaşı. 1988-ci ildə M.Seçenov adına 1-ci Moskva Dövlət Tibb İnstitutunu bitirmişdir. 1988–93-cü

illərdə Krassnov adına Moskva Elmi-Tədqiqat Göz Xəstəlikləri İnstitutunda işləmişdir. 1995-ci ildə Mehriban Əliyeva «Azərbaycan Mədəniyyətinin Dostları» xeyriyyə fondu yaratmışdır. Fəaliyyətə başladığı ilk gündən fond milli mədəniyyətimizin inkişafı, təbliği, tanınması üçün xeyli işlər görmüş, 1996-cı ildə Azərbaycan mədəniyyətini xarici ölkələrdə geniş təbliğ etmək üçün üç dildə – Azərbaycan, rus və ingilis dillərində çıxan «Azərbaycan – İrs» jurnalını təsis etmişdir. 2004-cü ildən Mehriban Əliyeva Azərbaycan xalqının ümummilli liderinin zəngin irsinin öyrənilməsi və həmçinin Heydər Əliyevin milli dövlətçilik ideyalarını yeni nəsillərə aşılamaq məqsədilə yaranmış Heydər Əliyev Fonduna başçılıq edir.

Mehriban Əliyevanın təşəbbüsü ilə Heydər Əliyev Fondu respublikanın bir çox şəhər, rayon və kəndlərində yeni məktəb binaları tikdirmiş və təmir etdirmişdir. Onun keçirdiyi xeyriyyə aksiyaları şəkər, talassemiya və anemiya xəstəliklərindən əziyyət çəkən Azərbaycan uşaqlarına yardım məqsədilə təşkil olunur.

Azərbaycanın şifahi xalq yaradıcılığı və musiqi irsinin qorunub saxlanılması və inkişaf etdirilməsi sahəsindəki yorulmaz işlərinə görə Mehriban Əliyeva YUNESKO və İSESKO-nun Xoşməramlı səfiri seçilmişdir.

Yeni Azərbaycan Partiyası Siyasi Şurasının üzvü, 2005-ci ildən Milli Məclisin deputatıdır. Mehriban Əliyeva ölkəmizdə təhsil sisteminin inkişafına, milli-mədəni irsimizin qorunub saxlanılmasına və dünyada təbliginə, xarici ölkələrdə xalqımızın müsbət imicinin möhkəmlənməsinə, genişmiqyaslı xeyriyyəçilik işlərinə xüsusi diqqət yetirir. – 127,145,209,211,212,219,250, 251,271–272.

**125. Bruney,** B r u n e y D ə r ü s s a l a m – Cənub–Şərqi Asiyada dövlət. Sahəsi 5,8 min $km^2$, əhalisi 300 min nəfərdir. Bruney konstitusiyalı monarxiyadır. Dövlət başçısı sultandır. Paytaxtı Bəndər-Səri-Bəqavandır. – 129.

**126. Hacı Həssənal Bolkiah** (d.1946) – Bruney sultanı. XIV əsrdən hakimiyyətdə olan sülalənin 29-cu nümayəndəsi. – 129.

**127. Estoniya,** E s t o n i y a  R e s p u b l i k a s ı – Şərqi Avropada dövlət. Sahəsi 45,2 min km$^2$, əhalisi 1492 min nəfərdir. Dövlət başçısı prezident, qanunverici orqanı – Seymdir. Paytaxtı Tallindir. – 130.

**128. Arnold Rüytel** (d.1928) – Estoniya siyasi və dövlət xadimi. 2001–2006-cı illərdə Estoniya prezidenti. –130.

**129. Benita Marya Ferrero Valdner** (d.1948) – Avstriya hüquqşünası. Hüquq elmləri doktoru. 2000–2004-cü illərdə Avstriya Xarici İşlər naziri olmuşdur. – 131.

**130. Dmitri Şostakoviç,** D m i t r i  D m i t r i y e v i ç (1906–1975) – böyük rus bəstəkarı, sənətşünaslıq elmləri doktoru – XX əsr dünya müsiqi sənətinin klassiki. Şostakoviçin yaradıcılığında simfonik musiqi başlıca yer tutur. Ən kamil əsərlərindən sayılan 7,11,12,14,15-ci simfoniyalarında həyat və ölüm mövzusu böyük emosionallıqla ifadə olunmuşdur. Bir çox dünya ölkələrinin milli, elm, incəsənət akademiyalarının fəxri üzvü olmuşdur. – 145–146,204.

**131. Qara Qarayev,** Q a r a  Ə b ü l f ə s  o ğ l u (1918–1982) – dahi Azərbaycan bəstəkarı. Musiqisi ümumdünya şöhrəti qazanmış, baletləri respublikamızın və bir sıra dünya teatrlarının səhnəsində tamaşaya qoyulmuşdur. Q.Qarayevin musiqi dili sahəsinə gətirdiyi yeniliklər Azərbaycan və dünya musiqisinin inkişafında mühüm rol oynamışdır. SSRİ Xalq artisti, Sosialist Əməyi Qəhrəmanı, SSRİ Dövlət və Lenin mükafatları laureatıdır. – 145.

**132. Cövdət Hacıyev,** Ə h m ə d  C ö v d ə t  İ s m a y ı l  o ğ l u (1917–2002) – Azərbaycan bəstəkarı, pedaqoq. 1957–69-cu illərdə Azəraycan Musiqi Akademiyasının rektoru olmuşdur. Azərbaycan Respublikasının Xalq artisti. İki dəfə SSRİ Dövlət

mükafatı laureatı. Azərbaycan Respublikasının «Şöhrət» ordeni ilə təltif edilmişdir. –145.

**133. Rostropoviç** M s t i s l a v  L e o p o l d o v i ç (1927–2007) – Bakıda doğulmuş görkəmli musiqiçi, violonçelist, dirijor. Lenin mükafatı laureatı, SSRİ Xalq artisti. Bakı Musiqi Akademiyasının fəxri professoru. Azərbaycan Respublikasının «İstiqlal» və «Heydər Əliyev» ordenləri ilə təltif edilmişdir. – 145,201-204.

**134. Dağıstan,** D a ğ ı s t a n  R e s p u b l i k a s ı – Rusiya Federasiyasında respublika. Sahəsi 50,3 min km$^2$, əhalisi 2094,6 min nəfərdir. Paytaxtı Mahaçqala şəhəridir. Dağıstan ərazisi bizim eradan əvvəl 1-ci minilliyin axırlarına qədər Qafqaz Albaniyası tərkibində olmuşdur. 1813-cü ildə Gülüstan müqaviləsinə əsasən çar Rusiyasına birləşdirilmişdir. – 147.

**135. Muxu Əliyev** (d.1940) – Rusiya dövlət xadimi. 1995–2006-cı illərdə Dağıstan Respublikası Milli Məclisinin sədri, 2006–2010-cu illərdə isə prezidenti olmuşdur. –147.

**136. Elmar Məmmədyarov,** E l m a r  M ə h ə r r ə m  o ğ l u (d.1960) – tarix elmləri namizədi, diplomat. 1995–98-ci illərdə Azərbaycan Xarici İşlər Nazirliyində beynəlxalq təşkilatlar idarəsinin başçısı, 1998–2003-cü illərdə ABŞ-da Azərbaycan səfirliyində müşavir, 2003–2004-cü illərdə İtaliyada Azərbaycan Respublikasının səfiri, 2004-cü ildən isə Azərbaycan Respublikasının Xarici İşlər naziridir. – 148.

**137. Xələf Xələfov,** X ə l ə f  A l ı  o ğ l u (d.1959) – diplomat, Fövqəladə və Səlahiyyətli səfir. Moskvada ikiillik Ali Diplomatiya Akademiyasını bitirmişdir. 1997-ci ildən Azərbaycan Respublikası Xarici İşlər nazirinin müavinidir. – 148.

**138. Zərifə xanım,** Z ə r i f ə  Ə z i z  q ı z ı (1923–1985) – görkəmli Azərbaycan oftalmoloqu. Tibb elmləri doktoru, professor, Azərbaycan Milli EA-nın akademiki, Rusiya Tibb

EA-nın akademiki, Azərbaycan Respublikasının əməkdar elm xadimi. Görkəmli siyasi və dövlət xadimi Əziz Əliyevin qızı, ulu öndər Heydər Əliyevin həyat yoldaşı, prezident İlham Əliyevin anasıdır. Zərifə xanımın Azərbaycanda oftalmologiya elminin inkişafında müstəsna xidmətləri var. O, vaxtilə Azərbaycanda geniş yayılmış traxomanın, dünya təcrübəsində birincilər sırasında peşə, xüsusilə kimya və elektron sənayelərində peşə fəaliyyəti ilə bağlı göz xəstəliklərinin öyrənilməsi, profilaktikası və müalicəsinə, habelə oftalmologiyanın müasir problemlərinə dair bir çox sanballı tədqiqatların müəllifidir. Həmçinin yüksək ixtisaslı səhiyyə kadrları hazırlanmasına böyük əmək sərf etmişdir. O, Ümumittifaq Oftalmoloqlar Cəmiyyəti Rəyasət Heyətinin, Sovet Sülhü Müdafiə Komitəsinin, Azərbaycan Oftalmologiya Cəmiyyəti İdarə Heyətinin, «Vestnik oftalmologii» (Moskva) jurnalı redaksiya heyətinin üzvü olmuşdur. Yüksək elmi nailiyyətlərinə görə SSRİ Tibb EA-nın M.İ.Averbax adına mükafatına layiq görülmüşdür. – 148.

**139. Sibir** – Rusiya Federasiyasının Asiyadakı ərazisinin çox hissəsi. Sahəsi təqribən 10 milyon km$^2$, əhalisi 23,8 milyon nəfərdir. Sibir Qərbi Sibir və Şərqi Sibir hissələrinə bölünür.

Ərazisinin çox hissəsində iqlim sərt, kəskin kontinentaldır. Orta temperatur yanvarda Qərbi Sibir düzənliyinin cənubunda – 16-dan 20°C-yə, Yakutiyada – 40-dan 48°C-yə (bəzən 71°C-dək) enir. – 150.

**140**. **Qubkin İvan Mixayloviç** (1871–1939) – geoloq. 1929-cu ildən SSRİ EA-nın akademiki, 1936-cı ildən SSRİ EA-nın vitse-prezidenti, SSRİ EA Azərbaycan filialının sədri olmuşdur. Azərbaycan neft sənayesinin bərpa və inkişafında fəal iştirak etmişdir. – 150.

**141. Böyük Vətən müharibəsi –** bax: İkinci dünya müharibəsi.

**142. İkinci dünya müharibəsi** (1939–45) – Almaniya, İtaliya və Yaponiya tərəfindən başlanmış böyük müharibə. İkinci dünya müharibəsi 1939-cu il sentyabrın 1-də Almaniyanın Polşaya girməsi ilə başlandı. Sentyabrın 3-də Böyük Britaniya və Fransa Almaniyaya müharibə elan etdi. 1940-cı ilin ortalarından alman qoşunları Danimarka, Norveç, Belçika, Niderland, Lüksemburq, sonra isə Fransanı işğal etdi.

1941-ci il iyunun 22-də Almaniya SSRİ-yə qarşı müharibə elan etdi. 1942–43-cü illərdə sovet ordusunun Stalinqrad və Kursk vuruşmalarında qələbəsi Almaniyanı qəti surətdə sarsıtdı.

1945-ci il mayın 2-də sovet ordusu Berlini aldı. Mayın 8-də Karlsxorstda (Berlin yaxınlığında) Almaniyanın danışıqsız təslim olması haqqında akt imzalandı.

Yaponiyanın təslim olması haqqında sənəd isə sentyabrın 2-də imzalandı. Bununla İkinci dünya müharibəsi qurtardı. İkinci dünya müharibəsində 72 ölkə iştirak etmişdir. Müharibədə iştirak edən ölkələrin silahlı qüvvələrinə 110 milyon adam çağırılmışdı. Müharibədə 62 milyon adam həlak olmuş, minlərlə şəhər, qəsəbə və kənd dağıdılmışdı. – 151.

**143. Lixaçov Dmitri Sergeyeviç** (1906–1999) – görkəmli rus ədəbiyyatşünası və ictimai xadim. REA-nın akademiki, Sosialist Əməyi Qəhrəmanı. 1928–32-ci illərdə «İqor polku haqqında dastan» tədqiqatına görə repressiyaya məruz qalmışdır. – 152.

**144. İTAR-TASS** – Rusiya İnformasiya Teleqraf Agentliyi. 1992-ci ildə SİTA-nın bazası əsasında yaradılmışdır. – 155,156.

**145. Vitali İqnatenko** (d.1941) – jurnalist. 1991-2013-cü illərdə İTAR-TASS agentliyinin Baş direktoru olmuşdur. – 156.

**146. Sverdlovsk vilayəti** – Rusiya Federasiyasında Şərqi Avropa hissəsində inzibati ərazi vahidi. Sahəsi 194,8 min km$^2$, əhalisi 4641 min nəfərdir. – 157.

**147. Ulyanovsk vilayəti** – Rusiyanın Qərbi Avropa hissəsində, Volqa çayının sahilində inzibati ərazi vahidi. Sahəsi 37,3 min km$^2$, əhalisi 1477 min nəfərdir. – 157,158,184.

**148. «LUKoyl»** – neft şirkəti. 1993-cü ildə Rusiya Federasiyası hökumətinin qərarı ilə yaradılmışdır. Nəhəng sənaye-maliyyə kompleksinə malik olan «LUKoyl» şirkəti Rusiya, MDB və dünyanın bir çox ölkələrində neft məhsullarının kəşfiyyatı, hasilatı, emalı və satışı ilə məşğul olur. Şirkət 1993-cü ildən Azərbaycanda fəaliyyət göstərir. – 176.

**149. «Rusal»** (R u s  a l ü m i n i u m u) – 2007-ci ilə qədər ən böyük Rusiya alüminüm şirkəti, dünyada isə alüminium istehsalına görə üçüncüdür. Mənzil-qərargahı Moskvadadır. 2000-ci ildə yaradılmışdır. 2007-ci ildə «Rusal»a «Sibir–Ural alüminium şipkəti» və İsveçrə Çlencore şirkətinin aktivləri birləşdi. Şirkət 9 regionda, dünyanın 12 ölkəsində fəaliyyət göstərir. – 176.

**150. Bolqarıstan,** B o l q a r ı s t a n  R e s p u b l i k a s ı – Cənubi Avropada, Balkan yarımadasında dövlət. Sahəsi 110,9 min km$^2$, əhalisi 8,4 milyon nəfərdir. İnzibati cəhətdən 9 vilayətə bölünür. Dövlət başçısı prezident, ali qanunverici orqanı birpalatalı Xalq Məclisidir. Paytaxtı Sofiya şəhəridir. – 180.

**151. Georgi Pirvanov** (d.1957) – Bolqarıstan siyasi və dövlət xadimi. Tarix elmləri doktoru. 2000–2011-ci illərdə Bolqarıstanın prezidenti olmuşdur. – 180.

**152. Qana,** Q a n a  P e s p u b l i k a s ı – Qərbi Afrikada dövlət. Sahəsi 238,5 min km$^2$, əhalisi 16,9 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 10 vilayətə və paytaxt mahalına bölünür. Paytaxtı Akkradır. – 181.

**153. Con Kofi Agiyekum Kufuor** (d.1938) – 2001–2007-ci illərdə Qananın prezidenti, 2007–2008-ci illərdə Afrika İttifaqının sədri olmuşdur. – 181.

**154. Mişlin Kalmi –Rey** (d.1945) – İsveçrə dövlət və siyasi xadimi. 2003–2007-ci illərdə İsveçrənin Xarici İşlər naziri, 2007-ci ildən 2011-ci ilə qədər prezidenti olmuşdur. – 183.

**155. Türkiyə Cümhuriyyəti** – Qərbi Asiyada və Avropanın cənub–şərq kənarında dövlət. Sahəsi 780,6 min km$^2$, əhalisi 76 milyon nəfərdir. İnzibati cəhətdən 67 ilə (vilayətə) bölünür. Paytaxtı Ankara şəhəridir. Dövlət başçısı prezident, Ali qanunvericilik orqanı Türkiyə Böyük Millət Məclisidir. – 185–196, 205,209,288,296,312–317.

**156. Ceyhan –** Aralıq dənizi sahilində liman. 1998-ci il oktyabrın 29-da Azərbaycan, Türkiyə, Gürcüstan, Qazaxıstan, Özbəkistan prezidentləri və ABŞ-ın Energetika naziri Bakı–Tbilisi–Ceyhan marşrutunu müdafiə edən «Ankara bəyannaməsi»ni imzalamışlar. Uzunluğu 1695 km olan Bakı–Tbilisi–Ceyhan neft kəməri 2006-cı ildə istifadəyə verilmişdir. – 185, 186,287.

**157. İraq,** İ r a q  R e s p u b l i k a s ı – Cənub–Qərbi Asiyada – Dəclə və Fərat çayları hövzəsində neft ixrac edən ölkə. Sahəsi 438,3 min km$^2$, əhalisi 22,4 milyon nəfərdir. İnzibati ərazisi 18 mühafazaya bölünür. Dövlət başçısı prezident, hökumət başçısı isə Baş nazirdir. Ölkə ABŞ və NATO ölkələri ilə müharibə vəziyyətində olduğu üçün ali qanunverici orqanı yoxdur. Paytaxtı Bağdaddır. – 186.

**158. Kaliforniya** – ABŞ-ın qərbində ştat. Sahəsi 411 min km$^2$, əhalisi 31,9 milyon nəfərdir. İnzibati mərkəzi – Sakramento. – 192.

**159. Əhməd Necdət Sezər** (d.1941) – 2000–2007-ci illərdə Türkiyə prezidenti. 1962–83-cü illərdə bir sıra məsul vəzifələrdə çalışmışdır, 1998–2000-ci illərdə Türkiyə Konstitusiya Məhkəməsinin sədri olmuşdur. – 193.

**160. Qızılça** – göz və tənəffüs yolları selikli qişasının iltihabı, qızdırma və səpgi ilə xarakterizə olunan kəskin infeksion xəstəlik. Yer kürəsində ən çox yayılmış xəstəlikdir. Qızılçaya yaşından asılı olmayaraq hamı tutula bilər. Başlıca olaraq 3 aylıqdan 4 yaşına qədər uşaqlar xəstələnir. – 201-204.

**161. Məxmərək,** q ı z ı l ç a  m ə x m ə r ə y i – səpgi ilə müşahidə olunan kəskin infeksion xəstəlik. Törədicisi süzülən viruslardır. Xəstəlik hava-damcı yolu ilə yayılır. İnkubasiya dövrü 11–23 gündür. – 201-204

**162. Ü m u m d ü n y a  S ə h i y y ə  T ə ş k i l a t ı** (ÜST)– BMT-yə məxsus beynəlxalq dövlətlərarası təşkilat. 1946-cı ildə yaradılmışdır. Cenevrədə fəaliyyət göstərir. Nizamnaməsinə görə vəzifəsi ən təhlükəli xəstəliklərlə mübarizə, beynəlxalq sanitariya qaydalarının hazırlanması və s.-dir. – 201,202.

**163. YUNİSEF,** BMT–nin U ş a q  F o n d u – 1946-cı ildə təsis edilmişdir (1953-cü ildən indiki adı ilə adlanır). BMT-nin müəssisəsi olub uşaqlar üçün proqramlar üzrə fəaliyyəti əlaqələndirir, başlıca olaraq inkişaf etməkdə olan ölkələrə yardım göstərir. Maliyyə təsisatlarının mənbələrini hökumətlərin könüllü üzvlük haqları, ictimai təşkilatların, xüsusi şəxslərin və başqalarının ianələri təşkil edir. Fondun rəhbər orqanında – İdarə Heyətində 41 dövlət təmsil olunur. Katibliyi Nyu-Yorkda, şöbələri Avropa üzrə Cenevrədə, regionlar üzrə bir sıra inkişaf etməkdə olan ölkələrdə yerləşir. Nobel sülh mükafatı laureatıdır. – 201.

**164. Rino Harniş** – diplomat. 2003–2006-cı illərdə Azərbaycanda ABŞ-ın Fövqəladə və Səlahiyyətli səfiri olmuşdur. – 202.

**165. «Mərmərə» qrupu» Strateji və Sosial Araşdırmalar Vəqfi** – 1985-ci ildə İstanbulda yaradılmışdır. Hazırda 200-dən çox üzvü olan bu qrupa tanınmış sənət və iş adamları, nazirlər və millət vəkilləri daxildirlər. Qrup xarici ölkələrin

prezidentləri, görkəmli dövlət xadimləri, nüfuzlu siyasətçiləri ilə mütəmadi olaraq görüşlər keçirir. – 205.

**166. Akkan Süvər** (d.1942) – Türkiyə jurnalisti. Fəlsəfə elmləri doktoru. «Mərmərə» qrupunun sədridir. – 205.

**167. Ekmələddin İhsanoğlu** (d.1946) – Türkiyə diplomatı, tarix elmləri doktoru, professor. Ana Vətən Partiyasının üzvü. 2005-ci ildən İslam Konfransı Təşkilatının Baş katibidir. – 206.

**168. Ağdam** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1094 $km^2$, əhalisi 154 min nəfər. 1993-cü ildə Ağdam şəhəri və əksər kəndləri erməni qəsbkarları tərəfindən işğal edilmişdir. – 208–219,221,235–241

**169. Əli Həsənov,** Ə l i  Ş a m i l  o ğ l u (d.1948) – mühəndis-mexanik. 1998-ci ildən Azərbaycan Respublikası Baş nazirinin müavini, Qaçqınların və Məcburi Köçkünlərin İşləri üzrə Dövlət Komitəsinin sədridir. 1995–2000-ci illərdə Milli Məclisin üzvü olmuşdur. – 208,213.

**170. Leyla Əliyeva,** L e y l a  İ l h a m  q ı z ı (d.1986) – «Baku» jurnalının Baş redaktoru, Heydər Əliyev Fondunun vitse-prezidenti, Azərbaycan Respublikasının prezidenti İlham Əliyevin və Azərbaycanın birinci xanımı Mehriban Əliyevanın böyük qızı, Heydər Əliyevin nəvəsi. 2006–2008-ci illərdə Leyla Əliyeva Moskva Dövlət Beynəlxalq Əlaqələr İnstitutunun magistraturasında oxumuş və bu institutda oxuyan azərbaycanlı tələbələrin nümayəndəsi kimi fəaliyyət göstərmişdir. Leyla Əliyeva həm də Moskvada Heydər Əliyev Fonduna başçılıq edir. – 209.

**171. Kəlbəcər** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1936 $km^2$, əhalisi 60 min nəfərdir. 1993-cü ildə erməni silahlı qüvvələri tərəfindən işğal edilmişdir. – 209.

**172. Laçın** – Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Sahəsi 1835 km$^2$, əhalisi 65 min nəfərdir. 1992-ci ildə erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 209.

**173. Ağdərə** – Azərbaycan ərazisində (Dağlıq Qarabağ Muxtar Vilayəti) inzibati rayon. Rayon 1930-cu ildə təşkil edilmişdir. 1992-ci ildə Ağdərə rayonu ləğv edilərək ərazisi Tərtər, Ağdam, Kəlbəcər rayonları arasında bölünmüşdür. 1993-cü ildə Ağdərə rayonunu Ağdərə şəhəri və bir çox kəndləri erməni işğalçıları tərəfindən işğal edilmişdir. – 219,222, 231,235.

**174. Səfər Əbiyev,** S ə f ə r A x u n d b a l a o ğ l u (d.1950) – general-polkovnik. 1995–2013-cü illərdə Azərbaycan Respublikasının Müdafiə naziri olmuşdur. – 219.

**175. Akif Əsgərov,** A k i f İ z z ə t u l l a o ğ l u (d.1940) – heykəltəraş. Əməkdar mədəniyyət xadimi. Azərbaycan Dövlət Rəssamlıq Akademiyasının professoru. Xocalı soyqırımı abidəsinin müəllifidir. – 220.

**176. «Əsrin müqaviləsi»** – 1994-cü il sentyabrın 20-də Bakıda «Xəzər dənizinin Azərbaycan sektorunda «Azəri», «Çıraq» yataqlarının dərinlikdə yerləşən hissəsinin birgə işlənilməsi və hasil olunan neftin pay şəklində bölüşdürülməsi» haqqında dünyanın 11 ən iri neft şirkəti ilə bağlanmış müqavilə. – 224.

**177. Zaqatala –** Azərbaycan Respublikasında inzibati rayon. 1930-cu ildə təşkil edilmişdir. Şimal–şərqdə Dağıstanla, cənub–qərbdə Gürcüstanla həmsərhəddir. Sahəsi 1348 km$^2$, əhalisi 109,3 min nəfərdir. – 240.

**178. İrlandiya,** İ r l a n d i y a R e s p u b l i k a s ı – Qərbi Avropada dövlət. Sahəsi 70,3 min km$^2$, əhalisi 3,6 milyon nəfərdir. İnzibati ərazisi 26 qraflığa və 5 şəhər qraflığına bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. Paytaxtı Dublindir. – 242.

**179. Meri Makalis** (d.1951) – İrlandiya siyasi xadimi. 1997-ci ildən İrlandiya prezidenti. 2004-cü ildə yenidən opponentlərsiz prezident seçilmişdir. Meri Makalis İrlandiyanın birləşdirilməsinin ən böyük tərəfdarıdır. – 242.

**180. Namibiya,** N a m i b i y a  R e s p u b l i k a s ı – Cənub–Qərbi Afrikada dövlət. Sahəsi 824,3 min km$^2$, əhalisi 1,7 milyon nəfərdir. İnzibati ərazisi 13 regiona bölünür. Dövlət başçısı prezidentdir. Paytaxtı Vindhuk şəhəridir. – 243.

**181. Hifikepun Pohamba** (d.1935) **–** Namibiya siyasi xadimi. 2005-ci ildən Namibiyanın prezidentidir. – 243.

**182. Tunis,** T u n i s  R e s p u b l i k a s ı – Şimali Afrikada dövlət. Sahəsi 164,2 min km$^2$, əhalisi 9 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunverici hakimiyyət Nümayəndələr palatasına (parlament) məxsusdur. Paytaxtı Tunis şəhəridir. – 244.

**183. Zeynalabidin bin Əli** (d.1936) – Tunis hərbi və dövlət xadimi, general. 1987–2011-ci illərdə Tunis prezidenti. Prezident seçilərkən Zeynalabidin bin Əli öz siyasi proqramını, Tunisdə çiçəklənən, azad, sülhsevər cəmiyyət quracağını vəd etmişdi. – 244.

**184. Pakistan,** P a k i s t a n  İ s l a m  R e s p u b l i k a- s ı – Cənubi Asiyada dövlət. Sahəsi 796 min km$^2$, əhalisi 133,5 milyon nəfərdir. Paytaxtı İslamabad şəhəridir. İnzibati cəhətdən 4 əyalətə və federal paytaxt ərazisinə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı parlamentdir. – 245.

**185. Pərviz Müşərrəf** (d.1943) – 2001–2007-ci illərdə Pakistan Respublikasının prezidenti, ordu generalı. 1988–90 və 1993–96-cı illərdə Pakistanın Baş naziri, 1998-ci ildə Baş Qərargah rəisi olmuşdur. – 245.

**186. Banqladeş,** B a n q l a d e ş X a l q R e s p u b l i- k a s ı – Cənubi Asiyada dövlət. Sahəsi 144 min km$^2$, əhalisi 123 milyon nəfərdir. Millətlər Birliyinə daxildir. İnzibati ərazisi 4 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Dəkkədir. – 246.

**187. İacuddin Əhməd** (d.1931) – Banqladeş siyasi və dövlət xadimi. 2002–2009-cu illərdə Banqladeş prezidenti. –246.

**188. Yunanıstan,** Y u n a n ı s t a n R e s p u b l i k a s ı – Cənubi Avropada dövlət. Sahəsi 132 min km$^2$, əhalisi 10,5 milyon nəfərdir. İnzibati ərazisi 13 vilayətə bölünür. Dövlət başçısı prezident, Ali qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Afinadır. – 248.

**189. Karolos Papulias** (d.1929) – yunan siyasətçisi, 2005-ci ildən Yunanıstanın prezidentidir. – 248.

**190. 8 Mart Beynəlxalq qadınlar günü** – iqtisadi, ictimai və siyasi bərabərlik uğrunda mübarizədə qadınların beynəlxalq həmrəylik günü. Beynəlxalq qadınlar gününün bayram edilməsi Klara Setkinin təklifi ilə 1910-cu ildə sosialist qadınların 2-ci Beynəlxalq konfransında (Kopenhagen) qərara alınmışdı. İlk dəfə bayram 1911-ci ildə bir sıra Avropa ölkələrində keçirilmişdir, Azərbaycanda isə 1917-ci ildən qeyd edilməyə başlanmışdır. – 249.

**191. Yaponiya** – Sakit okeanın Şərqi Asiya sahilləri yaxınlığındakı adalarda dövlət. Sahəsi 372 min km$^2$, əhalisi 126 milyon nəfərdir. İnzibati cəhətdən 47 prefekturaya bölünür. Yaponiya konstitusiyalı monarxiyadır. Paytaxtı Tokio şəhəridir. – 250–308.

**192. Tokio** – Yaponiyanın paytaxtı, ölkənin əsas sənaye-maliyyə mərkəzidir. Tokio IV əsrin ortalarında salınmış (ilk adı Edo), sonralar Tokuqava hakimlərinin iqamətgahına çevrilmişdir. 1869-cu ildə imperator iqamətgahı Kiotadan Edoya

köçürüldü, şəhər Tokio adlandırıldı və Yaponiyanın paytaxtı oldu. – 250–308.

**193. Xankəndi** – Azərbaycan Respublikasında şəhər. Dağlıq Qarabağ Muxtar Vilayətinin mərkəzi. 1990-cı ildən erməni separatçıları tərəfindən işğal edilmişdir. – 258.

**194. Moldova,** M o l d o v a R e s p u b l i k a s ı – Cənub–Şərqi Avropada dövlət. Sahəsi 33,7 min km$^2$, əhalisi 4,36 milyon nəfərdir. İnzibati ərazisi 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı parlamentdir. Paytaxtı Kişinyov şəhəridir. – 258.

**195. Cənubi Osetiya** – Cürcüstan Respublikasının tərkibində Cənubi Osetiya Muxtar Vilayəti. 1922-ci ildə yaradılmışdır. Sahəsi 3,9 min km$^2$, əhalisi 99 min nəfərdir. Mərkəzi Sxinvali şəhəri. – 258.

**196. Abxaziya** – Gürcüstan Respublikasının tərkibində muxtar respublika. 1921-ci ildə təşkil olunmuşdur. Sahəsi 8,6 min km$^2$, əhalisi 501 min nəfərdir. Paytaxtı Suxumi şəhəridir. – 258.

**197. Dnestryanı** – Moldovada Dnestr çayı sahilində tanınmamış bölgə. 1992-ci ildə Dnestryanıda hərbi münaqişə başladı. İyulun ortalarına qədər bir neçə ay davam edən silahlı toqquşmalar zamanı Lebedin komandanı olduğu Rusiyanın 14-cü ordusunun separatçılara yaxından dəstək verməsi nəticəsində Kişinyov sol sahildəki rayonlar üzərində nəzarətini itirdi və Dnestryanı Moldovanın nəzarətindən çıxmış əraziyə çevrildi. – 258.

**198. İpək Yolu**, B ö y ü k İ p ə k Y o l u – beynəlxalq tarixi tranzit-ticarət yolu; eramızdan əvvəl II əsrin sonlarından eramızın XVI əsrinədək fəaliyyət göstərmiş, Çindən Şimali Afrika və İspaniyaya qədər uzanaraq, ayrı-ayrı qolları ilə o zaman dünyanın məlum olan, demək olar ki, bütün ölkələrini birləşdirmişdir.

Əlverişli coğrafi mövqedə yerləşməsi və zəngin maddi sərvətlərə malik olması sayəsində Azərbaycan qədim zamanlardan dünya ölkələri arasında iqtisadi və mədəni əlaqələrdə mühüm yer tutmuşdur.

XX əsrin sonunda Azərbaycan Respublikasının prezidenti Heydər Əliyevin Böyük İpək Yolunun yenidən dirçəldilməsi ideyasını irəli sürməsi bütün dünyada, xüsusilə də Böyük İpək Yolu üstündə yerləşən ölkələrdə ciddi maraqla qarşılandı. Bu məqsədlə 1998-ci ilin sentyabrında Bakıda 33 dövlətin və Avropa Birliyinin iştirakı ilə beynəlxalq konfrans keçirildi; TRASEKA proqramı çərçivəsində nəzərdə tutulan Asiya–Qafqaz–Avropa ticarət dəhlizinin – Böyük İpək Yolunun bərpasının və onun imkanlarından hamılıqla bəhrələnməyin vacibliyi qeyd olundu. – 261,284.

**199. Akihito** (d.1933) – 1989-cu ildən Yaponiya imperatoru. İmperator Hirohitonun oğlu. – 271–272.

**200. «İtoçu» şirkəti –** Yaponiyanın «İtoçu» korporasiyası. 1958-ci ildə yaradılmışdır. Dünyanın 176 ölkəsində şirkətləri və firmaları var. «İtoçu» 1996-cı ilin avqustundan Bakıda fəaliyyət göstərir. – 272,301.

**201. Yaponiya Beynəlxalq Əməkdaşlıq Agentliyi** (CAYKO) – ikitərəfli əlaqələr çərçivəsində əsasən texniki əməkdaşlıq və əvəzsiz yardım proqramları ilə məşğul olan rəsmi orqan kimi, hökumətin strukturuna daxildir. Ölkənin 2 il müddətinə seçilir. Şuranın hər bir üzvü bir səsə malikdir. Prosedura məsələlərinə dair qərarlar Şuranın 9 üzvü səs verdikdə qəbul olunmuş sayılır. – 307.

**209. Stiven Mənn –** amerikan diplomatı. 2001–2009-cu illərdə ABŞ Dövlət katibinin köməkçisi. 2004–2006-cı illərdə ABŞ-dan ATƏT-in Dağlıq Qarabağ üzrə həmsədri. – 309.

**210. Rumıniya –** Cənubi Avropada, Dunayın aşağı hövzəsində dövlət. Sahəsi 237,5 min km$^2$, əhalisi 22,7 milyon nəfərdir. Dövlət başçısı prezident, qanunvericilik orqanı ikipalatalı parlamentdir. Paytaxtı Buxarest şəhəridir. – 310.

**211. Türkiyə Böyük Millət Məclisi** (BMM) – Türkiyənin Ali qanunverici orqanı. Parlament 1920-ci il aprelin 23-də yaradılmışdır. BMM-nin ilk sədri M.K.Atatürk olmuşdur. BMM iki palatadan

ibarətdir: Senat (yuxarı palata) və Milli palata. BMM məclis üzvlərindən respublika prezidentini seçir. –312–317.

**212. Xocalı soyqırımı** – 1992-ci il fevralın 25-dən 26-na keçən gecə erməni silahlı birləşmələri və Xankəndində yerləşən Rusiyanın 366-cı alayının əsgər və zabitləri Xocalıya hər tərəfdən hücum etmiş, şəhəri tamamilə yandırmışlar; 600 nəfərdən artıq azərbaycanlı qəddarcasına öldürülmüş, 150 nəfər itkin düşmüş, yüzlərlə şəhər sakini yaralanmışdır. Dünyanın bir sıra dövlətləri Xocalı soyqırımını tanımışdır. – 313,314.

**213. Türkiyə Ədalət və İnkişaf Partiyası** (Adelet və Kalkinma Partisi) – hal-hazırda Türkiyədə hakimiyyətdə olan partiya. 2002-ci ildə Rəcəb Tayyib Ərdoğan və Abdullah Gül tərəfindən yaradılmışdır. –313,314.

**214. Yeni Azərbaycan Partiyası** (YAP) – Azərbaycanda ən kütləvi siyasi partiya. YAP 1992-ci il noyabrın 21-də Naxçıvan şəhərində təsis edilib. 81 rayon və 5 minə yaxın ilk partiya təşkilatı var. Partiyada Gənclər Birliyi və Qadın Şurası fəaliyyət göstərir. Parlamentdə 73 deputatla təmsil olunur. YAP Azərbaycanın dövlət müstəqilliyinin daha da möhkəmləndirilməsində, ölkəmizdə demokratik, hüquqi və dünyəvi dövlət qurulmasında və iqtisadi-siyasi islahatların həyata keçirilməsində fəal iştirak edir. YAP ölkəmizin ictimai-siyasi həyatında aparıcı qüvvədir. YAP-ın təsis konfransında (1992) mərhum prezidentimiz Heydər Əliyev yekdilliklə partiyanın sədri seçilmişdi. 2005-ci il mart ayından isə YAP-ın sədri prezident İlham Əliyevdir. – 314.

**215. Nazim İbrahimov,** N a z i m H ü s e y n o ğ l u (d.1963) – mühəndis mexanik. 2000–2005-ci illərdə Milli Məclisin deputatı. 1997–1999-cu illərdə Azərbaycan Respublikasının Ukraynada Fövqəladə və Səlahiyyətli səfiri, 2002-ci ildən isə Azərbaycan Respublikası Xarici Ölkələrdə Yaşayan Azərbaycanlılarla İş üzrə Dövlət Komitəsinin sədridir. – 314.

**216. Ana Vətən Partiyası** (Türkiyə) – Türkiyə Cümhuriyyətinin 8-ci prezidenti Türqut Özal (1989–93) tərəfindən 1983-cü ildə yaradılmışdır. – 314.

**217. Litva,** L i t v a  R e s p u b l i k a s ı – Şərqi Avropada – Pribaltikada dövlət. Sahəsi 65,2 min km$^2$, əhalisi 3797 min nəfərdir. İnzibati ərazisi 44 rayona bölünür və respublika tabeçiliyinə 11 şəhər daxildir. Dövlət başçısı prezident, qanunverici orqanı birpalatalı Seymdir. Paytaxtı Vilnüsdür. – 318.

**218. Çexiya,** Ç e x i y a  R e s p u b l i k a s ı – Mərkəzi Avropada dövlət. Sahəsi 78,9 min km$^2$, əhalisi 10,3 milyon nəfərdir. İnzibati cəhətdən 7 vilayətə bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı ikipalatalı (Senat və Deputatlar Palatası) parlamentdir. Paytaxtı Praqadır. 1993-cü ildən Çexoslovakiya Federasiyasının fəaliyyəti dayandırıldıqdan sonra Çexiya müstəqil dövlətdir. –319.

**219. Qırğızıstan,** Q ı r ğ ı z ı s t a n  R e s p u b l i k a s ı – Orta Asiyanın şimal–şərqində dövlət. Sahəsi 198,5 min km$^2$, əhalisi 4526 min nəfərdir. İnzibati ərazisi 6 vilayətə, 40 rayona bölünür. Dövlət başçısı prezident, qanunverici orqanı parlamentdir. Paytaxtı Bişkekdir. – 320.

**220. Kurmanbek Bakıyev** (d.1949) – Qırğızıstan siyasi və dövlət xadimi, «Qırğızıstan xalq hərəkatı» blokunun lideri, 2005–2010-cu illərdə Qırğızıstan Respublikasının prezidenti olmuşdur. Hazırda Belarusda siyasi mühacirdir. – 320.

ən nüfuzlu qurumlarından sayılan CAYKO yüksək ixtisaslı ekspertlərin köməyi ilə əməkdaşlıq əlaqələrinin genişləndirilməsinə xüsusi diqqət verir. – 273.

**202. Bakı Dövlət Universiteti** (BDU) – Azərbaycanda elmi-pedaqoji kadrlar hazırlayan ən böyük ali təhsil ocağı, elmi-tədqiqat müəssisəsi. 1919-cu ildə yaradılmışdır. İlk vaxtlar tibb və tarix–filologiya fakültələri fəaliyyət göstərmişdir. Hazırda BDU-nun 17 fakültəsi, onlarla kafedrası, elmi-tədqiqat laboratoriyası və s. var. Universitetdə 55 ixtisas üzrə 18 minə yaxın tələbə təhsil alır. – 281.

**203. Yaponiya Xarici Ticarət Təşkilatı** (JETRO) – 1958-ci ildə yaradılmış qeyri-kommersiya təşkilatıdır və höku-

mətin himayəsi altında fəaliyyət göstərir. Əsas vəzifəsi beynəlxalq ticarətin ahəngdar inkişafına nail olmaq üçün xarici ölkələrlə ticarət əlaqələrini möhkəmləndirməkdir. CETRO-nun təklif etdiyi informasiya və xidmətlər pulsuzdur və maraqlanan bütün şəxslər, şirkətlər, təşkilatlar bunlardan istifadə edə bilərlər. – 283–284.

**204. Taro Aso** (d.1940) **–** Yaponiya dövlət və siyasi xadimi. 2005–2007-ci illərdə Yaponiyanın Xarici İşlər naziri olmuşdur. – 285–286.

**205 ABŞ Dövlət Departamenti** – ABŞ-da 1789-cu ildən Xarici İşlər Nazirliyi funksiyasını həyata keçirən əsas xarici siyasət idarəsi. Dövlət katibi başçılıq edir, prezidentin və Konqresin hazırladığı xarici siyasi xətti həyata keçirir. – 294.

**206. Corc Buş** (d.1946) – ABŞ-ın 43-cü prezidenti (2000–2008-ci illər). ABŞ-ın 41-ci prezidenti Corc Herbert Buşun oğludur. 1968-ci ildə Yel universitetini (incəsənət, tarix bakalavrı), 1975-ci ildə isə Harvard universitetini (incəsənət magistri) bitirmişdir. «Speaktrum-7 Enerci Korporeyşn» firmasının yaradıcısıdır. 1994-cü ildən Texas ştatının qubernatoru olmuşdur. – 295.

**207. Dzünitiro Koidzumı** (d.1942) – 2001–2006-cı illərdə Yaponiyanın Baş naziri olmuşdur. – 304–305,306,307,308.

**208. Birləşmiş Millətlər Təşkilatının Təhlükəsizlik Şurası** (BMTTŞ) – BMT-nin daimi fəaliyyət göstərən mühüm orqanı. BMT-nin Nizamnaməsinə görə, beynəlxalq sülhün və təhlükəsizliyin qorunmasında əsas məsuliyyət daşıyır. 15 üzvü var: 5 daimi (Çin, Fransa, Rusiya, Böyük Britaniya, ABŞ), 10 üzvü isə

## Şəxsi adlar göstəricisi

**Abdullayev Rövnəq** – 25–38,40–45
**Abe Tadahiro** – 250
**Abutalıbov Hacıbala** – 25–38,58–73,148
**Akdəmir Dursun** – 312–317
**Akihito** – 271–272
**Araito** – 265
**Artantaş Vüsel** – 312–317
**Aso Taro** – 285–286
**Atanasiu Teodor** – 310
**Bakıyev Kurmanbek** – 320
**Barşoni Andraş** – 24
**Berggren Bruno** – 105
**Bin Əli Zeynalabidin** – 244
**Bolkiah Hacı Həssənal** – 129
**Brezinan Jan** – 319
**Buş Corc** – 295
**Cabir əs-Sabah** – 74,128
**Cahangir Asma** – 207
**Cammeh Yəhya** – 117
**Caparidze Tedo** – 126
**Dane Mişel** – 100–102
**De Quxt Karel** – 55
**Dişli Şaban** – 312–317
**Erentok Əhməd** – 194
**Əbiyev Səfər** – 219
**Əhməd İacuddin** – 246
**Əhmədinejad Mahmud** – 115
**Əl-Xəlifə Həməd Bin İsa** – 20
**Əl-Xəlifə Həməd Feysal** – 20
**Əl-Məktum Məhəmməd** – 15
**Əl-Məktum bin Rəşid** –14
**Əs-Sabah Saad əl-Abdulla** – 21
**Əs-Sabah Cabir əl-Əhməd** – 21
**Əliyev Heydər** – 6,11,44,49,83,84,101,111, 127, 133,148,160,161,162,179,184,

186,209,210,212,213,219,221,
224,227,228,232,252,253,254,
271,285,301
**Əliyev Muxu** – 147
**Əliyev Natiq** – 25–38
**Əliyev Şakir** – 210
**Əliyeva Leyla** – 209
**Əliyeva Mehriban** – 127,145,209,211,212,219,
250,251,271–272
**Əliyeva Zərifə** – 148,156
**Əsgərov Akif** – 220
**Fucivara Toşiyuki** – 251–281–282
**Frid Daniel** – 311
**Göyüşov Şakir** – 158
**Hacıyev Cövdət** – 145
**Halonen Tarya** – 75
**Harniş Rino** – 202
**Harper Stiven** – 76
**Heydərov Kəmaləddin** – 102
**Həsənov Əli** – 208,213
**Həsənov Yaşar** – 25–38
**Hüseynov Azər** – 250,282
**Xamenei Seyid Əli** – 116
**Xələfov Xələf** – 148
**Xəlifə bin Zaid** – 14
**İbrahimov Nazim** – 314
**İdris Kamil** – 247
**İhsanoğlu Ekmələddin** – 206
**İqnatenko Vitali** – 156

**İlyasov Sabir** – 25–38
**İnaişvili Cemal** – 103
**İpək Haluk** – 312–317
**İsa (əleyhüssəlam)** – 16
**İvanov Sergey** – 46–47
**Jerixov Aleksandr** – 102
**Jilin Sergey** – 155
**Kaçinski Lex** – 77
**Kalmi-Rey Mişlin** – 183

**Katsav Moşe** – 124
**Kensi Osaka** – 264
**Kinax Anatoli** – 97
**Klark Helen** – 53
**Koidzumi Dzünitiro** – 304–305,306,307,308
**Kobeskayten Halina** – 318
**Köçəryan Robert** – 122,189
**Köler Horst** – 95
**Kuçma Leonid** – 127
**Kufuor Con** – 181
**Qarayev Qara** – 145
**Qubkin İvan** – 150
**Quliyev Ramiz** – 50
**Lixaçov Dmitri** – 152
**Maçkevir Aleksandr** – 125
**Makalis Meri** – 242
**Marlen Əsgərov** – 25–38
**Maroviç Svetozor** – 39
**Matsuo Kunihiko** – 302
**Matsuyev Denis** – 155
**Məlikov Əlixan** – 25–38
**Məmmədov Ziya** – 58–73
**Məmmədyarov Elmar** – 148
**Mənn Stiven** – 309
**Miçiko** – 271
**Mircavadov Ağasəlim** – 40–45
**Mirzəyev Ramiz** – 40–45
**Morozov Sergey** – 184
**Musayev Məhəmməd** –158
**Mübarək Hüsnü** – 114
**Müşərrəf Pərviz** – 245
**Nac Yanoş** – 102
**Nağdəliyev Zeynal** – 25–38,238,239
**Niva İçihiro** – 301
**Noskov Nikolay** – 155
**Oqata Sadako** – 273
**Pacapakse Mahinda** – 52
**Papulias Karolos** – 248
**Permyakova Aleksandra**– 155

**Pənahov Həsən** – 221
**Pirvanov Georgi** – 180
**Pohamba Hifikepun** – 243
**Polli Gert-Rene** – 54
**Putin Vladimir** – 46,47,102,148–179,182,289
**Rasizadə Artur** – 25–38,148
**Rau Yohannes** – 95
**Rays Kondoliza** – 124
**Rostropoviç Mstislav** – 145,201–204
**Rüytel Arnold** – 130
**Saakaşvili Mixeil** – 27,103,173
**Sarıqulov Dastan** – 320
**Sezər Əhməd Necdət** – 193
**Silva Anabal** – 23
**Sinozava Kyuozuke** – 303
**Süvər Akkan** – 205
**Şirak Jak** – 120,121
**Şostakoviç Dmitri** – 145–146,204
**Takahaşi Yoşitada** – 274–280
**Talvitiye Heyki** – 57
**Tanner Harold** – 123–125
**Uaddams Alan** – 56
**Uold Çarlz** – 22
**Usubov Ramil** – 58–73
**Valdner Benita** – 131
**Vatanabe Osamu** – 283–284
**Vato Yukio** – 251,264,270

## Coğrafi adlar göstəricisi


**Abxaziya** – 258
**Ağcabədi** – 208
**Ağdam** – 208–219,221,235–241
**Ağdərə** – 219,222,231,235
**Ağsu** – 29
**Almaniya** – 33,64,95
**Amerika Birləşmiş Ştatları** – 22,123–125,259,289,290, 291,311
**Aralıq dənizi** – 265,288
**Asiya** – 84,136,261
**Astara** – 29,33,104–113
**Avrasiya** – 311
**Avropa** – 24,84,85,98,100,102,136, 186,187,188,193,195,261,290, 292,311,316
**Avstriya** – 54
**Bakı** – 8,23,24,25,27,28,30,31,32, 33,34,35,48,52,53,58–73,74, 75,76,77,90,91,95,99,100,102,1 07,114,115,116,128,129,130, 134,148,152,180,181,182,197– 200,201,214,236,242,243,244, 245,246,248,250,251,282,287
**Balkan** (*yarımada*) – 44
**Banqladeş** – 246
**Belçika** – 55
**Beyləqan** – 29
**Bəhreyn** – 20
**Bənövşələr** (*qəsəbə*) – 209,210,212–218
**Bərdə** – 29,208,227–241
**Binəqədi** – 64
**Birləşmiş Ərəb Əmirlikləri** – 14,15

**Bolqarıstan** – 180
**Bosfor** (*boğaz)* – 289
**Bruney** – 129
**Brüssel** – 57
**Budapeşt** – 24
**Ceyhan** – 185,186,287
**Cənubi Qafqaz** – 57,173
**Cənubi Osetiya** – 258
**Çexiya** – 319
**Çelyabinsk** – 157
**Dağıstan** – 147
**Dağlıq Qarabağ** – 5,11,49,55,79,80,87,88,89, 96,121,122,160,163,165,168, 170,173,189,189,190,191,192, 210,215,216,217,222,223,230, 231,257,258,259,266,267,286, 305,308,309,314
**Dnestryanı** – 258
**Estoniya** – 130
**Əli Bayramlı** – 35,93
**Əmircan** – 64
**Findandiya** – 75,104
**Fransa** – 118–122,192,252,257,259
**Gəncə** – 30,36,240
**Gürcüstan** – 27,30,36,103,172,173,187, 192,193, 265,288
**Həştərxan** – 157
**Hövsan** – 32
**Xaçmaz** – 107,236
**Xankəndi** – 258
**Xəzər dənizi** – 150,254,260,261,275,286, 288,302
**Xırdalan** – 64
**Xızı** – 29
**Xocalı** – 313,314

**İgdır** – 314
**İraq** – 186
**İran** – 35,115,116,171,292
**İrlandiya** – 242
**İsrail** – 124
**İstanbul** – 59
**İsveçrə** – 104,183
**Kabarda-Balkariya** – 157
**Kaliforniya** – 192
**Kanada** – 76
**Kazan** – 151
**Keşlə** – 67
**Kəlbəcər** – 209
**Kipr** – 191
**Krasnodar** – 192
**Kurqan** – 157
**Küveyt** – 20,74,128
**Qafqaz** – 160,168,187,201,267,273,283
**Qambiya** – 117
**Qana** – 181
**Qara dəniz** – 265,288,289
**Qardabani** – 36
**Qazax** – 240
**Qazaxıstan** – 287
**Quzanlı** (*qəsəbə)* – 209,210
**Qırmızı dəniz** – 114
**Quba** – 125,240
**Qırğızıstan** – 320
**Laçın** – 209
**Lerik** – 108
**Lənkəran** – 50,104–113
**Litva** – 318
**London** – 59
**Lökbatan** – 64
**Macarıstan** – 24,102

**Masallı** – 29
**Maştağa** – 64
**Mehdiabad** – 64
**Məmmədli** – 64
**Mərkəzi Almaniya** – 113
**Mərkəzi Asiya** – 293
**Misir** – 114
**Mingəçevir** – 34,92
**Moldova** – 199,258
**Mordoviya** – 157
**Moskva** – 40,45,59,151,157,158,170, 171,177,182
**Naxçıvan** – 35,36,107,236,314
**Naqano** – 301
**Namibiya** – 243
**Nyu-York** – 59
**Omsk** – 157
**Orta Asiya** – 193,267
**Pakistan** – 245
**Paris** – 118–122,189
**Penza** – 157
**Podqoritsa** – 39
**Polşa** – 77
**Portuqaliya** – 23
Praqa – 6,12
**Ramana** – 64
**Rumıniya** – 310
**Rusiya** – 35,46–47,102,148–179,182, 184,192,239,257,259,265,288, 289,290,291
**Sabunçu** – 64
**Sankt-Peterburq** – 157,177
**Saratov** – 157
**Serbiya və Çernoqoriya** – 39
**Sibir** – 150

**Soltanbud** – 218–219
**Stavropol** – 157
**Sumqayıt** – 33,35,92,108
**Sverdlovsk** – 157
**Şamaxı** – 29
**Şəki** – 107,236
**Şri-Lanka** – 52
**Tatarıstan** – 157
**Tbilisi** – 36
**Tərtər** – 220–226
**Tokio** – 250–308
**Tunis** – 244
**Türkiyə** –185–196,205,209,288,296, 312–317
**Ukrayna** – 97,127,293
**Ulyanovsk** – 157,158,184
**Vaşinqton** – 124
**Yaxın Şərq** – 186
**Yaponiya** – 250–308
**Yeni Suraxanı** – 64
**Yeni Zelandiya** – 53
**Yunanıstan** – 248
**Zabrat** – 64
**Zaqatala** – 240

# MÜNDƏRİCAT

DÜNYA AZƏRBAYCANLILARININ HƏMRƏYLİYİ GÜNÜ VƏ YENİ İL MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*31 dekabr 2005-ci il*.......................................................................................... 5

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ KEÇİRİLMİŞ TƏHLÜKƏSİZLİK ŞURASININ İCLASINDA NİTQ

*2 yanvar 2006-cı il*.......................................................................................... 11

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN PREZİDENTİ, ƏLAHƏZRƏT ŞEYX XƏLİFƏ BİN ZAİD ƏL-NƏHƏYYANA

*4 yanvar 2006-cı il*.......................................................................................... 14

BİRLƏŞMİŞ ƏRƏB ƏMİRLİKLƏRİNİN MÜDAFİƏ NAZİRİ, DUBAY ƏMİRLİYİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX MƏHƏMMƏD BİN RƏŞİD ƏL-MƏKTUMA

*4 yanvar 2006-cı il*.......................................................................................... 15

MİLAD BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCANIN PRAVOSLAV XRİSTİAN İCMASINA TƏBRİK

*5 yanvar 2006-ci il*.......................................................................................... 16

QURBAN BAYRAMI MÜNASİBƏTİLƏ AZƏRBAYCAN XALQINA TƏBRİK

*9 yanvar 2006-ci il*.......................................................................................... 18

BƏHREYNIN KRALI ƏLAHƏZRƏT ŞEYX HƏMƏD BİN İSA ƏL-XƏLİFƏYƏ

*14 yanvar 2006-ci il*.......................................................................................... 20

KÜVEYT DÖVLƏTİNİN VƏLİƏHDİ ƏLAHƏZRƏT ŞEYX SAAD ƏL-ABDULLA ƏS-SALİM ƏS-SABAHA

*15 yanvar 2006-cı il*.......................................................................................... 21

ABŞ AVROPA KOMANDANLIĞININ KOMANDAN MÜAVİNİ GENERAL ÇARLZ UOLDUN RƏHBƏRLİK ETDİYİ

NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*19 yanvar 2006-cı il* ........................................................................................ *22*

PORTUQALİYA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB ANİBAL KAVAKU SİLVAYA

*23 yanvar 2006-cı il* ........................................................................................ *23*

MACARISTAN XARİCİ İŞLƏR NAZİRLİYİNİN SİYASİ MƏSƏLƏLƏR ÜZRƏ
DÖVLƏT KATİBİ ANDRAŞ BARŞONİNİN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*23 yanvar 2006-cı il* ........................................................................................ *24*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ ÖLKƏMİZDƏ
HAVALARIN KƏSKİN ŞƏKİLDƏ PİSLƏŞMƏSİ İLƏ ƏLAQƏDAR YARANAN
PROBLEMLƏRİN
HƏLLİNƏ AİD KEÇİRİLMİŞ MÜŞAVİRƏDƏ NİTQ

*24 yanvar 2006-cı il* ........................................................................................ *25*

SERBİYA VƏ ÇERNOQORİYANIN PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏHAB SVETOZOR MAROVİÇƏ

*24  yanvar 2006-cı il* ........................................................................................ *39*

«NEFTÇİ» FUTBOL KLUBUNUN RƏHBƏRLƏRİ VƏ ÜZVLƏRİ İLƏ GÖRÜŞ

*24 yanvar 2006-cı il* ........................................................................................ *40*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV RUSİYA HÖKUMƏTİ SƏDRİNİN
MÜAVİNİ, MÜDAFİƏ NAZİRİ SERGEY İVANOVUN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

*25 yanvar 2006-cı il* ........................................................................................ *46*

BAKININ QIŞ MƏNZƏRƏSİ İLƏ YAXINDAN TANIŞ OLMASI, PAYTAXTIN
MÜXTƏLİF YERLƏRİNDƏ SAKİNLƏRLƏ GÖRÜŞMƏSİ, ONLARIN
QAYĞILARI İLƏ MARAQLANMASI

*25 yanvar 2006-cı il* ........................................................................................ *48*

ŞRİ-LANKA DEMOKRATİK SOSİALİST RESPUBLİKASININ
PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB MAHİNDA RACAPAKSEYƏ

*25 yanvar 2006-cı il* ........................................................................................ *52*
YENİ ZELANDİYANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
XANIM HELEN KLARKA

*25 yanvar 2006-cı il*............................................................................................ *53*

AVSTRİYANIN DÖVLƏTİN QORUNMASİ VƏ TERRORİZMƏ
QARŞI MÜBARİZƏ ÜZRƏ FEDERAL AGENTLİYİNİN DİREKTORU
GERT-RENE POLLİ İLƏ GÖRÜŞ

*25 yanvar 2006-cı il*............................................................................................ *54*

ATƏT-in FƏALİYYƏTDƏ OLAN SƏDRİ, BELÇİKA KRALLIĞININ
XARİCİ İŞLƏR NAZİRİ KAREL DE QUXTUN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*25 yanvar 2006-cı il*............................................................................................ *55*

AVROPA KOMİSSİYASININ ÖLKƏMİZDƏ YENİ TƏYİN OLUNMUŞ XÜSUSİ
ELÇİSİ ALAN UADDAMS İLƏ GÖRÜŞDƏ SÖHBƏT

*26 yanvar 2006-cı il*............................................................................................ *56*

AVROPA İTTİFAQININ CƏNUBİ QAFQAZ ÜZRƏ NÜMAYƏNDƏSİ HEYKİ
TALVİTİYEN İLƏ GÖRÜŞ

*26 yanvar 2006-cı il*............................................................................................ *57*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ
BAKI ŞƏHƏRİNDƏ YOL HƏRƏKƏTİ VƏ NƏQLİYYAT SİSTEMİNİN
VƏZİYYƏTİNƏ, İNKİŞAF PERSPEKTİVLƏRİNƏ HƏSR OLUNMUŞ
MÜŞAVİRƏDƏ NİTQ

*27 yanvar 2006-cı il*............................................................................................ *58*

YEKUN NİTQİ ............................................................................................ *72*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT ŞEYX SABAH
ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*30 yanvar 2006-cı il*............................................................................................ *74*

FİNLANDİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ XANIM TARYA HALONENƏ

*30 yanvar 2006-cı il*............................................................................................ *75*

KANADANIN BAŞ NAZİRİ ZATİ-ALİLƏRİ
CƏNAB STİVEN HARPERƏ

*30 yanvar 2006-cı il*............................................................................................ *76*
POLŞA RESPUBLİKASININ PREZİDENTİ

ZATİ-ALİLƏRİ CƏNAB LEX KAÇİNSKİYƏ

*30 yanvar 2006-cı il*............................................................................................. *77*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ
2005-ci İLİN SOSİAL-İQTİSADİ YEKUNLARINA
HƏSR OLUNMUŞ İCLASDA NİTQ

*31 yanvar 2006-cı il*............................................................................................. *78*

YEKUN NİTQİ ........................................................................................................ *84*

ALMANİYA FEDERATİV RESPUBLİKASININ FEDERAL PREZİDENTİ ZATİ-ALİLƏRİ CƏNAB HORST KÖLERƏ

*1 fevral 2006-cı il*.................................................................................................. *95*

ATƏT-in MİNSK QRUPUNUN HƏMSƏDRLƏRİ İLƏ GÖRÜŞ

*1 fevral 2006-cı il*.................................................................................................. *96*

UKRAYNANIN MİLLİ TƏHLÜKƏSİZLİK VƏ MÜDAFİƏ ŞURASININ KATİBİ
ANATOLİ KİNAXIN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*1 fevral 2006-cı il*.................................................................................................. *97*

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARINA

*1 fevral 2006-cı il*.................................................................................................. *98*

ÜMUMDÜNYA GÖMRÜK TƏŞKİLATI AVROPA REGİONU GÖMRÜK XİDMƏTİ RƏHBƏRLƏRİ BEYNƏLXALQ KONFRANSININ İŞTİRAKÇILARI İLƏ GÖRÜŞ

*2 fevral 2006-cı il*................................................................................................ *100*

GÜRCÜSTAN PARLAMENTİ SƏDRİNİN MÜAVİNİ,
TİCARƏT VƏ SƏNAYE PALATASININ PREZİDENTİ
CEMAL İNAİŞVİLİNİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*2 fevral 2006-cı il*................................................................................................ *103*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ASTARA VƏ LƏNKƏRAN RAYONLARINA SƏFƏRİ

*3 fevral 2006-cı il*................................................................................................ *104*

ASTARADA MODUL TİPLİ ELEKTRİK STANSİYASININ AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*3 fevral 2006-cı il*.......................................................................................... *106*

LƏNKƏRAN MÜALİCƏ-DİAQNOSTİKA MƏRKƏZİNİN
TİKİNTİSİ İLƏ TANIŞLIQ

*3 fevral 2006-cı il*.......................................................................................... *113*

MİSİR ƏRƏB RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MƏHƏMMƏD HÜSNÜ MÜBARƏKƏ

*4 fevral 2006-cı il*.......................................................................................... *114*

İRAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB MAHMUD ƏHMƏDİNEJADA

*6 fevral 2006-cı il*.......................................................................................... *115*

İRAN İSLAM RESPUBLİKASININ ALİ RƏHBƏRİ
AYƏTULLAH SEYİD ƏLİ XAMENEİ HƏZRƏTLƏRİNƏ

*6 fevral 2006-cı il*.......................................................................................... *116*

QAMBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB YƏHYA CAMMEHƏ

*8 fevral 2006-cı il*.......................................................................................... *117*

AZƏRBAYCAN RESPUBLİKASININ PREZİDENTİ
İLHAM ƏLİYEVİN FRANSAYA İŞGÜZAR SƏFƏRİ

*9 fevral 2006-cı il*.......................................................................................... *118*

FRANSANIN «TOTAL» ŞİRKƏTİNİN PREZİDENTİ İLƏ GÖRÜŞ

*9 fevral 2006-cı il*.......................................................................................... *119*

YELİSEY SARAYINDA RƏSMİ QARŞILANMA MƏRASİMİ

*10 fevral 2006-cı il*........................................................................................ *120*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
VƏ FRANSA PREZİDENTİ JAK ŞİRAKIN TƏKBƏTƏK GÖRÜŞÜ

*10 fevral 2006-cı il*........................................................................................ *121*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ ERMƏNİSTAN
PREZİDENTİ ROBERT KÖÇƏRYANIN ATƏT-in MİNSK QRUPU
HƏMSƏDRLƏRİNİN İŞTİRAKI İLƏ GÖRÜŞÜ

*10 fevral 2006-cı il*.......................................................................................... *122*

ABŞ-ın APARICI YƏHUDİ TƏŞKİLATLARI SƏDRLƏRİ
KONFRANSININ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*13 fevral 2006-cı il*.......................................................................................... *123*

QARA DƏNİZ İQTİSADİ ƏMƏKDAŞLIQ TƏŞKİLATININ BAŞ KATİBİ
TEDO CAPARİDZE İLƏ GÖRÜŞ

*14 fevral 2006-cı il*.......................................................................................... *126*

«UKRAYNA» FONDUNUN SƏDRİ LEONİD KUÇMA İLƏ GÖRÜŞ

*14 fevral 2006-cı il*.......................................................................................... *127*

KÜVEYT DÖVLƏTİNİN ƏMİRİ ƏLAHƏZRƏT
ŞEYX SABAH ƏL-ƏHMƏD ƏL-CABİR ƏS-SABAHA

*14 fevral 2006-cı il*.......................................................................................... *128*

BRUNEY DƏRÜSSALAMIN SULTANI ƏLAHƏZRƏT
HACI HƏSSƏNAL BOLKİAHA

*14 fevral 2006-cı il*.......................................................................................... *129*

ESTONİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ ARNOLD RÜYTELƏ

*14 fevral 2006-cı il*.......................................................................................... *130*

AVROPA KOMİSSİYASININ ÜZVÜ, AVROPA KOMİSSİYASININ
XARİCİ ƏLAQƏLƏR VƏ AVROPA QONŞULUQ SİYASƏTİ
ÜZRƏ KOMİSSARI XANIM BENİTA FERRERO VALDNERİ
İLƏ GÖRÜŞ

*16 fevral 2006-cı il*.......................................................................................... *131*

REGİONLARIN SOSİAL-İQTİSADİ İNKİŞAFI DÖVLƏT PROQRAMININ 2-ci
İLİNƏ HƏSR OLUNMUŞ KONFRANSDA NİTQ

*17 fevral 2006-cı il*.......................................................................................... *132*

YEKUN NİTQİ .......................................................................................... *137*

DAHİ BƏSTƏKAR DMİTRİ ŞOSTAKOVİÇİN 100 İLLİK YUBİLEYİNƏ HƏSR
OLUNMUŞ BEYNƏLXALQ FESTİVALIN TƏNTƏNƏLİ
AÇILIŞ MƏRASİMİ

20 fevral 2006-cı il........................................................................................ 145

DAĞISTAN RESPUBLİKASININ PREZİDENTİ
CƏNAB MUXU ƏLİYEVƏ

*21 fevral 2006-ci il........................................................................................ 147*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ VLADİMİR PUTİNİN
AZƏRBAYCANA SƏFƏRİ

*21 fevral 2006-cı il........................................................................................ 148*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ
RUSİYA PREZİDENTİ VLADİMİR PUTİNİN GÖRÜŞÜ

*21 fevral 2006-cı il........................................................................................ 149*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV VƏ RUSİYA PREZİDENTİ
VLADİMİR PUTİN RUSİYA MİLLİ SƏRGİSİNDƏ

*21 fevral 2006-cı il........................................................................................ 157*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN ADINDAN RUSİYA
PREZİDENTİ VLADİMİR PUTİNİN ŞƏRƏFİNƏ TƏŞKİL EDİLMİŞ QƏBULDA
NİTQ

*21 fevral 2006-cı il........................................................................................ 159*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ
VLADİMİR PUTİNİN TƏKBƏTƏK GÖRÜŞÜ

*22 fevral 2006-cı il........................................................................................ 164*

SƏNƏDLƏRİN İMZALANMASI MƏRASİMİNDƏN SONRA AZƏRBAYCAN
PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ RUSİYA PREZİDENTİ VLADİMİR
PUTİNİN BİRGƏ MƏTBUAT
KONFRANSI VƏ JURNALİSTLƏRİN SUALLARINA CAVAB

*22 fevral 2006-cı il........................................................................................ 167*

BOLQARISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB GEORGİ PİRVANOVA

*23 fevral 2006-cı il........................................................................................ 180*

QANA RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB CON KOFİ AGİYEKUM KUFUORA

*23 fevral 2006-cı il*............................................................................................ *182*

RUSİYA FEDERASİYASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB VLADİMİR PUTİNƏ

*23 fevral 2006-cı il*............................................................................................ *183*

İSVEÇRƏNİN FEDERAL XARİCİ İŞLƏR NAZİRİ
MİŞLİN KALMİ-REYİN RƏHBƏRLİK ETDİYİ
NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*23 fevral 2006-cı il*............................................................................................ *183*

RUSİYA FEDERASİYASININ ULYANOVSK VİLAYƏTİNİN QUBERNATORU
SERGEY MOROZOVUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

*23 fevral 2006-cı il*............................................................................................ *184*

TÜRKİYƏNİN NTV TELEVİZİYASINA MÜSAHİBƏ

*24 fevral 2006-cı il*............................................................................................ *185*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ
BAKININ VƏ ŞƏHƏRƏTRAFI QƏSƏBƏLƏRİN SOSİAL-İQTİSADİ İNKİŞAFINA
HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*27 fevral 2006-cı il*............................................................................................ *197*

YEKUN NİTQİ ..................................................................................................... *199*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEV QIZILCA VƏ MƏXMƏRƏYƏ
QARŞI MİLLİ İMMUNLAŞDIRMA KAMPANİYASINA BAŞLANMASI
MƏRASİMİNDƏ

*27 fevral 2006-cı il*............................................................................................ *201*

MƏRMƏRƏ QRUPU VƏQFİNİN SƏDRİ
AKKAN SUVERİ İLƏ GÖRÜŞ

*27 fevral 2006-cı il*............................................................................................ *205*

İSLAM KONFRANSI TƏŞKİLATININ BAŞ KATİBİ EKMƏLƏDDİN
İHSANOĞLUNUN RƏHBƏRLİK ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ
İLƏ GÖRÜŞ

*28 fevral 2006-cı il*............................................................................................ *206*
BMT-nin İNSAN HÜQUQLARI KOMİSSİYASININ DİN VƏ ƏQİDƏ AZADLIĞI
ÜZRƏ XÜSUSİ MƏRUZƏÇİSİ XANIM ASMA CAHANGİR İLƏ GÖRÜŞ

*28 fevral 2006-cı il* ...... *207*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
AĞDAM, TƏRTƏR VƏ BƏRDƏ RAYONLARINA SƏFƏRİ

*1 mart 2006-cı il* ...... *208*

AĞDAM RAYONUNA SƏFƏRİ ÇƏRÇİVƏSİNDƏ
YENİ SALINMIŞ «BƏNÖVŞƏLƏR» QƏSƏBƏSİNİN TƏNTƏNƏLİ
AÇILIŞ MƏRASİMİNDƏ NİTQ

*1 mart 2006-cı il* ...... *212*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
TƏRTƏR RAYONUNA SƏFƏRİ

*1 mart 2006-cı il* ...... *220*

TƏRTƏR RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞDƏ NİTQ

*1 mart 2006-cı il* ...... *221*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN BƏRDƏ
RAYONUNA SƏFƏRİ

*1 mart 2006-cı il* ...... *227*

BƏRDƏ RAYONU İCTİMAİYYƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ
GÖRÜŞDƏ NİTQ

*1 mart 2006-cı il* ...... *228*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN SƏDRLİYİ İLƏ
BƏRDƏ, AĞDAM VƏ TƏRTƏR RAYONLARININ SOSİAL-İQTİSADİ
İNKİŞAFINA HƏSR OLUNMUŞ MÜŞAVİRƏDƏ NİTQ

*1 mart 2006-cı il* ...... *235*

YEKUN NİTQİ ...... *237*

İRLANDİYANIN PREZİDENTİ ZATİ-ALİLƏRİ
XANIM MERİ MAKALİSƏ

*3 mart 2006-cı il* ...... *242*

NAMİBİYA RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB HİFİKEPUNYƏ POHAMBAYA

*3 mart 2006-cı il* ........................................................................................... *243*

TUNİS RESPUBLİKASININ PREZİDENTİ
ZATİ-ALİLƏRİ CƏNAB ZEYNULABİDİN BİN ƏLİYƏ

*3 mart 2006-cı il* ........................................................................................... *244*

PAKİSTAN İSLAM RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB PƏRVİZ MÜŞƏRRƏFƏ

*3 mart 2006-cı il* ........................................................................................... *245*

BANQLADEŞ XALQ RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB İACUDDİN ƏHMƏDƏ

*3 mart 2006-cı il* ........................................................................................... *246*

ÜMUMDÜNYA ƏQLİ MÜLKİYYƏT TƏŞKİLATININ NÜMAYƏNDƏ
HEYƏTİ İLƏ GÖRÜŞ

*3 mart 2006-cı il* ........................................................................................... *247*

YUNANISTAN RESPUBLİKASININ PREZİDENTİ ZATİ-ALİLƏRİ
CƏNAB KAROLOS PAPULİASA

*3 mart 2006-ci il* ........................................................................................... *248*

8 MART – BEYNƏLXALQ QADINLAR GÜNÜ MÜNASİBƏTİLƏ
AZƏRBAYCAN QADINLARINA TƏBRİK

*7 mart 2006-cı il* ........................................................................................... *249*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN
YAPONİYAYA RƏSMİ SƏFƏRİ

*7 mart 2006-cı il* ........................................................................................... *250*

YAPONİYA BEYNƏLXALQ MÜNASİBƏTLƏR
İNSTİTUTUNDA GÖRÜŞDƏ ÇIXIŞ

*8 mart 2006-cı il* ........................................................................................... *251*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN
İMPERATORU AKİHİTONUN TƏKBƏTƏK GÖRÜŞÜ

*8 mart 2006-cı il* ........................................................................................... *271*

YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ AGENTLİYİNİN

PREZİDENTİ İLƏ GÖRÜŞ

*8 mart 2006-cı il* ........................................................................................ *273*

AZƏRBAYCAN–YAPONİYA İQTİSADİ FORUMUNDA NİTQ

*8 mart 2006-cı il* ........................................................................................ *274*

YAPONİYA XARİCİ ƏLAQƏLƏR İNSTİTUTUNUN İDARƏEDİCİ DİREKTORU TOŞİYUKİ FUCİVARA VƏ FSAS ŞİRKƏTİNİN NÜMAYƏNDƏLƏRİ İLƏ GÖRÜŞ

*9 mart 2006-cı il* ........................................................................................ *281*

YAPONİYA XARİCİ TİCARƏT TƏŞKİLATININ SƏDRİ OSAMU VATANABE İLƏ GÖRÜŞ

*9 mart 2006-cı il* ........................................................................................ *283*

YAPONİYANIN XARİCİ İŞLƏR NAZİRİ TARO ASO İLƏ GÖRÜŞ

*9 mart 2006-cı il* ........................................................................................ *285*

YAPONİYA RADİOTELEVİZİYA KORPORASİYASININ (NHK) MÜXBİRİNƏ VERDİYİ MÜSAHİBƏ

*9 mart 2006-cı il* ........................................................................................ *287*

İTOÇU» ŞİRKƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*10 mart 2006-cı il* ...................................................................................... *301*

«İNPEKS» ŞİRKƏTİNİN SƏDRİ İLƏ GÖRÜŞ

*10 mart 2006-cı il* ...................................................................................... *302*

YAPONİYA BEYNƏLXALQ ƏMƏKDAŞLIQ BANKININ PREZİDENTİ İLƏ GÖRÜŞ

*10 mart 2006-cı il* ...................................................................................... *303*

AZƏRBAYCAN PREZİDENTİ İLHAM ƏLİYEVİN VƏ YAPONİYANIN BAŞ NAZİRİ DZÜNİTİRO KOİDZUMİNİN GÖRÜŞÜ

*10 mart 2006-cı il* ...................................................................................... *304*

AZƏRBAYCAN–YAPONİYA SƏNƏDLƏRİNİN

İMAZALANMASI MƏRASİMİ

*10 mart 2006-cı il* ........................................................................................... *306*

ATƏT-in MİNSK QRUPUNUN AMERİKALI HƏMSƏDRİ
STİVEN MƏNN İLƏ GÖRÜŞ

*13 mart 2006-cı il* ........................................................................................... *309*

RUMINİYANİN MİLLİ MÜDAFİƏ NAZİRİ TEODOR ATANASİUNUN BAŞÇILIQ
ETDİYİ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ
GÖRÜŞDƏ SÖHBƏT

*14 mart 2006-cı il* ........................................................................................... *310*

ABŞ DÖVLƏT KATİBİNİN AVROPA VƏ AVRASİYA MƏSƏLƏLƏRİ
ÜZRƏ MÜAVİNİ DANİEL FRİD İLƏ GÖRÜŞ

*14 mart 2006-cı il* ........................................................................................... *311*

TÜRKİYƏ NÜMAYƏNDƏ HEYƏTİ İLƏ GÖRÜŞ

*15 mart 2006-cı il* ........................................................................................... *312*

LİTVA PREZİDENTİNİN MÜŞAVİRİ XANIM HALİNA
KOBESKAYTEN İLƏ GÖRÜŞ

*15 mart 2006-cı il* ........................................................................................... *318*

ÇEXİYA VƏ AVROPA PARLAMENTLƏRİNİN ÜZVÜ
JAN BREZİNAN İLƏ GÖRÜŞ

*15 mart 2006-cı il* ........................................................................................... *319*

QIRĞIZISTANIN DÖVLƏT KATİBİ DASTAN SARIQULOV
İLƏ GÖRÜŞ

*15 mart 2006-cı il* ........................................................................................... *320*

*Q E Y D L Ə R* ...........................................................................................*321*

*Şəxsi adlar göstəricisi*...........................................................................................*363*

*Coğrafi adlar göstəricisi*...........................................................................................*367*

**Kitabı çapa hazırlayan** *Tofiq Babayev*
**Texniki redaktoru** *Zoya Nəcəfova*
**Yığım üzrə operator** *İlhamə Kərimova*
**Kompüter tərtibatı** *Məhəbbət Orucov*

Cildin hazırlanmasında AzərTAc-ın materiallarından istifadə olunmuşdur.

«Tayms» qarnitur. Formatı 84x108 1/32. Ofset kağızı 1. Şərti çap vərəqi 24,0. Uçot vərəqi 24,5. Tirajı 5000. Müqavilə qiyməti ilə.

Azərbaycan Respublikası Mədəniyyət və Turizm Nazirliyi
Azərbaycan Dövlət Nəşriyyatı. Bakı- Mehdi Hüseyn küç. 61, dalan 2, ev 3.
«Şərq-Qərb» mətbəəsi, Aşıq Ələsgər küçəsi 17.